İxtisas: Sosial iş

Kafedra;Psixologiya, pedaqogika və sosial fənlər

Fənn:İnkişaf psixologiyası

Müəllim: A.V.Kosayeva

Mühazirə.

Mövzu 1.İnkişaf psixologiyasının bir elm kimi səciyyəsi

Plan:

1. İnkişaf psixologiyasının mövzusu
2. Yaş anlayışı və onun növləri
3. İnkişaf psixologiyasının vəzifə və problemləri
4. İnkişaf psixologiyasının bölmələri və başqa elmlərlə əlaqəsi

Ədəbiyyat:

1. Seyidov S.İ., Həmzəyev. M.Ə. Psixologiya, Bakı, "Nurlan", 2007.
2. Əliyev R.İ. Psixologiya.B.: Nurlan,2008
3. Bayramov Ə.S. Psixoloji düşüncələr.Bakı,1994
4. Həmzəyev M.Ə. Pedaqoji psixologiya, Gəncə, 1999.
5. Qədirov Ə.Ə. Yaş psixologiyası, Gəncə, 1999.
6. https://adpuquba.edu.az/wp-content/uploads/2020/12/Cocuk-Psikolojisi-YURTSEVER-tr.pdf
7.

Mövzu ilə bağlı elektorn resurslar:

https://kayzen.az/blog/KamileKazimova/24514/inki%C5%9Faf-v%C9%99-ya%C5%9F-psixologiyas%C4%B1n%C4%B1n-m%C3%B6vzusu-v%C9%99-v%C9%99zif%C9%99l%C9%99ri.html

https://www.britannica.com/science/human-development/Development-of-the-reproductive-organs-and-secondary-sex-characteristics#ref526720

https://4brain.ru/psy/psihologija-razvitija.php

https://npistanbul.com/yas-psikolojisi

I. İnkişaf psixologiyasının mövzusu

Müasir dövrdə sosial-psixoloji hadisələr vüsət alır, demokratik proseslər genişlənir, ictimai həyatın bütün sahələrində insan amilinin rolu artır, elm və texnika sürətlə inkişaf edir. Hazırda informasiyalar sürətlə artsa da, insanın beyninin dərketmə imkanları həddən artıq genişlənir. Belə ki, yarımkürələr qabığındakı 15-16milyard hüceyrədən insanın idrak fəaliyyətində yalnız 4% iştirak edir, 96% isə ehtiyatda qalır. Belə bir mülahizə vardır ki, yer üzərində yaşayan insanlardan yalnız 1faizi beynin imkanlarından səmərəli istifadə edir. Beləliklə, gələcəkdə beynin ehtiyatda olan imkanlarından daha çox istifadə etmək, effektli işləmək, optimist olmaq lazımdır. İnformasiya nə qədər artsa da, həyat yeni məlumatlarla zənginləşsə də, insan beyninin imkanları, idrakı onları dərk etməyə, mənimsəməyə qadirdir.

Həll edilməli problemlərdən biri fövqəladə sürətlə dəyişən, mütəhərrik olan müasir həyatda yaşayıb yaratmaq, müvəffəqiyyətlə fəaliyyət göstərmək, işləmək, çalışmaq üçün fərd bir birinə zidd olan ikiqütblü bir sıra xüsusiyyətlərə malik olmalı, müəyyən keyfiyyətlərə yiyələnməlidir:

1) Şəxsiyyətin möhkəm nüvəsi formalaşmalı, o, davamlı keyfiyyətlərə, elmi dünyagörüşünə, ictimai məsuliyyət hissinə yiyələnməlidir. Əks təqdirdə, gənclər tarixin mürəkkəbliyində qeyri-sabit olacaq, nevrotik-əsəbi və neqativ vəziyyətə düşəcək, sarsılacaq və üzələcəklər.

2) İnsan elə yüksək mənəvi-psixoloji zirəkliyə, əqli çevikliyə, cəsarətə, müstəqil mənimsəmə qabiliyyətinə malik olmalıdır ki, müasir elmləri, yeni informasiyakarı sərbəst surətdə mənimsəyib, həyatda müstəqil şəkildə tətbiq edə bilsin.

Gələcək nəsil indiki nəslin yaşadığı dünyadan əsaslı surətdə fərqlənən bir aləmdə yaşayacaq. Belə ki, onlar bizim adət etdiyimiz ölçülərlə, meyarlarla işləməyəcək, problemləri, məsələləri yeni şəraitdə, yeni qaydalarla həll edəcəklər. Bu da şəxsiyyətin strukturunu, təlim prosesində şagirdlərin idrak fəaliyyətini, təfəkkür tipini, düşüncə tərzini dəyişmək, inkişaf etdirməkdir. Beləliklə, yetişməkdə olan gənc nəslin hərtərəfli, ahəngdar inkkşafı, onlarda müvafiq bilik, bacarıq və vərdişlərin, yüksək mənəvi keyfiyyətlərin, elmi dünyagörüşünün təşəkkülü, gənclərin ehtiyat imkanlarından səmərəli istifadə müasir təlim-tərbiyə prosesinin qarşısında duran ən mühüm vəzifələrdəndir. Bu vəzifələrin həyata keçirilməsi üçün tərbiyəçi və müəllimlər müxtəlif yaş dövrlərində şəxsiyyətin inkişaf qanunauyğunluqları, psixi inkişafın hərəkətverici qüvvələri, inkişaf şəraiti, yaş və fərdi xüsusiyyətləri, onda təzahür edən psixi dəyişikliklər, biliklərə yiyələnmə imkanları, beynin ehtiyatda olan potensialı, fəaliyyətin psixoloji strukturu, onun mexanizmi və motivləri haqqında geniş və zəruri biliyə malik olmalıdır.

Yaş və fərdi xüsusiyyətləri, o cümlədən uşağın hansı yaşda, hansı fəaliyyət sahəsində daha çox meyl göstərdiyini, idrak imkanlarının xüsusiyyətlərini, ən çox nə ilə maraqlandığını, fizioloji və psixoloji inkişafında baş verən dəyişiklikləri, yeni insan formalaşdırılmasının əsas problemlərini həll etmək yollarını bilməyən müəllim onun fəaliyyətini idarə etməkdə, tənzimləməkdə çətinlik çəkəcəkdir. Görkəmli rus pedaqoq və psixoloqu K.D.Uşinskinin dediyi kimi, *insanı hərtərəfli tərbiyə etmək üçün onu hərtərəfli öyrənmək lazımdır.*

Uşağın, məktəblinin inkişaf prosesinin səmərəli şəkildə idarə olunması həmin inkişafın şərt və qanunauyğunluqları barədə biliklər olmadan mümkün deyildir. Ona görə də təlim-tərbiyə prosesində uşaqların inkişaf səviyyəsi, normal inkişaf, inkişafdan geri qalması (zəif oxuması), sürətli inkişafı (talantlı olması) diqqəti daha çox cəlb edir.

Dünyaya gələn uşaq fərd kimi insan nəslinə, onun növünə mənsub olub psixoloji baxımdan biri digərinə oxşamır, fərdi xüsusiyyətlərilə, o cümlədən,yaşı, cinsi, səsi, dəsti-xətti, manerası, mimikası, görünüşü, davranışı, hərəkətilə bir-birindən psixoloji mahiyyətinə görə fərqlənir, seçilir. Uşaq dünyaya bir fərd kimi gəlir və təlim-tərbiyə sayəsində,ictimai münasibətlərdə davamlı psixoloji sistemə-şəxsiyyətə çevrilir .

Beləliklə, ***yaş psixologiyası insanın psixi inkişafının dinamikasını, qanunauyğunluqlarını, mexanizmini, hərəkətverici qüvvələrini, şəraitini, formalaşmaqda olan şəxsiyyətin xüsusiyyətlərini, onun bilikləri mənimsəmə imkanlarını öyrənir.***

II. Yaş anlayışı və onun növləri

«Yaş» anlayışı ilk baxışda sadə görünür, əslində isə geniş və mürəkkəb bir məfhumdur. Yaş insanın yaş normasında olmasını, ömür tarixini, inkişaf və yetişməsini, onun bioloji, psixoloji, sosioloji cəhətdən formalaşmasınl ifadə edəb bir anlayışdır. Bu zaman insanın psixi proses və xüsuaiyyətlərində həm kəmiyyət (yəni müəyyən yaşda diqqətin həcmi,yadda saxlamanın, uşaq fantaziyasının və s. artması və ya azalması), həm də keyfiyyət dəyişiklikləri və yeni xüsusiyyətlərin əmələ gəlməsi, psixi törəmələr fərqlənir. Yaş fərqlərinin, tipik xüsusiyyətlərin əmələ gəlməsində təlim-tərbiyə, sosial mühit, həyat tərzi, təbii imkanlar, uşağın özünəməxsus mövqeyi mühüm rol oynayır.

Yaşın ***4*** ***növü*** fərqləndirilir:
1. Xronoloji, yəni pasport yaşı
2. Bioloji və ya funksional yaş.
3. Sosial və ya vətəndaşlıq yaşı
4. Psixoloji və ya psixi yaş.

Xronoloji (təqvim) yaşla insanın ömrü aylara, illərə, mərhələlərə ayrılır, onunla ömür yaşı-mütləq yaşı müəyyənləşdirilir və bu, uşağın anadan olduğu gündən hesablanır. Elə buna görədir ki, şagirdlərin komplektləşdirməsi doğum haqqında şəhadətnamədə göstərilən təvəllüd tarixinə əsasən aparılır. Pasport yaşı ilə adamın vətəndaşlıq hüququ, həddi-buluğa çatdığı da təsdiqlənir. Fərdin inkişaf mərhələləri isə şərti yaş məfhumu ilə xarakterizə olunur. Fərdin yaşının real hüdudlarını mütləq yaşla (xronoloji) təyin etmək mümkün deyildir. Çünki çağalığın, körpəliyin, cavanlığın, qocalığın hansı gündə, hansı saatda və anda başlanıb qurtaracağını hələlik elm də dəqiq müəyyənləşdirməmiçdir. Fərdi yaşın hüdudları

mütəhərrikdir, dəyişkəndir və mövcud tarixi dövrdən, təlim-tərbiyədən, sosial-iqtisadi şəraitdən, həyat tərzindən asılıdır.

Bioloji yaşın göstəricisi kimi bədənin böyüməsini, süd dişinin çıxmasını, fizioloji amilləri, cinsi yetişgənliyi, orqanizmin inkiçafının daxili ritm və sürətini əsas götürürlər, bəziləri isə ontogenez inkişafa filogenez inkişafın təkrarı kimi baxırlar. Bioloji yaş: orqanizmin inkişafı, yetkinləşməsi, qocalmasl-psixoloji yaşın formalaşması üçün təbii zəmin rolunu oynayır.

Sosial yaş isə insanın cəmiyyətdə tutduğu mövqeyə istinadən fərdin şəxsiyyətə çevrilməsi, başqa sözlə, şəxsiyyətin formalaşması və inkişafını sosial cəhətdən şərtləndirən həyat yolu, insanın qrupdakı mövqeyi, cəmiyyətdəki fəaliyyəti ilə bağlıdır. Həyat yolu ailə və ictimai təcrübədə, insanın cəmiyyətdəki mövqeyində, sinfi statusunda, fəaliyyətin əsas mərhələlərində (uşaqlıqda-start, yaşlıda-optimum, qocalarda-finiş fəaliyyəti), tarixi inkişafın gedişində dəyiçir, kamilləşir və beləliklə, şəxsiyyətin təşəkkül tarixi olur.

Psixoloji yaş isə xronoloji, bioloji və sosial yaşdan fərqli olaraq,

1) İnsanın fərdiyyətilə xarakterizə olunub, onun daxili hesablama sistemilə ölçülür. Burada insanın psixoloji yaşını müəyyənləşdirmək üçün onun psixoloji vaxtının fərdi xüsusiyyətlərini bilmək lazımdır.

2) insan öz gələcəyinin, gələcəkdə qazanacağı nailiyyətlərin, tutacağı mövqeyin, nüfuzun samballığı, onların genişlənməsi hesabına, psixoloji baxımdan, mənən cavanlaşa, yaxud əksinə, acınacaqlı keçmiş hesabına daxilən xeyli qocala bilər.

3) psixoloji yaş bir qədər çoxcəhətli məfhum olduğundan bəzən o, insan həyatının bütün sahələrinə uyğun gəlməyə də bilər. Məsələn, adam ailə sahəsində bütün düşünülmüş həyat planlarını tam surətdə yerinə yetirdiyi halda, peşə, sənət, ixtisas sahəsində onun psixoloji imkanları hələlik sərf olunmamış qala bilər. Psixologiyada xronoloji, sosial, psixoloji yaşın keyfiyyəti kimi ***ağıl yaşı (ing. Mental Age) anlayışı*** da işlənir. Ağıl yaşı uşağın həmyaşıdlarının icra etdiyi tapşırıqlara müvafiq məsələləri yaş norması çərçivəsində həll edə bilməsilə müəyyənləşdirilir. Ağıl yaşı-MA xronoloji yaşa, başqa sözlə desək, yaş normasına uyğun gəlirsə, uşağın (insanın) əqli normal inkişaf etmiş hesab olunur, əgər bunlar bir-birinə uyğun deyilsə, onda uşağın ya ağlı kəmdir və ya intellektual səviyyəsi yüksəkdir. İntellektual səviyyəsi yüksək olan şagirdlərdə təlinə qabillik olur, onlar dərsi, elmi asanlıqla, tez bə yaxşı mənimsəyir, mücərrəd simvollarla əməliyyatı müvəffəqiyyətlə aparır, hər şeyi başa düşür, dərrakəlidir, fəhmlidir, həyata, yeni şəraitə tez uyğunlaşır. Məktəbliləri ağlın (zehnin) inkişaf səviyyəsinə görə istedadlılara,normal zehinlilərə, istedadsızlara, kəmağıllara ayırmaq mümkündür.

III. İnkişaf psixologiyasının vəzifə və problemləri

İnkişaf psixologiyasının əsas vəzifəsi şəxsiyyətin inkişaf problemlərini, müxtəlif yaş mərhələlərində onun xüsusiyyətlərini və psixi inkişafın bir mərhələsindən digərinə keçidin qanunauyğunluqlarını tədqiq etməkdən ibarətdir. O, təlim-tərbiyənin, sosial amillərin təsiri altında inkişaf edən insanın ayrı-ayrı yaş

dövrlərində psixi proses və xassələrinin dinamikasını, habelə şəxsiyyətin inkişafının hərəkətverici qüvvələri, mexanizm, şərait və amilləri və s. məsələləri araşdırır.

Şəxsiyyət və qrupun qarşılıqlı münasibətlərinin öyrənilməsi sahəsində psixologiyada müəyyən tədqiqatlar aparılmışdır. Lakin buna baxmayaraq,hazırda müxtəlif qrupların uşaq şəxsiyyətinə, yeniyetmə və gənclərə göstərdiyi təsirin psixoloji xüsusiyyətlərinin, gənclik və yaşlılıq dövrlərinin psixologiyasının, ümumi milli şüurun formalaşması və s. məsələlərin yaş aspektində tədqiqi də qarşıda duran əsas vəzifələrdəndir.

Müstəqil, suveren respublikamızın indiki dövründə istedadlı uşaqları seçmək, onları inkişaf etdirmək üçün yeni psixodiaqnostik metodlar işləmək, optimal şərait, yol və vasitələt müəyyənləşdirmək mühüm vəzifə kimi qarşıya çıxır.

Müasir dövrdə yaş mərhələlərinin psixoloji meyarlarını işləyib hazırlamaq, psixi proseslərin əsas xassələrini müəyyənləşdirmək, şəxsiyyətin prinsipiallığı, məsuliyyət hissi, əməksevərlik kimi keyfiyyətlərin inkişaf və tərbiyəsinin psixoloji şərtlərini sistemləşdirmək, təlimə qabilliyin psixoloji xarakteristikasının aşkara çıxarılması, hərtərəfli, dünyagörüşlü, ahəngdar inkişaf etmiş şəxsiyyətin formalaşmasında məktəb, ailə və ictimaiyyətin istiqamətini müəyyənləşdirmək və s. kimi məsələlər ən aktual problemlərdir.

İnkişaf psixologiyasının ən mərkəzi problemlərindən biri təlim və əqli inkişafın qarşılıqlı əlaqəsi, asılığı məsələsidir. Bununla əlaqədar olaraq, bir sıra psixoloji problemlərin kompleks halda araşdırılması vacibdir.

Təlim prosesində təhlil, tərkib, mücərrədləşdirmə, ümumiləşdirmə kimi fikri əməliyyatlar mühüm rol oynayır.

Müasir məktəblinin təlim fəaliyyəti mürəkkəb ***prinsiplər*** üzərində qurulur. Həmin prinsiplər aşağıdakılardır:

- Elmi-texniki tərəqqi ilə əlaqədar mənimsənilən biliklərin, məlumatların zənginləşdirilməsi

1. Təlimin sürətinin artırılması
2. Şagirdlərin daha artıq nəzəri biliklərlə silahlandırılması
3. Təlim prosesində məktəblilərin dərketmə imkanlarının, bilikləri təcrübədə tətbiq etmək bacarığının genişləndirilməsi və s.

IV. İnkişaf psixologiyasının bölmələri və başqa elmlərlə əlaqəsi

İnkişaf psixologiyasının bölmələri aşağıdakılardır:

1. Uşaq psixologiyası
2. Yeniyetmələrin psixologiyası
3. Gənclik yaşının psixologiyası
4. Yetkin yaşın psixologiyası

5. Herontopsixologiya
6. Differensial psixologiya

İnkişaf psixologiyasının **bir sıra elmlərlə əlaqəsi** vardır. Bu elm sahələri aşağıdakılardır:

1. Ümumi psixologiya
2. Pedaqoji psixologiya
3. Sosial psixologiya
4. Fiziologiya
5. Pedaqogika
6. Yaş biologiyası
7. Seksologiya
8. Somatologiya
9. Erqonomika
10. Semiotika
11. Aksiologiya

İnkişaf psixologiyasının ***ümumi psixologiya*** ilə əlaqəsi xüsusilə böyükdür. Yaş psixologiyası ümumi psixologiya sahəsində əldə edilmiş qanunauyğunluqlara istinad edir, digər tərəfdən yaş psixologiyası sahəsində aparılan tədqiqatlar ümumi psixoloji qanunauyğunluqları zənginləşdirməyə kömək edir.

İnkişaf psixologiyasının ***pedaqoji psixologiya*** ilə də sıx əlaqəsi vardır. Hər ki elmin tədqiqat obyekti uşaq və gənclərdir. Həmin obyekti yaş psixologiyası yaş dinamikası planında, pedaqoji psixologiya isə şəxsiyyətin inkişafında təlim-tərbiyənin oynadığı rol baxımından tədqiq edir. Ona görə də yaş psixologiyası və pedaqoji psixologiya arasında elə bir ciddi sədd yoxdur; çünki uşaq təlim-tərbiyə prosesində böyüyüb inkişaf edir, təlim-tərbiyə isə öz-özlüyündə uşaqsız-obyektsiz mümkün deyildir. Bu vəziyyət yaş və pedaqoji psixologiyasının vəhdətini, onların tədqiq etdiyi problemlərin isə şərti olaraq ayrılmasını tələb edir.

Həmçinin İnkişaf psixologiyası orqanizmin inkişafı, yetkinləşməsi, qocalması və ahıllıq məsələlərini öyrənən ***yaş biologiyası, yaxud antofiziologiya*** elmi ilə əlaqədardır. Cinsi dimorfizmin istər filogenezdə, istərsə də ontonogenezdə inkişaf qanunauyğunluqlarını öyrənən **seksologiya** ilə əlaqədardır. İnsan bədəninin, onun struktur-dinamik təşkili, bədən quruluşu tiplərinin bütövlüyü və bu kimi təlimlərdən bəhs edən **somatologiya** ilə əlaqədədir. Ali sinir fəaliyyətinin tipologiyasını öyrənən fiziologiya, insanın əmək fəaliyyətini öyrənən **erqonomika**, işarə sistemlərini tədqiq edən **semiotika**, insan və cəmiyyətin mənəvi inkişafının mühüm cəhətlərini, şəxsiyyətin daxili aləmi və sərvət meyllərinin məzmununu araşdıran **aksiologiya** elmlərilə də qarşılıqlı əlaqədədir.

İnkişaf psixologiyasının riyazi-texniki elmlərlə əlaqəsi get-gedə möhkəmlənir, psixoloji tədqiqatlarda EHM-dən, radio, kino, televiziyadan, xüsusilə də, imtahan

götürən, düşünən, tərcümə edən, şeir yazan, musiqi bəstələyən, şahmat oynayan maşınlardan- kompüterlərdən daha çox istifaə olunur.

Avtomatik idarəetmə prosesi insanın maşınla qarşılıqlı əlaqəsi ilə baş verir. Texniki vasitələr insanın psixoloji qabiliyyətini dəqiq inkişaf etdirib sürətləndirir.

Öz obyektini digər elmlərlə əlaqəli surətdə öyrənən yaş psixologiyası belə bir müdəanı əldə rəhbər tutut ki, başqa elmlərlə müştərək rabitə həyati məsələlərin müvəffəqiyyətli həllini və alınan nəticələrin insan fəaliyyətinin müxtəlif sahələrinə tətbiqini təmin edir.

Mövzu 2. İnkişaf psixologiyasının tədqiqat metodları

Plan:

1. Metodologiya haqqında anlayış.
2. İnkişaf psixologiyasının əsas tədqiqat metodları.
3. Köməkçi tədqiqat metodları.

Ədəbiyyat:

1. Əzimli Q.Ə. Psixi inkişaf və tərbiyənin müasir problemləri. Bakı 2004.
2. Əzimli Q.Ə. Yaş və pedaqoji psixologiyanın müasir problemləri. Bakı 2006.
3. Həmzəyev M.Ə Yaş və pedoqoji psixologiyanın əsasları Bakı 2003.
4. Qədirov Ə.Ə Yaş psixologiyası. Bakı, 2003.
5. Vəliyev M.V., Mustafayev A.M. İnkişaf və yaş psixologiyası. Bakı, 2013.

I. Metodologiya haqqında anlayış.

Psixologiyanın öyrəndiyi psixi hadisələr çox mürəkkəb, rəngarəng və müxtəlifdir. Ona görə də psixi hadisələri tədqiq edərkən bir sıra prinsiplər əsas tutulur, müxtəlif metodlardan istifadə olunur. Metodologiya 2 sözdən – "metod" (yun. metodos-tədqiqat deməkdir) və "loqos" sözlərindən əmələ gəlmişdir və elmi tədqiqatların metodları haqqında təlim deməkdir.

Müasir elmdə metodologiya termini üç mənada işlənilir. Bunlar aşağıdakılardır: **ümumi, xüsusi və metodologiya konkret metodik priyomların məcmusu kimi.**

- Ümumi metodologiya tədqiqatçının istinad etdiyi ümumi fəlsəfi yanaşmanı, ümumi idrak üsulunu nəzərdə tutur.
- Xüsusi metodologiya dedikdə müvafiq elm sahəsində, məsələn, bizim misalımızda yaş psixologiyasında tətbiq olunan metodoloji prinsiplərin məcmuyu nəzərdə tutulur. Xüsusi metodologiya ümumi metodologiyadan nəşət edir.

İnkişaf psixologiyası öz obyektini öyrənən zaman aşağıdakı **tədqiqat prinsiplərinə** istinad edir:

- Psixi hadisələr obyektiv şəraitdə tədqiq edilməli, necə varsa, eləcə də öyrənilməlidir. Şəxsiyyətin fərdi psixi xüsusiyyətləri müəyyən təbii və sosioloji şəraitdə fəaliyyətlə qarşılıqlı əlaqədə tədqiq edildikdə ondan alınan nəticələr elmi, dəqiq və səhih olur.
- Psixoloji tədqiqatların əsas prinsiplərindən biri də psixi hadisələri dinamikada, inkişafda öyrənməkdən, onu proses kiminəzərdən keçirməkdən ibarətdir. Təbiət və cəmiyyətdəki psixi hadisələr dialektik vəziyyətdə daxili ziddiyyətlərin mübarizəsi şəraitində təkmilləşib inkişaf edir: köhnə məhv olur, yeni meydana gəlir. Məhz buna görə də hər bir tərbiyəçi, müəllim və tədqiqatçı dünyaya yeni gələn uşağın gələcəyini indidən görməli, onun hərtərəfli inkişaf etmiş bir şəxsiyyət kimi formalaşmasına çalışmalıdır.
- Psixi hadisələri öyrənərkən analitik-sintetik (təhlil-tərkib) prinsipi də böyük əhəmiyyət kəsb edir. Psixi proses və xassələr həm bir-birindən ayrı-ayrılıqda (məs., duyğu, qavrayış, təfəkkür və onların xüsusiyyətləri- analitik istiqamətdə tədqiqetmə prinsipi), həm də ümumi şəkildə (sintetik prinsip) öyrənilir. Sintetik prinsipdən istifadə edib psixi hadisələri tam, dialektik vəhdət halında araşdırıb öyrənirlər. Psixologiyada ən mötəbər məlumat o zaman əldə edilir ki, psixi hadisələr vahid və bütöv şəkildə tədqiq edilib öyrənilmiş olsun.

Bu prinsiplərlə yanaşı **determinizm** (psixi proses və xassələrin mənşəyini, səbəb-nəticə əlaqələrini öyrənmək), **fəaliyyət, tarixilik, sistemlilik** və s. prinsiplərdən də istifadə olunur.

Determinizm prinsipi — səbəb-nəticə. Determinizm ictimai və təbii hadisələrin səbəbi haqqında təlimdir. Determinize lat. – müəyyən etmək deməkdir. İlk növbədə daxili və xarici səbəblər müəyyən olunur. Bunun əksi olaraq xətti determinizm prinsipinə görə psixi hadisələrin yalnız xarici səbəbləri vardır. Xarici təsir olmadan daxili psixi funksiyaların təzahürü mümkün deyil. (S-R düsturu, yəni stimul-reaksiya). Adi bir faktla bu nəzəriyyənin yalnış olduğunu göstərmək olar. Məsələn, ayrı-ayrı hallarda orqanizmdə baş verən daxili hallar subyektin hər hansı bir fəallıq göstərməsinə səbəb olur. Məhz buna görə də bu nəzəriyyənin ümumi psixi fonda bütün prinsipləri özündə ehtiva etdiyini söyləmək olmaz.

Şüurla fəaliyyətin vəhdəti prinsipinin mahiyyəti ondan ibarətdir ki, şüurla fəaliyyət bir-birilərinin əksi olmadığı kimi eyni də deyildir. Şüurla fəaliyyət vəhdətdədir. Bu prinsipə görə bütün hadisələr şüurla tənzim olunur.

Konkret tarixi yanaşma prinsipi — psixi hadisələr tarixi fonda qruplaşdırılır.

Sistemlilik prinsipinə görə psixi hadisələrin tədqiqinə sistemli yanaşmaq lazımdır, çünki psixi hadisələr özü də sistemli xarakter daşıyır.

Metodologiya konkret metodik priyomların məcmusu kimi dedikdə məqsəddən asılı olaraq konkret tədqiqatda isdifadə edilən konkret metodiki priyomların məcmuyu nəzərdə tutulur.Tədqiqat metodikasının elmiliyini təmin etmək üçün onun səmərəliliyini şərtləndirən aşağıdakı şərtlər vardır: metodun **əsaslı olması (validliyi)**, yəni tədqiqatın məqsəd və vəzifələrinə uyğun olması, **tədqiqatın mötəbərliyi**, yəni müxtəlif şəraitlərdə tətbiqi zamanı nəticələrin müvafiq alınması, **informasiyanın dəqiqliyi**,tədqiqatın

reprezentativliyi — öyrəniləcək adamlar elə seçilməlidir ki, orada sinif və sosial qrupların nisbəti düzgün nəzərə alınsın.

Tədqiqat metodikasının **dörd mərhələsi** vardır:

1.Fərziyyənin irəli sürülməsi-bu mərhələdə hər hansı bir qrupda və ya fərdi şəxslərdə müəyyən psixoloji problemləri öyrənmək üçün fərziyyə irəli sürülür. Fərziyyə əsasən, emprik faktlara əsaslanmalıdır.

2.Fərziyyənin yoxlanması mərhələsi-bu mərhələdə artıq əldə olunmuş faktlar təsdiq üçün eksperimental proseduraya keçirilir. Bu zaman nəzəriyyə deyil, təcrübə ön plana keçir.

3.Nəticələrin işlənilməsi mərhələsidir. Bu mərhələdə əldə edilmiş faktlar kəmiyyət və keyfiyyət baxımından təhlil edilir.

4.Sonuncu mərhələdə isə materiallar psixoloji nəzəriyyə əsasında şərh edilir və fərziyyənin düzgünlüyü və ya səhv olması aydınlaşdırılır.

II. inkişaf psixologiyasının əsas tədqiqat metodları.

İnkişaf və yaş psixologiyasının üsulları ilə psixi hadisələrin inkişafı, uşaq şəxsiyyətinin təşəkkülü, tərbiyəsi və onun idarəedilməsi qanunauyğunluqları tədqiq edilib öyrənilir.

Müşahidə İnkişaf və yaş psixologiyasında səmərəli və geniş istifadə edilən üsullardan biridir.

Müşahidə psixi hadisələrin gedişinə müdaxilə etmədən onları sadəcə olaraq izləmək yolu ilə empirik məlumatların əldə edilməsindən ibarət əsas tədqiqat metodudur. Psixoloqun şəraitə, psixi hadisələrin gedişinə qarışmaması, müdaxilə etməməsi müşahidə metodunu xarakterizə edən başlıca xüsusiyyətdir.

Hadisələr necə təzahür edirsə, o cür də müşahidə aparılır. Müşaahidə metodunun tətbiqinin əsas şərtləri aşağıdakılardır:

1. Müşahidə məqsədyönlü olmalıdır.
2. Müşahidə hadisələrin təbii axarına xələl gətirməməlidir.
3. Müşahidə mütəşəkkil və ardıcıl surətdə təşkil olunmalıdır.
4. Müşahidə onu aparan subyektin subyektiv fikirlərini əks etdirməməlidir.
5. Əldə edilmiş nəticələr etibarlı olmalıdır.

Müşahidə özü də **özünümüşahidə** (introspeksiya) və **obyektiv** müşahidə olmaqla bölünür.

Özünümüşahidə psixologiyada qədim zamanlardan istifadə edilir və müəyyən praktiki əhəmiyyəti var. Bu üsulla hər bir şəxs və ya tədqiqatçı öz daxili aləmini, davranışını, təəsüratını, onların xarici təzahürünü, psixi proses və xassələrini, hafizəsinin məhsuldarlığını, tədris materialını nə dərəcədə mənimsədiyini, habelə mənalı və mexaniki yadda saxlamasını qismən müəyyənləşdirir. İnsan özünü qiymətləndirərkən də özünümüşahidədən, özünütəhlildən istifadə edir. Bu zaman adam, adətən, elə bil özünə başqa adamların gözüylə baxır, özünü başqalarıyla müqayisə edir.

Obyektiv müşahidə zamanı psixi hadisələrin gedişinə müdaxilə edilmir. Müşahidəyə əvvəlcədən hazırlıq aparılır, nəyin müşahidə ediləcəyi qabaqcadan dəqiqləşdirilir, bu isədüzgün nəticələr əldə etməsinə imkan verir.

Müşahidə **uzunmüddətli və ya dövrü də olur**. **Uzunmüddətli müşahidə** zamanı psixi hadisə, xassə və ya keyfiyyət müəyyən dövr ərzində öyrənilir. Məsələn, körpəlik dövrünün müşahidəsi (N. V. Mençinskayanın oğlu üzərində apardığı müşahidələr, "Ananın gündəliyi").

Dövrü müşahidə isə müəyyən müddət ərzində aparılır (məsələn, bir neçə gün ərzində şagirdi müşahidə etmək).

İnkişaf psixologiyasında həmçinin **eksperiment üsulundan** da istifadə olunur. Bu üsul daha əlverişli, dəqiq və fəal tədqiqat üsuludur. Eksperimentdən istifadə edərkən qarşıya qoyulmuş məqsədə müvafiq olaraq istənilən psixi proses qəsdən, müəyyən məqsəd əsasında yaradılıb öyrənilir. Eksperiment üsulu **laborator** və **təbii** olmaqla iki növə ayrılır.

Laborator eksperiment xüsusi aparatlarla təchiz edilmiş laboratoriyalarda aparılır. Bu üsul daha düzgün və dəqiq elmi məlumat verir, lakin burada yaradılan süni şərait bəzən uşağa mənfi təsir göstərir. Eksperimentin laborator üsulundakı bu nöqsanları aradan qaldırmaq məqsədilə təbii eksperimentə geniş yer verilir. **Təbii üsulla eksperiment** adi, təbii şəraitdə məktəbdə, oyun və ya fəaliyyət prosesində aparılır.

Son zamanlar eksperimentin **müəyyənedici** və **öyrədici (formalaşdırıcı**) növündən də istifadə olunur.

Müəyyənedici eksperimentdən şəxsiyyətin mənəviyyatindaki bu və ya digər keyfiyyətin nə vaxt, necə təzahür etməsini öyrənmək və uşağın xüsusiyyətləini aşkara cixarmaq üçün istifadə olunur. Eksperimentlə uşağın əqli inkişaf səviyyəsini tədqiq etmək məqsədilə həyata keçirilən test üsulunu bir-birinə qarışdırmaq olmaz.

Öyrədici eksperiment təbii eksperimentin xüsusi bir forması olub, tədqiqatçının fəal təsirilə şagirdin şəxsi fəaliyyətində gedən dəyişikliklər tədqiq olunur, onlarda müəyyən keyfiyyətlər formalaşdırılır, şagirdlərə öyrədilən məsələ üzrə tapşırıqlar verilir, mücərrəd məfhumların mənimsədilməsi imkanları müəyyənləşdirilir.Belə təbii üsulla daha düzgün və mötəbər elmi nəticələr əldə edilir.

III. Köməkçi tədqiqat metodları.

Bu gün yaş psixologiyası daha geniş əhatəli problemləri həll etmək üçün **psixodiaqnostik metodlardan** istifadə edir.

Psixodiaqnostik üsullardan biri **psixoloji testlər** deyilən üsuldur. "Test" ingiliscə — sınaq, "yoxlama" mənasını verir. Test üsulu ilə uşağın müəyyən sahədə malik olduğu bilik və bacarığı yoxlanılır, onun hər hansı bir işi icra etməyə nə dərəcədə yararlı və hazır olduğu müəyyən edilir. Şəxsiyyətin bəzi keyfiyyətləri aşkara çıxarılır, müəyyən peşəyə yararlığı aydınlaşdırılır.

Son zamanlar uşaq qruplarının öyrənilməsində sosiometrik üsuldan da geniş istifadə olunur. "**Sosio"-cəmiyyət, "metr"**-ölçürəm sözündən götürülmüşdür. Bu üsulla qrupun istiqaməti, kollektiv daxilində qarşılıqlı münasibət, kiçik qrupların və şəxsiyyətin vəziyyəti müəyyənləşdirilmişdir.

İctimai rəyi, şəxsiyyətlərarası münasibətləri öyrənmək üçün intervyü metodundan istifadə olunur. **"İntervyü"**- "**sorğu", "söhbət",** "müsahibə" mənasını verir. Bu zaman hər hansı bir məsələ barədə müəyyən adamın fikri, mülahizəsi soruşulur.

Müsahibə üsulu ilə uşağı öyrənərkən qarşıya qoyulmuş məqsədə müvafiq olaraq suallar düzəldilir, həmin suallar əsasında uşaqlardan cavablar toplanılır, sonra təhlil

edilərək uşağın psixi xüsusiyyətləri müəyyənləşdirilir.Müsahibə-kollektivi öyrənməkdə, uşaqların əqidəsini, marağını, hafizəsinin xüsusiyyətlərini və s. aşkara çıxarmaqda tətbiq edilir, hər bir müsahibənin planı olmalıdır, sorğu-sual səmimi və təbii şəkildə aparılmalıdır. Yoxlanılan adamın verdiyi cavablar, toplanılmış material vaxtında təhlil edilməlidir ki, uşaq haqqında düzgün mühakimə yürütmək mümkün olsun.

Fəaliyyət məhsullarının təhlili – şagirdlərin yazdıqları yazı işləri, çəkdikləri rəsm, dərnəkdə çıxışları, yazdıqları şeir və hekayələr təhlil edilərək uşağın bacarıq və vərdişləri, qabiliyyətləri, onun psixi inkişaf xüsusiyyətləri haqqında müəyyən fikirlər yürüdülür.

Anket üsulu-kütləvi psixoloji tədqiqat üsuludur. Bu üsul yazılı formada aparılır, miqdarca daha çox şagirdləri əhatə edib, psixi prosesləri təcəssüm etdirən faktları toplayıb onların elmi təhlilini verməyə, psixi hadisələrin bəzi qanunauyğunluqlarını araşdırıb təhlildən keçirməyə imkan verir.

Araşdırılan məsələlərlə bağlı suallar qoyulur, uşaqlar həmin suallara cavab yazırlar. Cavabları təhlil edərək onların qabiliyyət, bacarıq və digər xüsusiyyətləri aşkar olunur.

Genetik üsulla-uşaqların psixoloji xüsusiyyətlərini, dərketmə imkanlarını aşkara çıxarmaq məqsədi ilə aparılır və psixi hadisələr bir proses kimi dialektik inkişafda öyrənilir.

Sitoloji üsul – xromosomlar (DNT və RNT) və onlarda gedən dəyişiklikləri öyrənir. DNT-irsiyyət daşıyıcıları, RNT-dəyişkənliyin daşıyıcıları kimi müəyyən olunur. Yəni yeni nəslin insan növünə məxsus əlamətləri və onlarda təzahür edən fərdi psixoloji xüsusiyyətlərin inkişafı məsələsi öyrənilir.

Ailə genelogiyası üsulu ilə-ailənin, nəslin psixi xüsusiyyətləri genotiplə əlaqədar öyrənilir. Bu üsuldan ən çox psixiatrik tədqiqatlarda istifadə olunur.

Əkizlər metodu – vasitəsilə eyni yumurtadan və başqa-başqa yumurtadan əmələ gəlmiş əkizlərin psixi inkişaf xüsusiyyətləri, uşağın irsiyyəti, xüsusilə mikromühitlə, aparılan təlim-tərbiyə ilə irsiyyət arasındakı münasibətlər müəyyənləşdirilir. Bu, onların irsi fondlarının eyniliyini nəzərə alıb mühit və tərbiyə amillərinin təsirini geniş surətdə öyrənməyə imkanverir.

Nəhayət psixologiyada ***riyazi – statistik*** metodlardan da istifadə olunur. Bu metodların köməyi ilə tədqiqat zamanı əldə edilmiş nəticələrin dəqiqlik və etibarlılıq dərəcəsi aşkara çıxarılır.

Mövzu 3. İnkişaf və yaş psixologiyasının tarixi haqqında nəzəriyyələr

Plan:

1. XIX əsrin II yarısında inkişaf və yaş psixologiyasının müstəqil elm kimi meydana gəlməsi.
2. Biogenetik və sosiogenetik nəzəriyyələr
3. Uzaq xarici və yaxın xarici ölkələrdə inkişaf və yaş psixologiyasının inkişaf tarixi
4. Azərbaycan psixoloqlarının inkişaf və yaş psixologiyasının inkişafı və formalaşmasında xidmətləri.

Ədəbiyyat:

1. Həmzəyev M.Ə Yaş və pedoqoji psixologiyanın əsasları Bakı 2003.

2. Qədirov Ə.Ə Yaş psixologiyası. Bakı, 2003.
3. Vəliyev M.V., Mustafayev A.M. İnkişaf və yaş psixologiyası. Bakı, 2013.
4. Vəliyev M.V., Mustafayev A.M. Uşaq psixologiyası. Metodik vəsait. Bakı, 2011.
5. Шаповаленко И.В. Возрастная психология. М: Гардарики, 2005.

Mövzu ilə bağlı elektorn resurslar

https://4brain.ru/psy/psihologija-razvitija.php

https://npistanbul.com/yas-psikolojisi

I. XIX əsrin II yarısında inkişaf və yaş psixologiyasının müstəqil elm kimi meydana gəlməsi.

XIX əsrin ortalarında yaş psixologiyasının müstəqil formalaşması və inkişafı üçün şərait yaranır, onlar haqqında nəzəriyyələr meydana çıxıb inkişafa başlayır. Bu istiqamətdə Qərbi Avropa və amerikan psixoloqlarının Tideman, B.Preyer, Ament, Qaull, Qross, E.Meyman, V.Ştern, K.Büler, Kompeyr, A.Bine, Bolduin, Drummond və b.) xeyli əsərləri nəşr olunmuşdur.

XX əsrin əvvəllərində psixi hadisələrin mahiyyətini düzgün başa düşmək və onların qanunauyğunluqlarını öyrənmək üçün təbiət elmlərinin tədqiqat üsullarından geniş istifadə olunurdu.

Təbiətşünaslıq elmlərinin nailiyyətləri əsasında belə bir ideya irəli sürüldü ki, psixika təkamül prosesində təşəkkül tapır, özü də o, ali heyvanların təkamülündə ən mühüm amildir. Elmdə belə bir müddəa da qəbul edildi ki, psixika və bütün psixi hadisələr xüsusi şəkildə yüksək təşəkkül tapmış materiyanın- beynin məhsuludur. Görkəmli rus psixoloqu B.F.Lomovun təbirincə desək, psixologiya beynin ali funksiyalar sahəsini əhatə edən təbiətşünaslığın "davamı" kimi inkişaf edirdi.

II. Biogenetik və sosiogenetik nəzəriyyələr

Ümumiyyətlə, yaş psixologiyasında psixi inkişafın əsas mənbəyinin müəyyənləşdirilməsinə görə alimlər bir-birinə zidd olan, iki cəbhəyə-biogenetik və sosiogenetik cərəyanlara bölünmüşlər:
Biogenetik — uşağın inkişafı tam bioloji yetkinlik kimi dərk olunur. E.Torndayk məsələyə bu cür yanaşan psixoloqlardandır. O, uşaq şəxsiyyətini "genlər toplayıcısı" kimi başa düşürdü. Digər xarici psixoloqlar isə uşağın psixi inkişafında başlıca yeri bədənin fiziki quruluşundakı dəyişikliklərlə əlaqələndirirdilər. Biogenetik cərəyan tərəfdarları bəzən uşağın psixi inkişafında ətraf mühitin, təlim və tərbiyənin rolunu cüzi dərəcədə qəbul etsələr də, bunları uşağın təməlinə təbiətən qoyulmuş keyfiyyət və xassələrin meydana çıxmasına əlverişli şərait yaradan zəmin kimi qiymətləndirirlər. Biogenetik nəzəriyyə öz mahiyyəti etibarilə psixikanın inkişafına ictimai mühitin təsirini inkar edir, ictimai həyat şəraiti ilə yanaşı, təlim və tərbiyənin də rolunu heçə endirir.
Sosiogenetik — düzgün elmi mövqedə dayanmırlar.Onlar inkişafın təbii əsaslarını,

anatomik-fizioloji zəminlərin mövcudluğunu inkar edir, bununla da uşaq şəxsiyyətinin təlim və tərbiyə prosesində təşəkkülünü orqanizmin inkişafı və yetkinliyindən ayırırlar. Burdan belə bir nəticə çıxır: hər bir uşaağı müəyyən müddət ərzində kim istəsək edə bilərik. Bu vaxt ictimai mühitin özü də dəyişməz bir ehkam kimi götürülür.

Əslində uşağın psixi inkişafına **iki amil** təsir edir:

1. Bioloji (təbii)
2. Sosioloji (həyat tərzi, mütəşəkkil təlim və tərbiyə)

Avstriya psixiatrı və psixoloqu **Ziqmund Freyd** XX əsrin əvvəllərində psixikanın ümumi inkişaf nəzəriyyəsini yaratmışdır. O, psixi inkişafın hərəkətverici qüvvələrini sosial münasibətlərdən kənarda axtarır. O, psixikada həlledici yeri instinktiv başlanğıca-biologiyə verir. Onun fikrincə, psixikanın inkişafını təmin edən qüvvə, orqanizmin bioloji dərinliklərindən gələn və onun fəaliyyətini müəyyənləşdirən meyllərdir, həvəsdir.Əvvəllər uşağın həvəsi cinsi fəaliyyətlə bağlı olmur. Lakin sonralar, erkən yaşlarda onların müəyyən obyektlər üzrə fərfiləşməsi prosesi baş verir. Uşaqda təzahür edən ilk həvəslərdən biri Freydin şagirdi Anna Freydin "Anaya məhəbbətin əmələ gəlməsi" əsərində ətraflı təhlil olunur.

Uşaq böyüdükcə qadağaları mənimsəyir və "həvəslərini" bir növ " daxilə qovur". Daxili hərəkətverici qüvvəyə çüvrilir və müəyyən vaxtlarda davranışın affektiv forması kimi xaricə çıxmağa səy göstərir.

Sosiogenetik inkişafın tərəfdarları uşağın psixi inkişafını onu əhatə edən sosial mühitin təsiri nəticəsi kimi nəzərdən keçirirlər. Bu cərəyanın ilk nümayəndəsi **Emil Dürkheym** sayılır. O, psixoloji baxımdan biogenetik nəzəriyyənin kəskin tənqidini verir. Onun fikrincə, uşağın psixi inkişafı-assimilyasiyadır, yəni başqa adamların hisslərinin, təsəvvür və imkanlarının mənimsənilməsidir. Uşağın ətraf aləmdən dərk etdiyi fikir və emosiyalar onun ruhi fəaliyyətini müəyyən edir.

Uşaq inkişaf prosesində adət-ənənələri (Dürkheymə görə bəşəriyyətin qazandığı təcrübə) mənimsəməlidir. Bu mənimsəmə isə təqlidetmə sayəsində olur. Uşaq anadan təqliqetmə xüsusiyyəti ilə doğulur.

Digər sosiogenetik cərəyan nümayəndəsi isə Şarl Blondel hesab olunur. O, Dürkheymi insanda üzvi və sosial olanları bir-birinə qarşı qoyduğu üçün təqsirləndirirdi. Blondel cəmiyyəti uşağın ətraf aləmlə bilavasitə əlaqəsinə kömək edən münasibətlər sistemi kimi nəzərdən keçirir, tərbiyənin sosial inkişaf qaydalarının rəftar və davranışda möhkəmlənməsini təmin etdiyini göstərirdi.

Uşağın sosiallaşmasının ilk mərhələlərini nəzərdən keçirən **Blondel** maddi cisimlərlə hərəkətlərin mənimsənilməsi faktına böyük əhəmiyyət verirdi. Onlarla hərəkət edən uşaqlar, Blondelin fikrincə, həmin cisimlərdən istifadə etmək üsullarına yiyələnirlər.

Beləliklə, nə bioloji, nə sosioloji şərh psixoloji inkişaf probleminin düzgün elmi həllini təmin edə bilməmişdir.

Biogenetik və sosiogenetik cərəyanların birtərəfliliyini aradan qaldırmaq təşəbbüsünü ilk dəfə alman psixoloqu **VilyamŞtern** irəli sürmüşdür. Onun "Erkən uşaqlığın psixologiyası" əsərində uşaq psixikasının inkişafının əsas müddəalarından danışılır. Həmin əsərin "Ruhi inkişaf" fəslində yazılır: "Ruhi inkişaf heç də anadangəlmə xüsusiyyətlərin sadəcə olaraq ifadəsi, həm də xarici təsirlərin sadəcə

qavranılması olmayıb, daxili məlumatların, inkişafın xarici şərtlləri ilə "konvergensiyasının"-görüşməsinin nəticəsidir."

XX əsrin 30-cu illərinin əvvəllərində psixoloqların bir qrupu psixikanın inkişafında bioloji və sosioloji amillərin qarşılıqlı nisbəti problemində sosial amilə üstünlük verməyə başlayırlar.

Neofreydizmin nümayəndələri K.Xorni, Q.Salliven və E.Fromm belə hesab edirlər ki, insan psixikasının inkişafı və təşəkkülünə sosial şərait və şəxsiyyətlərarası münasibətlər təsir göstərir.

K.Xorninin fikrincə, insandakı — Freydin bioloji hesab etdiyi-bir sıra xassələr (etibarsızlıq, düşmənçilik, mürtəcelik və s.) sosial cəhətdən şərtlənmiş olur. Uşağın psixi inkişafını nəzərdən keçirən müəllif qeyd edir ki, valideynlərin ədalətsizliyi uşaqda davranışın mənfi formalarının meydana gəlməsinə səbəb olur.

Bu cərəyanın başqa nümayəndəsi də **Erix Fromm** hesab olunur.O, Freydin bioloji konsepsiyasını ciddi tənqid edir. O da şəxsiyyətin təşəkkül amilini ictimai-iqtisadi şəraitdə görür, lakin o, burada təhtəlşüur sahəyə, psixikanın daha dərin daxili təbəqələrinə böyük əhəmiyyət verir.

Nəticədə məlum olur ki, neyrofreydistlər də Freyddə olduğu kimi, psixi inkişafın başlıca qüvvəsini uşaq doğulan zaman, yada erkən uşaqlıqda meydana gələn, sonralar isə tamamilə dəyişməz qalan təhtəlşüur sahəsilə əlaqədar izah edirlər.

Uşağın psixi inkişafında sosial təsirlərin mövcudluğunu etiraf edən **Jan Piaje** eyni zamanda onların cüzi rol oynadığını göstərir. İstər məktəbəqədər yaşlı, istərsə də kiçik məktəbyaşlı uşaqlarda əqli inkişafın amillərini nəzərdən keçirən Piaje təlimi heç vaxt onların sırasına daxil etməmişdir. O, psixi inkişafda təlimin rolunu inkar etmir. Piajeyə görə təlim inkişafın məzmun, yaxud ardıcıllığını dəyişə bilməz; o onu ancaq ləngidə, yaxud sürətləndirə bilər.

Jan Piajenin "Uşağın mənəvi mühakimələri" kitabında o, uşaqda iki cür mənəviyyatın mövcudluğunu qeyd edir:

- İlk mənəviyyat məcburiyyət sayəsində baş verir: yaşlı ilə uşağın qarşılıqlı münasibətində uşaq yaşlıların göstərişlərinə əməl etməyə alışır.
- Əməkdaşlıq mənəviyyatı-bu, uşağın öz yaşıdları ilə qarşılıqlı münasibəti sayəsində yaranır.

Piaje inkişafı ayrı-ayrı fərdlərin ətraf mühitlə qarşılıqlı münasibətlərinin daxili səbəblərindən törəyən mürəkkəbləşmənin nəticəsi kimi nəzərdən keçirir. Piajeyə görə, uşaq təbii, eyni zamanda, anadan olduğu andan daxili strukturaya malik fəal varlıqdır.Uşaq ətraf aləmdə baş verən xarici təsirlərə sadəcə cavab vermir, həm də onu mənimsəyərək formalaşır.

Fransız psixoloqu **A.Vallon** öz əsərlərində bioloji və sosioloji amillərin münasibəti məsələsini nəzərdən keçirmiş və uşağın psixi inkişafını bəşəriyyətin inkişafının təkrarı kimi şərh edən nəzəriyyələri kəskin tənqid etmişdir.

Anri Vallon psixi inkişafın hərəkətverici qüvvəsini uşağın onu əhatə edib get-gedə mürəkkəbləşən şəraitlə qarşılıqlı münasibətində görür. Bu inkişafa təsir göstərən şərtlər içərisində insani münasibətlər, davranış tərzləri və insanın yaratdığı şeylər daha çox əhəmiyyət kəsb edir.Psixi inkişafın gedişi zamanı qeyd olunan qarşılıqlı təsirlərin xarakteri dəyişilir. Əvvəllər uşağa xaricdən göstərilən təsir daha qüvvətli olur. Sonralar isə psixi inkişaf daxili zəminlərdən daha çox asılı olmağa

başlayır. Vallona görə inkişaf keyfiyyətcə bir mərhələdən digərinə keçid şəklində həyata keçirilir, keçidlər isə böhranlar yolu ilə baş verir.O, uşaq psixiologiyasını elmi mövqedən həll etməyə səy göstərərək, "Uşağın psixi inkişafı", "Hərəkətdən fikrə", "Uşaq təfəkkürünün mənbələri" və başqa əsərlər yazmışdır.

Vallonun şagirdi və davamçısı olan Rene Zazzo göstərir ki, uşağın psixi inkişafında təbii və sosial olanları qarşı-qarşıya qoymaq o deməkdir ki, uşağın bioloji təbiətilə ali heyvanların təbiəti arasında keyfiyyətcə heç bir fərq yoxdur.Zazzonun fikrincə, irsiyyət və mühit biri digərini tamamlayan, bir-birilə dialektik vəhdətdə olan vasitələrdir. Uşağın təbii, irsi imkanları həmişə ətraf mühitdən asılı vəziyyətdə olur; mühit əlverişli vəziyyətdə olduqda onlar inkişaf edir, əlverişsiz olduqda isə reallaşa bilmir.

Yaş psixologiyasının problemlərinin həllində mühüm rol oynayan almaniyalı **E.Meymanın** təşəbbüsü ilə məktəblərdə ilk psixoloji laboratoriyalar yaradılır. Bu laboratoriyalar təlim və tərbiyə prosesində qarşıya çıxan çətinlikləri aradan qaldırmaq məqsədi güdür. 1907-ci ildə Meymanın "Eksperimental pedaqogika üzrə mühazirələr" kitabı çap olunur.

İngilis məktəblilərinin tipoloji xüsusiyyətlərinin eksperimental şəkildə tədqiqilə görkəmli uşaq psixoloqu **Ceyms Selli** məşğul olmuşdur.

Fransada **A.Binenin** təşəbbüsü ilə təşkil edilmiş ekperimental uşaq laboratoriyasında psixodiaqnostik metodlarla uşaqların fiziki və psixoloji qabiliyyəti öyrənilirdi. Bine həm də T.Simonla birlikdə ağıldankəm uşaqların yardımçı məktəblərə seçilməsi metodikasını işləyib hazırlayır.

Amerika alimi **Stenli Xoll** uşaqların psixi inkişafını biogenetik qanun əsasında şərh edirdi. Onun uşağın yaş xüsusiyyətləri haqqında irəli sürdüyü fikirlər pedaqoji xarakter daşıyır.

Avstriyalı psixoloq **Karl Büler** "Uşağın mənəvi inkişafı haqqında oçerklər" adlı kitabında göstərir ki, uşaq öz ontogenetik inkişafında instinkt, öyrənmə və intellekt adlanan 3 mərhələdən keçməlidir.

Biheviorizmin görkəmli nümayəndəsi **E.Torndayk** heyvanlar üzərində apardığı tədqiqatlardan alınan nəticələri uşaqların təlim prosesinə şamil edir.

Müasir dövrdə biheviorizmin ən nüfuzlu nümayəndəsi sayılan **Berres Skinner** insan davranışını öyrənmiş və onun fikrincə, insan davranışının xarakterləri heç də onun öz tələbatlarından deyil, mühitdən irəli gələn vasitələrdən (rəğbətləndirmə və ya cəzalandırma) asılıdır.

Müasir amerikan psixologiyasında mütərəqqi cərəyanlardan birini **Cerom Bruner** təmsil edir. O, özünün "Təlim prosesi", "Təlim nəzəriyyəsi yolunda", "İdrak fəaliyyəti inkişafının tədqiqi" əsərlərində təlim və inkişaf məsələlərini nəzərdən keçirmişdir.

K.D.Uşinskinin "İnsan tərbiyə mövzusu kimi" və ya " Pedaqoji antropologiya" adlı kitabı, B.Preyerin " Uşaq qəlbi" adlı əsəri uşaq psixologiyası problemlərinə həsr olunmuş ilk fundamental psixoloji əsər kimi qiymətləndirilməlidir.

Uşinski sübut edir ki, bütün psixi proseslər həyati inkişafın qanunauyğun məhsulu və zəruri amilidir. Görkəmli alim orqanizmin inkişafını-insanın təşəkkülü, ictimai fərdiyyərin təşəkkülü kimi qiymətləndirir. O, uşağın hissi idrakına xüsusi diqqət

yetirməklə yanaşı, uşağın inkişafında, onun əqli və mənəvi qüvvələrinin formalaşmasında nitqin də böyük rol oynadığını qeyd edirdi. Hər uşaq ana dilində öz xalqının mənəvi aləmilə tanış olur. Buna görə də dilin mənimsənilməsi gənc nəslin istər əqli, istər mənəvi, istərsə də vətəndaşlıq inkişafının zəruri rəhnidir.

XIX əsrin 70-ci illərindən etibarən eksperiment üsulunun təbii elmlərlə, eyni zamanda ümumi psixologiyaya tətbiqilə əlaqədar uşaq psixologiyası sahəsində eksperimental tədqiqatlar aparılmağa başlanıldı.

İ.A.Sikorskinin "Uşaq ruhu" adlı monoqrafiyası, A.P.Neçayevin "Müasir eksperimental psixologiya və məktəb təlimi məsələlərinə onun münasibəti", "Tərbiyəçi və müəllimlər üçün psixologiya oçerkləri", P.O.Efrusi, N.E.Rıbakova və K.N.Kornilovun əsərləri tarixilik baxımından maraq doğurur.

XX əsrin başlanğıcında **M.V.Bexteryevin** rəhbərlik etdiyi Psixonevroloji İnstitutda, Q.P.Rassolimonun Uşaq Nevrologiyası və Psixologiyası İnstitutunda müvafiq laboratoriyalar, elmi müəssisələr yaradıldı.

Görkəmli rus fizioloqu **İ.M.Seçenovun** əsərləri təbii-elmi zəmin baxımından yaş psixologiyası üçün çox qiymətli əhəmiyyət kəsb edirdi. O, göstərir ki, psixologiya elmi öz məzmunu etibarilə "psixi fəaliyyətin əmələ gəlməsi" haqqında təlim olmalıdır.

İ.M.Seçenov psixi inkişafın reflektor nəzəriyyəsini yaratmış, onun fizioloji əsaslarının nədən ibarət olmasını göstərmişdir. Görkəmli fizioloq uşaqlarda psixi proseslərin və özünüdərketmənin inkişaf yollarının elmi təhlilini vermişdir.

IV.Azərbaycan psixoloqlarının inkişaf və yaş psixologiyasının inkişafı və formalaşmasında xidmətləri.

Azərbaycanda psixologiya elminin, o cümlədən yaş psixologiyasının inkişafı qədim bir tarixə malikdir. Azərbaycanda psixologiyanın bir eksperimental elm kimi formalaşması isə XX əsrin 20-ci illərinə təsadüf edir. Bu vaxtdan başlayaraq Azərbaycanda psixi hadisələr eksperimental surətdə öyrənilməyə, peşakar psixoloqlar hazırlanmasına başlanmışdır.

1926-cı ildə Azərbaycan Dövlət Universitetində görkəmli psixoloq **F.Ə.İbrahimbəyov** psixologiya laboratoriyası yaratmış, bununla da ilk dəfə olaraq gələcək eksperimental tədqiqatların əsasını qoymuşdur. 1928-29-cu illərdə yeniyetmə və gənclərin əmək vərdişlərini, imkanlarını, onun qanunauyğunluqlarını öyrənmək məqsədilə Bakıda psixofiziologiya və psixotexnika cəmiyyəti yaradılır və onun nəzdində 6 psixologiya laboratoriyası təşkil edilir.

XX əsrin 20-30-cu illərində Rusiya, Ukranya, Azərbaycan, Gürcüstan və başqa respublikaların elm mərkəzlərində çalışan B.G.Ananyev, M.Y.Basov, P.P.Blonski, A.P.Boltunov, L.S.Viqotski, S.F.Hacıyev, L.V.Zankov, Ək.Zəkuyev, F.Ə.İbrahimbəyov, Q.S.Kostyuk, A.N.Leontyev, A.R.Luriya N.A.Mençinskaya, M.İ.Mustafayev, A.A.Smirnov , D.N.Uznadze, H.Şaxtaxtinski və başqaları bir-birilərini təkrar etmədən, hər biri yaş psixologiyasının müxtəlif sahələrinə dair apardıqları xüsusi tədqiqatlarla elmin bu sahəsinin sürətlə irəliləməsini təmin etmişlər.

Yaş psixologiyasının inkişafında L**.S.Viqotskinin** xidməti böyükdür. **L.S.Vıqotski** insanın psixi inkişafı haqqında mədəni-tarixi nəzəriyyəni işləyib hazırlamışdır. O, qeyd edirdi ki, təlim proqramları və üsulları heç də yalnız uşağın

əldə etdiyi əqli inkişaf səviyyəsinə deyil, həm də "onun inkişafının yaxın zonasına" müvafiq gəlməlidir.

A.N.Leontyev məktəbəqədər və məktəb yaşlı uşaqların psixi inkişafının hərəkətverici qüvvələrini və qanunauyğunluqlarını, müxtəlif motivasiyalar zamanı uşaqların fəaliyyətinin (oyun,təlim, əmək) gəlişini və ayrı-ayrı yaş qruplarından olan uşaqların mənəvi inkişafına onun təsiri mexanizmini öz tədqiqatlarında ardıcıl izləyib aşkara çıxararaq belə bir nəticəyə gəlir: hər bir yaş dövründə fəaliyyətin bir növü üstünlük təşkil edir və uşağın psixi inkişafında həlledici rol oynayır.

Təlim və uşağın əqli inkişafının qarşılıqlı əlaqəsi sahəsində **D.B.Elkonin** mütərəqqi addım ataraq sübut etdi ki, uşağın əqli inkişafında təlim öz aparıcı rolunu hər şeydən əvvəl, uşağın mənimsədiyi biliklərin məzmunu sayəsində həyata keçirir.Burada uşaq tərəfindən mənimsənilmiş yeni biliklər onun əqli inkişafının mühüm meyarı kimi çıxış edir.

Psixoloqların yaşlı nəslinin yaş psixologiyası sahəsində apardıqları həmin tədiqat işləri sonrakı illərdə daha da artmış, öz keyfiyyət və səmərəsini durmadan yüksəltmişdir.

Biz bunu A.V.Zaporojetsin rəhbərliyi altında həyata keçirilən məktəbəqədər yaşda uşaq psixologiyasının ümumi və xüsusi inkişaf qanunauyğunluqlarını işıqlandıran L.İ.Bojoviçin rəhbərliyilə tədqiq olunan, uşaq şəxsiyyəti təşəkkülünün müxtəlif dövrlərində onun psixoloji xarakteristikasını müəyyənləşdirən, P.Y.Qalperin və onun şagirdlərinin uşaqların müxtəlif yaş dövrlərində əqli fəaliyyətin mərhələlər üzrə təşəkkül problemlərini açan tədqiqatlarında aydın görmək olar.

Respublikamızın uşaqların, gənclərin psixi inkişaf xüsusiyyətlərini öyrənən nümayəndələrindən M.C.Məhərrəmov, Ş.S.Ağayev, Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, M.Ə.Həmzəyev, Ə.Ə.Qədirov, F.Ə.İbrahimbəyov, Z.M.Mehdizadə və başqalarının adını qeyd etmək olar.

XX əsrin ortalarından başlayaraq uşaq psixologiyasının ümumi məsələlərinə, qanunauyğunluqlarının aşkar edilməsinə və uşaqların əmək fəaliyyətinə, qavrayış, nitq, diqqət, hafizə, təfəkkür, hiss və xarakterinin inkişaf və tərbiyəsinə bir sıra kitab, əsər və məqalələr həsr olunmuşdur. Bunlara misal olaraq, Ş.S.Ağayev "Ailədə uşaqların nitqinin inkişaf etdirilməsi" Bakı 1962; M.Ə.Həmzəyev "Ailədə uşaqların oyunlarına rəhbərlik",Bakı 1965; Ə.S.Bayramov "Ailədə müstəqil təfəkkürün tərbiyəsi haqqında",1957; Z.M.Mehdizadə "Uşaqlarda təfəkkür və nitqin inkişafı",Bakı 1960; Ə.Ə.Qədirov "Uşaqlarda idrak prosesinin inkişafı", Bakı 1970; Ə.Ə.Əlizadə "Uşaqlarda kollektivçilik hissinin tərbiyəsi",Bakı 1963 və s. göstərmək olar.

Respublikamızda gənclərin şəxsiyyətinin formalaşması, ideya-siyasi tərbiyəsinin, yaradıcı fəallığın sosial psixologiyası, bədii yaradıcılığın psixoloji xüsusiyyətləri, təlim tapşırıqlarının mənimsənilməsinin psixoloji əsasları da öyrənilmişdir.

Ölkəmizdə yaş psixologiyası üzrə problemlərin tədqiqinə maraq durmadan artır. Hal-hazırda yaş psixologiyası üzrə araşdırmalar, yaradıcı axtarışlar yeni metodlar əsasında davam etməkdədir.

1. **Mövzu 4.** **Psixi inkişafın yaş dövrləri və qanunauyğunluqları**

Plan:

1. Psixi inkişafın yaş dövrləri
2. Təbii imkan, hərəkətverici qüvvə, irsiyyət, mühit, psixi inkişaf
3. Psixi inkişaf və fəaliyyət
4. Psixi inkişaf və ünsiyyət
5. Psixi inkişaf və təlim

Ədəbiyyat:

6. Əzimli Q.Ə. Psixi inkişaf və tərbiyənin müasir problemləri. Bakı 2004.
7. Əzimli Q.Ə. Yaş və pedaqoji psixologiyanın müasir problemləri. Bakı 2006.
8. Həmzəyev M.Ə Yaş və pedoqoji psixologiyanın əsasları Bakı 2003.
9. Qədirov Ə.Ə Yaş psixologiyası. Bakı, 2003.
10. Vəliyev M.V., Mustafayev A.M. İnkişaf və yaş psixologiyası. Bakı, 2013

Mövzu ilə bağlı elektorn resurslar

http://oratio.az/news/yash-dovrlerinin-xususiyyetleri

https://www.cadempsikoloji.com/makale/3-cocuk-gelisim-donemleri

https://studfile.net/preview/5576168/page:7/

I. Psixi inkişafın yaş dövrləri

Yaş dövrləri psixologiyanın ən mühüm problemlərindəndir. Ayrı-ayrı yaş dövrlərinin müəyyənləşdirilməsi həmişə təxmini xarakter daşıyır. Çünki inkişaf fasiləsiz olaraq davam edir. Ümumiyyətlə, fərdi inkişaf prosesi, yəni ontogenez **2 mərhələdən** keçir:

Rüşeymin ana bətnində inkişafı dövrünü əhatə edir. Bu mərhələ **antenetal (prenetal) ontogenetik inkişaf** adlanır.

Uşağın anadan olduğu gündən ömrünün axırınadək olan müddətdir. Bu mərhələ isə **postnetal ontogenetik inkişaf** adlanır. Belliklə, insanın ontogenetik inkişafı ömrünün özünəməxsus müddəti ilə, fərdi inkişafın bir-birini zəruri surətdə əvəz edən mərhələlərilə, ayrı-ayrılıqda hər bir mərhələnin müddəti ilə səciyyələnir.

İnsanın ömrü mütləq (xronoloji və ya təqvim) yaşla xarakterizə olunur və uşağın doğulduğu gündən hesablanır. Fərdi inkişafın mərhələləri isə şərti yaş termini ilə xarakterizə olunur. Şərti yaş anlayışının evristik mənası vardır. Məsələnin kökü ondan ibarətdir ki, yaş dövrləri mütləq məna daşımır: onun hüdudlarını mütləq (xronoloji və ya təqvim) yaşa görə dəqiq ifadə etmək mümkün deyildir. Yaşın hüdudları mütəhərrikdir, dəyişkəndir, konkret tarixi xarakter daşıyır və şəxsiyyətin müxtəlif sosial-iqtisadi inkişafı şəraitində bir-birinə uyğun gəlmir.

İnsanın ontogenetik inkişafını təhlil etsək, onların bir-birini ardıcıl surətdə əvəz edən 5 mərhələdən ibarət olduğunu görərik: ***bətin inkişafı, uşaqlıq, gənclik, yaşlılıq və qocalıq*** mərhələləri. Onların hər birinin özünəməxsus yaş xüsusiyyətləri vardır.

İnsan ontogenetik inkişafın ümumi qanunlarına tabedir. Lakin bununla belə, o, şəxsiyyətin sosial tarixi ilə şərtlənir. İnsanın yaş xüsusiyyətləri sahəsində özünü göstərən ən başlıca variasiyalar onun bir şəxsiyyət kimi inkişafı ilə bilavasitə bağlıdır.Tarixi inkişaf prosesində uşaq inkişaf etdikcə, ümumi ictimai şərait, təlimin məzmunu və metodları da dəyişir ki, bu da yaş mərhələlərinin dəyişməsinə təsir edir.

Bir yaş mərhələsindən digərinə keçid zamanı əvvəlki yaş dövründəki xüsusiyyətlər də dəyişir və yeniləri yaranır. Ayrı-ayrı yaş dövrlərində uşaqlar təkcə əldə etdikləri bilik və bacarıqların miqdarına görə deyil,psixikasının xüsusiyyətlərinə, ətraf gerçəkliyə münasibətlərinə görə də bir-birlərindən fərqlənirlər. Hər yaş dövründə isə «aparıcı fəaliyyət» xüsusilə diqqəti cəlb edir. Hər bir aparıcı (əsas) fəaliyyət yalnız həmin yaş üçün səciyyəvi olan keyfiyyət və xüsusiyyətlərin meydana gəlməsinə səbəb olur, bir fəaliyyət növündən digərinə keçid isə yeni yaş dövrünün başlamasına dəlalət edir. Məsələn, məktəbəqədər yaş dövründə aparıcı fəaliyyət oyun, məktəb yaşı dövründə təlim, yaşlılıq dövründə isə ictimai-faydalı əməkdir.

İnkişafın yaş dövrlərinə tarixilik və fəaliyyət prinsipləri mövqeyindən yanaşan alimlər hər bir yaş dövrünü səciyyələndirən aşağıdakı xüsusiyyətləri aşkar etmişlər: həyat şəraiti və fəaliyyət, ətrafakılara münasibət, şəxsiyyət strukturunun və idrak sahəsinin xüsusiyyətləri,subyektin dəyişməsi, anatomik-fizioloji xüsusiyyətlər.

Psixoloji-pedaqoji elmlərin inkişafı və yaş dövrləri sahəsində aparılan tədqiqatlar göstərdi ki, müəyyən yaş dövrü üçün səciyyəvi olan eyni aparıcı fəaliyyət çərçivəsində onun müxtəlif mərhələlərini fərqləndirmək mümkündür, özü də bu mərhələlərin hər birində uşağın inkişafı heç də eyni xarakter daşımır. Müəyyən mərhələdə uşağın fəallığı cisimlərə, onu dərk edən ətraf aləm obyektlərinə, başqa sözlə desək, onların dərk olunmasına yönəlir. Başqa bir mərhələdə isə uşağın istiqaməti adamlarla qarşılıqlı münasibətlərin dərk olunmasına-ünsiyyətə yönəlir.

Məktəbəqədər yaş dövrünün əvvəlində oyun zamanı uşaq diqqətini əsasən cisim və hadisələrə, onlar arasındakı əlaqə və münasibətlərə yönəldirsə, orta və yuxarı məktəbəqədər yaş dövründə rollu oyunlar zamanı onun psixi fəaliyyəti ətrafdakı insani münasibətlərin dərk olunması üzərində cəmləşir.

Uşaqda psixikanın inkişafı onun ətraf aləmi əksetdirmə fəaliyyətinin dəyişməsindən, varlığın daha dərindən inkişafından ibarətdir. Bu prosesdə uşağın idrak fəaliyyəti tədricən mürəkkəbləşir: varlığın xarici cəhətlərini əks etdirmədən onun mahiyyətini əks etdirməyə, maddi olandan ideal olana keçir. Yaş mərhələlərində kəmiyyət dəyişmələrindən keyfiyyət dəyişmələrinə keçid özünü daha aydın göstərir. Psixi inkişaf sayəsində uşaqda onu əhatə edənlərə və özünə qarşı münasibət də dəyişir, onun fəaliyyəti, davranışı get-gedə təkmilləşir.

Psixologiyada inkişafın yaş dövrləri, xüsusiyyətləri aşağıdakı kimi səciyyələndirilir:

1. **Çağalıq dövrü**: uşağın anadan olduğu andan 1 yaşadək.

Bu dövr üçün fəaliyyətin aparıcı növü yaşlılarla bilavasitə emosional ünsiyyətdir. Çağa anası ilə vasitəsiz emosional ünsiyyətdə normal inkişaf edir, xəstələndikdə daha tez sağalmağa başlayır. Əksinə, uşaq anadan ayrıldıqda, «ana həsrəti», «ana xiffəti» çağanın psixi sağlamlığına mənfi təsir göstərir. Uşaq anasının qucağında onun nəvazişini duyur və bundan rahat, məst olur, əhval-ruhiyyəsi yaxşılaşır. Bu ünsiyyət daxilində və onun fonunda görmə, eşitmə, əzələ-hərəkət və başqa duyğu və qavrayışlarla tənzim olunan hərəkətlər təşəkkül tapır. Bu yaşın ən mühüm nəzərə çarpan cəhəti başqaları ilə ünsiyyətə olan tələbatın və onlara müəyyən emosional münasibətin formalaşmasıdır.

2. **Körpəlik dövrü**: 1 yaşdan 3 yaşadək.

Həmin dövr üçün aparıcı fəaliyyət - əşyavi manipulyativ fəaliyyətdir. Əşyavi - manipulyativ fəaliyyət zamanı uşaqda əşyalarla manipulyasiya ön plana keçir, uşaq öz oyuncaqlarını, ona verilən şeyləri (oyuncaqları) əlilə yoxlayır, söküb dağıdır, qırıb sındırır, bir-birinə calayır. Beləliklə, onların xüsusiyyətlərini dərk edib inkişaf edir, başqa sözlə, onların idrak tələbatı ödənir, uşaq ətraf aləmi dərk edir. Onun səciyyəvi halı uşaqda nitqin təşəkkül etməsi, əşyaların mənaca adlandırılması, yaşlılarla ünsiyyət zamanı uşağın cəmiyyət tərəfindən işlənib hazırlanmış hərəkət tərzlərinə yiyələnməsidir. Bu dövrdə diqqəti cəlb edən digər cəhət - nitq və əyani-əməli təfəkkürün inkişaf etməsi, şüurun təzahürü, başqaları üçün uşaq «Mən»in formalaşmasıdır.

3. **Məktəbəqədər yas dövrü**: 3 yaşdan 6 yaşadək.

Bu dövr üçün aparıcı fəaliyyət rollu oyunlardır. Uşaq rollu oyunlarda bilavasitə insani münasibətləri mənimsəyir və tədricən cəmiyyətin gələcək üzvü kimi formalaşır. Beləliklə, məktəbəqədər yaşlı uşaqlarda rollu oyunlar əsas yer tutmaqla şəxsiyyətlərarası münasibətlər mənimsənilir. Mənimsəmə prosesində uşaq özünəməxsus istiqaməti, xüsusiyyəti, düşüncə tərzi olan şəxsiyyət kimi təzahür edir. Bu zaman uşaqda təxəyyül və simvolik funksiyalar formalaşır, insani münasibətlərə və işlərə ümumi fikir, bələdləşmə əmələ gəlir, tabeçilik və idarəetməyə şüurlu münasibət təşəkkül tapır. Həmin dövrdə ictimai baxımdan əhəmiyyətli və qiymətləndirilən fəaliyyət uşağın artıq məktəb həyatına hazır olmasına dəlalət edir.

4**. Kiçik məktəb yas dövrü**: 6-10 yaş

Həmin dövrdə aparıcı fəaliyyət - təlimdir. Təlim fəaliyyətində uşaq ictimai təcrübəni mənimsəyir, bilik, bacarıq, vərdişlərə yiyələnir və bu prosesdə təbii olaraq, onun özü də inkişaf edir, həm də təlim aparıcı fəaliyyətə çevrilir. Təlim prosesində niyyətli hafizə təşəkkül tapır, insani münasibətlər, ətraf aləmin cisim və hadisələri haqqında biliklər mənimsənilir, məktəblidə nəzəri şüur və təfəkkür təzahür edir, bunlar üzrə müvafiq tərz və qaydalar (refleksiya, analiz, fikrən planlaşdırma) inkişaf edir, təlim tələbatı, motivləri yaranır, bilik sahələrinə maraq əmələ gəlir. Həmin yaş dövrünün nəzərə çarpan cəhətlər-

psixi hadisələrin ixtiyariliyi, hərəkətlərin daxili plana malik olması, yəni interiorizasiyanın meydana gəlməsidir.

5. **Yeniyetməlik dövrü**: 10,11- 14, 15 yaş.

Aparıcı fəaliyyət - ictimai faydalı fəaliyyətdir. Ona daxildir: əmək, tədris, ictimai-təşkilati işlər, şəxsi ünsiyyət, idman və bədii fəaliyyət. Şəxsi ünsiyyət zamanı uşaqda şəxsi münasibətlər dəyişir, ondayeni keyfiyyətlər, mənlik şüuru formalaşır. Yeniyetmə ünsiyyət prosesində müxtəlif şəraitdə ünsiyyət tərzlərinə yiyələnir. Bu dövrdə nəzəri cəlb edən cəhətlər özünüqiymətləndirmə, ətrafdakı adamlara tənqidi münasibət, müstəqillik və «yaşlılığa meyl», kollektiv həyat normalarına tabe olmaq bacarığından ibarətdir. Onların xüsusi fəallığı nəzərə çarpır və meylləri geniş olur.

6. **Gənclik dövrü**: 15 - 25 yaş

Həmin dövrdə aparıcı fəaliyyət kimi tədris, peşə fəaliyyəti çıxış edir, əməyə tələbat, idrak maraqları, tədqiqatçılıq bacarığı ünsürləri, həyat planları, şəxsiyyətin ideya-əxlaqi, vətəndaşlığı kimi keyfiyyətləri formalaşır, özünü şüurlu surətdə tənzim edir. Yaşın başlıca törəmələri dünyagörüşü, peşə maraqları, özünüdərketmə, arzu və ideallardan ibarətdir. Tədris peşə fəaliyyəti zamanı gənc nəsil peşə təlimi sahəsinə istiqamət alır, özünə sənət seçmək iddiasında olur.

Daha sonra **Yetkinlik yaşı:** 21 - 60 yaş.**Yaşlı adam:** 60 - 70 yaş**.Qocalıq yaşı**: 75 - 90 yaş. **Uzunömürlülülər:** 90-dan daha çox.

İnsanın psixi inkişafı çox mürəkkəb proses olub, şəxsiyyətin yeni keyfiyyətlərini təşəkkül etdirir və onun müəyyən **qanunauyğunluqları** vardır:

Psixi inkişafın fasiləsizliyi. Bu, psixi inkişafın ana xəttini təşkil edir. Belə ki, bu qanun psixi inkişafın fasiləsiz, dialektik, ziddiyyətli, sıçrayışlarla cərəyanı, yüksəlişi, yeni törəmələrin əmələ gəlməsini bildirir.

Psixi inkişafın qeyri-bərabərliyi. Uşağın mənəvi aləminin, psixi proses və xassələrinin ayrı-ayrı dövrlərdə müxtəlif surətlə inkişafında, akselerasiyasında, yaxud gec təzahür etməsində, eyni inkişaf səviyyəsində olmamasında ifadə olunur. İnkişafın bu qanunauyğunluğu təlim-tərbiyə şəraitindən, uşağın anatomik-fizioloji, biokimyəvi xüsusiyyətlərindən, orqanizm və mühitin qarşılıqlı təsirindən, sinir sisteminin genotipindən asılıdır.

Görkəmli alimlərin əksəriyyətini valideyn və müəllimləri kiçik yaşlarında tənbəl, qabiliyyətsiz hesab edirdilər. Deməli, uşağın qabiliyyətini tək təlim müvəffəqiyyətilə ölçmək olmaz, qabiliyyətlərin müxtəif inkişaf variantlarını, qeyri-bərabər inkişaf qanunauyğunluqlarını da nəzərə almaq lazımdır.

Psixi inkişafın inteqrasiyası. Psixi proses və xassələrin davamlılığı, bütövlüyü və sabitliyilə bağlı olub, onların şəxsiyyətin daimi əlamətlərinə çevrilməsi prosesində özünü göstərir.

Psixi inkişafın plastikliyi və ya kompensasiyası. Bir psixi funksiyanın surətlə inkişaf edərək zəif təşəkkül edəni, ya da inkişaf etməyəni əvəz etməsi şəklində başa düşülür. Məs, korlarda, taktil-lamisə həssaslığının, eşitmənin yüksək səviyyəədə inkişaf edərək görmənin vəzifələrini icra etməsi.

İnteriorizasiya prosesi. İnsana xarici aləmdən olan təsirlər, qəbul etdiyi informasiyal, özünün apardığı maddi əməliyyatlar beyində möhkəmlənərək perseptiv (qavrayış), mnemik (hafizə), fikri (təfəkkür) əməliyyatlara çevrilir və beləliklə, subyektin əşyavi, maddi fəaliyyəti zəmnində psixika, şüur nəşət edir, daxili ideal əməliyyat, psixi hadisə, mənəvi aləm əmələ gəlir, insanda müvafiq obrazlar, anlayışlar formalaşır.

Şəxsi konstruktor nəzəriyyəsi. Hər bir adam xarici və daxili qıcıqlara qarşı sadəcə cavab verməklə kifayətlənməyib bilik və təcrübəsi əsasında dünya və insani münasibətlər haqqında özünəməxsus təsəvvür formalaşır, anlayışlar sistemi yaranır və onlar hadisələri özünəməxsus formada şərh edir, yeni fikir, mülahizə, fərziyə irəli sürür. Xalq arasında deyildiyi kimi, hər şeyi öz arşını ilə ölçür. Beləliklə, insanın şəxsi görüşləri, baxışlar sistemi təzahür edir, hadisələri qabaqcadan görür. Amerikan alimi C.Kellinin dediyi kimi: "Adamlar az və ya çox dərəcədə tədqiqatçıdır, alimdir, yaradıcılıq qabiiyyətinə malikdir, ixtira və kəşflər edir, özünün şəxsi nəzəriyyəsini yaradır." Psixologiyada bu qanunauyğunluq **şəxsi konstrukt nəzəriyyəsi** adlanır.

II. Təbii imkan, mühit, hərəkətverici qüvvə, irsiyyət, mühit, psixi inkişaf.

Uşağın psixi inkişafında onun hərəkətverici qüvvələri və bu inkişafı təmin edən amillər, zəruri şərtlər özünəməxsus rol oynayır. Bunların bəziləri psixi inkişafda həlledici, aparıcı, əsas rola malikdir, bəziləri isə köməkçi, yardımçı əhəmiyyət kəsb edir. Eyni zamanda müxtəlif yaş mərhələlərində bunların oynadığı rol, yer, mövqe dəyişə bilər.

Uşağın psixi inkişafına irsi, anadangəlmə amillər də təsir göstərir. Uşaq bunların köməyilə həyatda yaşamağa, öz mühafizəsini təmin etməyə çalışır ki, onlar irsiyyət və təbii imkan məfhumları ilə ifadə olunur. **İrsiyyət** dedikdə, müəyyən anatomik-fizioloji, psixoloji əlamət və xüsusiyyətlərin valideyn genləri vasitəsilə övlada, nəsildən-nəsilə verilməsi nəzərdə tutulur. Adətən, inkişaf prosesində genotip 2 funksiyanı yerinə yetirir.

Əvvəla, genetik amillər *inkişafı təkmilləşdirir,* daha doğrusu, növün-insanın genotip proqramının reallaşmasını təmin edir. Məsələn, deyək ki, bədənin təşkili, əllərin universallığı, düz ayaq üstə yerimək, nitq vasitəsilə ünsiyyətə girmək qabiliyyəti kimi ümumi insani keyfiyyətlər sabitləşdirilərək seçmə yolu ilə insanın həyatında genetik cəhətdən möhkəmləndirilir. Bu cür funksional sistemlər sərt genetik şərtlənməyə malikdir. Növün genetik proqramı ilə şərtlənən və fərdi dəyişikliyi olmayan dəyişməz əlamətlər fondu konservativ (mühafizəkar) irsiyyəti təşkil edir.

Genotipin ikinci funksiyası- ***inkişafın fərdiləşdirilməsidir***. Genetiklər insanların fərdi xüsusiyyətlərini müəyyən edən çoxlu ünsürlər aşkar etmişlər. Alimlər hesablamışlar ki, insan genotiplərinin potensial variantların miqdarı Yer üzərində yaşayan adamların miqdarı cəmindən dəfələrlə böyükdür.

Psixi inkişafın sosial amillərlə şərtlənməsi bu inkişafın məxsusi məntiqini, onda müəyyən özünühərəkətin varlığını inkar etmir, əksinə, bioloji və sosioloji amillərin qarşılıqlı əlaqəsini nəzərdə tutur. Eyni zamanda inkişaf müəyyən səviyyələrdə baş verən və özündə sistemlərin diferensiasiyası və inteqrasiyasını, makro və mikrogenetik dəyişiklikləri birləşdirən bir sistem kimi başa düşülür. Buna müvafiq olaraq, bir səviyyə sistemi sonrakı səviyyənin inkişafı üçün əsas qoyur.

İnkişafda mərkəzi sinir sistemi böyük rol oynayır. Özü də insanın ontogenezdə psixi keyfiyyət və xüsusiyyətlərinin təşəkkülünə mərkəzi sinir sistemi vasitəli şəkildə təsir göstərir.

Uşağın psixi inkişafında digər bir cəhəti də qeyd etmək lazımdır. Uşaq üçün müəyyən kimyəvi maddələr çatışmırsa, yaxud genlər tam deyilsə, irsiyyətdən asılı olmayaraq inkişaf edən orqanizmdə müəyyən anormallıq, ağıl kəmliyi özünü büruzə verir. Beyinə dəyən zərbənin əmələ gətirdiyi zədə də əqli çatışmazlığa səbəb olur. Şübhəsiz, belə patoloji hallar irsiyyətin nəticəsi deyildir. Qidanın çatışmazlığı, zəhərli maddələrin təsiri, ananın keçirdiyi həyəcan və dəhşət hisləri hələ ana bətnində ikən dölün fiziki və əqli inkişafına mənfi təsir göstərir. Əlbəttə, bu xüsusiyyətlər də irsi hesab edilməməlidir.

Uşağın psixi inkişafında onun hərəkətverici qüvvələri və bu inkişafı təmin edən amillər, zəruri şərtlər özünəməxsus rol oynayır. Bunların bəziləri psixi inkişafda həlledici, aparıcı, əsas rola malikdir, bəziləri isə köməkçi, yardımçı əhəmiyyət kəsb edir.

Uşağın psixi inkişafının hərəkətverici qüvvəsi yeni tələbatlların ödənilməsi zamanı hər bir yaş mərhələsində özünəməxsus surətdə təzahür edən müxtəlif ziddiyyətlərin, əksliklərin mübarizəsi şəklində fəaliyyət, təlim prosesində təzahür edir.

Müasir təlimə görə psixi inkişafın daha yüksək mərhələlərində ziddiyyətlər daha da kəskinləşir. Məsələn, inkişaf prosesində irəlidə haqqında xatırladılmış tələbatların özlərində də müəyyən daxili ziddiyyətlər baş verir: daha vacib olan tələbatlar az əhəmiyyətli olanları sıxışdırıb aradan çıxarır. Deməli, daha geniş planda inkişafın əsasında orqanzmlə mühitin qarşılıqlı təsiri durur. Əgər uşağı sosial muhitdən kənarda böyütməyə təşəbbüs göstərilərsə, o, anatomik-fizioloji baxımdan inkişaf etsə də,mənəvi inkişafdan ,məhrum qalacaq, bir şəxsiyyət kimi formalaşmayacaq, ağllı, kamalı, düşüncəsi və nitqi təşəkkül tapmayacaq və körpə səviyyəsində qalacaqdır.

Məlumdur ki, **təbii mühit və ictimai şərait** (iqlim, dağlıq və ya aran yeri, dəniz sahili, meşəlik, çay kənarı, həyat tərzi, məzil şəraiti, anatomic-fizioloji xüsusiyyətlər, konkret tarixi dövr) uşağın psixi inkişafında özünəməxsus yer tutur. Həyat şəraiti, əlbəttə, öz-özünə birbaşa uşağın psixi inkişafını, onun bilavasitə formalaşmasını müəyyən etmir. Şəraiti eyni olan bir ailədəki uşaqlard müxtəlif psixoloji xüsusiyyətlər təşəkkül tapa bilər. Bu prosesdə, ilk növbədə insanlar, xüsusilə də valideyn və müəllimlər daha əhəmiyyətli rol oynayırlar.

Beləliklə, genotip və mühit daim qarşılıqlı dialektik vəhdətdə olur, bu zaman isriyyətin xarakterindən asılı olaraq mühit ona müxtəlif cür təsir göstərə bilir. Xarici təsir sayəsində irsi faktlar müxtəlif şəkildə təzahür edir.

III.Psixi inkişaf və fəaliyyət.

Psixi inkişafda, şəxsiyyətin formalaşmasında mütəşəkkil, istiqamətləndirici fəaliyyət ən mühüm amillərdəndir. Genetik baxımdan uşaq ilk mərhələdə əşyavi fəaliyyətlə məşğul olur və bu prosesdə uşaq psixoloji cəhətdən inkişaf edib, əşyaların xüsusiyyətlərini dərk etməyə başlayır, onda təsəvvür, fikir formalaşır.

Uşağın ilk zamanlar əşya ilə, maddi olanla apardığı əməliyyatlar möhkəmlənir və yeni psixoloji fenomenə- daxili perseptiv (qavrayıça), mnemik (hafizəyə), fikri (təfəkkürə) əməliyyatlara çevrilir. Uşaqlarda maddi şeylərlə apardığı əməliyyatların fikri əməliyyata çevrilməsi prosesinə **interiorizasiya** deyilir. Lakin bununla proses qurtarmır, əşyavi formada saymaqdan fikri əməliyyata keçmiş uşaq əqli hazırlıq və təcrübəsi sayəsində, mənimsədiyi fikri əməliyyatdan istifadə edərək bizim ona təqdim edəcəyimiz məsələləri həll edir. Bu o deməkdir ki, formalaşmış daxili fikri əməliyyat zərurət nəticəsində yenidən uşağın fəaliyyətində təzahür edir və beləliklə, **eksteriorizasiya** baş verir. Eksteriorizasiya və interiorizasiya bir-birilə qarşılıqlı əlaqədədir. Lakin onların vəzifəsi-funksiyası başqadır. Eksteriorizasiya mənimsənilmiş müəyyən bilik, bacarıq, vərdişlər vasitəsilə fəaliyyət prosesində təzahür edir. Bu zaman bir çox hərəkətlər avtomatlaşır, hətta şüurun nəzarəti olmadan icra olunur. Nəhayət, deyilənləri ümumiləşdirək: xarici əməli əşyavi fəaliyyət (daşı saymaq və s.) daxili psixoloji fəaliyyətə (fikrən saymaq), bu da praktik tətbiqi (məsələni həll etmək) fəaliyyətə keçir. Beləliklə, subyektin, əşyavi fəaliyyəti zəminində psixika, şüur nəşət edir, psixi olan, ideal hadisə əmələ gəlir, əqli əməliyyat təşəkkül tapır, şüurlu, düşüncəli davranışlar formalaşır, insanın beynində dünyanın tədricən ideal mənzərəsi yaranır.

Uşağın idrak qabiliyyəti anatomik fizioloji xüsusiyyətlərdən asılı olaraq təşəkkül edir və onun sonrakı inkişafı fəaliyyətdən kənarda mümkün deyildir. Məsələn, qabiliyyəti təbii imkandan təşəkkül etsə də, onun inkişafı fəaliyyətdən asılıdır. Belə ki, insan beyni, xüsusi sinir mexanizmi dilə, nitqə yiyələnmənin təbii şərti olsa da, uşağın hansı dildə danışmağa başlaması nitq mühitindən onunla müəyyən dildə danışmaqdan, bilavasitə ünsiyyətdən asılıdır.

Fəaliyyət insanın dərk olunmuş məqsədləri ilə tənzim olunan daxili (psixi) və xarici (fiziki) fəallığıdır.Tərifdən göründüyü kimi, fəaliyyət zamanı insanın həm psixi, həm də fiziki fəallığı baş verə bilir. Bunların hər ikisində insanın fəallığı onun öz qarşısına qoyduğu dərk olunmuş məqsədləri ilə tənzim edilir.

Psixi inkişafa fəaliyyət növlərinin müxtəlif cür təsiri var, uşaqda yeni psixoloji xüsusiyyətlərin təzahürü onun fəaliyyətinin xarakterindən, səmərəli təşkilindən, aparıcı rolundan, fəaliyyətin ayrı-ayrı növlərilə qarşılıqlı əlaqəsindən asılıdır.

Fəaliyyətin psixi inkişafa təsirini, onların qarşılıqlı əlaqəsini təhlil edərkən aşağıdakı nəticələrə gəlmək olur:

- Çağa anası ilə vasitəsiz emosional ünsiyyətdə normal inkişaf edir, xəstələndikdə daha tez sağalmağa başlayır. Əksinə, uşaq anadan ayrıldıqda, “ana həsrəti” uşağın psixi sağlamlığına mənfi təsir göstərir. Uşaq anasının qucağında onun nəvazişini duyur və bundan rahat, məst olur, əhvali-ruhiyyəsi yaxşılaşır. Ana da övladı

əmizdirərkən, onun xidmətində olarkən özündən razı qalır, fərəhlənir. Şübhəsiz, bu qarşılıqlı emosional ünsiyyət ananın uşağa məhəbbətini artırır, uşağın psixi inkişafına əməli təsir edir.

- Əşyavi manipulyativ fəaliyyət zamanı uşaqda əşyavi əməliyyat ön plana keçir, uşaq öz oyuncaqlarını, ona verilən şeyləri əlilə yoxlayır, söküb dağıdır, qırıb sındırır.
- Uşaq rollu oyunlarda bilavasitə insani münasibətləri mənimsəyir və tədricən cəmiyyətin gələcək üzvü kimi formalaşır.
- Təlim fəaliyyətində uşaq ictimai təcrübənimənimsəyir, bilik, bacarıq və vərdişlərə yiyələnir.
- Şəxsi ünsiyyət zamanı uşaqda şəxsi münasibətlər dəyişir, onda yeni keyfiyyətlər, mənlik şüuru formalaşır.

Psixi dəyişmələr, inkişaf, subyektin fəaliyyəti əsasında təşəkkül tapır. Bu fəaliyyətin yaşlının köməyi və rəhbərliyi ilə həyata keçirilməsi olduqca vacibdir. Çünki yeni olan hər bir şey uşaq fəaliyyətinə məhz xaricdən, kənardan daxil edilir, xarici fəaliyyət formasında təşkil olunur. Xarici fəaliyyət isə öz növbəsində tədricən daxili ideal, psixi fəaliyyətə çevrilir, yəni interiorizasiya olunur.

İnsan bütün həyatı boyu özünün tələbatlarını ödəmək üçün bir çox fəaliyyət növlərindən istifadə edir. Lakin müəyyən yaş dövründə həmin fəaliyyət növlərindən biri digərlərinə nisbətən "əsas", "aparıcı" fəaliyyət növü hesab olunur. Əsas fəaliyyət növü uşağın müəyyən inkişaf mərhələsində onun tələbatlarını ödəyən, onun psixi proseslərinin və şəxsiyyətinin fərdi psixi xassələrinin inkişafını şərtləndirən fəaliyyət növüdür. Uşağın əsas fəaliyyət növünün dəyişməsi onun yeni yaş mərhələsinə keçməsini göstərən əsas amildir. D.B.Elkoninə görə uşaq anadan olandan **17** yaşa qədər olan dövrdə ardıcıl olaraq aşağıdakı əsas fəaliyyət növlərindən istifadə edir və buna müvafiq olaraq yaş dövrləri müəyyənləşdirilir:

- bilavasitə-emosional ünsiyyət;
- əşyavi-manipulyativ fəaliyyət;
- rollu oyunlar;
- təlim fəaliyyəti;
- intim-şəxsi ünsiyyət;
- təlim-peşə fəaliyyəti.

Həmin əsas fəaliyyət növlərindən hansından istifadəyə əsaslanaraq D.B.Elkonin müvafiq şəkildə uşağın anadan olandan orta məktəbi qurtarana qədər aşağıdakı altı yaş dövrünü keçdiyini qeyd etmişdir:

1. **Körpəlik dövrü: anadan olandan bir yaşa qədər.**
   Bu dövrdə bilavasitə ***bilavasitə emosional ünsiyyət*** aparıcı fəaliyyət rolunu oynayır. İkinci ayda meydana gələn kompleks canlanma uşağın böyüklərlə ünsiyyətinin mürəkkəb forması kimi özünü göstərir. Böyüklərlə bu cür emosional ünsiyyət uşağın əşyalarla müstəqil olaraq manipulyasiya aparmağa başladığı dövrə qədər davam edir.
2. **Erkən uşaqlıq dövrü:bir yaşdan üç yaşa qədər.**
   Bu dövrdə ***əşyavi-manipulyativ fəaliyyət*** aparıcı fəaliyyət olur. Bu zaman bir növ xüsusi əşyavi fəaliyyətə keçid baş verir. Eyni zamanda uşağın böyüklərlə verbal ünsiyyət forması inkişaf edir. Aparılmış tədqiqatlar göstərmişdir ki, bu dövrdə

uşaqlar nitqdən təfəkkür aləti kimi deyil, insanlarla birgə fəaliyyət zamanı əməkdaşlığı təmin etmək üçün əlaqə vasitəsi kimi istifadə edirlər.

3. **Bağça yaşı dövrü: üç yaşdan altı-yeddi yaşa qədər.** Bu dövrdə ***oyun*** aparıcı fəaliyyət rolunu oynayır, uşağın psixika və davranışının bütün cəhətlərinin inkişafı üçün şərait yaradır. Xüsusi oyun tərzlərindən istifadə etməklə uşaq bir növ böyüklərin rolunu öz oyunlarında təkrar edir, insanlar arasındakı qarşılıqlı münasibətləri özünəməxsus şəkildə mənimsəyir. Bu zaman rollu oyunlar fəallığın növü kimi özünü göstərir.
4. **Kiçik məktəb yaşı dövrü:altı-yeddi yaşdan on-on bir yaşa qədər.** Bu dövrdə uşaqların psixi inkişafında ***təlim*** aparıcı fəaliyyət kimi özünü göstərir. Təlim prosesində əqli və idrak qabiliyyətləri formalaşmaqla, təlimin köməyi ilə uşağı əhatə edən adamlarla onun münasibətlər sistemi şərtlənir.
5. **Yeniyetməlik dövrü: on-on bir yaşdan on dörd-on beş yaşa qədər.** Bu dövrdə əmək fəaliyyəti, eləcə də xüsusi ünsiyyət forması olan ***intim-şəxsi ünsiyyət*** meydana gəlir və inkişaf edərək aparıcı fəaliyyət rolunu oynayır. Ünsiyyətin başlıca məqsədi yoldaşlıq və dostluğun elementar normalarının aşkara çıxarılması və mənimsənilməsindən ibarət olur. Ünsiyyətin bütün formalarında yoldaşlığın özünəməxsus kodeksinə tabe olmaq münasibəti müşahidə olunur.
6. **İlk gənclik dövrü: on dörd-on beş yaşdan on yeddi yaşa qədər**. Bu dövrdə ***təlim-peşə fəaliyyəti*** aparıcı rol oynayır. Yeniyetməlik dövründə meydana gələn intim-şəxsi ünsiyyət inkişafda mühüm əhəmiyyət kəsb edir. İlk gənclik dövründə həyata baxışlar, peşə və şəxsi özünütəsdiq inkişaf edir.

Fəaliyyətinin quruluşunu təhlil etdikdə onun təxmini məzmununu təşkil edən aşağıdakı əsas elementləri, komponentləri aşkara çıxarmaq mümkün olur: fəaliyyətin motivləri, fəaliyyətin məqsədi və fəaliyyətin vasitələri.

Motivlər haqqında qeyd etdiklərimizdən aydın olduğu kimi, **motiv** insanı hər hansı bir fəaliyyətə təhrik edən, yönəldən səbəblərdir. Hər cür fəaliyyət zamanı müvafiq tələbatdan doğan səbəblər bizi həmin fəaliyyətə giriŞməyə və bu yolla öz tələbatımızı ödəməyə yönəldir. **Məqsədə** gəldikdə o, insanın fəaliyyət zamanı hansı nəticəyə nail olmağa yönəlməsidir. Son nəticə daima fəaliyyətin məqsədi kimi təzahür edir. Məhz buna görə də insan fəaliyyəti daima dərk olunmuş məqsədləri ilə tənzim edilir. İnsanın həmin fəaliyyəti nə dərəcədə adekvat yerinə yetirməsi qarşıya qoyulan məqsədi həyata keçirməsi ilə xarakterizə olunur. Bəzən fəaliyyətin motivi və məqsədi üst-üstə düşsə də çox vaxt məqsəd və motiv özünün xüsusiyyətlərinə görə birbirlərindən fərqlənirlər. Məsələn, tələbədə olmayan hər hansı bir kitabı almaq üçün kitab mağazasına getməsi həm motiv həm də məqsəd rolunu oynaya bilər. Lakin «psixologiya» dərsliyini almaq üçün kitab mağazasına getmək onun məqsədi, həmin fənlə maraqlanması, sabahkı seminara hazırlaŞması üçün getməsi isə motivi ola bilər. **Fəaliyyətin vasitələrinə** gəldikdə o, həmin fəaliyyətin həyata keçirildiyi yollardır. Başqa sözlə insan həmin fəaliyyət zamanı qarşısına qoyduğu məqsədə hansı yollarla nail olur. Şübhəsiz həmin yol və vasitələrin düzgün seçilməsi fəaliyyətin səmərəli şəkildə həyata keçirilməsi üçün mühüm şərtdir. Bütövlükdə götürüldükdə insanın hər cür fəaliyyətinin quruluşunda motiv, məqsəd, müvafiq işlər, onların icrası, qiymətləndirilməsi və nəzarət kimi mühüm komponentlər özünü göstərir. Bunları ümumiləşdirilmiş şəkildə götürmüş olsaq fəaliyyətin üç mərhələni keçdiyini söyləyə bilərik: hazırlıq, icra və qiymətləndirilmə.

IV.Psixi inkişaf və ünsiyyət.

Psixi inkişafın hərəkətverici qüvvələrindən biri də ünsiyyətdir. O, insan tələbatları içərisində xüsusi yer tutaraq insanın inkişafında, o cümlədən şəxsiyyətin formalaşmasında mühüm rol oynayır.

Ünsiyyət zamanı uşaqlar bir-birinə qarşılıqlı təsir göstərir, əlaqəyə girir, əməkdaşlıq edir və bir-birini anlayıb başa düşürlər. Ünsiyyət olmadıqda isə, onların psixikasında dəyişiklik, sarsıntı baş verir, onlar həm fiziki, həm də psixi cəhətdən anormal inkişaf edirlər.

Uşağın ünsiyyət tələbatında iki meyl özünü göstərir:

1. Uşaq başqalarına oxşamağa,onlar kimi davranmağa,düşünməyə, insanlar arasında olmağa çalışır.
2. Öz "Mən"-ini başqasından ayırmağa, fərqlənməyə, müstəqil olmağa çalışır. Bu zaman onun fərdiyyətə aid xüsusiyyətləri inkişaf edir, şəxsiyyətlərarası münasibətdə özünə yer tutur və bunun əsasında uşağın psixikası əməli ünsiyyətdə formalaşmağa başlayır, o, özünün və başqalarının hərəkətlərini, rəftarını təhlil etməyi öyrənir, sosial-psixoloji təcrübəyə yiyələnir, bir-birini qavrayır, mənəvi cəhətdən zənginləşir, onda psixi sağlamlıq, xoş əhval yaranır.

Həm ailədaxili ünsiyyət, həm yaşlılarla, həm də həmkarları ilə ünsiyyət uşağın inkişafında mühüm rol oynayır.

Uşağın şəxsiyyət kimi formalaşmasının əsası çox vaxt həmin ünsiyyət və söhbətdə yaranır. Uşaq valideynlə ünsiyyət zamanı təbiət və cəmiyyət haqqında müəyyən biliklərə yiyələnir, başqalarını və özünü qiymətləndirməyi öyrənir. Uşaq ailədaxili ünsiyyətlə məhdudlaşmır, tez-tez ailədənkənar ünsiyyətdə də olur. Məsələn, qonaqlıqda, gəzintidə, klubda, istirahət axşamında, asudə vaxtda və ya müxtəlif oyunlarda.

Uşaq ünsiyyətinin mühüm bir forması da söhbətdir. Söhbət ünsiyyətin forması kimi uşaqların psixi inkişafında mühüm rola malikdir.Belə ki söhbət uşaqlarda nitqi zənginləşdirir, ünsiyyət zamanı uşaq monoloji və dialoji nitq formasından istifadə edərək müvafiq biliklər əldə edir, dünyagörüşü formalaşmağa başlayır.

Uşağın psixikasının və şəxsiyyətinin inkişafındapedaqoji ünsiyyətin də çox böyük əhəmiyyəti vardır. Pedaqoji ünsiyyət müəllim və tərbiyəçilərlə aparılan ünsiyyətdir. Uşaq qrupunda ünsiyyətin əsas forması dialoqdur. Bu zaman uşaq öz fikrini, öz hissini, biliyini bölüşdürməyi öyrənərək, müxtəlif keyfiyyət və xassələri dərk etməyə çalışır.

Pedaqoji ünsiyyət zamanı şagirdlər tədris materiallarının məzmununu mənimsəyir,sosial-siyasi hadisələr haqqında məlumat alır, müxtəlif üsul və metodlara yiyələnir, müəllim və şagirdlər arasında inam, səmimiyyət yaranır.

Bu münasibət zamanı müəllimdən uşağa qarşı diqqətli olmaq, onun günahı olduqda belə şəxsiyyətinə və mənliyinə hörmətlə yanaşmaq tələb olunur. Bu ünsiyyət forması zamanı müəllim öz şəxsi nümunəsi ilə uşağa təsir edərək onlarda əqidənin formalaşmasına, həyata hazırlaşmasına, dünyagörüşünün formalaşmasına, inkişafına kömək etməlidir.

V.Psixi inkişaf və təlim

Təlim uşaq fəallığını təşkil etməyin başlıca formalarından olub, onun psixi inkişafına və şəxsiyyətinin formalaşmasına mühüm təsir göstərir.Təlimin psixi inkişafa təsiri haqqında müxtəlif fikirlər mövcuddur.

Vaxtilə alman psixoloqu ***V.Ştern*** belə bir müddəanı əsas tuturdu ki, təlim inkişafın arxasınca gedir və ona uyğunlaşır.

Görkəmli İsveçrə psixoloqu J.Piajenin fikrincə, psixi inkişaf özünün daxili spesifik xüsusiyyətlərinə malikdir. Odur ki, təlimin tənzim edilməsi üçün əqli inkişafın səviyyəsi əsas götürülməlidir.Lakin Piaje təlimin inkişafetdirici rolunu qiymətləndirmir.

L.S.Vıqotskinin "təlim həmişə inkişafdan irəlidə gedir və onu da öz arxasınca aparır" müddəasına əsaslanan rus psixoloqları inkişafetdirici təlimin mahiyyətini açmağa çalışmışlar. Burada uşaqların mənimsəmə imkanlarının aşkara çıxarılması mühüm yer tutur. Vıqotski və onun əməkdaşları təlimlə əlaqədar 2 əqli inkişaf səviyyəsini müəyyən etmişlər.

1. **Fəal inkişaf səviyyəsi**. Şagird gündəlik dərsləri, verilən tapşırıqları müstəqil surətdə yerinə yetirir, özü dərsə aid misallar çəkir, müəllimin şərh etdiyi bəzi cəhətləri izah etməyə təşəbbüs göstərir və nəhayət, onda əqli inkişaf sonralar hər hansısa bir məsələni heç kimə ehtiyac olmadan, özü həll edə biləcək səviyyəyə çatır. Bu çox fəal inkişaf səviyyəsi olub, şagirdin bilikləri müstəqil mənimsəyərək, elmlərin əsaslarına özünün yiyələnməsi bacarığını özündə ehtiva edir.
2. **"İnkişafın yaxın zonası".** Uşaq yaşlıların köməyilə daha yüksək nailiyyət əldə edə bilir.L.S.Vıqotski bu münasibətlə yazır: "Uşaq nəyi ki, yaşlının köməyilə etmək iqtidarındadır, bu onun yaxın inkişaf zonasını göstərir… Beləliklə, yaxın inkişaf zonası uşağın sabahkı gününü, onun inkişafının dinamik vəziyyətini müəyyənləşdirməkdə bizə kömək göstərir". Təlim öz səmərəli nəticəsini vermək və şagirdlərin əqli inkişafına əsaslı təsir göstərmək üçün məhz "inkişafın yaxın zonası"na uyğun təşkil olunmalıdır. Təlimin məzmununu, forma və vasitələrini seçərkən bu tələb birinci tələb kimi nəzərə alınmalıdır.

Ona görə də L.S.Vıqotski haqlı olaraq göstərir ki, uşağın öyrənməyə qabil olmadığı işləri ona öyrətməyə çalışmaq, onun müstəqil yerinə yetirə bildiyini ona öyrətmək qədər mənasızdır.

L.S.Vıqotski təlimin strukturu konsepsiyasını işləməyə xüsusi fikir vermiş və bu sahədə əsaslı işlər görmüşdür. Vıqotskinin həmin sahədəki ideyaları, gəldiyi nəticələr onun tələbələrinin və ardıcıllarının xüsusi təlim konsepsiyası yaratmalarına imkan vermişdir.

L.S.Vıqotski bilik, bacarıq və vərdişlərə yiyələnmək və ümumi keyfiyyətlərə, qabiliyyətlərə (mücərrədləşdirmə, ümumiləşdirmə, ixtiyarilik) yiyələnməyin mümkün olduğunu aşkara çıxarmışdır. O, birinci cəhəti (bilik, bacarıq və vərdişlərə yiyələnməni) təlim (öyrənmə), ikincini isə inkişaf adlandırmışdır. Onun fikrincə təlimdə mənimsəmənin əsas predmetini bilik və mədəniyyət haqqında tarixi təcrübə təşkil edir.

L.S.Vıqotskiyə görə təlim inkişafın əsas amilidir.

Bununla yanaşı təlim fəaliyyətinin səmərəliliyini təmin etmək üçün şagirdlərin mənimsəmə imkanlarının aşkara çıxarılması da ən zəruri şərtlərindəndir. Şagirdlərin

mənimsəmə imkanlarının aşkara çıxarılmasında ***yaş həssaslığı*** haqqında psixologiyada toplanmış məlumatların əhəmiyyəti böyükdür.

Uşaq və yaş psixologiyasının inkişafında amerikan psixoloqu C.Brunerin rolunu da qeyd etmək olar. Onun "İdrak psixologiyası", "Təlim nəzəriyyəsinə dair" əsərlərində təlim prosesində şəxsiyyətin inkişafı məsələsinə diqqət yetirilir. O, təlimin inkişafdan asılı olmadığını göstərmiş və qeyd etmişdir ki, uşaq inkişafın istənilən mərhələsində materialı mənimsəməyə qabildir.

Amerika psixoloqu C.Brunerin fikrincə, hər cür əqli inkişafın əsasını yalnız mütəşəkkil, məqsədyönlü təlim təşkil edir; əqli inkişaf isə öz növbəsində dərin biliyə və ümumiləşdirmə bacarığına yiyələnməkdən ibarətdir. Lakin Bruner yaş hüdudlarını nəzərə almadığından onun fikri ilə razılaşmaq olmaz.

C.Bruner qeyd edir ki, intellektin inkişaf səviyyəsi və spesifikliyi uşağın yaşadığı cəmiyyətin mədəni səviyyəsindən asılıdır.

C.Bruner qeyd edirdi ki, 7 yaşlı uşağın beyni inteqral və differensial tənlikləri həll etmək və dialektik materializm fəlsəfəsinin əsaslarını öyrənmək üçün hələ yetişməmişdir. Mühit, təlim və tərbiyə müvafiq təmrinlər beyin strukturlarının üzvi yetişməsi prosesini stimullaşdırır.

Mövzu 5.Erkən uşaqlıq dövrünün xüsusiyyətləri

Plan:

1. Çağanın fiziki və psixi inkişaf xüsusiyyətləri
2. Ünsiyyət dairəsinin genişlənməsi və ünsiyyət prosesində emosional halların ilkin təşəkkül xüsusiyyətləri
3. Körpənin fiziki və psixi inkişafı
4. Körpənin fəaliyyəti və üç yaşın böhranı problemi
5. Erkən uşaqlıq dövründə öyrənmə

Ədəbiyyat:

1. Seyidov S.İ., Həmzəyev. M.Ə. Psixologiya, Bakı, "Nurlan", 2007.
2. Əliyev R.İ. Psixologiya.B.: Nurlan,2008
3. Bayramov Ə.S. Psixoloji düşüncələr.Bakı,1994
4. Həmzəyev M.Ə. Pedaqoji psixologiya, Gəncə, 1999.
5. Qədirov Ə.Ə. Yaş psixologiyası, Gəncə, 1999.
6. Qədirov Ə.Ə., Məmmədov İ.N. Yaş psixologiyası, Bakı, "Maarif", 1986.

1. Çağanın fiziki inkişaf xüsusiyyətləri

Erkən yaşlı uşaqlar çağalıq və körpəlik dövrlərinə bölünür. Çağalıq dövrü uşağın anadan olduğu andan 1 yaşadək olan müddəti əhatə edir.Aparılan tədqiqatlar göstərir ki,uşaq şəxsiyyətinin formalaşması məhz bu yaşdan başlayır.Valideynlər uşaq ana bətninə düşdüyü andan onun düzgün fiziki və psixi inkişafının qayğısına qalmalıdır,çünki uşaq ana bətninə düşən andan ona müəyyən amillər təsir edir,ananın keçirdiyi hisləri«yaşayır».Ana bətnində olan 6həftəlik uşaq sensor reaksiyalarla yanaşı,həm də mürəkkəb hərəkətlərə malik olur.

Anadan normal doğulmuş çağanın:Çəkisi-orta hesabla 3200-3500 q., boyu-50 sm, başı böyük,ayaqları gödək,gövdəsi uzun olur. Beyninin çəkisi-orta hesabla 360-400q(yaşlılarda 1400q) olur. Onurğa,uzunsov beyni, həmçinin qabığaltı mərkəzləri morfoloji və funksional cəhətdən inkişaf etdiyindən şərtsiz reflekslərı tənzim və idarə edir. Yaşlıların köməyi olmadan çağa özünün heç bir tələbatını ödəyə bilmir. Deməli burada hərəkət subyekti yaşlı ilə birgə fəaliyyət göstərən çağadır.

Çağanın reseptor və hərəkətlərinin inkişafı:I ay-sosial hərəkətlərini məhdudlaşdırdıqda çox narahat,narazı,emosional hallar keçirir, əksinə mürəkkəb hərəkətlər etdikdə xoşhal olur. 4-5həftəlik uşaq görmə,eşitmə qıcıqlarının təsiri ilə öz hərəkətlərini dayandırır. 1,5-3aylıq-impulsiv hərəkətlərdə canlanma. 2,5—4-5 aylıq arası-əşyaları görəndə baxışını ona yönəldir, tərpənir, əlləşdirir, amma ona tərəf getmir. 4aylıq-mütəmadi olaraq əlini geydiyi paltarlara toxundurur,uzaqda olan cismə doğru əl uzadır,tutmağa çalışır, əli ilə tutur əşyanı, oynadır. 5-5,5 aylıq-oyuncaqlardan daha çox nəzərə çarpanı seçir.

Tədricən görmə,eşitmə, toxunma,hərəkət və digər analizatorlar arasında şərti reflektor rabitələr yaranır, 7-8 aylıqda əşyaları fəal əlləşdirmə prosesi təşəkkül edir. 9aylığında-barmaqla göstərmə hərəkətləri. Kiçik şeyləri iki barmağı ilə (baş və göstərici), böyük əşyaları bütöv əlini açaraq tutmağa çalışır. 11aylıq-əşyanı iki əli ilə də əlləşdirir, hərəkətlərini bəsit formada planlaşdırmağa başlayır.

I ilin II yarısı-uşaq müəyyən əşyalardan tutaraq sürünməyi, iməkləməyi, ayağa qalxmağı, oturmağı öyrənir. Bu da onun sümük-əzələ sisteminə təsir edərək onu möhkəmlədir, görmə hərəki sistemini tənzimləyir. 8aylığında əvvəlcə onu əhatə edən əşyalara söykənib oturur, ayağa qalxır, sonra isə müstəqil halda oturub-qalxır. 1yaş-yeriməyə başlayır.

Beləliklə, çağalıq yaşı dövründə uşaq həm əqli, həm də fiziki baxımdan sürətlə inkişaf edir, ətraf mühiti qavrayır, ona aid təsəvvür, münasibət yaranır, ünsiyyət tələbatı təşəkkül tapır, nitqi anlama qabiliyyəti təzahür edir, əşyalarla davranmağı öyrənir, yaşlılarla əməli və şəxsi emosional ünsiyyət formalaşır.

Çağalıq dövrünün mühüm fərqləndirici xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, bu dövrdə çağanın analizatorlarının fəaliyyəti somatik (bədən) hərəkətlərinə nisbətən surətlə inkişaf edir. Burada xüsusilə görmə və eşitmə analizatorları fərqlənir. II həftənin axırlarına yaxın çağada ilk şərti refleksin yarandığı müşahidə olunur. Bu cür şərti refleksə ilk qida refleksini aid etmək olar. Ana uşağı hər dəfə qucağına götürərək əmizdirir. Nəticədə 10-12 günlük uşağı yerindən götürən kimi o, ağlamağını kəsir, ağzı ilə anasının döşünü axtarır və əmmə hərəkətləri edir. II ayın sonunda bütün analizatorlar üzrə şərti refleks yarana bilir.

Çağa anadan sensomotor qabiliyyətlərlə doğulur. Onun psixi inkişafında görmə və eşitmə analizatorlarının fəaliyyəti çox mühüm rol oynayır. Uşaq anadan olduğu andan etibarən onda eşitmə duyğuları inkişaf edir.

Çağalıq dövründə uşaqda görmə duyğuları və bu əsasda da müdafiə reaksiyası müşahidə olunur. Bu, özünü aşağıdakı şəkildə göstərir: 1) bəbəklər geniş açılır; 2) baş geriyə tərəf atılır; 3) əlin qaldırılması- bu vaxt əl üzlə əşya arasında bir növ sədd rolunu oynayır.

Tədqiqat və müşahidələr göstərir ki, çağa bir həftəliyində artıq cismin uzaqlaşmasını və bu vaxt aş verən dəyişiklikliyi qavraya bilir. 12 günlük uşaq öz əlini nəzərdən keşirməyə başlayır.

Çağada emosional hallar daha qabarıq şəkildə nəzərə çarpır. Çağalıq dövründə xəstəlik, aclıq, yuxusuzluqla əlaqədar narazılıq hissi özünü biruzə verir. Belə ki, uşaq nədənsə narahat olanda dərhal əmmə hərəkətlərini dayandırır. Bu narazılıqdan xəbər verir.

Uşaq 2-3 aylığında onunla ünsiyyətdə olan adamlara müəyyən münasibət bəsləyir: onları gördükdə üzündə təbəssüm yaranır, sürətli əl qol hərəkətləri edir, ayaqları da bu canlanmaya qoşulur. Uşağın bu cür hərəkətlərini adətən, "canlanma kompleksi" adlandırırlar.Əgər uşaqlar bu dövrdə anadan ayrı düşür, uşaq evinə və ya doğum evində qalırlarsa, onlarda psixoloji inkişaf ləngiməyə başlayır, onlar 9-10 aylığa qədər sakit, süst, bir nöqtəyə yönələn baxışlara sahib olurlar ki, buna qospitalizm deyilir.

Bu dövrdə uşaqda hərəki və hissi davranış aparıcı rol oynayır.

İnsanın erkən uşaqlığı və meymunun "uşaqlığı". İnsan övladı özünün idrakı, əqli sayəsində cəmiyyətin həyat təcrübəsini mənimsəmə imkanlarına malikdir. O, heyvan balasına nisbətən xarici mühitə daha sürətlə alışır, uyğunlaşır və sonralar əmək alətləri hazırlayır, onlardan istifadə edir. Bunun üçün uşağın əlləri lazımi formada inkişaf edir. Belə olmasa idi, əmək alətlərinin hazırlanması mümkün olmazdı. Elm sübut edir ki, yerimə halında olduğu kimi, əlin dartma vərdişlərinin ayrı-ayrı ünsürləri də doğumdan xeyli əvvəl təzahür edir. Tutma və dartma üçün zəruri olan ünsürlərin hamısı rüşeym hələ 14-16 həftəlik olduqda seçilir.

Nəzəri və eksperimental-genetik tədqiqatlar göstərir ki, insan psixikası ilə meymun psixikasının ontogenetik inkişafı arasında dərin və əsaslı fərqlər mövcuddur. Əgər meymunlarda 2 cür təcrübənin-ayrı-ayrı fərdlərin anadangəlmə, insanların mövcud həyat şəraitində adaptasiya yolu ilə uyğunlaşmasında ifadə olunan təcrübənin mənimsənilməsi nəzərə çarpırsa, insanlar ayrı-ayrı fərdlərin öz həyatı müddətində bəşəriyyətin yaratdığı, maddi və mənəvi mədəniyyət məhsullarından cəmlənmiş ictimai tarixi təcrübəni mənimsəyir.

Deməli, insan olmaq üçün hər şeydən əvvəl, insan beyni ilə doğulmaq lazımdır. Psixoloq Ladıgina-Kotsun yüksək inkişaf etmiş meymun balaları üzərində apardığı tədqiqatlar inandırıcı surətdə sübut etdi ki, müvafiq təbii zəminlər olmadan insan şəxsiyyətini formalaşdırmaq mümkün deyildir. Təbii zəminlər insan psixikasının inkişafı üçün sadəcə olaraq mühüm deyil, həm də tamamilə zəruri şərtdir. Lakin təbii zəminlər zəruri şərt olmasına baxmayaraq, heç də uşağın psixi inkişafının hərəkətverici səbəbi hesab olunmamalıdır. Meymun balalarından fərqli olaraq, uşaqda sinir sisteminin yetkinliyi öz-özlüyündə heç bir fəaliyyət növünün inkişafına təsir göstərmək iqtidarına malik deyildir. Bu yetkinlik uşağın psixi inkişafı üçün ancaq elə imkanlar verir ki, onlar bilavasitə

müəyyən ictimai mühit və tərbiyənin varlığı zamanı həyata keçirilə bilər. Əgər meymun balası üçün mühit yalnız onun uyğunlaşdığı şəraitlərin məcmuyu rolunu oynayırsa, insan övladı üçün ona məxsus olan ictimai mühit, sadəcə xarici şərait kimi deyil, meymunun psixi və fiziki inkişafının mənbəyi kimi çıxış edir.

Uşaq və yaşlı. Bu dövrdən uşaq hərəki vərdişlərə yiyələnir, idrak qabiliyyətlərinin əsası qoyulur. Körpəlik şəxsiyyətin inkişafında elə bir mərhələdir ki, bu dövrdə idrak baxımından uşaq çox şey qazana və ya itirə bilər. Özü də körpə bu dövrdə köməksiz, aciz bir varlıqdan ağıllı, düşünülmüş hərəkətlər edən şəxsiyyət kimi inkişaf etməyə başlayır. Bu vaxt uşağın inkişaf mənbəyini körpənin mövcud imkanları ilə ətraf aləmin tələbləri arasındakı ziddiyyətlər təşkil edir.

Tədqiqatlardan məlum olur ki, uşağın psixi inkişafında yaşlı nəslin qazandığı ictimai təcrübəni onun mənimsəməsi həlledici rol oynayır. Bu cür mənimsəmə ətrafdakı adamlarla ünsiyyət və onlarla birgə fəaliyyət prosesində həyata keçirilir.

Ziqmund Freydin fikrincə uşaq körpəlik dövründə qeyri-sosial varlıq olub, özünün daxili aləminə qapılıb qalır. Görkəmli psixoloq L.S.Vıqotski və başqa rus psixoloqları elmi dəlillərlə sübut edirlər ki, körpə yaşlılarla bilavasitə ünsiyyətdə olan və bu birgə fəaliyyət prosesində təşəkkül tapan sosial varlıqdır. Yaşlılar körpənin bütün üzvi tələbatlarını ödəyir, onun psixi həyatını fəallaşdırırlar. L.S.Vıqotski göstərir ki, uşağın gerçəkliyə münasibəti ilk andan sosial münasibətdədir. Məhz buna görə də körpə lap elə əvvəldən sosial varlıq kimi diqqəti cəlb edir.

I yaş dövründə yaşlı adamlar, adətən, uşağın ətraf aləmdəki şeylərlə ünsiyyətində vasitəçi rolunu oynayır. Yaşlılar olmadıqda çox vaxt körpə onu əhatə edeən şeylərə məhəl qoymur. Əksinə, yaşlıları yanında hiss etdikdə, onların iştirakı ilə ətrafdakı şeylərə daha çox maraq göstərir. Uşağın yaşlılarla ünsiyyəti tədricən birgə fəaliyyətə çevrilir. Adətən, uşaq oyaq olduğu bütün dövr ərzində yaşlılarla ünsiyyət göstərməyə hazır olur.

2. Çağanın psixi inkişafı

Uşağın ətraf mühitlə ilkin əlaqəsində ***duyğuların*** böyük rolu vardır. Duyğular vasitəsilə o, ilk dəfə cisim və hadisələrin ayrı-ayrı xassələri haqqında məlumat əldə edir.

Uşaqda duyğu üçün lazım olan anatomik-fizioloji cihaz-analizator anadangəlmə mövcud olur. Bunun sayəsində yeni şəraitə uyğunlaşmaq üçün uşaqda bir sıra şərtsiz reflekslər özünü göstərir, lakin ətraf mühitdən baş çıxarmaq üçün bunlar hələ kifayət etmir. Xarici mühitin qıcıqlandırıcılarına cəld və dəqiq surətdə cavab vermək üçün uşaqda yaşlıların təsiri altında müəyyən şərti reflekslər yaranmağa başlayır. 2-3 aylıqda bütün analizatorlar üzrə şərti refleks yarana bilir.

Yeni doğulmuş uşaqda **görmə duyğusu** hələ normal fəaliyyət üçün tam hazır olmur.Gözlərin uzlaşmış hərəkəti I ayın sonunda,II ayın əvvələrində meydana gəlir.Nəticədə uşaq başını və gözünü işığın mənbəyinə,hərəkət edən cismə tərəf yönəldir.

3 həftəlik uşaq optik qıcıqlara qarşı göz almacığının hərəkətlərini uzlaşdırır və onda konvergensiya (uyğunlaşma) əmələ gəlir. Amma ilk zaman konvergensiya çətinliklə yaranır, uşaq hətta gözdən 10 sm uzaqda olan parlaq cismə belə gözünü uyğunlaşdıra bilmir.

II aydan sonra uşaqda görmənin mərkəzləşməsi daha tez-tez müşahidə olunur. Bununla yanaşı, hərəkət etməyən parlaq cisimlər də uşağı cəlb edir. Onun ümumi inkişafı ilə əlaqədar görmə duyğuları təkmilləşir və inkişaf edir.

Uşaqlarda görmə duyğuları görmənin itiliyi istiqamətində inkişaf edir. Psixoloqların apardıqları tədqiqatlar sübut edib ki,uşaqlar böyüdükcə görmənin itiliyi də yüksəlir.

Yeni doğulmuş uşaqda **eşitmə** üzvünün tam inkişaf etməsinəbaxmayaraq, orta qulaq selikli maye ilə dolu olduğundan, uşaq hələ səsləri aydın şəkildə eşidə bilmir. Bu maye I həftənin sonunda orqanizmə sorulur və bunun sayəsində uşaq səsə qarşı reaksiya verir. III həftənin sonunda əgər uşaq səsə qarşı reaksiya vermirsə, deməli, qüsur var.

3 aylıq uşaqda eşitmə duyğuları xeyli inkişaf etmiş olur. 3-5 aylıq uşaq təkcə güclü səslərə doğru deyil, onun mənbəyinə doğru da çevrilir. 6 aylıq uşaq ayrı-ayrı səsləri, 7 aylıq uşaq isə hecaları təqlid etməyə başlayır.

Uşaqlarda **taktil duyğular** da nisbətən yaxşı inkişaf etmiş olur.Xüsusilə də toxunma və təzyiq duyğuları. 3-5 aylıq uşağın alnı, qulağı, qarnı, sinəsi arasında lokal reaksiya əmələ gəlir.

İstilik və soyuqluq duyğuları da uşaqda müəyyən qədər inkişaf etmiş olur. Uşaqda getdikcə lamisə duyğuları, yəni cisimləri əl ilə yoxlamağa yönəlmiş reaksiyalar da əmələ gəlir. Uşaq həyatının I ayında dərinin qıcıqlandırılan hissəsinə əlini uzadır. 2-3 aylıqda isə bədəninin müxtəlif yerlərinə əli ilə toxunur. III aydan başlayaraq körpədə lamisə duyğuları tədricən görmə və eşitmə ilə əlaqəyə girir, bu da beyində şərti reflekslərin yaranmasına səbəb olur. 6 aylıq uşaqda əl hərəkətetmə və idrak aləti kimi inkişaf edir.

İybilmə duyğusu çox zəif olur. Dadbilmə isə digər duyğulara nisbətən yaxşı inkişaf etmiş olur.

II ayın axırında çağada qavrayışın çox sadə formasına təsadüf edilir ki, bu da onda mürəkkəb qıcıqlandırıcılara qarşı şərti refleksin yaranması ilə əlaqədardır.

Diqqət uşaqlarda çox erkən inki.af etməyə başlayır. Uşaq diqqətinin təşkilində onun üzvi tələbatının ödənilməsi ilə bilavasitə bağlı olan obyektlərin rolu böyükdür. Diqqətin davamsızlığı, məhdudluğu, tez yayınması və s. kiçik yaşlı uşağın diqqətini xarakterizə edən xüsusiyyətlərdir. Diqqət ilk dövrlər **qeyri-ixtiyari** olsa da, müəyyən inkişaf yolu keçərək onun fəaliyyətində mühüm rol oynayır.

Uşaqda ***hafizənin*** təşəkkülü şərti reflekslərin meydana gəlməsilə əlaqədar baş verir. Uşaq həyatının 3-4 ayından başlayaraq, bütün analizatorlar üzrə şərti reflektor əlaqələr hafizənin əsasını təşkil edir.Uşaqlarda duyğu və qavrayış əsasında təfəkkür də tədricən təşəkkül tapmağa başlayır.

3. Ünsiyyət dairəsinin genişlənməsi və ünsiyyət prosesində emosional halların ilkin təşəkkül xüsusiyyətləri

Uşaq dünyaya gələrkən danışa bilmir, amma daxili və xarici qıcıqlandırıcıların təsiri ilə bəzi reaksiyalara cavab verir.

Psixoloji ədəbiyyatda uşağın ***nitq inkişafının*** 3 əsas mərhələsi qeyd olunur;
I mərhələ- 2aydan 11 aya qədər.Uşağın nitqə yiyəlnməyə hazırlıq mərhələsi.
II mərhələ- 11aydan 1il yeddi aya qədər. Dilin psixi-hissi mənimsənilməsi mərhələsi.

III mərhələ- 1 yaş yeddi aydan 3 yaşa qədər. Dilin qrammatik quruluşuna yiyələnmək mərhələsi.

Nitqə hazırlıq mərhələsinin özünün də bir neçə yarımmərhələsi var:
I yarımmərhələ- emosional ünsiyyət mərhələsi. Birinci 6ay ərzində təzahür edir. 2-3 aylıq uşaq səsini eşitdiyi adamı gözü ilə axtarır. Bu mərhələdə böyüklərlə ünsiyyətə tələbat doğur; çağa yaşlılara baxıb gülümsəyir. 3-4 aylıq uşaq böyüklərin nitqini dinləməklə bərabər qığıldamağa başlayır.
Uşaq normal inkişaf etdikdə, anadan olduqdan 2, 3 ay sonra "a", "o", "u" səslərinə bənzər, aydın olmayan səslər ifadə etməyə başlayır. 4-cü aydan başlayaraq uşaqda səsləri qavrama, səsin tonunu, intonasiyasını ayırd etmə özünü büruzə verir.
II yarımmərhələ- uşaq yaşlıların hərəkətlərini, mimikalarını və nitqini anlamağa başlayır və hərəkətlərini böyüklərin danışığı ilə əlaqələndirməyə çalışır.

Uşağın nitq və tələffüz orqanlarının inkişafı ilə əlaqədar olaraq o, tədricən "b", "m", "n" səslərini tələffüz etməyə başlayır və "də", "ba", "nə" hecalarını ifadə edir. Bu hal 6-7 aylıq uşaqlarda müşahidə edilir.

8 aylıq uşaq səsin intonasiyasını qavraya bilir, ona müraciətlə və yaxud məzəmmətlə deyilən sözləri bir-birindən fərqləndirir. Uşağı oxşadıqda sevinir, gülümsəyir, qığıldayır, ona hirsləndikdə isə dodağını büzür, inciyir və ağlamağa başlayır. Bu, uşağın fenomatik eşitmə, yəni səsləri aydın qavrama bacarığının inkişafının başlanğıcını göstərir.

8-9 aylıq uşaq bir sıra sözləri başa düşür, sözə müvafiq hərəkət edir, yaşlıların uşağa söylədiyi sözləri təqlid edir, onları tələffüz etməyə çalışır. Nitqə hazırlıq mərhələsində uşaq "ana", "nənə", "ata", "çay" kimi sözləri tələffüz edə bilir. Bu zaman uşağın nitqində 10-dan 45-ə kimi söz söz ehtiyatı olur.

Bu söz ehtiyatı passiv, yəni uşağın yalnız başa düşdüyü sözlərə və fəal, yəni uşağın danışıqda işlətdiyi sözlər ayrılır. Uşaqda qeyri-fəal söz ehtiyatına nisbətən, fəal söz ehtiyatı az olur.

Uşaqda ***emosiyalar*** çox erkən müşahidə olunur. İlkin emosiyalar körpənin üzvi ehtiyacları ilə bağlıdır. Uşaqda aclıq, susuzluq duyğularının təsiri ilə narazılıq, toxluq və rahatlıqla bağlı razılıq əhvalı təzahür edir. Aparılan tədqiqatlara görə körpədə lap ilk gündən qorxuya, şadlığa oxşar emosiyalar mövcud olur. Məsələn, uşağı atıb-tutduqda onun sifətində sevinc hissi, yuxarıdan aşağıya baxdıqda onun üzündə qorxu hissi, bələyərkən bələyin onun sərbəstliyinə mane olması sayəsində qəzəb hissi əmələ gəlir.

Uşaqlarda emosiyalar çox mütəhərrik, dəyişkən olur. Belə ki, onların ağlamalarını gülməklə, şadlığını başqa bir halla əvəz etmək çox asandır.Uşaqlar ona iynə vuran və ya dərman verən adamları görəndə çox narahatlıq hiss edirlər. Ağ xalat geyinən adamın yaxınlaşdığını görən kimi uşaq təşvişə düşür. Amma onu tərifləyəndə, oxşayanda sevinir, fərəhlənir.

Uşaq anadan hazır ***iradə*** ilə doğulmur.Belə ki,o anadan olarkən nə cəsarətli,nə qorxaq,nə tənbəl,nə də qoçaq olur.Bu keyfiyyətlər uşağın ictimai mühitdə inkişafı prosesində formalaşır.

Dünyaya gəlmiş uşağa daxili və xarici qıcıqlar təsir edir və uşaq onlara qarşı bu və ya digər reaksiyalar verir. Bu reaksiyalar çox təkrar edildikdə tədricən uşaqlar onları idarə etməyi öyrənir, həmin hərəkətlər getdikcə ixtiyari xarakter daşıyır və bu da iradənin ilk təzahürləri kimi meydana çıxır. 11-12 aylıq uşaq nəinki baxmağı, eşitməyi, oturmağı, əlləri

ilə müxtəlif hərəkətlər etməyi, həm də müstəqil surətdə yeriməyi öyrənir ki, bu da iradənin inkişafına geniş imkanlar yaradır, onu formalaşdırır.

I yaşın sonunda uşaqlarda həmin yaş üçün səciyyəvi olan **təqlidçilik** əlamətləri təzahür edir. Belə ki, o, yaşlılar tərəfindən icra olunan hərəkətləri yamsılayır, ona oxşar hərəkətlər etməyə başlayır. Uşaqların təlim-tərbiyəsində təqlid mühüm rol oynayıb, bir sıra düşüncəli və mürəkkəb hərəkətlərin mənimsənilməsinə kömək edir.

Uşaqların təqlidçilik xüsusiyyətlərini nəzərə alaraq onların yanında mənfi, düzgün olmayan hərəkətlər edilməməlidir. Bu haqda görkəmli pedaqoq P.F.Lesqaft yazmışdır: "Uşaqda baş verən bütün yaramaz halların səbəbini onun özündə axtarmağa təşəbbüs göstərənlər, uşaqda təzahür edən sifətlərin onu əhatə edən adamlara məxsus xüsusiyyətlərin inikası olduğunu unudurlar, uşaqda görmək istəmədiyin hərəkətləri özün etmə".

Uşağın ətraf aləmi dərk etməsi ilə yanaşı, öz-özünü dərk etməsi də inkişafın zəruri şərtlərindəndir.Uşağın özünü dərk etməsi, hər şeydən əvvəl, ünsiyyət prosesində təzahür edir. Kommunikativ fəaliyyət prosesində uşaq öz tərəf müqabilinin idrak obyektinə çevrilir və onun reaksiyalarına əsasən öz hərəkətlərini müəyyənləşdirir.

Həyatının II yarım ilindən başlayaraq çağada yaşlılarla qarşılıqlı ünsiyyət prosesində özü haqqında təsəvvür yaranır. Bu dövrün I yarm ilində uşaqda özünüdərketmə müsbət emosional özünüduyma halında, II yarım ildə isə özünü fəaliyyət subyekti kimi qavrama halında formalaşmağa başlayır.

4. Körpənin fiziki inkişafı

Körpəlik dövrü 1 yaşdan 3 yaşa qədər olan müddəti əhatə edir. Bu dövrdə uşağın fiziki inkişafında əsaslı dəyişiklik baş verir. Boyu və çəkisi artır.

	Qızlar		Oğlanlar	
Yaş	Boyu (sm-lə)	Çəkisi (kq-la)	Boyu (sm-lə)	Çəkisi (kq-la)
1 yaş	74	10	75,3	10,5
1 yaş 3 aylıq	77, 5	10,6	78,3	11,2
1 yaş 6 aylıq	80, 1	11,2	80,9	11,7
1 yaş 9 aylıq	82, 1	11,77	85,9	12,2
2 yaş	85	12,1	88,4	12,7
2 yaş 6 aylıq	89	13,2	90,4	13,6
3 ay	93	14,2	93,8	14,6

Yeriməyi öyrənmə və körpənin inkişafında onun əhəmiyyəti. Uşağın ayaq üstə, düz yeriməyi öyrənməsi erkən yaşın ən böyük nailiyyətidir.Çağa bir yaşın sonunda ilk müstəqil addım atır.O, ilk vaxtlar öz hərəkətlərini uzlaşdıra bilmir, müvazinətini tez-tez itirir və yıxılır. Burada yaşlılar ona kömək edib, yerişi öyrədir. Beləliklə, uşaqda məkana ilkin münasibət yaranmağa başlayır. İlk kövrək addımlarını atan uşağın bu uğuruna yaşlıların sevinməsi uşaqları daha da həvəsləndirir və dəfələrlə yıxılsa belə onlar yenidən ayağa qalxıb yeriməyə çalışırlar.Uşağın yeriməsinə yalnız yaşlıların onları həvəsləndirməsi deyil, həm də əzələ hərəkətlərinə olan tələbat böyük təsir göstərir. Əzələ hərəkətlərinə olan daxili tələbat uşağı təhrik edir ki, o yerimək vərdişinə yiyələnsin. Eyni zamanda hər günkü yeriş hərəkət aparatını getdikcə təkmilləşdirir. Yaş yarımında körpə çətin yerlərdən keçərək yeriməyə çalışır.

II ildə isə yerimək bacarığı uşağın tələbatına çevrilir, o, çox yeriməyə və mütəhərrik olmağa cəhd edir. Körpənin davranışı bir yaşın axırında avtomatlaşdıqca hərəkətlərdəki gərginlik zəifləyir.

II ilin ortalarında uşaq müxtəlif hərəkətləri mənimsəyir, şeyləri götürüb başqa yerə qoyur. Sərbəst yerimək qabiliyyəti uşağın ətraf mühitlə təmasınnı, əlaqəsini genişləndirir. Əzələ hissi ona şeylərin məkanda yerləşməsi vəziyyətini qavramağa imkan verir. Uşaq tədricən cisimlə özü arasındakı məkanı, əşyaların otaqda yerləşməsi təsəvvürünə yiyələnir. Yeriş uşağa əşyaların formasını, böyüklüyünü, rəngini praktik olaraq tanımağa imkan verir. Körpənin II ildə əşyalarla bilavasitə təması onun psixi inkişafında mühüm rol oynayır. Düzgün yerimə vərdişinə yiyələnmək uşağın ətraf aləmlə nəinki qarşılıqlı təsirini genişləndirir, eyni zamanda körpənin müstəqilliyini də inkişaf etdirir.

Uşaq psixikasının sürətli inkişafı **bir neçə amillə** əlaqədar həyata keçirilir. **Əvvəla**, uşağın yeriməyi öyrənməsi onun davranışına, psixi inkişafına əsaslı təsir göstərir. Bu da ondan irəli gəlir ki, uşağın məkanda yerdəyişməsi imkanına yiyələnməsi onun ətraf aləmi daha yaxşı dərk etməsinə səbəb olur. Artıq yeriməyə başlamış uşaq müxtəlif

cisimlərə yanaşır, onları “yoxlayır”, bir növ təhlil, tərkib aparmağa başlayır. Bu dövrdə valideynlər adətən, uşaqlarını hər şeydən qorumağa çalışırlar. Körpə bir növ “olmazlar” çəpərində böyüməyə başlayır. Valideynlərin bu cür hərəkətləri psixoloji baxımdan düzgün deyildir. Çünki belə hərəkət uşağın psixi inkişafına, onun ətraf aləm hadisələrindən baş çıxarmasına, onları dərk etməsinə mənfi təsir göstərir. Bu dövrdə valideyn və yaşlılar uşağa sərbəstlik və müstəqillik verməlidirlər. Belə olduqda psixoloji baxımdan, uşağın doğru və düzgün inkişafına şərait yaratmiş olarlar.

İkincisi, uşağın yeriməyi öyrənməsi onda bir sıra psixoloji dəyişikliklərin yaranmasına səbəb olur. Məkanda sərbəst hərəkəti mənimsəmiş uşaq onu əhatə edən ətraf aləmin daha çox cisim və hadisələrilə ünsiyyətə girir. Bu ünsiyyət prosesində uşaq həm həmin cisim və hadisələrin mahiyyətini, həm də onların arasında mövcud olan əlaqə və münasibətləri dərk edir. Ətraf aləmlə olan ünsiyyət onun psixi inkişafını xeyli sürətləndirir.

Üçüncüsü, erkən uşaqlıq çağlarında uşağın indiyə qədər adətən,düşünülməmiş tərzdə həyata keçirilən hərəkətlər sistemi indi əşyavi fəaliyyətə çevrilir. Uşaq hər bir əşyanın nə funksiya daşıdığını bilmək istəyir. Uşaq bunları təkbaşına “kəşf” etmir. Uşağa böyüklər bunu izah edir. Deməli, uşağın ətraf aləmi dərk etməsi, onun hadisələrdən baş çıxarması bilavasitə yaşlıların rəhbərliyi altında həyata keçirilir.

Dördüncüsü, bu yaşda uşaqlar adətən, ünsiyyətdə olduqları əşyanı və ya oyuncağı hissələrə ayırır, yaxud qırırlar. Bu, valideynlərin əsəbləşməsinə səbəb olsa da, məsələyə psixloji baxımdan yanaşdıqda uşağın haqlı olduğunu görmək olar. Çünki, uşaq cismin mahiyyətini başa düşmək üçün onu tərkib hissələrinə ayırır.

5. Körpənin psixi inkişafı

3 yaşın axırlarına yaxın uşaqda meydana gələn yeni fəaliyyət növləri- oyun və fəaliyyətin məhsuldar növləri, ətraf aləmə bələdliyi, maraq və meyli onun psixi inkişafı üçün zəmin yaradır. Bu dövrdə uşaq ətrafdakı hər şeyə maraq göstərir və suallar verməyə başlayır.

Erkən uşaqlıq dövrü uşağın nitqə yiyələnməsinin ən senzitiv, səmərəli dövrü hesab olunur.Əgər uşaq həmin dövrdə nitqə yiyələnmək imkanından məhrum olarsa, sonradan bu qüsuru aradan qaldırmaq çətin olur.

1 yaşdan 3 yaşa qədər olan dövr- uşağın nitqə yiyələnməsi, dilin ilkin mənimsənilməsi mərhələlərini əhatə edir.Bu dövrdə lüğət ehtiyatının artması və sözləri düzgün tələffüz etməklə bərabər nitqin qrammatik quruluşu da inkişaf edir. 1 yaş və yaş yarımlıq uşağın nitqi tək-tək sözlərdən ibarət olur.

Uşaq nitqə yiyələnməyə başlayarkən, ilk növbədə, yaşlı adamlardan eşitdiyi sözlərun mənasını mənimsəyir. Lakin onun həyat təcrübəsinin azlığı, fikri proseslərinin kifayət qədər inkişaf etməməsiilə əlaqədar uşaqların yiyələndikləri sözlərin mənaları yaşlıların işlətdiyi sözlərdən fərqlənir.

Uşaq II yaşın sonunda 300-ə qədər, III yaşın sonunda isə təxminən 1500-ə qədər sözdən istifadə edə bilir ki, bu da nitq ünsiyyətinə girməyi təmin edir.

Uşaq yaşa dolduqda onun nitqi tədricən dəqiqləşməyə, ifadə etdiyi sözlər əşyalara uyğun olmağa başlayır. Eyni zamanda uşaq tək-tək sözlərdən deyil, bir neçə söz iştirak edən ən sadə cümlələrdən istifadə etməyə başlayır. Lakin ilk dövrlər həmin cümlələrdəki

sözlər arasındakı əlaqə istənilən səviyyədə olmur. III yaşdan başlayaraq bu cür çətinlik aradan qalxmağa başlayır, uşaq cümlədə işlətdiyi sözləri əlaqələndirə bilir.

Uşaq təfəkkürünün inkişafı ana dilinə, onun lüğət fonduna və qrammatik quruluşuna yiyələnməsi prosesi ilə ayrılmaz surətdə bağlıdır.

Aparılan psixoloji tədqiqatlar göstərir ki, bağça yaşına çatmamış uşaqlar öz fikirlərini sözlə ifadə edə bilsələr də, onların təfəkkürü müəyyən hərəkətlərlə daha çox bağlı olub, bu hərəkətlərdə təzahür edir.

Bu dövrdə uşaqların fikri fəaliyyəti əsasən konkret cisim və hadisələrlə bağlı olur. Get-gedə uşaqlar böyüklərdən eşitdiyi sözləri ikinci siqnallar kimi dərk etməyə başlayır və bununla əlaqədar ümumiləşdirmələrə meyl edirlər. Bu ümumiləşdirmələr təkcə hərəkətlərlə bağlı olub qalmır, söz siqnalları əsasında da aparılmağa başlayır.

Uşağın yaşlılarla ünsiyyəti, onun şəxsi həyat təcrübəsi, uşağı əhatə edən sosial mühit də onda təfəkkürün inkişafına təsir göstərir.

2-3 yaşında uşağın diqqəti yeni xüsusiyyətlər qazanmağa başlayır. Burada uşağın böyüklərlə nitq ünsiyyətində olması mühüm rol oynayır. Söz siqnalları onun diqqətinin müəyyən obyektə yönəlməsi üçün qıcıqlandırıcı rolunu oynamaqla bərabər, uşağın qeyri-ixtiyari diqqətinin davamlılığı və dəqiqliyinə əsaslı təsir göstərir.

3 yaşa qədər olan uşaqlar əşyaya uzun müddət baxa bilir, diqqətləri onun üzərində mərkəzləşir, cismi əlləşdirir, onunla oynayırlar.

Bu dövrdə hafizə sürətlə inkişaf edir. 18-22 aylıq uşaq özünü güzgüdə tanıyır. Əgər I yaşın axırı, II yaşın əvvəllərində uşaq sözləri fərqləndirir və müəyyən hecalar şəklində yada sala bilirdisə, indi o, yaşa dolduqca əvvəllər gördüyü cisimləri yenidən qavradıqda tanıya bilir. Bu yaş dövründə tanımanın gizli dövrü bir neçə günə bərabər olur.

2 yaşlı uşaq bir neçə həftə əvvəl, 3-4 yaşlı uşaq isə bir neçə ay əvvəl ünsiyyətdə olduğu, gördüyü adamları tanıyır.

Tanıma ilə yanaşı, qavranılmış əşyaları xatırlama da inkişaf edir. Qavrayış prosesi iştirak etmədən iradi səy sayəsində həyata keçirilən xatırlama hafizənin formalaşmasında yeni mərhələ təşkil edir. Xatırlama I ilin axırı, II ilin əvvəllərində özünü göstərməyə başlayır.

Körpə uşaqlarda hafizə qeyri-ixtiyari xarakter daşıyır, bu dövrdə uşaqlar öz qarşılarına xüsusi yaddasaxlama məqsədi qoymurlar. 2-3 yaşlı uşaqlar onları maraqlandıran, tələbatları ilə əlaqədar olan məsələləri qeyri-ixtiyari şəkildə yadda saxlayırlar.

İxtiyari yaddasaxlamanın ilk təzaürlərinə 3-4 yaşlı uşaqlarda rast gəlinir. Uşaqlarda ilk ixtiyari (niyyətli) yaddasaxlama müəyyən tapşırıqları icra edərkən oyun prosesində baş verir. Tərbiyəçi və valideynin tapşırıqlarını düzgün yerinə yetirmək, oyun zamanı səhvə yol verməmək üçün uşaq bu və ya digər tələbləri, qaydaları ixtiyari olaraq yadda saxlayıb, yada salmağa cəhd edir.

Təxəyyül uşaqlarda onlar müəyyən təsəvvür ehtiyatına yiyələndikdən sonra inkişaf edir. Bu təsəvvür ehtiyatı uşaqda 1 yaşla 3 yaş arasında qazanılır. 2 yaşda uşaqlarda təxəyyülün ilk təzahürünü müşahidə etmək olar.2-3 yaşından başlayaraq uşaqlarda təxəyyül müxtəlif vasitələr əsasında təşəkkül tapır. Belə ki, bu yaşda olan uşaqlar

illüstrasiyalar, kiçik həcmli nağıllarla əlaqədar məsələləri təsəvvür edə bilir. Bütün bunlar uşaq təxəyyülünün ilk təzahürləridir. Lakin bu zaman uşaqlarda təxəyyül surətləri çox məhdud xarakter daşıyır. Bu dövrdə uşaqda həmçinin təxəyyül qeyri-fəal xarakter daşıyır. Bu vaxt yalnız bərpaedici təxəyyül müşahidə olunur.

Bu dövrdə uşaqlarda hisslər də surətlə inkişaf edir. Xüsusilə də utancaqlıq hissi özünü daha çox büruzə verir. Uşaq başqa bir yerə getdikdə və ya tanımadığı insanların içərisində olduqda utanmağa başlayır. Bu hiss bəzən uşaqda böyüdüyü şəraitin və ya tərbiyənin təsiri üzündən baş verir.

Kiçik yaşlı uşaqlarda məsuliyyət hissinin inkişafına da təsadüf etmək olar. Bu hissə malik uşaqlar ləyaqətlə davranmağa, öz üzərinə düşən işi layiqincə yerinə yetirməyə can atır. Uşaqda müşahidə olunan bu məsuliyyət hissini daha da inkişaf etdirmək lazımdır. Əks təqdirdə uşaq mənəvi cəhətdən zəif, qüsurlu inkişaf edə bilər.

5.Körpənin fəaliyyəti

Əşyavi fəaliyyət.Körpənin əsas aparıcı fəaliyyət növü onun əşyavi xarakterli fəaliyyətə yiyələnməsidir. Bu fəaliyyətin ilkin ünsürləri hələ çağalıq dövründən formalaşmağa başlayır. Əşyavi fəaliyyətə keçid uşaqda cisim və hadisələrə yeni münasibət yaradır.

Əşya uşaq üçün yalnız əlləşdirmə obyekti olmur, həm də körpə ondan istifadə qaydalarını öyrənir. Əşyanın hansı funksiya, xassə və əlamətlərə malik olmasını uşağa böyüklər öyrədir.

Uşağın əşyavi fəaliyyətinin təşəkkülü əsasən 3 mərhələdən keçir:

1. 6-7 aylıq uşaqların əşyanı əlləşdirmə fəaliyyəti olub, 7-9aylığında bələdləşmə hərəkətlərinə çevrilir.
2. Bir yaşın sonunda bu iş spesifik, əşyavi hərəkətlərə keçir. (nəticəli fəaliyyət) Uşaq əşyalarla necə davranmağı, necə rəftar etməyi mənimsəyir. Bunun üçün o, əşyalar üzərində bir sıra əməliyyatlar həyata keçirir. Məsələn, topu dığırlayır, avtomobili itələyir, kuklanı yatmaq üçün yerinə qoyur və s.
3. Əşyavi işlərlə bilavasitə bağlı olan alətlərlə əməli fəaliyyət. Qaşıqla yemək, əşyaları yük maşınına yığıb aparmaq və s.

Əşyavi fəaliyyətin inkişafının ilkin mərhələsində əşya ilə hərəkət bir-biri ilə sıx surətdə bağlı olur: uşaq həmin əşya ilə davranmaq üçün lazımu hərəkətlərə yiyələnir.

Uşaq iki yaşından sadə situasiyalardan tədricən mürəkkəbə keçir və bununla da o, əllə əməliyyatdan alətlə əməliyyata keçir. 11 aylıqdan 2-3 yaşa qədər olan uşaqlar əməli "fəaliyyət" zamanı bir çox əşyalardan, köməkçi vasitələrdən istifadə edərək onlara verilən "tapşırıqları" yerinə yetirirlər. Yaşlılarla əməli ünsiyyət zamanı uşaq ona müraciətlə deyilənləri və yaşlılar tərəfindən bəyənilən hərəkətləri sayəsində yeni əşyavi hərəkətləri müvəffəqiyyətlə mənimsəyir və onları icra edir. Ona görə yaşlılarla ünsiyyətdə ödənilən tələbatlar əşyavi hərəkətlərin təkmilləşməsinin əsas şərti olur.

Əşyavi fəaliyyətdə diqqəti cəlb edən cəhətlərdən biri də budur: uşaq 2 yaşından sadə situasiyalardan tədricən mürəkkəbə keçdikcə o, əllə əməliyyatdan alətlə əməliyyata keçir.

Körpəlik dövründə alətdən istifadə etmək aparıcı fəaliyyət olub, uşağın idrak prosesinin inkişafına böyük təkan verir, həm də müsbət təsir göstərir. Əşyalarla iş qaydası qavrayışın

hissi-hərəki etalonunu formalaşdırır. Əşyavi hərəkətdən alətlə əməliyyatlara keçərkən əşyalardan istifadənin ictimai qaydaları mənimsənilir. Bu da əqli fəaliyyətin-əyani əməli təfəkkürün sadə formasını təşəkkül etdirir.

Alimlər 1 yaşdan 2 yaş yarımına qədər uşaqlarda əşyavi ümumiləşdirmənin 3 mərhələsini müəyyənləşdirmişlər:

1. Uşaq əşyaları parlaq rənglərə, nəzərə çarpan əlamətlərə görə qruplaşdırır. Bu, ilkin əyani ümumiləşdirmədir. Lakin bu mərhələdə uşaq hələlik əşyavi fəaliyyətə yiyələnməmiş olur.
2. Uşaq ayrı-ayrı əşyaları bir-birindən fərqləndirir. Lakin o, əsas əlamətləri II dərəcəli və dəyişkən əlamətlərdən ayıra bilmir.
3. Artıq körpədə ümumi məfhumlar təşəkkül tapmağa başlayır. Əşyavi fəaliyyət uşağın nitqini, oyun və təsviri fəaliyyətini, idrak proseslərini, yəni bütövlükdə psixikasını inkişaf etdirir.

Əşyavi fəaliyyət zamanı istifadə olunan ünsiyyət prosesi uşağın yeni şəraitə alışmasına, onun şəxsi keyfiyyətlərinin inkişafına da müsbət təsir edir və bu prosesdə uşaq qorxaqlığı, əzginliyi aradan qaldırır, yeni rastlaşdığı adamlarla ünsiyyət yaradır, onlarla münasibəti formalaşdırır.

Təsviri fəaliyyətin təşəkkülü. Erkən yaşlı uşaq nəinki əşyavi fəaliyyətə, həm də təsviri fəaliyyətə- nəticədə məhsulu olan fəaliyyətə, başqa sözlə desək, rəsm, yapma, aplikasiya, quraşdırma işlərinə də yiyələnir. Bunların təşəkkülü əşyavi fəaliyyətlə sıx bağlıdır.

Uşaqlar qələmlə kağız üzərində cızma-qara etməklə, ən başlıcası isə bir iz, işarə qoymağa çox həvəs göstərib maraqlanırlar. Bununla əlaqədar uşağın təsviri fəaliyyətə keçməsi üçün yaşlılar onunla uzun müddətli hazırlıq işləri aparmalı, qələmdən, kağızdan istifadə etməlidirlər. Bu işə meyllənmiş uşaq bəzən saatlarla qələmlə kağız üzərində cızma-qara işlərilə məşğul olurlar. 2 yaşından etibarən uşaqda öz əməli hərəkətlərini tənzimetmə imkanları yaranır. Əlbəttə, təkcə anatomik-fizioloji imkanları tənzimləmək heç də təsviri iş üçün hələlik kifayət deyildir. Bundan ötrü uşağa ləvazimatlar və böyüklərin köməyi lazım olur.

Erkən yaşlı uşaqlarda rəsmetmə qabiliyyətinin inkişafı onun psixikasının yüksək səviyyəsini göstərir. Uşaq eyni formada asanlıqla çəkdiyi cızma- qarasına müxtəlif mənalar verir. Bir dəfə onu dayısına oxşadır, bir dəfə dovşana və s. Alimlər uşağın cızma-qarasını məna və əhəmiyyət etibarilə 4 mərhələyə ayırmışdır;

Imərhələ-qələmlə müstəqil manipulyasiyanın nəticəsi olan cızma-qara.

IImərhələ-real şeylərlə assosiasiya yaradan və sözlə adlandırılaraq sərbəst manipulyasiya edilmiş cızma-qara (qələmlə çəkilən əlamətə — məna verir).

IIImərhələ-planlaşdırılmış real işarələri əks etdirəməyən cızma-qara (cisim və hadisələr öz-özlüyündə təsvir edilməmişdir).

IVmərhələ-əşyanın təsvir olunan cızma-qarası, onun qrafik quruluşu əşyanın ümumi cəhətlərini əks etdirir.

Uşaqda ilk qrafik-surətlər, təsviri fəaliyyətin təşəkkülü böyüklərin köməyi, onların uşağa yaratdıqları əlverişli şərait sayəsində körpənin sensor işlərinə fəal təsir etməklə təşəkkül tapır.

Uşağın təsviri fəaliyyəti, onun fəaliyyətinin xüsusi növünə çevrilməsi, rəsmin, yapışdırılmanın sonrakı inkişafı məktəbəqədər yaşda davam edir, sürətlə formalaşır və uşağın məktəbə hazırlanması sahəsində geniş imkanlar yaradır.

Üç yaşın böhranı problemi

3-cü yaşda uşaqda adətən "böhran" özünü büruzə verir. Buna 3 yaş "böhranı" deyilir. Bu yaşda uşağın inkişafında nəzərə çarpan tipik xüsusiyyətlər- ifadəli nitqin meydana gəlməsi, ətraf aləmin təsiri sayəsində onda parlaq surətlərin, təəssüratların yaranmasıdır. Bu yaşda uşaq, artıq özü haqqında «MƏN» deyə danışmağa başlayır.Bu mərhələdə uşağın psixi və fiziki keyfiyyətlərinin qeyri-adi surətdə inkişafı orqanizmin bütün sistemlərinin fəaliyyətubu gərginləşdirir.

Uşaq inkişafında bu "böhran" böyüklərlə qarşılıqlı münasibət zamanı, onun tələbinə əhəmiyyət verilmədikdə o, tərslik, inadkarlıq, höcətlik kimi neqativ keyfiyyət halında diqqəti cəlb edir. Uşağın müstəqil olaraq öz tələbatını ödəmək cəhdi, özünü başqa adamlarla müqayisə etməsi, böyüklərin verdiyi tələblərdən boyun qaçırması və hərəkətlərindəki sərbəstliyi bu "böhran" haqqında tam təsəvvür formalaşdırır.

Əgər yaşlılar uşağın müstəqilliyini, sərbəstliyini lazımı şəkildə tənzim və təşkil edərsə, yaş böhranı tədricən aradan qalxar. Bu böhran uşağın psixi və fiziki inkişafında mühüm addım sayılır.

Böyüklərlə qarşıllıqlı ünsiyyət prosesi, uşağı əhatə edən ictimai münasibətlər sistemi, özünə xidmət əməyi, nitqin təfəkkürlə dialektik əlaqəsi, sosial mühüm təsiri, xüsusi təlim və tərbiyə uşaq şəxsiyyətini formalaşdırır, onu cəmiyyətin üzvü olan fəal varlıq – insan kimi duymağa və fikirləşməyə sövq edir.

Uşağın özü haqqında ilkin təsəvvürləri, özünü dərk etməyə başlaması, müstəqilliyə can atması, onun şəxsiyyətinin təşəkkülü üçün zəmin yaradır.

***6.* Erkən uşaqlıq dövrü öyrənmə**

Erkən uşaqlıq dövrü öyrənməyə başlamanın, öyrənmənin formalarının, əlamətlərinin, müəyyən xüsusiyyətlərinin təşəkkül etməsi, hərəkətlərin, psixi təzahürlərin nitq və ünsiyyətin optimal inkişafı ilə səciyyələnir. Uşaq həyatda cisim və hadisələrlə, adamlarla ünsiyyətdə olduqda onları qavrayır, təqlid edir, beləliklə, onların həm xarici, həm də daxili, yəni psixi və fiziki aləmində dəyişmələr, törəmələr baş verir. Bu isə öyrənmə ilə nəticələnir. Öyrənmənin mexanizmi bütün canlılarda əsasən eynidir. Lakin uşağın öyrənmə prosesinin mexanizmi ilə heyvanların öyrənmə prosesinin mexanizmi arasında fərqlər də vardır. Uşağın öyrənmə prosesində tədricən ixtiyarilik, şüurluluq, ümumiləşdirmə, mücərrədləşdirməkimi təfəkkür əməliyyatları iştirak edir. Beləliklə, heyvanlar cisim və hadisələrin keyfiyyətini, kəmiyyətini, formasını, zaman və məkan əlaqələrini irsi davranışlarla, yaşadığı ətraf mühitdən mənimsədiyi siqnallara əsasən öyrənir. Burada ictimai təcrübə iştirak etmir. Uşaq isə bunlarla yanaşı, cisim və hadisələri ictimai təcrübəyə əsasən şüurlu, məqsədli əks etdirir, bu da biliklərin mənimsənilməsilə nəticələnir.

Lakin uşağın hər cür hərəkətini, işini öyrənmə kimi qəbul etmək olmaz. Məsələn, uşaq işıqlı otaqdan qaranlıq otağa keçdikdə gözləri həmin situasiyaya öyrəşir. Bu isə öyrənmə yox, adaptasiyadır.

Öyrənmə həm heyvanda, həm də uşaqda orqanizmə təsir edən müəyyən stimula əsasən əmələ gələn reaksiyaların mənimsənilməsi nəticəsidir. Belə bir reaksiya stimulun özünə yox, sinir sistemində əks olunandan törəyir. Öyrənmənin mexanizmi bütün canlılarda

əsasən eynidir. Lakin uşağın öyrənmə prosesinin mexanizmi ilə heyvanların öyrənmə prosesinin mexanizmi arasında fərqlər də vardır. Uşağın öyrənmə prosesində tədricən ixtiyarilik, şüurluluq, ümumiləşdirmə, mücərrədləşdirməkimi təfəkkür əməliyyatları iştirak edir. Məhz bunun sayəsində heyvanla uşağın inikasının məzmununda fərqlər əmələ gəlir. Beləliklə, heyvanlar cisim və hadisələrin keyfiyyətini, kəmiyyətini, formasını, zaman və məkan əlaqələrini irsi davranışlarla, yaşadığı ətraf mühitdən mənimsədiyi siqnallara əsasən öyrənir. Burada ictimai təcrübə iştirak etmir. Deməli, heyvan irsi davranışlara, yaşadığı ətraf mühitdən aldığı siqnallara əsasən onları inikas etdirir. Uşaq isə bunlarla yanaşı, cisim və hadisələri ictimai təcrübəyə əsasən şüurlu, məqsədli əks etdirir, bu da biliklərin mənimsənilməsilə nəticələnir.

Erkən uşaqlıq dövründə öyrənmənin bir sıra forma və əlamətləri müşahidə olunur və onun əsas ibtidai formaları aşağıdakılardır:

a) impritinq (həkkolma)
b) şərti reflektor öyrənmə
c) operant öyrənmə
d) vikar öyrənmə
e) verbal öyrənmə (sözlü,şifahi öyrənmə)

Uşaq anadan olandan sonra həyatının I günü və ayında öyrənmənin elementar növünə- impritinq, şərti reflektor və operant öyrənməyə əməli surətdə hazır olur. Bu cür öyrənmə həm insanlarda, həm də heyvanlarda müşahidə olunur. Vikar və verbal öyrənmə isə yalnız insanlara məxsusdur.

İmpritinq- canlı dünyaya gələrkən ilk dəfə ona təsir edən, hərəkətdə olan obyektlərin sinir sistemində, beynində tez həkk olmasıdır. (Lorensin qaz balaları ilə təcrübəsi)

Uşaq ***reflektor öyrənmə*** zamanı stimulu, qıcığı mənimsəyir, ona reaksiya verir. Əgər qıcıqlayıcılar uşağa təkrar-təkrar təsir edirsə, beynində müvəqqəti əlaqələr əmələ gəlir və bu rabitələr reflektor əlaqələr hesab olunur. Bu öyrənmə həm heyvanlara, həm də uşaqlara aiddir.g

Uşaq ***Vikar sistemli*** perseptiv əməliyyatlarla obrazlı təfəkkürə keçir. Vikar öyrənmənin davamı kimi verbal öyrənmədə uşaq sözlərdən, II siqnal sistemindən, analiz, sintezdən istifadə edir.

Əgər öyrənmədə dilin vasitəsilə bəşəriyyətin əldə etdiyi yeni-yeni təcrübələrə yiyiələnməyə imkan verirsə, müəyyən bilik və davranışların mənimsənilməsi ilə nəticələnərsə, belə öyrənmə ***verbal öyrənmə*** adlanır və o ancaq uşaqlara(insanlara)xasdır.

Operant öyrənmədə isə uşaq sınaq və səhv metodilə bilik, bacarıqlara yiyələnir, özü də o, orqanizmin daxili tələbatından istifadə edir. Operant (refleks) öyrənmə zamanı təsadüfi hallar yaxşı nəticə verir, faydalı hərəkətlər seçilir və bunlar məqsədəuyğun hərəkətlər hesab olunur.

Beləliklə, öyrənmənin bu formalarının nəticəsində uşaqda sensor, motor öyrənmə metodları əmələ gəlir.

Məqsəd və nəticə uşağın öyrənməsi zamanı analiz və sintezlə, yəni məlumatların mənimsənilməsilə, diferensasiya və sistemləşdirilməsilə müşayiət olunarsa, o, sensor öyrənmədir.

Öyrənmənin məqsəd və vəzifələri müxtəlif hərəkətlərin seçilməsi, əlaqələndirilməsi, diferensiasiyası və sistemləşdirilməsindən asılıdırsa, belə öyrənməyə motor öyrənmə deyilir.

Əgər öyrənmə prosesində hər iki amil qarşılıqlı iştirak edirsə, bu, sensor-motor öyrənmə adlanır.

Öyrənmə prosesi müəyyən tədris-intellektual mexanizm əsasında həyata keçirilir:

1. Assosiasiyanın formalaşması. Burada bilik, bacarıq müvəqqəti sinir rabitələrinin əmələ gəlmə mexanizmi əsasında formalaşır.
2. Təqlidetmə. Burada təqlidlə bilik, bacarıq və vərdişlərə yiyələnir.
3. Fərqləndirmə və ümumiləşdirmə. Məfhumların formalaşması ilə bağlı olur.
4. İnsayat (qəflətən anlama).Keçmiş təcrübə əsasında naməlumun bilavasitə tapılması, qəflətən anlaşılması ilə bağlıdır.
5. Yaradıcılıq. Nümunələrə əsasən yeni kəşflər edilməsi, yeni bilik, bacarığa yiyələnməklə əldə edilir.

Öyrənmə bu mexanizmlərin qarşılıqlı təsiri ilə təkmilləşir.

Ümumiyyətlə, öyrənmənin müvəfəqiyyəti çox amillərdən asılıdır, amma bunların içərisində psixoloji amillər mühüm yer tutur.

Psixoloji amillərə aiddir: öyrənmənin motivləri, idrak proseslərinin ixtiyariliyi, şəxsiyyətin keyfiyyətləri: davamlılığı, məqsədyönlü cəhətləri, məsuliyyətliliyi, intizamlılığı, şüurluluğu, birgə fəaliyyət zamanı adamlarla qarşılıqlı ünsiyyət yaratmaq bacarığı, digər tərəfdən öyrənmənin mürəkkəbliyi, çətinlik dərəcəsi, öyrənmək ustanovkası. Bunlar həm şagirdə, həm də müəllimə aid olub öyrətmək və öyrənməklə nəticələnir.

2-3 yaşlı uşaqların öyrənməsinə, inkişafına oyun və oyuncaqların təsiri daha böyükdür. Hal-hazırda uşaqlar üçün müəyyən metodlardan müxtəlif oyuncaqlar hazırlanır, xüsusi fabrik və zavodlar uşağın yaşına, bacarığına, maraq və meylinə uyğun oyuncaqlar istehsal edib buraxırlar. Oyun prosesində oyuncaqlar uşağın qavrayışını, diqqət və hafizəsini, hisslərini inkişaf etdirir.

Erkən yaşlı uşaqlara qorxulu nağıllar söyləmək, yaşa müvafiq, uyğun olmayan əcayib əhvalatlar danışmaq, radio-televiziya verlişlərinə baxmaq məsləhət görülmür. Belə verilişlərin təsiri ilə uşaq gecə yuxuda qorxur, narahat yatır, ağlayır. Bu da uşağım sinir, əsəb sisteminin zəifləməsinə səbəb olur, onu həyəcanlandırır əsəbi vəziyyətə salır

Mövzu 5.Məktəbəqədər yaşda idrak prosesləri və şəxsiyyətin inkişafı

Plan:

1. Məktəbəqədər yaşda uşaq şəxsiyyətinin formalaşması şəraiti
2. Davranış motivlərinin inkişafı və uşaqların özünü dərketməsi
3. Şəxsiyyətin əxlaqi keyfiyyətlərinin formalaşması
4. Məktəbəqədər dövrdə uşaqlarda idrak proseslərin əsas xüsusiyyətləri
5. Emosional-iradi aləmin təşəkkülü

6. Xarakter və qabiliyyətlərin formalaşması

Ədəbiyyat:

11. Əzimli Q.Ə. Psixi inkişaf və tərbiyənin müasir problemləri. Bakı 2004.
12. Əzimli Q.Ə. Yaş və pedaqoji psixologiyanın müasir problemləri. Bakı 2006.
13. Həmzəyev M.Ə Yaş və pedoqoji psixologiyanın əsasları Bakı 2003.
14. Qədirov Ə.Ə Yaş psixologiyası. Bakı, 2003.
15. Vəliyev M.V., Mustafayev A.M. İnkişaf və yaş psixologiyası. Bakı, 2013.

Mövzu ilə bağlı elektorn resurslar

https://kayzen.az/blog/psixologiya/8179/k%C3%B6rp%C9%99lik-v%C9%99-erk%C9%99n-u%C5%9Faql%C4%B1q-d%C3%B6vr%C3%BCn%C3%BCn-x%C3%BCsusiyy%C9%99tl%C9%99ri.html

http://rmodou.krkam.edusite.ru/p6aa1.html

https://cdnacikogretim.istanbul.edu.tr/auzefcontent/19_20_Guz/bebeklik_ve_cocukluk_doneminde_normal_ve_atipik_gelisim/2/index.html

https://www.cliffsnotes.com/study-guides/psychology/psychology/developmental-psychology-age-013/development-in-infancy-and-childhood

I. Məktəbəqədər yaşda uşaq şəxsiyyətinin formalaşması şəraiti

Məktəbəqədər yaşlı uşaqların şəxsiyyətinin inkişaf şəraiti əvvəlki dövrlərdən əsaslı surətdə fərglənir.Beləki yaşlıların onlara verdiyi tələblər artır və uşaqdan ümumi davranış normalarını gözləmə tələb olunur.Həm də uşağın yaşlıdları ilə oyunları zamanı hərəkətlərinin uzlaşdırılması ,onlarda yaşıdların maraq və rəyi ilə hesablaşma təşəkkül edir.

Məktəbəqədər yaş dövründə uşağın fəaliyyəti mürəkkəbləşir və xarici aləmlə əlaqəsi, dərk etmə imkanları genişlənir, onlarda müəyyən dəyişiklik gedir, tədricən uşağın şəxsiyyətinin formalaşması imkanları reallaşır. Bu, iki cəhətlə səciyyələnir:
Hər şeydən əvvəl uşaq onu əhatə edənləri tədricən anlayır, öz yerini, mövqeyini müəyyənləşdirir, bu, uşaqda yeni tip davranış motivi yaradır və onlar yeni davranışlara yiyələnir.

2.Digər tərəfdən bu, uşağın emosional-iradi cəhətdən inkişafı ilə sıx bağlıdır. Bunlar həmin keyfiyyətlərin, əlamətlərin reallaşmasını təmin edir, davamlı davranış yaradır və uşaq xarici şəraitdə gedən dəyişikliyi dərk etməyə başlayır.
Uşaq şəxsiyyətinin inkişafına böyüklərin təsiri özünü **əxlaq normalarının mənimsənilməsi prosesində** göstərir. Həmin normalar nümunəvi və düzgün davranışın formalaşması zamanı mənimsənilir. Uşaq şəxsiyyətinin inkişafında yaşlıların nümunəvi davranışı, qarşılıqlı münasibəti və işi mühüm rol oynayır. Bu istiqamətdə uşağa ən çox təsir edən onun yaxın adamlarıdır. Uşaqlar yaşlıların qiymətləndirdikləri keyfiyyətlərə, ədalara,

əşyalara meyllənir, onu daha çox təqlid edir.
Uşağın təqlid etdiyi ən nümunəvi davranış, o adamların davranışı olur ki, o, uşağa qayğı göstərsin, məhəbbətini, hörmətini hiss etdirsin. Uşaqlara kim daha çox mehriban yanaşırsa, qayğı göstərirsə, uşaq onları nümunə kimi qəbul edir.Nümunəvi davranışların mənimsənilməsində yaşlıların onlara verdiyi qiymət, insanlar haqqında söylədikləri nağıl, hekayələr mühüm rol oynayır.
Məktəbəqədər yaşlı uşaqlar oyuncaqla düzgün davranmaq, gün rejimini gözləmək kimi mədəni-gigiyenik vərdişlər mənimsəməyə başlayır. Burada uşaq yalnız yaşlının tələbini yox, həm də özü o qaydaları mənimsəməyə cəhd edir.
Uşaq şəxsiyyətinin inkişafında yaşlıların nümunəvi davranışı,qarşılıqlı münasibəti mühüm rol oynayır. Bu istiqamətdə uşağa ən cox təsir edən onların yaxın adamlarıdır. Uşaqlar yaşlıların qiymətləndirdikləri keyfiyyətlərə əşyalara meyillənir ,onu daha çox təqlid edir. Əgər böyüklərin davranışı uşağın uğurlu hərəkətinə səbəb olursa müsbət emosional hal yaradır. Bu zaman usaq onu əhatə edənlərlə asanlıqla təmasa girir, əgər böyükləri uşağa münasibətdə mənfidirsə, uşaqların sosial aktivliyi azalır ve öz daxili aləminə qapanır.Onda inamsızlıq,həmyaşıdlarına qarşı agresiv hərəkətlər yaranır. Məktəbəqədər yaşlı uşaqlarda emosional iradi cəhətdən inkişaf şəxsiyyətin formalaşmasına təsir göstərən amillərdəndir. Bu dövrdə uşaqlarda unsiyyət xüsusi əhəmiyyətə malikdir. Belə ki,həm yaşıdları, həm də yaşlılarla olan ünsiyyət önəmlidir. 3-5 yaşında uşağın yaşlılarla ünsiyyəti qeyri formal şəraitdə ətraf aləmlə qarşılıqlı əlaqələrinin müəyyənləşdirilməsinə yönəldilmiş idrak fəaliyyətində həyata keçirilir.(M.İ.Lisina)
Uşaq şəxsiyyətinin inkişafında hislərin də rolu böyükdür. Uşağın iftixar, utancaqlıq hissi nümunəvi davranış qaydalarının mənimsənilməsində müəyyən rola malikdir. Uşaqların bəziləri böyüklərin onlardan nə gözləməsini, hərəkətlərinin qiymətləndirilməsini istəyir.
Utancaqlıq hissi bəzən uşağın müəyyən qaydaları səhv yerinə yetirdikdə böyüklərin onlara tutduğu iradla birbaşa qarşılaşması ilə əmələ gəlir. Uşaq başa düşür ki, müəyyən qaydanı pozmuşdur, ona əməl etməmişdir. Bununla əlaqədar olaraq uşaq özündə qorxaqlıq hiss edir, avam hərəkət etdiyini duyur. Məktəbəqədər yaşlı uşaq hələlik emosional cəhətdən başqa həmyaşıdlarından asılı olur. Yaşlının davranışı daima uşağı formalaşmağa yönəldir. Əgər böyüklərin davranışı uşağın uğurlu hərəkətinə səbəb olursa, müsbət emosional hal yaradır, onda çətinliyə qarşı getmək hissi əmələ gəlir və bu zaman uşaq onu əhatə edənlərlə asanlıqla təmasa girir. Böyüklərin uşağa münasibəti mənfi olduqda isə, uşaqların sosial aktivliyi azalır və öz daxili aləminə qapanır, onda inamsızlıq yaranır, hətta həmyaşıdlara qarşı aqressiv hərəkət edir. Bəzən də uşaqların çoxu böyüklərin onlara olan mənfi münasibətinin təsiri altında fəaliyyətini dayandırır, əznik olur, onda laqeydlik baş verir. Bəzən istisnalar da olur.
Məktəbəqədər yaşlı uşaqda nəvazişə, məhəbbət hissinə tələbat çox olur və burada əsas yeri uşağın anasına olan münasibəti tutur. Uşaqda bütün emosional hallar- məhəbbət, sevinc ananın vasitəsi ilə formalaşır. Uşaq ana istəyinə, nəvazişinə möhtacdır. Uşağın anaya olan məhəbbəti, münasibəti ən aparıcı, həlledici sosial inkişafdır. Burada uşağın yaşlılarla ünsiyyətinin məzmunu da əhəmiyyətlidir.
Nitq vasitəsilə ünsiyyət bu dövrdə ön plana keçir.Bu yaşda nitqin təfəkkürlə əlaqəsi müşahidə olunur.
Məktəbəqədər dövrdə oğlan və qızlar özünü dərk etməyə başlayır.Özünüdərketmə başqa adamları müşahidədə — yaşlılara münasibətdə formalaşır .Yaşlılar uşaqlara kömek edir ki,öz cinsi barədə təsəvvürü olsun .Uşağın öz cinsini müəyyənləşdirməsi ailədən başlayır. Məktəbəqədər yaşlı qız və oğlanın rollu oyunda fərqlənməsi özünü belə göstərir ki,oğlan

ən çox oğlana, qız əksərən qızı seçib oynayır.
Məktəbəqədər yaşlı uşaqların həmyaşıdları ilə ünsiyyətə tələbatı onun şəxsiyyətinin formalaşmasında mühüm rol oynayır və ünsiyyət tələbatı başqa adama simpatiya-münasibətə gətirib çıxarır.
Ünsiyyət tələbatı uşaqların birgə fəaliyyət zamanı müəyyən əmək tapşırığı yerinə yetirərkən inkişaf edir, bu prosesdə uşaq kollektivə, ictimai qaydalara alışır.
Uşaq şəxsiyyətinin inkişafına təsir edən amillərdən biri də qrupa ictimai rəyin təsiridir. 3 yaşlılar qrupda predmet, hadisələr, hərəkətlər haqqında ümumi rəy olmur, bir uşağın rəyi başqasına təsir etmir. Lakin 4-5 yaşlı uşaqlar öz həmyaşıdları ilə razılaşır, əksəriyyətin rəyimi qəbul etməyə başlayırlar.
Oğlan və qızlar özləri haqqında məlumatı ən çox yaşlılardan alır.Yaşlılar uşaqlara kömək edir ki, öz cinsi barədə təsəvvürü olsun və uşağın öz cinsini müəyyənləşdirməsi ailədən başlayır.
Bağça yaşının sonunda uşaqlar öz hərəkət və fəaliyyətlərindəki qüsurları hiss etməyə başlayırlar.
Uşaqların cinsi mənsubiyyəti müəyyən oyunları seçməkdə də özünü göstərir. Oyun motivi uşaq davranışında daim təzahür edərək, onu maraqlandırır. Ailə oyunlarında hər kəs cinsi mənsubiyyətinə görə rola girir, xüsusilə də rollu oyunlarda oğlan və qız uşaqları böyükləri təqlid edir. Beləliklə, onlar oğlan və qız olduqlarını dərk etməyə başlayır.
Uşaq şəxsiyyətinin göstəricilərindən biridə onlarda iddia səviyyəsinin təzahürüdür.Uşaq şəxsiyyətinin inkişafında iddia səviyyəsi mühüm rol oynayır. Uşağın iddia səviyyəsi və özünü təsdiqinə ciddi cəhdi emosional münasibətlərin yarandığı zaman biruzə verir. Uşağın iddia səviyyəsi tədricən müəyyən tələbata çevrilir və iddia edir ki, onun nailiyyətlərinə qiymət verilsin. Özü də uşaq həmyaşıdlarının yox, böyüklərin təsdiq etdiyi iddia səviyyəsini fərqləndirir. Ümumiyyətlə yaşlılar uşaqların müəyyən müvəfəqiyyətə nail olmasına kömək edir. Eyni zamanda iddia səviyyəsinə nail olmaq üçün uşaqlar bir-birinə kömək edir. Bu məsələ 2 planda gedir:

1. Uşaq çalışır ki, hamı kimi olsun, lakin müəyyən nailiyyətə nail olduqdan sonra cəhd edir ki, o birilərdən yaxşı olsun. Beləliklə də uşaq qüsur və nailiyyətlərini dərk edir.
2. Uşaq həmyaşıdlarının iddiasına cəhd edərkən əgər həmkarı yaddırsa, onların davranışına uyğun hərəkət etməyə razı olur. Əgər həmkarı tanışdırsa, iddia səviyyəsini artırır və müstəqil hərəkət etməyə çalışır.
3. İddiasına nail olan uşaq müəyyən rollarda çıxış edərkən bəzən onlarda başqasının nailiyyəti böyük olanda özünü tərifləyir, aşağı olanda isə başqasına paxıllığı tutur.

II. Davranış motivlərinin inkişafı və uşaqların özünü dərketməsi

Məktəbəqədər yaşlı uşaqlar davranış motivlərinin sayəsində hərəkət edir, amma onlar təhrik edəni dərk edə bilmir. Bu dövrdə uşaqları səciyyələndirən motivlərdən biri də davranış motivinin təsiri altında yaşlı adam kimi hərəkət etməyə çalışmasıdır. Oyun motivi uşaq davranışında daim təzahür edərək, onu maraqlandırır. Yaşlılarla əlaqəyə girmək, ünsiyyət yaratmaq uşaq şəxsiyyətinin inkişafında böyük əhəmiyyətə malikdir. Məktəbəqədər uşaqlarda özünü sevmə, dərketmə motivləri də müşahidə olunur və bununla uşaq özünü başqalarından ayırır. Məktəbəqər yaşın axırlarında motivlərin yeni növləri-idrak motivləri özünü biruzə verir və uşaq böyüklərə müxtəlif suallar verməyə başlayır.
Bu dövrdə uşaqlarda başqa adamlara münasibətini ifadə edən əxlaqi motivlər də özünü

göstərir. Məktəbəqədər dövrün axırlarında əxlaqi motivlər içərisində ictimai motivlərə də təsadüf etmək olur. İctimai motiv məişətdə, ailədə, bağçada bəzi əmək tapşırıqlarını yerinə yetirərkən özünü göstərir. Uşaqlar xüsusilə də 5-6 yaşında öz bədəninin sxemini anlamağa, dərk etməyə başlayır. Xüsusilə də oğlan və qız olmasını dərk edir. Bu dövrdə həmçinin uşaqların şəxsiyyət kimi səciyyələnən cəhətlərindən biri də həya hissinin təşəkkülüdür. Ailədə ata-ana, ana-uşaq, bacı-qardaş, bacı-bacı, qardaş-qardaş arasındakı münasibətlər böyük tərbiyəvi əhəmiyyətə malikdir.
Uşaqların məktəbə psixoloji cəhətdən hazırlanmalarında uşaq bağçasının böyük və hazırlıq qruplarında aparılan xüsusi tərbiyəvi iş də müəyyən rol oynayır. Belə şəraitdə uşaqlar ümumiləşmiş və müəyyən sistemə malik olan biliklər qazanırlar. Böyüklərin tələbi ilə uşaq yeni sosial törəməyə, özünü təsdiqə çalışır. Uşağın özünü təsdiqə cəhdi əxlaqi hisslə bağlı olur. Əxlaqi hissin formalaşması uşağın onu əhatə edən adamların davranış adətlərini mənimsəməklə, uğurla əlaqədardır. Unutmaq olmaz ki, valideyn uşağa ən yaxın olan adamdır və uşaq onlara etibar edir, inanır. Uşaq şəxsiyyətinin təməli ailədə və uşaq bağçasında həmyaşıdları ilə ünsiyyətdə qoyulur.

III. Şəxsiyyətin əxlaqi keyfiyyətlərinin formalaşması

Uşaq şəxsiyyətinin əxlaqi cəhətdən inkişafında davranış normalarını bilmək, onlara uyğun davranmağı adət etmək, o cümlədən öz mövqeyinə və əxlaq normalarına emosional münasibət mühüm rol oynayır. Həmçinin uşağın sosial varlıq kimi inkişafında insanın müsbət keyfiyyətlərinə, davranışnormalarına yiyələnməsi I dərəcəli əhəmiyyətə malikdir. Məktəbəqədər dövrdə uşaq onu əhatə edənlərlə, xüsusilə həmyaşıdlarilə ünsiyyət zamanı sosial davranış adəti formalaşır. Bu dövrdə əxlaq nöqteyi-nəzərindən uşaq böyüklər tərəfindən qiymətləndirilərkən müəyyən qaydalar gözlənilməlidir. Uşaq sual verən zaman onun sualları cavablandırılmalıdır. Uşağın tələbatı başqalarilə ünsiyyətdə təmin olunmayanda iddia səviyyəsi tam təsdiq olunmur. Bu da uşaqda mənfi halların meydana gəlməsinə səbəb olur.
Əxlaq normalarına istinadən uşaq belə davranır:
a) əxlaq qaydalarına düzgün əməl edir
b) öz tələbatını ödəyərkən qaydaları pozur, lakin yaşlılardan gizlətmir
c) uşaq qaydaları pozur və onu gizlədir. Çünki cəzalandırılmadan qorxur.
Uşaq şəxsiyyətinin inkişafı çox vəziyyətlərdən, amillərdən asılıdır. Burada fərdi psixoloji fərqlər əsasında təşəkkül edən uşaq fərdiyyətinin mənbələri mühüm rol oynayır.
Uşaq fərdiyyətinin mənbəyinə aşağıdakılar daxildir:

1. Anadan gəlmə xüsusiyyətlər
2. Uşağın inkişaf etdiyi mühit
3. Uşağın həyatda öz mövqeyi

Bu mənbələr əsasında uşağın fərdi xüsusiyyətləri, əqli inkişaf fərqləri, psixi halı, həmçinin özünüdərketmənin quruluş xüsusiyyətləri təşəkkül edir. Beləliklə, uşağın fərdi xüsusiyyətləri, əqli inkişafı psixi halı, həmçinin dərk etməsinin strukturu əsasında onun fərdiyyəti əmələ gəlib formalaşır, müstəqilliyi artır və bir şəxsiyyət kimi inkişaf edir. Məktəbəqədər yaşlı uşaq şəxsiyyətinin strukturunda tamamilə yeni xüsusiyyətlər təşəkkül tapmağa başlayır. Məlumdur ki, məktəbəqədər yaşlı uşaqların rəftar və davranışı, habelə fəaliyyət növləri üçün təqlidetmə və tələqinəqapılma xüsusiyyətləri xarakterikdir. Odur ki,

onun bir sıra bacarıq, vərdiş və adətləri məhz böyükləri təqlidetməsi sayəsində meydana çıxır. Uşaq bu zaman böyüklərin təsirilə hərəkət edir, onların tələblərini yerinə yetirir. Bu tələblər yerinə yetirilmədikdə isə, məzəmmətlə qarşılaşırlar. Tələbləri icra etdikdə isə, tərifl ənir, təqdir olunurlar. Nəticədə uşaqda bu tələblərə uyğunlaşma vərdişi əmələ gəlir, o, səliqə ilə geyinməyə, üst-başını təmiz saxlamağa alışır, oyuncaqlarının taleyi onu hər şeydən çox maraqlandırır. Uşaq onların qayğısına qalır. Eyni zamanda uşaq kollektivdə davranmağı, ictimai yerlərdə mövcud qaydaları gözləməyi də tədricən öyrənir. Bütün bunlar isə uşaqda yeni bacarıq- cəmiyyətin, ailənin, kollektivin həyat şəraitinə daxil olmaq bacarığını formalaşdırır. Bu mərhələdə uşağın inkişafı, bilavasitə yaşlıların rəhbərliyi altında həyata keçirilir, yaşlılar onun həyatında gözə görünən və ya görünməyən şəkildə iştirak edirlər. Beləliklə, uşaq onu əhatə edənlərin nümunəvi cəhətlərinə, davranışlarına yiyələnməyə səy göstərir, bu gözəl keyfiyyətləri özündə möhkəmlətməyə çalışır. Eyni zamanda uşaq özünün zərərli və qüsurlu cəhətlərini də yaşlıların təsiri altında tədrican islah edir. Məktəbəqədər yaşlıların həyat təcrübəsi artdıqca onlar ətraf mühitlə daha ətraflı tanış olur və xarici aləmin zənginlikləri onları cəlb edir. Bu da uşaqda yenilikləri öyrənmək, mənimsəmək adətini, başqa sözlə desək, idrak maraqlarını inkişaf etdirir. Uşaq ətrafı mənimsəyib, qavradıqca onda müxtəlif bacarıq və vərdişlər formalaşmağa başlayır. Bu cür vərdiş və adətlər isə uşaq şəxsiyyətini tədricən formalaşdırır. Uşaqda təqlidedici fəaliyyətlə yanaşı, getdikcə müstəqillik, təşəbbüskarlıq kimi keyfiyyətlər də özünü göstərir. Buna ən çox oyunlarda, tədris xarakterli məşğələlərdə təsadüf edilir. Məktəbəqədərki dövrdə uşaq tədricən əxlaq normalarını və davranışlarını gözləməyə alışır, öz hərəkətlərinə verilən qiymətə münasibətini ifadə etməyi bacarır, yoldaşlarına qayğı ilə yanaşır, böyüklərə hörmət edir.
Məktəbəqədər yaşın axırında uşaq bağçada aparılan müvafiq məşğələlərdə müəyyən bilik-bacarıq əldə edir, ana dilində yazıb-oxumağı öyrənir, bədii ədəbiyyatla tanış olur, saymaq və rəsm çəkmək bacarığına yiyələnir. Bunların hamısı nəinki məktəbə hazırlıq dövründəki təlim prosesinə, həm də onun nəticəsinə dərin maraq oyadır. Məktəbəqədər yaşın sonunda uşaq bağçada özünü böyüklər kimi aparır və I sinifə getməyə hazırlaşır.

I. Məktəbəqədər dövrdə uşaqlarda idrak proseslərin əsas xüsusiyyətləri

Məktəbəqədər yaşlı uşaqlarda əqli proseslərdən biri olan ***diqqət*** və onun əsas xüsusiyyətlərinin inkişafı üçün səmərəli şərait yaranmış olur və uşağın diqqəti surətlə inkişaf edir. O, maraqlı və bələdləşmə refleksinin yaranmasına səbəb olan cisim və hadisələr üzərində daha çox mərkəzləşməyə başlayır.

Məktəbəqədər yaş dövründə diqqətin davamlılığının artması uşağın cisim və hadisələrə dərindən bələd olması, onlar haqqında müəyyən biliklər əldə etməsilə sıx bağlıdır. Bu yaş dövründə diqqətin həcmi tədricən genişlənməyə başlayır.

3-4 yaşdan etibarən, söz siqnalları ilə uşağın diqqətini müəyyən obyektlərə cəlb etmək olur, bu yolla hətta diqqəti bir obyektdən digərlərinə keçirmək də mümkündür. 6-7 yaşlı uşaqların demək olar ki, hamısı lap I sifahi sözlü təlimatdan sonra diqqətlərini çox asanlıqla bir obyektdən digərinə keçirməyi bacarır.

İxtiyari diqqətin inkişafında uşaq fəaliyyətinin düzgün təşkili böyük əhəmiyyət kəsb edir. Ona görə də bağça yaşlı uşaqların fəaliyyətinə yaşlılar tərəfindən daim ciddi nəzarət və rəhbərlik edilməlidir.

Məktəbəqədər yaş dövründə uşağın **hafizəs**i də müəyyən qədər inkişaf edir. Məqsədli hafizə və ya bir sıra psixoloqların mnemonika adlandırdıqları yaddasaxlama, daxilində mnemik işlər olan fəaliyyətdəki motivlər sayəsində baş verir. Həmin motivlər

mnemik məqsədin anlaşılmasına və dərk olunmasına müəyyən təsir göstərir. Bununla əlaqədar laborator eksperimenti şəraitində, həmçinin oyun prosesində yaddasaxlama və yadasalmanın xüsusiyyətləri tədqiq olunmuşdur (Z.M.İstomina)

Məktəbəqədər dövrdə hafizənin fərqləndirici xüsusiyyətlərindən biri də onun *əyani-obrazlı* xarakter daşımasıdır. Həmçinin bu dövrdə sözlü-məntiqi hafizə də müəyyən qədər inkişaf etmiş olur.

Məktəbəqədər dövrdə uşaqlarda ixtiyari yaddasaxlama təşəkkül tapıb inkişaf etsə də, qeyri-ixtiyari yaddasaxlama daha çox üstünlük təşkil edir və məhsuldar xarakter daşıyır.

Söz hafizəni genişləndirir və təsəvvürləri sistemləşdirir, yaddasaxlanan materialı ümumiləşdirir, onları müəyyən məna qruplarında birləşdirməyə imkan verir. Ona görə də yaddasaxlama və yadasalmanın inkişafında nitqdən bir vasitə kimi istifadə edilməsi olduqca zəruridir.

Hafizənin inkişafı ilə əlaqədar uşaqlarda təsəvvürlər, xüsusən də hafizə təsəvvürləri inkişaf edir. Cürbəcür həyati təcrübələr uşağın idrakını daim yeni surətlərlə zənginləşdirir və əvvəlki surətlərin dəyişməsinə səbəb olur.

6-7 yaşlı uşaqlar onlara verilmiş fiqurları analitik surətdə qavrayır, onları tanımaqla bərabər, həm də hər birinin vəziyyətini ayrı-ayrılıqda müəyyənləşdirə bilir.

Tanış surətin yadda saxlanması və lazım gəldikdə yada salınmasında, habelə yeni surətlərin yaranmasında nitqin rolu böyükdür. Nitq eyni zamanda cismi geniş şəkildə təsvir etmək imkanı verir.

Məktəbəqədər yaş dövründə uşağın ***təfəkkürü*** əsasən əyani-əməli xarakter daşıyıb, icra etdiyi işlərlə, dərk etdiyi konkret cisim və hadisələrlə bağlı olur. Qavrayış materialları əsasında fikirləşməklə yanaşı, uşağın da geniş söz ehtiyatına yiyələnməsi ilə əlaqədar onda obrazlı, nəzəri və mücərrəd təfəkkürə keçid üçün imkanlar yaranır.

Psixoloqların tədqiqatları göstərir ki, 3-4 yaşlı uşaqlar bəzən hadisənin mahiyyətini başa düşə bilmədiklərinə görə qəribə, həqiqətə uyğun olmayan hökmlər irəli sürürlər, düzgün olmayan nəticələr çıxarırlar. Uşağın bilik və təcrübəsinin artması, onun təfəkküründə özünü göstərən bu cür halların tədricən aradan qalxmasına, hökmlərin dəqiqləşməsinə səbəb olur.

Məktəbəqədər dövrdə uşaq təfəkkürü əsasən, əyani-əməli, əyani-obrazlı və sözlü-məntiqli (mücərrəd) təfəkkür istiqamətində inkişaf edir.

Məktəbəqədər yaşlı uşaqlar tədricən cisim və hadisələrə aid hökm çıxarmağa başlayırlar.

4-5 yaşlı uşaqların mühakiməsi mürəkkəb xarakter daşıyır. Onlar bir neçə oxşar faktlar əsasında müəyyən ümumi nəticələr çıxarır və yeri gəldikcə bundan başqa məsələnin həllində istifadə edirlər.

6-7 yaşlı uşaqların mühakiməsi daha mürəkkəb və təkmilləşmiş xarakter daşıyır. Uşaq bu mərhələdə nəinki, ümumiləşdirmə aparır, həmçinin onları təsbih edir və təkmilləşdirir.

Məktəbəqədər dövrdə uşaqlar hissi idrakla kifayətlənməyib, təbiət və cəmiyyət haqqında yaşlıların verdiyi şifahi təsvir və izahatdan da istifadə edib, idrak fəaliyyətlərini

zənginləşdirirlər. Uşaq böyüyüb zənginləşdikcə, tələbatı artdıqca, onda əyani-obrazlı təfəkkür əsasında mücərrəd təfəkkür də inkişaf etməyə başlayır.

Təfəkkürün bu yüksək pilləsi təlim-tərbiyə və ictimai fəaliyyət prosesində inkişaf edir və öz növbəsində biliklərə yiyələnməyə, məfhumlar sistemini mənimsəməyə imkan yaradır.

Məktəbəqədər dövrdə ***nitq,*** xüsusilə də şifahi nitq daha sürətlə inkişaf edib zənginləşir, lüğət ehtiyatı artır, o, ana dilinin qramatik qanunları əsasında danışmağa başlayır. Ümumiyyətlə, bu dövrdə uşaq nitqi əsasən 3 istiqamətdə inkişaf edir:

1. Uşaqda söz ehtiyatının artması
2. Nitqin fonetik cəhətdən inkişafı, yəni uşağın səsləri düzgün eşitməyə və tələffüz etməyə yiyələnməsi.
3. Uşağın nitqinin qrammatik cəhətdəm inkişafı.

Məktəbəqədər dövrdə uşaqların nitqi ünsiyyət vasitəsi kimi inkişaf edir, özü də bu, ailədə, bağçada, yaxın adamlarla, onu əhatə edənlərlə ünsiyyət zamanı olur. Nitqin bu cür ünsiyyət formasına situativ nitq deyilir. Uşaq qarşısına sual çıxdıqda, yeni cisim və hadisələrlə qarşılaşdıqda ondan istifadə edir.

Uşağın ünsiyyət dairəsi, marağı genişləndikcə kontekst nitqi mənimsəyir (konkret mətnin mənaca bitməsi). Bu nitqə uşaq bağça məşğələlərində, müntəzəm təlim prosesində yiyələnir (inkişaf edir).

Məktəbəqədər dövrdə uşağın yiyələndiyi nitq formalarından biri də izahlı nitqdir. Uşaq bu nitqlə oyunun məzmunu yoldaşlarına izah edir. Rabitəli nitqin bir forması olan izahlı nitq uşağın həyat fəaliyyətində böyük əhəmiyyətə malikdir. Məktəbəqədər dövrdə bu nitq yenicə təşəkkül tapıb inkişafa başlayır.

Bu dövrdə həmçinin uşağın nitqində fonetik cəhətdən bəzi qüsurlara təsadüf olunur. “R” səsini uşağın düzgün tələffüz etməməsini xüsusi ədəbiyyatda ***rotatsizm*** adlandırırlar. Bu qüsuru aradan qaldırmaq üçün uşağı güzgü qabağında oturtmaq və ona təklif etmək lazımdır ki, ağzını geniş açsın, dilinin ucunu dişlərinin dibinə yaxınlaşdırsın və bu vəziyyətdə “z” səsini ifadə etsin. Bu vaxt uşağın dili altdan çay qaşığı ilə yuxarı qaldırılır və “z” səsini ifadə etməsi tapşırılır. Bu zaman “r” səsinə oxşar səs yaranır.

“L” səsinin düzgün tələffüz olunmaması ***lambdatizm*** adlanır. Bu səsin düzgün tələffüzü üçün uşağa tapşırmaq lazımdır ki, o, dilini yastılaşmış halda kəsici dişlərin arasına soxsun, sonra dilin uc hissəsini yavaşca dişləsin və bu vəziyyətdə “l” səsini ifadə etsin.

“Ş” səsini düzgün tələffüz etmək üçün uşağa tapşırmaq lazımdır ki, “s” səsini tələffüz edərkən dilinin ucunu dişlərin ucuna deyil, üst dişlərin dibinə tərəf yaxınlaşdırsın.

Bir çox hallarda nitq orqanlarında heç bir qüsur olmadıqda belə uşaq qüsurlu danışır. Bunun səbəbi uşağın səsə uyğun, düzgün fizioloji mexanizm yarada bilməməsi, mənfi tərbiyəvi təsirlər, yamsılamaq və yerli ləhcələrdir. Bunların qarşısı erkən alınmazsa, uşağın nitqində özünə uzun zaman yer edər. Bəzən bu cür nöqsanlar şirindillik hesab edilərək, qarşısı alınmır, böyük yaşlarda isə qarşısının alınması çətinləşir.

Nitq inkişafının II və III mərhələsində uşağın tələffüzü ilə yanaşı, onun söz ehtiyatı da sürətlə inkişaf edir.

Məktəbəqədər yaş dövründə dialoji nitqin inkişafı və təkmilləşməsi ilə yanaşı, nitqin daha mürəkkəb və müstəqil növü olan monoloji nitq də inkişaf etməyə başlayır.

Nitq inkişafının III — şifahi nitqin zənginləşməsi mərhələsində lüğət ehtiyatı sürətlə artır: 3 yaşlı uşaq 1000-1500, 4 yaşlı uşaq 1600-1926, 5-6 yaşlı uşağın nitqində isə 2500-3000-ə qədər söz ehtiyatı olur.

Məktəbəqədər yaşda ***təxəyyül*** surətlə formalaşır. Uşaq oyun və onun gedişi barədə böyüklərin, tərbiyəçinin izahatını dinləyir, bu izahat əsasında oyunun gedişini öz təxəyyülündə canlandırmağa səy göstərir.

Məktəbəqədər yaş dövründə uşağın bərpaedici təxəyyül surətləri hələ solğun olur, uşaq qarşıya qoyulmuş məqsədə uyğun, dəqiq və zəngin surətlər yarada bilmir.

Məktəbəqədər yaş dövründə bərpaedici təxəyyüllə yanaşı, yaradıcı təxəyyül də inkişaf edir. Bir çox tədqiqatlar yaradıcı təxəyyülün ilk əlamətlərinin hələ 3 yaşdan etibarən təzahür etdiyini göstərir.

Qeyri-adi surətləri yaradarkən uşaqlar nağıl və bədii əsər materiallarına istinad edirlər. Yuxarı məktəbəqədər yaşlıların təxəyyülündə realist meyl daha qabarıq şəkildə nəzərə çarpır.

II. Emosional-iradi aləmin təşəkkülü

Psixologiya müəyyən etmişdir ki, **məktəbəqədər yaşda emosional-iradi cəhət sürətlə inkişaf edir.** Bu dövrdə uşağın hissləri dəyişkən və qısa müddətli olub, tədricən mürəkkəbləşməyə başlayır. Nitqin inkişafı ilə əlaqədar uşaq 3 yaşdan etibarən ətraf aləm cisim və hadisələrinə, ünsiyyətdə olduğu adamlara öz emosional-hissi münasibətlərini bildirmək imkanına yiyələnir.

Məktəbəqədər yaşlı uşaqlarda hislərin inkişafı. Uşağın ümumi davranış qaydalarına uyğun gələn hərəkətləri, rəfta və davranışı yaşlılar tərəfindən bəyənilir, təriflənir, uyğun gəlməyənlər isə pislənilir. Bu da öz növbəsində uşaqda ***borc və utancaqlıq*** hislərinin meydana gəlməsinə səbəb olur.

Borc hissinin ilkin təzahürünə 3-4 yaşlı uşaqlarda rast gəlmək olur. Valideynin təklifi əsasında uşağın evi yığışdırması, süpürüb səliqə-səhmana salması borc hissinin ən sadə forması hesab oluna bilər. Bu hiss ilk zamanlar çox məhdud sahəni əhatə edir, 5-6 yaşlarında isə borc hissi adamlara kömək göstərmək, onların tələbini yerinə yetirmək, yersiz hərəkətlərdən imtina etmək halında özünü büruzə verir. 6-7 yaşlı uşaqlarda borc hissinin məzmunu xeyli dəyişir: uşaqlar bir çox işlərin icrasında yaşlılara kömək etməyə çalışır, balacaların, quşların və heyvanların qayğısına qalır, onlar üçün narahat olurlar. Məktəbəqədər yaşlılarda borc və utancaqlıq hislərinin inkişafı uşaqlarda həm də dostluq, başqalarının dərdinə şərik olmaq, həssaslıq kimi hisslərin inkişafı ilə bağlı olur. Bu yaş dövründə hətta şəxsiyyətlərarası münasibətlər, daha dəqiq desək, balacaların öz yaşıdlarına humanist münasibəti də müşahidə olunur. Bu yaşda uşaqlarda öz həmyaşıdlarına humanist münasibət uşaqların cinsi mənsubiyyətindən asılıdır: oğlanlar qızlara nisbətən öz həmyaşıdlarına daha çox humanist münasibət bəsləyirlər. Məktəbəqədər yaş dövründə uşağı gördüyü işə görə tərifləmək, mükafatlandırmaq, rəğbətləndirmək, onda razılıq, məmnunluq və şəxsi ləyaqət hisslərinin meydana gəlməsinə səbəb olur. Bu yaş dövrünün ayrı-ayrı mərhələlərində uşağın emosional həyatı müxtəlif məzmunlar kəsb edir. İlk mərhələdə təzahür edən hislər, adətən, bu və ya digər şəraitdən asılı vəziyyətdə olur: uşaq kimisə, nəyisə, hansı əşyanısa gördükdə onlar öz görünüşü,

forması, rəngi və bu kimi əlamətlərilə ya uşağı özünə cəlb edir, ya heç bir münasibət yaratmır, ya qorxudur, ya da sevinc hissi əmələ gətirir.

Uşaqda ***qorxu hissini*** yaradan səbəblər müxtəlifdir**,** onlar hələlik uşağın həyat təcrübəsində olmamış, belə əhvalatlarla o bilavasitə rastlaşmamışdır. Bunların hamısını (cin, şeytan, adamyeyən, təpəgöz, canavar və s.) uşağa yaşlılar söyləmişlər. Sonra isə bunlar uşağın əsəb sisteminin tipindən, beyində gedən prosesdən asılı olaraq davamlı, əyani sürətlərə çevrilir; uşağı əsəbləşdirir, sıxır, sarsıdır, narahat edir, onda qorxu hissi əmələ gətirir. Ona görə də axşamlar uşağa qorxulu əhvalatlar, nağıllar danışmaq məsləhət görülmür.

Hazırda uşağın əsəbini, emosiyalarını oynadan, psixikasını tarıma çəkən yeni səbəblər meydana çıxmışdır. Belə ki, müasir incəsənətdə, xüsusən də, kinozallarda, televiziya verilişlərində uşağı daha çox qorxudan dedektiv filmlər, dəhşətli hadisələr nümayiş etdirirlər, hətta valideynlər belə verilişin nəticələrinə əhəmiyyət vermədən özləri də onlara böyük həvəslə, maraqla tamaşa edirlər, baxırlar. Bunlar isə uşağı daha da qorxudur, sarsıdır, müxtəlif emosiyalar yaradır.

Uşaqda baş verən qorxu hissinin qarşısı mütləq alınmalıdır. Belə ki, qorxulu verilişlərə uşağın baxması qadağan olunmalıdır, digər tərəfdən isə, əgər uşaq qaranlıq otaqda yatmaqdan imtina edirsə, hətta ağlayıb işıqlı otaqda yatırılmasını istəyirsə, onun arzusu nəzərə alınmalı, hətta həmin yataq otağında zəif lampa yandırılması yaxşı olardı.

Balaca uşaqlarda müşahidə olunan hisslərdən biri də ***estetik hisslərdir***. Bu hislərin növlərindən musiqi və nəğməyə olan hiss çox tez təzahür edir. Uşaq gözəl musiqiyə, mahnıya maraqla qulaq asır, musiqinin təsirilə əlini, ayağını oynadır. 2-3 yaşlı uşaqların bəziləri musiqinin incəliklərini dərk edir, yaxşı və pis musiqiyə öz münasibətlərini bildirirlər. **Bədii şəkillər, məzəli və əyləncəli nağıllar** da estetik hislərin inkişafına müsbət təsir göstərən amillərdir. Müxtəlif məzmunlu oyunlar, yaşlılarla birgə fəaliyyət uşaqlarda ali hislərin müəyyən ünsürlərinin inkişafına səbəb olur.

Müxtəlif məzmunlu oyunlar, yaşlılarla birgə fəaliyyət uşaqlarda ***ali hislərin*** müəyyən ünsürlərinin inkişafına səbəb olur. Uşaqda hislərin inkişafı özbaşına getmir, onlar müxtəlif fəaliyyət növlərində təzahür edir, ətraf aləmə olan sosial münasibətlərin dəyişməsi sayəsində baş verir.

Məktəbəqədər yaşlı uşaqda iradənin inkişafı. Məktəbəqədər yaşlı uşaqda iradə də müəyyən qədər inkişaf edir. 3 yaşlı uşaq hər hansı bir işi icra edərkən burada iradi işin əsas mərhələləri bəsit şəkildə də olsa təzahür edir. Uşağın iradəsinin inkişafında oyun mühüm yer tutur. Bundan əlavə iradənin inkişafında uşaqlardan onlara məxsus mədəni davranış və əxlaq qaydalarını daim yerinə yetirmələrini müntəzəm olaraq tələb etməyin, onlara müxtəlif xarakterli tapşırıqlar verməyin çox böyük əhəmiyyəti var.

Uşaq iradəsinin inkişafına ***oyun*** mühüm yer tutur. Bu proses zamanı uşaqda ***dözümlülük, vəzifə və məsuliyyət hissi, qətiyyətlik, müstəqillik və təşəbbüskarlıq*** kimi keyfiyyətlər inkişaf edir. Uşaqlarda tələqin deyilən xüsusiyyətin inkişafına da təsadüf olunur. **Tələqin**, uşağın onu əhatə edən adamların təsiri altına düşməsində ifadə olunur. Ailədə təlim-tərbiyə işi düzgün qurulmadıqda, uşaqda ***şıltaqlıq, höcətlik, tərslik*** kimi iradi nöqsanlar təşəkkül etməyə imkan tapır. Bu nöqsanlar bəzən ailənin çox cüzi qüsurları sayəsində təzahür edir.

Tərslik çox ciddi iradi nöqsandır. O, uşağın öz şəxsiyyətini başqalarına qarşı qoymasında, valideyn, tərbiyəçi və yaşlıların tələblərinin əksinə getməsində ifadə olunur. Uşağın bu hərəkətləri ona zərər gətirsə də o, tərsliyində davaç edir və məqsədinə nail olmağa çalışır.

Tərsliyi doğuran səbəblər bunlardır:

1. Uşağın necə olursa olsun öz bildiyi kimi hərəkət etməsi;

2. Əqli inkişafın məhdudluğu ilə əlaqədar uşağın onun üçün yeni olan məsələləri qavraya bilməməsi;

3. Uşağın özünə az, başqalarına qarşı isə çox tələbkar olması;

4.Uşağın öz qüvvəsinə inamsızlığı.

Məktəbəqədər yaşlı uşaqlarda müşahidə olunan iradi nöqsanlardan biri də ***tənbəllikdir.*** Tənbəllik uşaq ailədə əzizləndikdə, onun bütün arzu və istəkləri yerinə yetirildikdə, özünə inam hissi yaradılmadıqda baş verir. Qeyd olunan iradi nöqsanların qarşısı elə onların təzahür etdiyi ilk anlardan alınmalıdır. Əks təqdirdə, uşağı yenidəntərbiyə edərkən valideynlər çox ciddi çətinliklərlə qarşılaşmalı olacaqlar.

III. Xarakter və qabiliyyətlərin formalaşması

Məktəbəqədər yaşlı uşaqlarda xarakterin inkişafı. Xarakterin rüşeymləri uşaqda iki yaşın sonu, 3 yaşın əvvəllərindən etibarən temperamentin tipləri əsasında inkişafa başlayır. Onun ilk təzahürlərini oyun prosesində müşahidə etmək mümkündür.

Oyunlar da uşağın xarakterinə müəyyən təsirlər göstərir. Oyun fəaliyyəti eyni zamanda uşaqda ***yoldaşlıq və kollektivçilik, dözümlülük və müstəqillik*** kimi xarakter əlamətlərini təşəkkül etdirir. Məktəbəqədər uşaq bir çox hallarda öz yaşına müvafiq faydalı **əmək fəaliyyəti** ilə də məşğul olur. Əmək prosesində uşaq həm də müəyyən əxlaq qaydalarına və davranış normalarına yiyələnir. Elə bu əxlaq qaydalarının və mədəni ictimai davranış tələblərinin özü də bir sıra xarakter əlamətlərinin inkişafına səbəb olur. Xarakterin formalaşmasında yaşlıların, xüsusən də valideynlərin şəxsi nümunəsi, uşaqların onları təqlidi və nitq ünsiyyəti böyük rol oynayır. Bu dövrdə uşaq artıq nəyin "yaxşı", nəyin "pis" olduğunu dərk etməyi, öz şəxsi rəftar vədavranışını qismən qiymətləndirməyi bacarır.

Bununla əlaqədar böyüklərin onların hər bir müsbət hərəkətini vaxtında, lazımınca rəğbətləndirməyi bacarmalıdırlar.

Valideynlər arasındakı **şəxsiyyətlərarası münasibətlər** də uşaq xarakterinin təşəkkülünə həlledici təsir göstərir. Əgər ailədə sağlam psixoloji mühit hökm sürürsə, uşaqlarda müsbət qeyri-sağlam psixoloji mühit mövcuddursa, sözsüz ki, mənfi xarakter əlamətləri təzahür edir. Valideynlərin bir-birinə olan münasibətilə yanaşı, uşağa bəslənilən şəxsi münasibətin özü də onlarda müəyyən xarakter əlamətlərinin yaranmasına səbəb olur.Məktəbəqədər uşaqlar həddən artıq emosional təbiətli olduqlarından onlar ədalətsizliyə həssaslıqla reaksiya verirlər. Odur ki, onları aldatmaq, onların düzgün olmayan hərəkətlərinə, ifadələrinə gülmək, istehza ilə yanaşmaq qətiyyən olmaz. Acığını uşaqların üstünə tökmək, onları əsəbləşdirmək uşaqlarda kobudluq, sözə baxmamaq, inadkarlıq, dəcəllik, nadinclik kimi əlamətləri əmələ gətirir.

Məktəbəqədər yaşlılarda qabiliyyətin inkişafı. Məktəbəqədər yaşlılarda qbiliyyətlərin bəziləri çox erkən təzahür edir. Məsələn, bəzən 3-4 yaşlı uşaq saatlarla musiqiyə qulaq asmaqdan yorulmur. Bu, uşaqda ***musiqi qabiliyyəti*** üçün zəruri təbii

zəminlər olduğuna işarət edir. Nitqə yiyələnmək qabiliyyəti də məktəbəqədər yaşda sürətlə inkişaf edir. Uşaq bu yaşda hər hansı bir xarici dili çox məharətlə mənimsəyə bilir. Lakin uşağın qabiliyyətinin inkişafı bu və ya digər sahəyə dair müəyyən bilik, bacarıq və vərdişlərə nə dərəcədə yiyələnməsindən asılıdır.
Xarici aləm hadisələrinin dərk olunmasına yönəlmiş **maraq və meyllər** də qabiliyyətlərin inkişafını təmin edən amillərdəndir. Uşaqların öz əlləri ilə hazırladıqları oyuncaqlar onlarda ***texniki qabiliyyətlərin*** təşəkkülünə müsbət təsir göstərir.

Musiqiyə, riyaziyyata, texniki yaradıcılığa və təsviri incəsənətə olan maraq, yaşlıların müxtəlif məzmunlu söhbətləri, xüsusən kitabların oxunması, muzey və teatrlara baxışların təşkili, cürbəcür xarakterli ekskursiyaların keçirilməsi sayəsində qabiliyyətlər inkişaf edir və müvafiq qabiliyyətlərin təşəkkülünə imkan yaradır.

Məktəbəqədər yaşlı uşaqlarda ünsiyyətin inkişafı. 3-5 yaşlarında uşağın yaşlılarla ünsiyyəti qeyri-formal şəraitdə ətraf aləmlə qarşılıqlı əlaqələrinin müəyyənləşdirilməsinə yönəldilmiş idrak fəaliyyətində həyata keçirilir. Nitq vasitəsilə ünsiyyət bu dövrdə ön plana keçir. 6yaşlılarda ünsiyyət qeyri-formal şəraitdə şəxsi xarakter daşımağa başlayır. Qeyri-formal şəraitdə şəxsi ünsiyyət uşaqları kommunikasiyaya təhrik edən ***motivlər, oyun, əmək və idrak fəaliyyəti*** əsasında təşəkkül tapır.

Mövzu 6. Məktəbəqədər dövrdə uşağın inkişafının psixoloji xüsusiyyətləri

Plan:

1. Məktəbəqədər dövrdə uşaqların fiziki inkişafı
2. Məktəbəqədər dövrdə uşaqların sensor inkişafı
3. Oyun fəaliyyəti haqqında nəzəriyyə tarixindən və oyun mərhələləri (növləri)D.B.Elkonin oyunun inkişafının səviyyələri
4. Məktəbəqədər yaşlı uşağın psixi inkişafında oyunun rolu
5. Məkətəbəqədər yaşda uşaq fəaliyyətinin psixoloji səciyyəsi.

Ədəbiyyat:

1. Əzimov Q.Ə. Psixi inkişaf və tərbiyənin müasir problemləri. Bakı, 2004.
2. Çələbiyev N.Z. Uşaq psixologiyası. Bakı, 2005
3. Həmzəyev M.Ə Yaş və pedoqoji psixologiyanın əsasları Bakı 2003.
4. Qədirov Ə.Ə Yaş psixologiyası. Bakı, 2003.
5. Vəliyev M.V., Mustafayev A.M. İnkişaf və yaş psixologiyası. Bakı, 2013.
6. Обухова Л.Ф. Возрастная психология, М., 2000.

Mövzu ilə bağlı elektorn resurslar

https://kayzen.az/blog/KamileKazimova/24524/m%C9%99kt%C9%99b%C9%99q%C9%99d%C9%99r-ya%C5%9Fl%C4%B1lar%C4%B1n-psixoloji-x%C3%BCsusiyy%C9%99tl%C9%99ri.html

https://www.verywellmind.com/what-is-child-psychology-2795067

https://edu.tatar.ru/nkamsk/dou24/page2957572.htm

https://www.ekipnormarazon.com/makalelerimiz/egitim/okul-oncesi-cocugun-psikolojik-gelisimi/

I. Məktəbəqədər dövrdə uşaqların fiziki inkişafı

Məktəbəqədər yaş dövrü 3 yaşdan 6 yaşa qədər olan müddəti əhatə edir. Bu vaxt ərzində uşaq böyük inkişaf yolu keçirərək fiziki cəhətdən diqqəti cəlb edəcək dərəcədə inkişaf edib möhkəmlənir; baş beynin, sinir sisteminin, bədənin ayrı-ayrı üzvlərinin keyfiyyətcə funksional təkmilləşməsi baş verir. Bu dövrdə beyin kütləsinin çəkisi 1110 qramdan 1350 qrama çatır. Sinir sisteminin birləşdirici, əlaqə yaradıcı tellər də xeyli inkişaf edib möhkəmlənir.

4-6 yaş arasında uşağın boyu surətlə artdığından ilk baxışdan belə təsəvvür yaranırki, o arıqlayıbdır, lakin bu dövrdə onun əzələləri möhkəmlənib qüvvətlənir, orqanizmin mütəhərrikliyi nəzərə çarpacaq dərəcədə çoxalır. Boyun belə sürətlə artımı endokrin sisteminin, xüsusilə də hipofizin funksiyasının qüvvətlənməsilə əlaqədar baş verir. Uşağın boyunun artması ilə əlaqədar onun bədənin ayrı-ayri üzvləri arasındakı mütənasiblik də dəyişir. Çağa ilə müqayisədə 7 yaşınadək uşağın ayaqları 3 dəfə, əlləri 2,5 dəfə bədəni isə 2 dəfə böyümüş olur.

Yaş	Qizlar		Oğlanlar	
	Boyu (sm-lə)	Çəkisi (kq-la)	Boyu (sm-lə)	Çəkisi (kq-la)
3 yaş	93	14.2	93.8	14.6
4 yaş	99.6	15.4	100	15.9
5 yaş	106.1	17.5	107.3	17.8
6 yaş	112.2	20	114	20.4

Beş yaşlı uşağın əzələ və sümük sistemi yaxşı inkişaf etmiş olsada, onun əl və ayaq əzələlərində hələ sümükləşməmiş qığırdaqlar qalır (sümükləşmə yeniyetmelik dövrünün sonuna qədər davam edir).

Yadda saxlamaq lazımdır ki, məktəbəqədər yaşlı uşaqların skeleti əsasən qığırdaq toxumalarından ibarət olur. Bununla əlaqədar uşağı həddindən artıq ayaq üstə saxlamaq, çox oturtmaq, boyuna uyğun olmayan avadanlıqlardan istifadə etməyə qoymaq olmaz.

Əgər deyilənlər nəzərə alınmazsa uşağın qaməti düzgün inkişaf etməyəcək, bu isə öz növbəsində sümüklərin inkişafına qan dövranı və nəfəs almağa mənfi təsir göstərəcəkdir. Qabıq ləngimələrinin zəifliyi və oyanmanın çox yayılması üzündən uşaqların diqqəti davamsız, ətraf aləmin qıcıqlandırıcılarına verdikləri cavab isə emosional xarakter daşıyır. Əqli fəaliyyət zamanı onlar çox yorulurlar.

Bu yaşda olan uşaqlarda II siqnal sistemi əsasında asanlıqla şərti refleks yaratmaq olur, uşağın ürək-damar sistemində anatomik və funksional dəyişikliklər baş verir, ürəyin çəkisi və iş qabiliyyəti xeyli dərəcədə artır.

Bu yaş dövründə uşağın əzələləri kifayət qədər inkişaf etmədiyindən və zəif olduğundan o, tez-tez düzgün olmayan vəziyyətlər alır; başını aşağı sallayır, çiyinlərini yaxınlaşdırır, belini əyir, sinəsini çökdürür və s.

Məktəbəqədər yaş dövrü şərti reflekslərin əmələ gəlməsi, sadə reflekslərdən mürəkkəb reflekslərə doğru inkişaf dövrü kimi xarakterizə olunur. Qabıq proseslərinin möhkəmliyi, daxili ləngimənin qüvvəsi, getdikcə davamlı şərti reflekslər kimi qalır. Məktəbəqədər dövrün axırlarında ləngimə prosesinin qüvvəsi xeyli artır, müvazinətlilik inkişaf edir.

II. Məktəbəqədər dövrdə uşaqların sensor inkişafı

Müasir psixologiyada belə bir fikir yürüdülür ki, uşağın əsas idrak qabiliyyətləri çox erkən təzahür etdiyindən onların təbiətinin öyrənilməsinə də məktəbəqədər yaş dövründə başlamaq lazımdır.Bu məsələnin praktik əhəmiyyəti ondan ibarətdir ki,həmin sahədə mövcud qanunauyğunluqlarının aşkara çıxarılması idrak qabiliyyətlərinin məqsədyönlü tərbiyəsi üçün valideyn və tərbiyəçilərə zəruri biliklər verə bilər.

Bağça yaş dövründə uşağın sensor inkişafı intensiv surətdə həyata keçir.Duyğuların müxtəlif növləri daha surətlə formalaşmağabaşlayır.Görmə duyğularının inkişafına dair aparılan psixoloji tədqiqatlarla sübut edilmişdir ki, görmənin itiliyi uşağın məşğul olduğu fəaliyyətdən və həmin fəaliyyətin düzgün təşkilindən çox asılıdır.Məs:oyun fəaliyyəti zamanı görmənin itiliyi 4-5 yaşlarda orta hesabla 17,2 % ,5-6 yaşlarında 29,9 % ,6-7 yaşlarında 30,2 % artır.

Məktəbəqədər yaş dövründə uşaqlarda rəngləri fərqləndirmək bacarığı da surətlə inkişaf edir.Onlar əsasən xromatik rəngləri-qırmızı,sari ,göy və yaşıl rəngləri yaxşi fərqləndirdikləri halda ,aralıq rəngləri (bənövşəyi, abı və s.) fərqləndirməkdə çətinlik çəkirlər.Həmin dövrdə axromatik (qara, boz) rənglər də onlar üçün tanış olur.5 yaşdan etibarən uşaqlar həm əsas ,həm də araliq rəngləri səhvsiz ayırmaq və qruplaşdırmaq bacarığınayiyələnirlər. 6 yaşlılar isə müxtəlif çalarları da fərqləndirə bilir, lakin sözlə ifadə etməkdə çətinlik çəkirlər.

Kiçik məktəbəqədər yaşda tonal eşitmə və danışıq səslərini- nitqi eşitmə duyğusu yaşlıların eşitmə səviyyəsindən xeyli aşağı olur. 3-5 yaşlı uşaqlar yüksək səsli melodiyaları yada sala bilmir.Əksər hallarda monoton səslə oxuyurlar.

Məktəbəqədər yaş dövründə uşaqların hərəkət və lamisə duyğuları da surətlə inkişaf edib dəqiqləşir.Ümumiyyətlə, bu yaş dövründə lamisə ,iybilmə,dad, görmə və eşitmə duyğuları da iti kompleks halda təkmilləşir.Görmənin uzun müddət gərginliyi zamanı məs:pis işıqlandırılmış masa arxasında şəkillərə baxan vaxt uşaq yaxşı görmədiyi üçün göz büllurunun forması da dəyişmiş olur ki,bununda sayəsində görmə əzələləri həddindən çox

yorulur.Belə vəziyyətin bir neçə dəfə təkrar olunması yaxından görmə -göz xəstəliyinin inkişafına gətirib çıxarır.

4-7 yaşlı uşaqların əksəriyyəti iyləri fərqləndirərkən tanıdıqları konfetlərin istifadə edirlər.

Məktəbəqədər yaş dövründə uşağın qavrayışı, xüsusən də məkan qavrayışı digər idrak proseslərilə üzvi vəhdətdə inkişaf edib təkmilləşir. Uşağın məkana bələdləşməsində onun gözü və əlləri mühüm rol oynayır.

Uşaq məkan münasibətlərini qavrayarkən əl və ya gözlə yanaşı, sözlərdən də istifadə edir, bu da onun məkan münasibətlərini dəqiq qavramasına əlverişli imkan yaradır. İcra ediləcək iş sözlərlə (irəlidə, yanda, ortada və s.) ifadə olunduqda, məkan münasibətləri daha düzgün dərk olunur.

Məktəbəqədər yaşlı uşaq ilk vaxtlar əşya və cisimlərdə ən çox formanı ayırmaqla onların mühüm əlamətlərini qavramağa cəhd göstərir. Bu dövrdə obyektlərin böyüklüyünü qavrama bacarığı da inkişaf etməyə başlayır.

Psixoloqların tədqiqatları göstərir ki, 3-6 yaşlı uşaqların hamısı cismin böyüklüyünü, 5 yaşlılar isə forma müxtəlifliyini qavramağı bacarır.

Uşaqlar 3 yaşdan etibarən ayrı-ayrı həndəsi fiqurları tanıyır və onları bir-birindən fərqləndirə bilirlər. Psixoloji tədqiqatlar göstərir ki, 3-4 yaşlı uşaqlar formanı əvvəl lamisə, sonra isə görmə ilə, 5-6 yaşlılar isə əvvəl görmə, sonra lamisə ilə yoxladıqda daha yaxşı fərqləndirir və dərk edirlər.

Məktəbəqədər yaş dövründə zaman qavrayışı da müəyyən qədər inkişaf etmiş olur. Psixoloji tədqiqatlar göstərir ki, gün rejimi düzgün təşkil edildikdə 3-5 yaşlı uşaqlar zaman məfhumlarını anlamaqda çətinlik çəkmirlər, zamanı müəyyən cisim və hadisə ilə əlaqələndirirlər.

III. Məktəbəqədər yaşlı uşağın psixi inkişafında oyunun rolu

Oyun uşağın psixi inkişafında bir sıra keyfiyyət dəyişiklikləri əmələ gətirir. 3 yaşdan sonra uşaq kollektiv xarakterli oyunlara daha çox maraq göstərir, hətta o, istəyir ki, burada vəzifə bölgüsü aparılsın. Lakin bir çox hallarda 3 yaşlı uşaq nə ilə oynadığını, hansı oyuncaqdan necə istifadə etdiyini çox tezliklə unudur.Bununla əlaqədar tərbiyəçi və valideynlər uşaqların oyununa rəhbərlik etməli, onlara oyunun tələb və funksiyalarını tez-tez xatırlatmalıdırlar.

3 yaşdan etibarən uşaqların fəaliyyətində rollu oyunlar müşahidə olunur. Belə oyunlar uşağın həyatında böyük hadisə olmaqla bərabər, yaşlılarla ünsiyyət saxlamaq, həyatı başa düşmək, ətrafdakıları təqlid etmək işində mühüm vasitəyə çevrilir. M.Qorki göstərir ki, oyun uşağın yaşadığı və gələcəkdə dəyişdirməli olduğu dünyanı dərketmə yoludur. Uşaq bu fəaliyyət növündə həm fiziki, həm də psixi baxımdan çox böyük surətlə inkişaf edir.

Rollu oyunların sujeti ilə yanaşı, məzmununu da fərqləndirmək lazım gəlir. Oyunun məzmunu dedikdə, uşağın yaşlıların fəaliyyətində əsas məqam kimi fərqləndirdiyi cəhət nəzərdə tutulur. Müxtəlif yaş qruplarına aid olan uşaqlar eyni süjetli oyunu tamam başqa məzmunda oynayırlar.

Ümumiyyətlə, rollu oyunların süjet və məzmununun inkişafı ona dəlalət edir ki, uşaq onu əhatə edən adamların həyat fəaliyyətinə daha dərindən nüfuz etsin. Oyun prosesində o, 2 cür qarşılıqlı münasibətdə olur ki, bunlardan biri oyun, digəri isə həqiqi, real qarşılıqlı münasibətdir.

Real qarşılıqlı münasibətlər –ümumi işin icrası zamanı uşaqların öz oyun yoldaşları ilə, oyun sujeti haqqında danışarkən, rolları bölüşdürərkən oyunun gedişində qarşıya çıxan anlaşılmazlıqları müzakirə edərkən təzahür edən münasibətlərə deyilir.

Oyun fəaliyyətində uşaqların müəyyən ünsiyyət formaları da meydana çıxır. Uşaq öz yoldaşları ilə ünsiyyətə girmək üçün hərəkətlərini uzlaşdırmaq bacarığına, təşəbbüskarlıq və ünsiyyətlilik kimi keyfiyyətlərə malik olmalıdır.

Uşaq 3-4 yaşına keçdikdən sonra öz yaşıdları ilə daha fəal ünsiyyətə qoşulur, lakin bu qarşılıqlı hərəkətlər hələ o qədər də davamlı olmur. Ancaq onların ünsiyyəti nisbətən uzun müddətli xarakter daşımağa başlayır.

Oyun şəraiti və uşağın buradakı iştirakı onun əqli fəaliyyətinin və nitqinin inkişafına da müsbət təsir göstərir. Oyuna daxil edilmiş uşaq nitq vasitələrilə ünsiyyətə girmək üçün müəyyən inkişaf səviyyəsinə malik olmalıdır. Bununla yanaşı, didaktik oyunlardan istifadə zamanı tərbiyəçi uşaqlarına nitqini inkişaf etdirməyə, nitq qüsurlarını aradan qaldırmağa şərait yaradır.

Məktəbəqədər yaş dövrünün sonuna yaxın oyun fəaliyyətinin içərisində gələcək aparıcı rola malik olacaq təlim fəaliyyəti də əmələ gəlməyə başlayır. Uşaq oyun qaydalarını yerinə yetirərkən özü də hiss etmədən elementar təlim hərəkətlərini mənimsəyir.

Məktəbəqədər yaşlıların təlim formalarından biri də tədris didaktik oyun və məşğələlərdir. Didaktik-tədris oyunlarından uşaqlar məşğələ və müstəqil işlərində istifadə edirlər və beləliklə, didaktik-tədris oyunları məktəbəqədər yaşlı uşaqların fəaliyyətində əsas yer tutaraq biliklərin mənimsənilməsinə, möhkəmlənməsinə, dərinləşməsinə və onların üsullarına, fikri əməliyyatlara yiyələnməsinə kömək edir. Tədris-didaktik oyunlar təlimin forması kimi uşaqların məşğələlərə marağınl artırır, diqqətini inkişaf etdirir, materialın mənimsənilməsini yaxşılaşdırır. Eyni zamanda müəllim-tərbiyəçi oyun-tədris məşğələlərilə uşağa məqsədəuyğun təsir edir, proqramın tələbini nəzərə alaraq, keçirilən materialı müntəzəm mürəkkəbləşdirir və onlara müəyyən bilikləri mənimsədir, onlarda zəruri bacarıqlar formalaşdırır, psixi prosesləri (qavrayışı, nitqi, təxəyyülü) təkmilləşdirir.

İstifadə olunan materialın xarakterinə görə tədris-didaktik məşğələləri 4 qrupa ayırmaq mümkündür:

1) Oyuncaqlarla (əşya) məşğələlər
2) çap olunmuş stolüstü oyunlar
3) şifahi (sözlü) didaktik oyunlar
4) kompüter oyunları

Oyuncaqlar əşyanın şərti təsviri, ümumiləşmiş obrazı, inikasıdır. Uşaq əşya ilə oyun məşğələlərində onların müxtəlif əlamət və keyfiyyətlərini dərk edir, istifadə qaydalarını öyrənir. Məsələn, praktik olaraq şarla kubun həcmini, formasını, ölçüsünü, rəngini öyrənir. Çap olunmuş stolüste oyunlarla uşağın əyani-hərəki təfəkkürü fəaliyyətə başlayır, burada uşaqlar bilikləri əşyalarla deyil, onların şəkilləri, kağıza çəkilmiş rəsmlərlə mənimsəyir. Məsələn: loto, domino, şəkilləri və kubikləri bir yerə yığır, kukla, ayı, it fiqurları kimi oyuncaqlardan istifadə edir.

IV. Məktəbəqədər yaşda uşaq fəaliyyətinin psixoloji səciyyəsi

IV-I. Məktəbəqədər yaşlı uşaqların oyun fəaliyyəti

Oyun fəaliyyəti haqqında nəzəriyyə tarixindən .Bəzi ölkələrdə lap qədimdən bu günə kimi uşaq oyunlarının təbiətinə, mahiyyətinə aid bioloji, naturalist nəzəriyyələr böyük rola malikdir. (Q.Spenser, K.Qross, K.Büller, V.Ştern, F.Boytendayk və b.) Oyun nəzəriyyəsinin banilərindən olan alman psixoloqu K. Qross belə hesab edir ki, uşaq oyunu dərk etmədən, onun vasitəsilə özünü həyata hazırlayır; oyunların mexanizmi instinktlə, bioloji amillərlə şərtlənir. Oyun mənbəyinin təbii əsasını instinktin xüsusi forması təşkil edir. Oyun prosesində uşaqlar heyvan davranışını xatırladan, ona uyğun hərəkətlər edirlər.

Biogenetik nəzəriyyə nümayəndələri fərdi oyunu insanın tarixi təəssüratlarının gizli, instinktiv formasının təzahürü hesab edirlər.

Psixoanalitik istiqamət tərəfdarı Z.Freyd isə oyunda cinsi həvəsin, seksual meylin, şəhvani eşqin təzahürünü görür və qeyd edir ki, uşaq oyun prosesində özünün fərdi həvəsinə seksual tələbatına nail olur. Freyd deyirdi ki, uşaq həyatda sürücü, tərbiyəçi olmaq istəyir, amma onun buna imkanı yoxdur. Lakin oyun prosesində isə o istəsə həkim, istəsə sürücü və ya tərbiyəçi ola bilər.

Görkəmli alman psixoloqu Adlerin fikrincə, uşaq oyun prosesində özünün qeyri-müstəqilliyini, bacarıqsızlığını aradan qaldırır. Ona görə də o, fantastik, möcüzəli oyunlar oynayır, real həyatla uyğun gəlməyən sosial arzularının üstündən keçir.

Bir sıra alimlər oyuna uşağın real aləmdən təcrid olunmuş hissləri, təəssüratı ilə əsrarəngiz aləmə ünsiyyəti kimi baxır (K.Koffka, K.Levin, J.Piaje).

Uşaq oyuncaqlarından ətraf mühitdə qazandığı təsəvvürlərə biliklərə uyğun şəkildə istifadə edir.

K.D.Uşinski qeyd edir ki, uçağa aldığımız qəşəng və işıqlı evcikdən o qala kimi, gəlincik fiqurundan isə əsgər kimi istifadə edəcəkdir.

Uşağın oyunları ilə onu əhatə edən real aləm arasında sözsüz ki, "Çin səddi" yoxdur, onun oynadığı oyunlar ətraf aləmlə, böyüklərin fəaliyyəti ilə sıx bağlı olur. İndinin özündə hər cür oyuncaqların olmasına baxmayaraq, uşaqlar onu əhatə edən mühitdən, əşyalardan, sudan, palçıqdan, ağaclardan, bitkilərdən, heyvanlardan, insanlardan oyun vasitəsi kimi istifadə edirlər.

Deyilənlərdən aydın olur ki, uşağın oyun prosesində təzahür edən xüsusiyyətləri yaşadığı tarixi dövrün – coğrafi, iqtisadi, mədəni şəraitin, mikro və makromühitinin təsirilə təşəkkül tapır.

Hollandiya psixoloqu F.Boytendayk oyuna uşağın ətraf aləmə bələdləşmə fəaliyyəti kimi baxsa da, nəticədə o, belə bir qənaətə gəlir ki, uşaq oyuncaqlarının əsasında instinktlər, təbii amillər və bioloji tələbatlar durur.

Bioloji nəzəriyyənin əsas qüsuru oyunun mənşəyini tədqiq edərkən ona tarixilik baxımından yanaşa bilməməsidir. Ona görə də bu nəzəriyyə tərəfdarları məsələni

araşdırarkən sosial məzmunla bioloji mənşə arasında ziddiyyəti heç də tam həll edə bilmirlər.

Rus psixoloqlarından P.P.Bolonski və L.S.Vıqotski hələ XX əsrin 30-cu illərində bu problemi araşdırarkən uşağın psixi inkiaşfına tarixilik baxımından yanaşmanın əsasını qoymuşlar. Onların nöqteyi-nəzərinə istinadən psixoloq D.B.Elkonin uşaq oyunlarının, xüsusilə də rollu oyunların mənşəyini tarixilik baxımındaneksperimental üsulla tədqiq etməyə başlamışdır. O, belə bir fikir irəli sürür ki, hal-hazırda oynamaq üçün hər cür uşaq oyuncaqları var, lakin ibtidai insanın uşaqları üçün belə oyuncaqlar yox idi. Odur ki, onlar öz ata-anaları ilə, yaşlılarla meyvə yığmağa, balıq tutmağa gedir, ev-eşiyin təmizlənməsində, səliqə-səhmana salınmasında iştirak edirdilər.

Beləliklə, ibtidai insanın övladları da ta qədimdən oyun xarakterli işlərdə iştirak etmiş, onları əhatə edən əşyalardan oyunlarda istifadə etmişlər. İndi də uşaqlar müxtəlif oyunlarla məşğul olurlar. Əlbəttə, indiki işlər ondan dərin bilik və bacarıq tələb edir. Ona görə də uşaqlar traktor sürməyi bacarmaz, ancaq oyuncaq traktordan istifadə edib sürücü rolunu oynayırlar.

Beləliklə, etnoqrafik materiallar da oyunun, o cümlədən rollu oyunların sosial-tarixi xarakter daşıdığını təsdiq edir.

Oyun mərhələləri (növləri)

Məlum olduğu kimi, bağça yaşlı uşaqların əsas, aparıcı fəaliyyət növü oyundur. Bu dövrdə süjetli oyunların inkişafı sürətlənir, rolların mənimsənilməsi inkanları genişlənir. Xüsusilə də bu yaş üçün səciyyəvi, tipik olan rollu oyunlarda uşaqlar yaşlıların fəaliyyətini öz üzərinə götürür, onların real həyati funksiyalarını yerinə yetirir, özlərini yaşlı kimi aparırlar. Bu yaş dövra üçün aparıcı fəaliyyət olan oyun prosesində uşaq müəyyən işlər görür, rola aid mübahisə edir və yaş artdıqca qaydalı oyunlar onların həyatında mühüm yer tutmağa başlayır.

Məktəbəqədər yaşlı uşaqlarda yeni fəaliyyət növü – oyun həlledici rol oynayır.Bu prosesdə uşaq oyun qaydalarına tabe olmaqla yanaşı həm də oyunu başqa uşaqlarla həyata keçirməyə başlayır.

Qaydaları pozduğu üçün uşaq cəzalandıra və ya düz oynadığı üçün mükafatlandırıla bilər.Oyun prosesində uşaq oyunu məqsədini ,sujetini ,oyunun vasitələrini və oyun davranışlarını mənimsəmiş olur.Oyunun sujetini mənimsəmə prosesinin olması uşağı planlı fəaliyyətə sövq edir.

Oyun inkişafı mürəkkəb və çox mərhələli bir prosesdir. Onun aşağıdakı mərhələləri var:

1. **Oyunların predmeti və atributları ilə bağlı tanışlıq mərhələsi.** Çağalıq dövrünə təsadüf edir. Həmin mərhələ əşyavi-manipulyativ xarakter daşıyıb, uşağın oyuncaqları əli ilə yoxlamasınaŞ əlləşdirməsinə və ona bələdləşməyə cəhd göstərməsində özünü büruzə verir.
2. **Əşyavi oyun əməliyyatı.** I ilin axırı, II ilin əvvəllərini əhatə edir. Burada uşaq əşya-oyuncaqla müxtəlif əməliyyatla aparır, onu yelləyir, silkələyir, itələyir və hərəkətə gətirir.

3. **Əşyavi əməliyyatdan süjeti əks etdirən oyunlara keçid**. Bu zaman uşaq müxtəlif alətlərlə əməliyyat aparır.
4. **Süjetli əksetdirici oyunlar.** Körpəlik dövrünün sonunda özünü büruzə verir. Bu, bir növ, süjetli-rollu oyuna keçmə ərəfəsi olub uşağın real həyatda mövcud olanları öz oyunlarında əks etdirmə mərhələsidir.
5. **Süjetli-rollu oyunlar.** Məktəbəqədər yaş dövrünün əvvəllərində təşəkkül tapmağa başlayır.
6. **Qaydalı oyunlar mərhələsi.** Bu mərhələ uşağın həyatında mühüm yer tutur. Qaydalı oyunlar mərhələsində fəaliyyətin məqsədi sosial cəhətdən şərtlənir; işlər hələ məhsul verməsə də ictimai əlamətlərini büruzə verir və psixoloji strukturuna görə oyunun özü mənimsənilir, əmək və təlim işlərinə yaxınlaşır.

Oyunun inkişafı hər şeydən əvvəl özünü onun məzmununun və süjetinin dəyişməsində göstərir.

Uşaq oynadığı süjetli oyunları ilə onu əhatə edən maddi aləmi, ətraf gerçəkliyi əks etdirir. Əgər kiçik uşaqları məişətlə bağlı süjetli oyunlar (ana-qız) daha çox məşğul edirsə, orta məktəbəqədər yaşlılar üçün istehsalatla əlaqədar süjetli tipik oyunlar (“tikinti”, “dəmir yolu”, “xəstəxana” və s.) səciyyəvidir.

Böyük məktəbəqədər yaşlı uşaqlarda isə bəzən ictimai-siyasi süjetli (“kosmos”, “müharibə”, “inqilab”) oyunlar da təşəkkül tapır.

Məktəbəqədər dövrdə oyunun məzmunu dəyişir və uşaqlar yaşlıların fəaliyyətini əksetdirən, onu xatırladan, ona uyğun oyunlar oynamağa çalışırlar. Belə ki, kiçik məktəbəqədər yaşlı uşaqlarda müəyyən əşyalarla oyunlar (“çörək kəsmək”, “qabları yumaq” və s.), orta məktəbəqədər yaşda yaşlılarla münasibəti xatırladan oyunlar, böyük məktəbəqədər yaşda isə rolun qaydaları yerinə yetirilən oyunlar üstünlük təşkil edir.

Beləliklə, süjetli və məzmunlu oyunlar yaradıcı oyunlara keçməkdə mühüm amil kimi meydana çıxır.

Bəllidir ki. Hər bir oyunun özünəməxsus qayda-qanunu var. Uşaq oyunda sərbəst və özbaşına olsa da, oyunun qayda- qanunları onun tərəfindən ciddi surətdə gözlənilir.

Oyunlar mürəkkəbləşdikcə onun iştirakçıları çoxalır, o kollektiv xarakter alır, həm də böyük məktəbəqədər yaşda rollar üzrə vəzifə bölgüsü aparılır və ona uyğun hərəkət edilir. Oyunun təlimata uyğun gedişinə və uşağın özünü necə aparmasına nəzarət olunur, tənqid edilir, hətta oyundan çıxarılır, kənar edilir.

V. D.B.Elkonin oyunun inkişafının səviyyələri

D.B.Elkonin oyunun inkişafının 4 səviyyəsini müəyyənləşdirmişdir.

Oyunun inkişafının I səviyyəsi

1. Oyunun məzmunun mərkəzini onda iştirak edənlərin müəyyən əşyalarla iş görməsi təşkil edir. Bu cür iş və oyunda tərbiyəçilərin hərəkətləri uşağa yönəldilir.Bu rolun yerinə yetirilməsinin əsasında uşağın əmizdirilməsi, yedizdirilməsi durur, lakin burada kimin yedizdirilməsinin fərqinə varmırlar.
2. Uşağın faktik rolları olur, lakin rollar hərəkətlərin xarakterilə müəyyənləşdirilir, icra üçün lazım olan işlərlə təyin olunmur. Rollarda vəzifə bölgüsü aparılsa da, hətta rol

adlandırılsa belə, məsələn, uşağın biri ana, digəri ata, III-sü tərbiyəçi vəzifəsində çıxış etsə də, real həyati münasibətləri əks etdirmir.
3. Oyunda hərəkətlər, işlər yeksənək, birtərəfli olaraq əməliyyatların təkrarından ibarət olur. Məsələn, uşağı yedizdirərkən bir xörəkdən digərinə keçmək, yedizdirmə zamanı hərəkətlərin məntiqi, yeməkdən sonra əli yumaq, nahar edilməsinin qaydaları gözlənilmir.

Oyunun inkişafının II səviyyəsi

1. Oyunun əsas məzmunu əşyavi hərəkətlərdən ibarət olsa da, I planda oyun hərkətlərinin real işlərə müvafiq aparılması nəzərə çarpır.
2. Uşaq rolu adlandırır, vəzifə bölgüsü aparır, rol onunla bağlı işlərin həyata keçirilməsinə yönəldilir.
3. Hərəkətlər məntiqi və ya əhəmiyyəti olan sistemlə, yəni real gerçəkliklərə uyğun ardıcıllıqla aparılır, hərəkətlərin miqdarı artaraq birtipli hərəkətlər çərçivəsindən çıxır, yəni hərəkətlər çoxalır, şaxələnir, yedizdirmə əməliyyatı, qidanın hazırlanması və stola gətizdirilməsi, qoyulması ilə əlaqələndirilir. Beləliklə, yedizdirmə prosesi məntiqi ardıcıllığı gözləməklə həyata keçirilir.

Oyunun inkişafının III səviyyəsi

1. Oyunun əsas məzmununu rolların və onun üçün lazım gələn hərəkətlərin yerinə yetirilməsi təşkil edir. Demək, oyunun tələbinə müvafiq olaraq, digər iştirakçılar ilə bağlı hərəkətlər icra edilir. Məsələn, aşpaza müraciət edilir ki, yeməyi versin.
2. Rollar dəqiq və aydın olur, uşaq oyun başlanana qədər öz rollarının adını bilir. Rol uşağın davranışlarını istiqamətləndirir və müəyyənləşdirir.
3. Oyundakı hərəkətlərin xarakteri və məntiqi uşağın öz üzərinə götürdüyü rollarla müəyyənləşdirilir. Belə ki, oyun zamanı "uşağı" təkcə yedizdirmək deyil, həm də ona nağıl söylənir, yatmaq üçün yerinə qoyulur və ya xəstə nəinki peyvənd edilir, həm də ürəyin səsinə, nəbzin vurmasına qulaq asılır, sarıq işi görülür, temperaturası ölçülür, rolda onlara nitqlə xüsusi müraciət forması təşəkkül tapır, hətta oyundankənar münasibət də özünü göstərir.
4. Oyunda hərəkətlərin məntiqinin pozulmasına etiraz olunur. Lakin etiraz təkcə "bu, belə olmaz" şəklində olunmur. Uşağın oyundakı tabe olacağı davranış qaydalar sadalanır ki, belə hərəkət etmək lazım idi. Uşağa tutulan iradlar onu narazı salsa da ona yaxşı istiqamət almağa kömək edir, uşaq "fəaliyyətində" buraxdığı nöqsanları düzəltməyə səy göstərir.

Oyunun inkişafının IV səviyyəsi

1. Oyunun əsas məzmununu onun başqa iştirakçılara, başqa uşaqların ifa etdikləri rollara münasibətilə bağlı işlərin yerinə yetirilməsi təşkil edir. Belə işlər bütün rolların icrası fonunda həyata keçirilir.
2. Rol aydın təsvir olunur və bölünür.Bütün rol boyu uşaq yalnız bir davranışı rəhbər tutaraq hərəkət edir. Uşağın oyundakı rollarının vəzifələri bir-birilə qarşılıqlı əlaqədə olur. Bütün hərəkətlər, danışıqlar, mühakimələr rollarla bağlı aparılır, rola girmiş uşaq danışır, başqa rolda olan uşaqlara müraciət edir və eyni zamanda onları dinləyir.

3. Hərəkətlər, işlər ciddi məntiqə uyğun aparılır. Uşağın hərəkətləri çoxalıb müxtəlifləşmiş davranışlar hərtərəfli əks etdirir. Oyunun müxtəlif personajlara aid hərəkətləri aydın şəkildə motivləşdirilir.

1. Hərəkətlərin qayda məntiqinin pozulması rədd edilir, onun rasional qaydaları, hərəkətə uyğunluğu, təshihi göstərilir

IV-2. Məktəbəqədər yaşlı uşaqların bədii fəaliyyəti

Oyun kimi ***bədii fəaliyyət*** də məktəbəqədər yaşlı uşaqlar üçün tipik, səciyyəvi fəaliyyətdir. Bu yaşfa uşaqlar böyük həvəslə ***rəsm çəkir, plastilindən fiqurlar hazırlayır, aplikassiya ilə məşğul olur, mahnı oxuyur, nağıla qulaq asır, mahnı oxuyur, rəqs edir, şeir söyləyir*** və s.Uşaqların bu dövrdə aydın qavrayışı, əyani-obrazlı hafizəsi, zəngin təxəyyülü ilə «bədii tipə» yaxın olur.

Bədii fəaliyyətin , o cümlədən təsviri işlərin bir növü də ***rəsm çəkmədir***. Rəsm etmək uşağın daxili aləmi tədqiqetmənin ən əlverişli və ən mühüm vasitəsidir. Bədii fəaliyyətin bir növü də ***musiqi fəaliyyətidir***. Məktəbəqədər yaşlı uşaqlar musiqiyə çox aludə olurlar. Bu növ fəaliyyətdə uşaq musiqini qavrayır, ifaçılığı öyrənir, yaradıcılığa istiqamətlənir, musiqi təhsili almağa meyllənir. Musiqi ilə məşğuliyyət, uşağın musiqi qabiliyyətinə, o cümlədən şəxsiyyətinə, bütövlükdə ahəngdar inkişafına çox böyük təsir göstərir.

IV-3. Məktəbəqədər dövrdə öyrənmə

Məktəbəqədər yaşlı uşaqlar öyrənmənin ***sensor, mator və sensomator formalarını*** mənimsəyir. Uşağın psixi proseslərini, nitqini, hərəkətlərini inkişaf etdirmək üçün onlar öyrənmə xarakteri daşıyan təlim elementləri olan həmçinin hərəkətlərini təkmilləşdirən yapma, aplikasiya işlərinə, habelə kağız və katrondan fiqurlar hazırlamağa, nəğmə və musiqi dərslərinə, didaktik oyunlarla məşğul olmağa, yazmağı, hərəkəti öyrədən məşğələlərə cəlb edilirlər.

İstifadə olunan materialnın xarakterinə görə tədris-didaktik məşğələləri dörd qrupa ayırmaq mümkündür:

- 1) Oyuncaqlarla (əşya) məşğələlər
- 2) çap olunmuş stolüstü oyunlar
- 3) şifahi (sözlü) didaktik oyunlar
- 4) kompüter oyunları

IV-4.Əmək fəaliyyətinin ünsürlərinin inkişaf xüsusiyyətləri.

Məktəbəqədər yaşlı uşaqlar oyunla yanaşı müəyyən əmək tapşırıqlarını icra edirlər. Bu yaş dövründə əməkdən danışmaq hələ tezdir: çünki mək yaşlıların əsas fəaliyyət növüdür, eyni zmaanda o, mürəkkəb quruluşaq malikdir və insan psixikasına elə yüksək tələblər verir ki, məktəbəqədər dövründə uşaqda hələlik belə psixi xassə və qabiliyyətlər tam şəkildə formalaşmamış olur. Lakin buna baxmayaraq uşağı əmək fəaliyyətinə hazırlamaq, onda əməksevərlik hissi tərbiyə etmək məktəbəqədər uşaq müəssisələrinin qarşısında duran ən ümdə vəzifələrdən biridir.

Əmək tapşırıqlarının icra şəraitinin təşkilinə aşağıdakılar daxildir:

1. Uşaqlara zəruri iş şərtlərinin öyrədilməsi
2. Onlara müvafiq bilik, bacarıq və vərdişlərin xüsusilə alətlər və materiallarla rəftar etmə bacarığının aşılanması
3. İşin mənasının, onun başqa adamlar üçün əhəmiyyətinin müfəssəl, ətraflı izahının verilməsi
4. Öz hərəkətlərini planlaşdırmaqda və uzalaşdırmaqda uşağa köməklik göstərilməsi

IV-5. Bacarıq, vərdiş və adətlərin təşəkkülü

Məktəbəqədər yaşlı uşaq şəxsiyyətinin strukturund təmamilə yeni xüsusiyyətlər təşəkkül tapmağa başlayır. Bu dövrdə uşaqlarda bir sıra bacrıq, vərdiş və adətləri məhz böyükləri təqlidetmə sayəsində meydana çıxır. Böyüklərin tələbi ilə tədricən ***çəngəl, qaşıq və bışaqdan istfadəni öyrənir, özündə təmizkarlıq adəti tərbiya etməyə səy göstərir, getdikcə mürəkkəb-gigyenik vərdişlərə*** yiyələnir. Eyni zamanda ***kollektivdə davranmağı***, ***ictimai yerlərdə mövcud qaydaları gözləməyi*** təədricən öyrənir. Məktəbəqədər yaşının sonunda uşaq bağçada müvafiq ***məşğələlərdə müəyyən bilik-bacarıq əldə edir, ana dilində yazıb-oxumağı öyrənir, bədii ədəbiyyatla tanış olur, saymaq və rəsm çəkmək bacarığına*** yiyələnir. Məktəbəqədər yaşın sonunda uşaq bağçada özünü böyüklər kimi aparır və birinci sinfə getməyə hazırlaşır.

Mövzu 7.Məktəbəqədər yaşda idrak prosesləri və şəxsiyyətin inkişafı

Plan:

7. Məktəbəqədər yaşda uşaq şəxsiyyətinin formalaşması şəraiti
8. Davranış motivlərinin inkişafı və uşaqların özünü dərketməsi
9. Şəxsiyyətin əxlaqi keyfiyyətlərinin formalaşması
10. Məktəbəqədər dövrdə uşaqlarda idrak proseslərin əsas xüsusiyyətləri
11. Emosional-iradi aləmin təşəkkülü
12. Xarakter və qabiliyyətlərin formalaşması

Ədəbiyyat:

16. Əzimli Q.Ə. Psixi inkişaf və tərbiyənin müasir problemləri. Bakı 2004.
17. Əzimli Q.Ə. Yaş və pedaqoji psixologiyanın müasir problemləri. Bakı 2006.
18. Həmzəyev M.Ə Yaş və pedoqoji psixologiyanın əsasları Bakı 2003.
19. Qədirov Ə.Ə Yaş psixologiyası. Bakı, 2003.
20. Vəliyev M.V., Mustafayev A.M. İnkişaf və yaş psixologiyası. Bakı, 2013.
21. https://adpuquba.edu.az/wp-content/uploads/2020/12/Cocuk-Psikolojisi-YURTSEVER-tr.pdf

Mövzu ilə bağlı elektorn resurslar

https://kayzen.az/blog/psixologiya/8179/k%C3%B6rp%C9%99lik-v%C9%99-erk%C9%99n-u%C5%9Faql%C4%B1q-d%C3%B6vr%C3%BCn%C3%BCn-x%C3%BCsusiyy%C9%99tl%C9%99ri.html

http://rmodou.krkam.edusite.ru/p6aa1.html

https://cdnacikogretim.istanbul.edu.tr/auzefcontent/19_20_Guz/bebeklik_ve_cocukluk_doneminde_normal_ve_atipik_gelisim/2/index.html

https://www.cliffsnotes.com/study-guides/psychology/psychology/developmental-psychology-age-013/development-in-infancy-and-childhood

V. Məktəbəqədər yaşda uşaq şəxsiyyətinin formalaşması şəraiti

Məktəbəqədər yaşlı uşaqların şəxsiyyətinin inkişaf şəraiti əvvəlki dövrlərdən əsaslı surətdə fərglənir.Beləki yaşlıların onlara verdiyi tələblər artır və uşaqdan ümumi davranış normalarını gözləmə tələb olunur.Həm də uşağın yaşlıdları ilə oyunları zamanı hərəkətlərinin uzlaşdırılması ,onlarda yaşıdların maraq və rəyi ilə hesablaşma təşəkkül edir.

Məktəbəqədər yaş dövründə uşağın fəaliyyəti mürəkkəbləşir və xarici aləmlə əlaqəsi, dərk etmə imkanları genişlənir, onlarda müəyyən dəyişiklik gedir, tədricən uşağın şəxsiyyətinin formalaşması imkanları reallaşır. Bu, iki cəhətlə səciyyələnir:

Hər şeydən əvvəl uşaq onu əhatə edənləri tədricən anlayır, öz yerini, mövqeyini müəyyənləşdirir, bu, uşaqda yeni tip davranış motivi yaradır və onlar yeni davranışlara yiyələnir.

2.Digər tərəfdən bu, uşağın emosional-iradi cəhətdən inkişafı ilə sıx bağlıdır. Bunlar həmin keyfiyyətlərin, əlamətlərin reallaşmasını təmin edir, davamlı davranış yaradır və uşaq xarici şəraitdə gedən dəyişikliyi dərk etməyə başlayır.

Uşaq şəxsiyyətinin inkişafına böyüklərin təsiri özünü **əxlaq normalarının mənimsənilməsi prosesində** göstərir. Həmin normalar nümunəvi və düzgün davranışın formalaşması zamanı mənimsənilir. Uşaq şəxsiyyətinin inkişafında yaşlıların nümunəvi davranışı, qarşılıqlı münasibəti və işi mühüm rol oynayır. Bu istiqamətdə uşağa ən çox təsir edən onun yaxın adamlarıdır. Uşaqlar yaşlıların qiymətləndirdikləri keyfiyyətlərə, ədalara, əşyalara meyllənir, onu daha çox təqlid edir.

Uşağın təqlid etdiyi ən nümunəvi davranış, o adamların davranışı olur ki, o, uşağa qayğı göstərsin, məhəbbətini, hörmətini hiss etdirsin. Uşaqlara kim daha çox mehriban yanaşırsa, qayğı göstərirsə, uşaq onları nümunə kimi qəbul edir.Nümunəvi davranışların mənimsənilməsində yaşlıların onlara verdiyi qiymət, insanlar haqqında söylədikləri nağıl, hekayələr mühüm rol oynayır.

Məktəbəqədər yaşlı uşaqlar oyuncaqla düzgün davranmaq, gün rejimini gözləmək kimi mədəni-gigiyenik vərdişlər mənimsəməyə başlayır. Burada uşaq yalnız yaşlının tələbini yox, həm də özü o qaydaları mənimsəməyə cəhd edir.

Uşaq şəxsiyyətinin inkişafında yaşlıların nümunəvi davranışı,qarşılıqlı münasibəti mühüm rol oynayır. Bu istiqamətdə uşağa ən cox təsir edən onların yaxın adamlarıdır. Uşaqlar yaşlıların qiymətləndirdikləri keyfiyyətlərə əşyalara meyillənir ,onu daha çox təqlid edir. Əgər böyüklərin davranışı uşağın uğurlu hərəkətinə səbəb olursa müsbət emosional hal yaradır. Bu zaman usaq onu əhatə edənlərlə asanlıqla təmasa girir, əgər böyükləri uşağa münasibətdə mənfidirsə, uşaqların sosial aktivliyi azalır ve öz daxili aləminə qapanır.Onda inamsızlıq,həmyaşıdlarına qarşı agresiv hərəkətlər yaranır. Məktəbəqədər yaşlı uşaqlarda emosional iradi cəhətdən inkişaf şəxsiyyətin formalaşmasına təsir göstərən amillərdəndir. Bu dövrdə uşaqlarda unsiyyət xüsusi əhəmiyyətə malikdir. Belə ki,həm yaşıdları, həm də

yaşlılarla olan ünsiyyət önəmlidir. 3-5 yaşında uşağın yaşlılarla ünsiyyəti qeyri formal şəraitdə ətraf aləmlə qarşılıqlı əlaqələrinin müəyyənləşdirilməsinə yönəldilmiş idrak fəaliyyətində həyata keçirilir.(M.İ.Lisina)

Uşaq şəxsiyyətinin inkişafında hislərin də rolu böyükdür. Uşağın iftixar, utancaqlıq hissi nümunəvi davranış qaydalarının mənimsənilməsində müəyyən rola malikdir. Uşaqların bəziləri böyüklərin onlardan nə gözləməsini, hərəkətlərinin qiymətləndirilməsini istəyir.

Utancaqlıq hissi bəzən uşağın müəyyən qaydaları səhv yerinə yetirdikdə böyüklərin onlara tutduğu iradla birbaşa qarşılaşması ilə əmələ gəlir. Uşaq başa düşür ki, müəyyən qaydanı pozmuşdur, ona əməl etməmişdir. Bununla əlaqədar olaraq uşaq özündə qorxaqlıq hiss edir, avam hərəkət etdiyini duyur. Məktəbəqədər yaşlı uşaq hələlik emosional cəhətdən başqa həmyaşıdlarından asılı olur. Yaşlının davranışı daima uşağı formalaşmağa yönəldir. Əgər böyüklərin davranışı uşağın uğurlu hərəkətinə səbəb olursa, müsbət emosional hal yaradır, onda çətinliyə qarşı getmək hissi əmələ gəlir və bu zaman uşaq onu əhatə edənlərlə asanlıqla təmasa girir. Böyüklərin uşağa münasibəti mənfi olduqda isə, uşaqların sosial aktivliyi azalır və öz daxili aləminə qapanır, onda inamsızlıq yaranır, hətta həmyaşıdlara qarşı aqressiv hərəkət edir. Bəzən də uşaqların çoxu böyüklərin onlara olan mənfi münasibətinin təsiri altında fəaliyyətini dayandırır, əznik olur, onda laqeydlik baş verir. Bəzən istisnalar da olur.

Məktəbəqədər yaşlı uşaqda nəvazişə, məhəbbət hissinə tələbat çox olur və burada əsas yeri uşağın anasına olan münasibəti tutur. Uşaqda bütün emosional hallar- məhəbbət, sevinc ananın vasitəsi ilə formalaşır. Uşaq ana istəyinə, nəvazişinə möhtacdır. Uşağın anaya olan məhəbbəti, münasibəti ən aparıcı, həlledici sosial inkişafdır. Burada uşağın yaşlılarla ünsiyyətinin məzmunu da əhəmiyyətlidir.

Nitq vasitəsilə ünsiyyət bu dövrdə ön plana keçir.Bu yaşda nitqin təfəkkürlə əlaqəsi müşahidə olunur.

Məktəbəqədər dövrdə oğlan və qızlar özünü dərk etməyə başlayır.Özünüdərketmə başqa adamları müşahidədə — yaşlılara münasibətdə formalaşır .Yaşlılar uşaqlara kömek edir ki,öz cinsi barədə təsəvvürü olsun .Uşağın öz cinsini müəyyənləşdirməsi ailədən başlayır.

Məktəbəqədər yaşlı qız və oğlanın rollu oyunda fərqlənməsi özünü belə göstərir ki,oğlan ən çox oğlana, qız əksərən qızı seçib oynayır.

Məktəbəqədər yaşlı uşaqların həmyaşıdları ilə ünsiyyətə tələbatı onun şəxsiyyətinin formalaşmasında mühüm rol oynayır və ünsiyyət tələbatı başqa adama simpatiya-münasibətə gətirib çıxarır.

Ünsiyyət tələbatı uşaqların birgə fəaliyyət zamanı müəyyən əmək tapşırığı yerinə yetirərkən inkişaf edir, bu prosesdə uşaq kollektivə, ictimai qaydalara alışır. Uşaq şəxsiyyətinin inkişafına təsir edən amillərdən biri də qrupa ictimai rəyin təsiridir. 3 yaşlılar qrupda predmet, hadisələr, hərəkətlər haqqında ümumi rəy olmur, bir uşağın rəyi başqasına təsir etmir. Lakin 4-5 yaşlı uşaqlar öz həmyaşıdları ilə razılaşır, əksəriyyətin rəyimi qəbul etməyə başlayırlar.

Oğlan və qızlar özləri haqqında məlumatı ən çox yaşlılardan alır.Yaşlılar uşaqlara kömək edir ki, öz cinsi barədə təsəvvürü olsun və uşağın öz cinsini müəyyənləşdirməsi ailədən başlayır.

Bağça yaşının sonunda uşaqlar öz hərəkət və fəaliyyətlərindəki qüsurları hiss etməyə başlayırlar.

Uşaqların cinsi mənsubiyyəti müəyyən oyunları seçməkdə də özünü göstərir. Oyun motivi uşaq davranışında daim təzahür edərək, onu maraqlandırır. Ailə oyunlarında hər kəs cinsi mənsubiyyətinə görə rola girir, xüsusilə də rollu oyunlarda oğlan və qız uşaqları böyükləri

təqlid edir. Beləliklə, onlar oğlan və qız olduqlarını dərk etməyə başlayır. Uşaq şəxsiyyətinin göstəricilərindən biridə onlarda iddia səviyyəsinin təzahürüdür.Uşaq şəxsiyyətinin inkişafında iddia səviyyəsi mühüm rol oynayır. Uşağın iddia səviyyəsi və özünü təsdiqinə ciddi cəhdi emosional münasibətlərin yarandığı zaman biruzə verir. Uşağın iddia səviyyəsi tədricən müəyyən tələbata çevrilir və iddia edir ki, onun nailiyyətlərinə qiymət verilsin. Özü də uşaq həmyaşıdlarının yox, böyüklərin təsdiq etdiyi iddia səviyyəsini fərqləndirir. Ümumiyyətlə yaşlılar uşaqların müəyyən müvəfəqiyyətə nail olmasına kömək edir. Eyni zamanda iddia səviyyəsinə nail olmaq üçün uşaqlar bir-birinə kömək edir. Bu məsələ 2 planda gedir:

4. Uşaq çalışır ki, hamı kimi olsun, lakin müəyyən nailiyyətə nail olduqdan sonra cəhd edir ki, o birilərdən yaxşı olsun. Beləliklə də uşaq qüsur və nailiyyətlərini dərk edir.
5. Uşaq həmyaşıdlarının iddiasına cəhd edərkən əgər həmkarı yaddırsa, onların davranışına uyğun hərəkət etməyə razı olur. Əgər həmkarı tanışdırsa, iddia səviyyəsini artırır və müstəqil hərəkət etməyə çalışır.
6. İddiasına nail olan uşaq müəyyən rollarda çıxış edərkən bəzən onlarda başqasının nailiyyəti böyük olanda özünü tərifləyir, aşağı olanda isə başqasına paxıllığı tutur.

VI. Davranış motivlərinin inkişafı və uşaqların özünü dərketməsi

Məktəbəqədər yaşlı uşaqlar davranış motivlərinin sayəsində hərəkət edir, amma onlar təhrik edəni dərk edə bilmir. Bu dövrdə uşaqları səciyyələndirən motivlərdən biri də davranış motivinin təsiri altında yaşlı adam kimi hərəkət etməyə çalışmasıdır. Oyun motivi uşaq davranışında daim təzahür edərək, onu maraqlandırır. Yaşlılarla əlaqəyə girmək, ünsiyyət yaratmaq uşaq şəxsiyyətinin inkişafında böyük əhəmiyyətə malikdir. Məktəbəqədər uşaqlarda özünü sevmə, dərketmə motivləri də müşahidə olunur və bununla uşaq özünü başqalarından ayırır. Məktəbəqər yaşın axırlarında motivlərin yeni növləri-idrak motivləri özünü biruzə verir və uşaq böyüklərə müxtəlif suallar verməyə başlayır.
Bu dövrdə uşaqlarda başqa adamlara münasibətini ifadə edən əxlaqi motivlər də özünü göstərir. Məktəbəqədər dövrün axırlarında əxlaqi motivlər içərisində ictimai motivlərə də təsadüf etmək olur. İctimai motiv məişətdə, ailədə, bağçada bəzi əmək tapşırıqlarını yerinə yetirərkən özünü göstərir. Uşaqlar xüsusilə də 5-6 yaşında öz bədəninin sxemini anlamağa, dərk etməyə başlayır. Xüsusilə də oğlan və qız olmasını dərk edir. Bu dövrdə həmçinin uşaqların şəxsiyyət kimi səciyyələnən cəhətlərindən biri də həya hissinin təşəkkülüdür. Ailədə ata-ana, ana-uşaq, bacı-qardaş, bacı-bacı, qardaş-qardaş arasındakı münasibətlər böyük tərbiyəvi əhəmiyyətə malikdir.
Uşaqların məktəbə psixoloji cəhətdən hazırlanmalarında uşaq bağçasının böyük və hazırlıq qruplarında aparılan xüsusi tərbiyəvi iş də müəyyən rol oynayır. Belə şəraitdə uşaqlar ümumiləşmiş və müəyyən sistemə malik olan biliklər qazanırlar. Böyüklərin tələbi ilə uşaq yeni sosial törəməyə, özünü təsdiqə çalışır. Uşağın özünü təsdiqə cəhdi əxlaqi hisslə bağlı olur. Əxlaqi hissin formalaşması uşağın onu əhatə edən adamların davranış adətlərini mənimsəməklə, uğurla əlaqədardır. Unutmaq olmaz ki, valideyn uşağa ən yaxın olan adamdır və uşaq onlara etibar edir, inanır. Uşaq şəxsiyyətinin təməli ailədə və uşaq bağçasında həmyaşıdları ilə ünsiyyətdə qoyulur.

VII. Şəxsiyyətin əxlaqi keyfiyyətlərinin formalaşması

Uşaq şəxsiyyətinin əxlaqi cəhətdən inkişafında davranış normalarını bilmək, onlara uyğun davranmağı adət etmək, o cümlədən öz mövqeyinə və əxlaq normalarına emosional münasibət mühüm rol oynayır. Həmçinin uşağın sosial varlıq kimi inkişafında insanın müsbət keyfiyyətlərinə, davranışnormalarına yiyələnməsi I dərəcəli əhəmiyyətə malikdir. Məktəbəqədər dövrdə uşaq onu əhatə edənlərlə, xüsusilə həmyaşıdlarilə ünsiyyət zamanı sosial davranış adəti formalaşır. Bu dövrdə əxlaq nöqteyi-nəzərindən uşaq böyüklər tərəfindən qiymətləndirilərkən müəyyən qaydalar gözlənilməlidir. Uşaq sual verən zaman onun sualları cavablandırılmalıdır. Uşağın tələbatı başqalarilə ünsiyyətdə təmin olunmayanda iddia səviyyəsi tam təsdiq olunmur. Bu da uşaqda mənfi halların meydana gəlməsinə səbəb olur.

Əxlaq normalarına istinadən uşaq belə davranır:

a) əxlaq qaydalarına düzgün əməl edir

b) öz tələbatını ödəyərkən qaydaları pozur, lakin yaşlılardan gizlətmir

c) uşaq qaydaları pozur və onu gizlədir. Çünki cəzalandırılmadan qorxur.

Uşaq şəxsiyyətinin inkişafı çox vəziyyətlərdən, amillərdən asılıdır. Burada fərdi psixoloji fərqlər əsasında təşəkkül edən uşaq fərdiyyətinin mənbələri mühüm rol oynayır.

Uşaq fərdiyyətinin mənbəyinə aşağıdakılar daxildir:

4. Anadan gəlmə xüsusiyyətlər
5. Uşağın inkişaf etdiyi mühit
6. Uşağın həyatda öz mövqeyi

Bu mənbələr əsasında uşağın fərdi xüsusiyyətləri, əqli inkişaf fərqləri, psixi halı, həmçinin özünüdərketmənin quruluş xüsusiyyətləri təşəkkül edir. Beləliklə, uşağın fərdi xüsusiyyətləri, əqli inkişafı psixi halı, həmçinin dərk etməsinin strukturu əsasında onun fərdiyyəti əmələ gəlib formalaşır, müstəqilliyi artır və bir şəxsiyyət kimi inkişaf edir. Məktəbəqədər yaşlı uşaq şəxsiyyətinin strukturunda tamamilə yeni xüsusiyyətlər təşəkkül tapmağa başlayır. Məlumdur ki, məktəbəqədər yaşlı uşaqların rəftar və davranışı, habelə fəaliyyət növləri üçün təqlidetmə və təlqinəqapılma xüsusiyyətləri xarakterikdir. Odur ki, onun bir sıra bacarıq, vərdiş və adətləri məhz böyükləri təqlidetməsi sayəsində meydana çıxır. Uşaq bu zaman böyüklərin təsirilə hərəkət edir, onların tələblərini yerinə yetirir. Bu tələblər yerinə yetirilmədikdə isə, məzəmmətlə qarşılaşırlar. Tələbləri icra etdikdə isə, tərifl ənir, təqdir olunurlar. Nəticədə uşaqda bu tələblərə uyğunlaşma vərdişi əmələ gəlir, o, səliqə ilə geyinməyə, üst-başını təmiz saxlamağa alışır, oyuncaqlarının taleyi onu hər şeydən çox maraqlandırır. Uşaq onların qayğısına qalır. Eyni zamanda uşaq kollektivdə davranmağı, ictimai yerlərdə mövcud qaydaları gözləməyi də tədricən öyrənir. Bütün bunlar isə uşaqda yeni bacarıq- cəmiyyətin, ailənin, kollektivin həyat şəraitinə daxil olmaq bacarığını formalaşdırır. Bu mərhələdə uşağın inkişafı, bilavasitə yaşlıların rəhbərliyi altında həyata keçirilir, yaşlılar onun həyatında gözə görünən və ya görünməyən şəkildə iştirak edirlər. Beləliklə, uşaq onu əhatə edənlərin nümunəvi cəhətlərinə, davranışlarına yiyələnməyə səy göstərir, bu gözəl keyfiyyətləri özündə möhkəmlətməyə çalışır. Eyni zamanda uşaq özünün zərərli və qüsurlu cəhətlərini də yaşlıların təsiri altında tədrican islah edir. Məktəbəqədər yaşlıların həyat təcrübəsi artdıqca onlar ətraf mühitlə daha ətraflı tanış olur və xarici aləmin zənginlikləri onları cəlb edir. Bu da uşaqda yenilikləri öyrənmək, mənimsəmək adətini, başqa sözlə desək, idrak maraqlarını inkişaf etdirir. Uşaq ətrafı mənimsəyib, qavradıqca onda müxtəlif bacarıq və vərdişlər formalaşmağa başlayır. Bu cür vərdiş və adətlər isə uşaq şəxsiyyətini tədricən formalaşdırır. Uşaqda təqlidedici fəaliyyətlə yanaşı, getdikcə müstəqillik, təşəbbüskarlıq kimi keyfiyyətlər də özünü göstərir. Buna ən

çox oyunlarda, tədris xarakterli məşğələlərdə təsadüf edilir. Məktəbəqədərki dövrdə uşaq tədricən əxlaq normalarını və davranışlarını gözləməyə alışır, öz hərəkətlərinə verilən qiymətə münasibətini ifadə etməyi bacarır, yoldaşlarına qayğı ilə yanaşır, böyüklərə hörmət edir.
Məktəbəqədər yaşın axırında uşaq bağçada aparılan müvafiq məşğələlərdə müəyyən bilik-bacarıq əldə edir, ana dilində yazıb-oxumağı öyrənir, bədii ədəbiyyatla tanış olur, saymaq və rəsm çəkmək bacarığına yiyələnir. Bunların hamısı nəinki məktəbə hazırlıq dövründəki təlim prosesinə, həm də onun nəticəsinə dərin maraq oyadır. Məktəbəqədər yaşın sonunda uşaq bağçada özünü böyüklər kimi aparır və I sinifə getməyə hazırlaşır.

IV. Məktəbəqədər dövrdə uşaqlarda idrak proseslərin əsas xüsusiyyətləri

Məktəbəqədər yaşlı uşaqlarda əqli proseslərdən biri olan ***diqqət*** və onun əsas xüsusiyyətlərinin inkişafı üçün səmərəli şərait yaranmış olur və uşağın diqqəti surətlə inkişaf edir. O, maraqlı və bələdləşmə refleksinin yaranmasına səbəb olan cisim və hadisələr üzərində daha çox mərkəzləşməyə başlayır.

Məktəbəqədər yaş dövründə diqqətin davamlılığının artması uşağın cisim və hadisələrə dərindən bələd olması, onlar haqqında müəyyən biliklər əldə etməsilə sıx bağlıdır. Bu yaş dövründə diqqətin həcmi tədricən genişlənməyə başlayır.

3-4 yaşdan etibarən, söz siqnalları ilə uşağın diqqətini müəyyən obyektlərə cəlb etmək olur, bu yolla hətta diqqəti bir obyektdən digərlərinə keçirmək də mümkündür. 6-7 yaşlı uşaqların demək olar ki, hamısı lap I sifahi sözlü təlimatdan sonra diqqətlərini çox asanlıqla bir obyektdən digərinə keçirməyi bacarır.

İxtiyari diqqətin inkişafında uşaq fəaliyyətinin düzgün təşkili böyük əhəmiyyət kəsb edir. Ona görə də bağça yaşlı uşaqların fəaliyyətinə yaşlılar tərəfindən daim ciddi nəzarət və rəhbərlik edilməlidir.

Məktəbəqədər yaş dövründə uşağın **hafizəs**i də müəyyən qədər inkişaf edir. Məqsədli hafizə və ya bir sıra psixoloqların mnemonika adlandırdıqları yaddasaxlama, daxilində mnemik işlər olan fəaliyyətdəki motivlər sayəsində baş verir. Həmin motivlər mnemik məqsədin anlaşılmasına və dərk olunmasına müəyyən təsir göstərir. Bununla əlaqədar laborator eksperimenti şəraitində, həmçinin oyun prosesində yaddasaxlama və yadasalmanın xüsusiyyətləri tədqiq olunmuşdur (Z.M.İstomina)

Məktəbəqədər dövrdə hafizənin fərqləndirici xüsusiyyətlərindən biri də onun *əyani-obrazlı* xarakter daşımasıdır. Həmçinin bu dövrdə sözlü-məntiqi hafizə də müəyyən qədər inkişaf etmiş olur.

Məktəbəqədər dövrdə uşaqlarda ixtiyari yaddasaxlama təşəkkül tapıb inkişaf etsə də, qeyri-ixtiyari yaddasaxlama daha çox üstünlük təşkil edir və məhsuldar xarakter daşıyır.

Söz hafizəni genişləndirir və təsəvvürləri sistemləşdirir, yaddasaxlanan materialı ümumiləşdirir, onları müəyyən məna qruplarında birləşdirməyə imkan verir. Ona görə də yaddasaxlama və yadasalmanın inkişafında nitqdən bir vasitə kimi istifadə edilməsi olduqca zəruridir.

Hafizənin inkişafı ilə əlaqədar uşaqlarda təsəvvürlər, xüsusən də hafizə təsəvvürləri inkişaf edir. Cürbəcür həyati təcrübələr uşağın idrakını daim yeni surətlərlə zənginləşdirir və əvvəlki surətlərin dəyişməsinə səbəb olur.

6-7 yaşlı uşaqlar onlara verilmiş fiqurları analitik surətdə qavrayır, onları tanımaqla bərabər, həm də hər birinin vəziyyətini ayrı-ayrılıqda müəyyənləşdirə bilir.

Tanış surətin yadda saxlanması və lazım gəldikdə yada salınmasında, habelə yeni surətlərin yaranmasında nitqin rolu böyükdür. Nitq eyni zamanda cismi geniş şəkildə təsvir etmək imkanı verir.

Məktəbəqədər yaş dövründə uşağın ***təfəkkürü*** əsasən əyani-əməli xarakter daşıyıb, icra etdiyi işlərlə, dərk etdiyi konkret cisim və hadisələrlə bağlı olur. Qavrayış materialları əsasında fikirləşməklə yanaşı, uşağın da geniş söz ehtiyatına yiyələnməsi ilə əlaqədar onda obrazlı, nəzəri və mücərrəd təfəkkürə keçid üçün imkanlar yaranır.

Psixoloqların tədqiqatları göstərir ki, 3-4 yaşlı uşaqlar bəzən hadisənin mahiyyətini başa düşə bilmədiklərinə görə qəribə, həqiqətə uyğun olmayan hökmlər irəli sürürlər, düzgün olmayan nəticələr çıxarırlar. Uşağın bilik və təcrübəsinin artması, onun təfəkküründə özünü göstərən bu cür halların tədricən aradan qalxmasına, hökmlərin dəqiqləşməsinə səbəb olur.

Məktəbəqədər dövrdə uşaq təfəkkürü əsasən, əyani-əməli, əyani-obrazlı və sözlü-məntiqli (mücərrəd) təfəkkür istiqamətində inkişaf edir.

Məktəbəqədər yaşlı uşaqlar tədricən cisim və hadisələrə aid hökm çıxarmağa başlayırlar.

4-5 yaşlı uşaqların mühakiməsi mürəkkəb xarakter daşıyır. Onlar bir neçə oxşar faktlar əsasında müəyyən ümumi nəticələr çıxarır və yeri gəldikcə bundan başqa məsələnin həllində istifadə edirlər.

6-7 yaşlı uşaqların mühakiməsi daha mürəkkəb və təkmilləşmiş xarakter daşıyır. Uşaq bu mərhələdə nəinki, ümumiləşdirmə aparır, həmçinin onları təsbih edir və təkmilləşdirir.

Məktəbəqədər dövrdə uşaqlar hissi idrakla kifayətlənməyib, təbiət və cəmiyyət haqqında yaşlıların verdiyi şifahi təsvir və izahatdan da istifadə edib, idrak fəaliyyətlərini zənginləşdirirlər. Uşaq böyüyüb zənginləşdikcə, tələbatı artdıqca, onda əyani-obrazlı təfəkkür əsasında mücərrəd təfəkkür də inkişaf etməyə başlayır.

Təfəkkürün bu yüksək pilləsi təlim-tərbiyə və ictimai fəaliyyət prosesində inkişaf edir və öz növbəsində biliklərə yiyələnməyə, məfhumlar sistemini mənimsəməyə imkan yaradır.

Məktəbəqədər dövrdə ***nitq,*** xüsusilə də şifahi nitq daha sürətlə inkişaf edib zənginləşir, lüğət ehtiyatı artır, o, ana dilinin qramatik qanunları əsasında danışmağa başlayır. Ümumiyyətlə, bu dövrdə uşaq nitqi əsasən 3 istiqamətdə inkişaf edir:

4. Uşaqda söz ehtiyatının artması
5. Nitqin fonetik cəhətdən inkişafı, yəni uşağın səsləri düzgün eşitməyə və tələffüz etməyə yiyələnməsi.
6. Uşağın nitqinin qrammatik cəhətdəm inkişafı.

Məktəbəqədər dövrdə uşaqların nitqi ünsiyyət vasitəsi kimi inkişaf edir, özü də bu, ailədə, bağçada, yaxın adamlarla, onu əhatə edənlərlə ünsiyyət zamanı olur. Nitqin bu cür ünsiyyət formasına situativ nitq deyilir. Uşaq qarşısına sual çıxdıqda, yeni cisim və hadisələrlə qarşılaşdıqda ondan istifadə edir.

Uşağın ünsiyyət dairəsi, marağı genişləndikcə kontekst nitqi mənimsəyir (konkret mətnin mənaca bitməsi). Bu nitqə uşaq bağça məşğələlərində, müntəzəm təlim prosesində yiyələnir (inkişaf edir).

Məktəbəqədər dövrdə uşağın yiyələndiyi nitq formalarından biri də izahlı nitqdir. Uşaq bu nitqlə oyunun məzmunu yoldaşlarına izah edir. Rabitəli nitqin bir forması olan izahlı nitq uşağın həyat fəaliyyətində böyük əhəmiyyətə malikdir. Məktəbəqədər dövrdə bu nitq yenicə təşəkkül tapıb inkişafa başlayır.

Bu dövrdə həmçinin uşağın nitqində fonetik cəhətdən bəzi qüsurlara təsadüf olunur. "R" səsini uşağın düzgün tələffüz etməməsini xüsusi ədəbiyyatda ***rotatsizm*** adlandırırlar. Bu qüsuru aradan qaldırmaq üçün uşağı güzgü qabağında oturtmaq və ona təklif etmək lazımdır ki, ağzını geniş açsın, dilinin ucunu dişlərinin dibinə yaxınlaşdırsın və bu vəziyyətdə "z" səsini ifadə etsin. Bu vaxt uşağın dili altdan çay qaşığı ilə yuxarı qaldırılır və "z" səsini ifadə etməsi tapşırılır. Bu zaman "r" səsinə oxşar səs yaranır.

"L" səsinin düzgün tələffüz olunmaması ***lambdatizm*** adlanır. Bu səsin düzgün tələffüzü üçün uşağa tapşırmaq lazımdır ki, o, dilini yastılaşmış halda kəsici dişlərin arasına soxsun, sonra dilin uc hissəsini yavaşca dişləsin və bu vəziyyətdə "l" səsini ifadə etsin.

"Ş" səsini düzgün tələffüz etmək üçün uşağa tapşırmaq lazımdır ki, "s" səsini tələffüz edərkən dilinin ucunu dişlərin ucuna deyil, üst dişlərin dibinə tərəf yaxınlaşdırsın.

Bir çox hallarda nitq orqanlarında heç bir qüsur olmadıqda belə uşaq qüsurlu danışır. Bunun səbəbi uşağın səsə uyğun, düzgün fizioloji mexanizm yarada bilməməsi, mənfi tərbiyəvi təsirlər, yamsılamaq və yerli ləhcələrdir. Bunların qarşısı erkən alınmazsa, uşağın nitqində özünə uzun zaman yer edər. Bəzən bu cür nöqsanlar şirindillik hesab edilərək, qarşısı alınmır, böyük yaşlarda isə qarşısının alınması çətinləşir.

Nitq inkişafının II və III mərhələsində uşağın tələffüzü ilə yanaşı, onun söz ehtiyatı da sürətlə inkişaf edir.

Məktəbəqədər yaş dövründə dialoji nitqin inkişafı və təkmilləşməsi ilə yanaşı, nitqin daha mürəkkəb və müstəqil növü olan monoloji nitq də inkişaf etməyə başlayır.

Nitq inkişafının III — şifahi nitqin zənginləşməsi mərhələsində lüğət ehtiyatı sürətlə artır: 3 yaşlı uşaq 1000-1500, 4 yaşlı uşaq 1600-1926, 5-6 yaşlı uşağın nitqində isə 2500-3000-ə qədər söz ehtiyatı olur.

Məktəbəqədər yaşda ***təxəyyül*** surətlə formalaşır. Uşaq oyun və onun gedişi barədə böyüklərin, tərbiyəçinin izahatını dinləyir, bu izahat əsasında oyunun gedişini öz təxəyyülündə canlandırmağa səy göstərir.

Məktəbəqədər yaş dövründə uşağın bərpaedici təxəyyül surətləri hələ solğun olur, uşaq qarşıya qoyulmuş məqsədə uyğun, dəqiq və zəngin surətlər yarada bilmir.

Məktəbəqədər yaş dövründə bərpaedici təxəyyüllə yanaşı, yaradıcı təxəyyül də inkişaf edir. Bir çox tədqiqatlar yaradıcı təxəyyülün ilk əlamətlərinin hələ 3 yaşdan etibarən təzahür etdiyini göstərir.

Qeyri-adi surətləri yaradarkən uşaqlar nağıl və bədii əsər materiallarına istinad edirlər. Yuxarı məktəbəqədər yaşlıların təxəyyülündə realist meyl daha qabarıq şəkildə nəzərə çarpır.

V. Emosional-iradi aləmin təşəkkülü

Psixologiya müəyyən etmişdir ki, **məktəbəqədər yaşda emosional-iradi cəhət sürətlə inkişaf edir.** Bu dövrdə uşağın hissləri dəyişkən və qısa müddətli olub, tədricən mürəkkəbləşməyə başlayır. Nitqin inkişafı ilə əlaqədar uşaq 3 yaşdan etibarən ətraf aləm cisim və hadisələrinə, ünsiyyətdə olduğu adamlara öz emosional-hissi münasibətlərini bildirmək imkanına yiyələnir.

Məktəbəqədər yaşlı uşaqlarda hislərin inkişafı. Uşağın ümumi davranış qaydalarına uyğun gələn hərəkətləri, rəfta və davranışı yaşlılar tərəfindən bəyənilir, tərifləmir, uyğun gəlməyənlər isə pisləmilir. Bu da öz növbəsində uşaqda ***borc və utancaqlıq*** hislərinin meydana gəlməsinə səbəb olur.

Borc hissinin ilkin təzahürünə 3-4 yaşlı uşaqlarda rast gəlmək olur. Valideynin təklifi əsasında uşağın evi yığışdırması, süpürüb səliqə-səhmana salması borc hissinin ən sadə forması hesab oluna bilər. Bu hiss ilk zamanlar çox məhdud sahəni əhatə edir, 5-6 yaşlarında isə borc hissi adamlara kömək göstərmək, onların tələbini yerinə yetirmək, yersiz hərəkətlərdən imtina etmək halında özünü büruzə verir. 6-7 yaşlı uşaqlarda borc hissinin məzmunu xeyli dəyişir: uşaqlar bir çox işlərin icrasında yaşlılara kömək etməyə çalışır, balacaların, quşların və heyvanların qayğısına qalır, onlar üçün narahat olurlar. Məktəbəqədər yaşlılarda borc və utancaqlıq hislərinin inkişafı uşaqlarda həm də dostluq, başqalarının dərdinə şərik olmaq, həssaslıq kimi hisslərin inkişafı ilə bağlı olur. Bu yaş dövründə hətta şəxsiyyətlərarası münasibətlər, daha dəqiq desək, balacaların öz yaşıdlarına humanist münasibəti də müşahidə olunur. Bu yaşda uşaqlarda öz həmyaşıdlarına humanist münasibət uşaqların cinsi mənsubiyyətindən asılıdır: oğlanlar qızlara nisbətən öz həmyaşıdlarına daha çox humanist münasibət bəsləyirlər. Məktəbəqədər yaş dövründə uşağı gördüyü işə görə tərifləmək, mükafatlandırmaq, rəğbətləndirmək, onda razılıq, məmnunluq və şəxsi ləyaqət hisslərinin meydana gəlməsinə səbəb olur. Bu yaş dövrünün ayrı-ayrı mərhələlərində uşağın emosional həyatı müxtəlif məzmunlar kəsb edir. İlk mərhələdə təzahür edən hislər, adətən, bu və ya digər şəraitdən asılı vəziyyətdə olur: uşaq kimisə, nəyisə, hansı əşyanısa gördükdə onlar öz görünüşü, forması, rəngi və bu kimi əlamətlərilə ya uşağı özünə cəlb edir, ya heç bir münasibət yaratmır, ya qorxudur, ya da sevinc hissi əmələ gətirir.

Uşaqda ***qorxu hissini*** yaradan səbəblər müxtəlifdir**,** onlar hələlik uşağın həyat təcrübəsində olmamış, belə əhvalatlarla o bilavasitə rastlaşmamışdır. Bunların hamısını (cin, şeytan, adamyeyən, təpəgöz, canavar və s.) uşağa yaşlılar söyləmişlər. Sonra isə bunlar uşağın əsəb sisteminin tipindən, beyində gedən prosesdən asılı olaraq davamlı, əyani sürətlərə çevrilir; uşağı əsəbləşdirir, sıxır, sarsıdır, narahat edir, onda qorxu hissi əmələ gətirir. Ona görə də axşamlar uşağa qorxulu əhvalatlar, nağıllar danışmaq məsləhət görülmür.

Hazırda uşağın əsəbini, emosiyalarını oynadan, psixikasını tarıma çəkən yeni səbəblər meydana çıxmışdır. Belə ki, müasir incəsənətdə, xüsusən də, kinozallarda, televiziya verilişlərində uşağı daha çox qorxudan dedektiv filmlər, dəhşətli hadisələr nümayiş etdirirlər, hətta valideynlər belə verilişin nəticələrinə əhəmiyyət vermədən özləri də onlara böyük həvəslə, maraqla tamaşa edirlər, baxırlar. Bunlar isə uşağı daha da qorxudur, sarsıdır, müxtəlif emosiyalar yaradır.

Uşaqda baş verən qorxu hissinin qarşısı mütləq alınmalıdır. Belə ki, qorxulu verilişlərə uşağın baxması qadağan olunmalıdır, digər tərəfdən isə, əgər uşaq qaranlıq otaqda yatmaqdan imtina edirsə, hətta ağlayıb işıqlı otaqda yatırılmasını istəyirsə, onun arzusu nəzərə alınmalı, hətta həmin yataq otağında zəif lampa yandırılması yaxşı olardı.

Balaca uşaqlarda müşahidə olunan hisslərdən biri də ***estetik hisslərdir***. Bu hislərin növlərindən musiqi və nəğməyə olan hiss çox tez təzahür edir. Uşaq gözəl musiqiyə, mahnıya maraqla qulaq asır, musiqinin təsirilə əlini, ayağını oynadır. 2-3 yaşlı uşaqların bəziləri musiqinin incəliklərini dərk edir, yaxşı və pis musiqiyə öz münasibətlərini bildirirlər. **Bədii şəkillər, məzəli və əyləncəli nağıllar** da estetik hislərin inkişafına müsbət təsir göstərən amillərdir. Müxtəlif məzmunlu oyunlar, yaşlılarla birgə fəaliyyət uşaqlarda ali hislərin müəyyən ünsürlərinin inkişafına səbəb olur.

Müxtəlif məzmunlu oyunlar, yaşlılarla birgə fəaliyyət uşaqlarda ***ali hislərin*** müəyyən ünsürlərinin inkişafına səbəb olur. Uşaqda hislərin inkişafı özbaşına getmir, onlar müxtəlif fəaliyyət növlərində təzahür edir, ətraf aləmə olan sosial münasibətlərin dəyişməsi sayəsində baş verir.

Məktəbəqədər yaşlı uşaqda iradənin inkişafı. Məktəbəqədər yaşlı uşaqda iradə də müəyyən qədər inkişaf edir. 3 yaşlı uşaq hər hansı bir işi icra edərkən burada iradi işin əsas mərhələləri bəsit şəkildə də olsa təzahür edir. Uşağın iradəsinin inkişafında oyun mühüm yer tutur. Bundan əlavə iradənin inkişafında uşaqlardan onlara məxsus mədəni davranış və əxlaq qaydalarını daim yerinə yetirmələrini müntəzəm olaraq tələb etməyin, onlara müxtəlif xarakterli tapşırıqlar verməyin çox böyük əhəmiyyəti var.

Uşaq iradəsinin inkişafına ***oyun*** mühüm yer tutur. Bu proses zamanı uşaqda ***dözümlülük, vəzifə və məsuliyyət hissi, qətiyyətlik, müstəqillik və təşəbbüskarlıq*** kimi keyfiyyətlər inkişaf edir. Uşaqlarda təlqin deyilən xüsusiyyətin inkişafına da təsadüf olunur. **Təlqin**, uşağın onu əhatə edən adamların təsiri altına düşməsində ifadə olunur. Ailədə təlim-tərbiyə işi düzgün qurulmadıqda, uşaqda ***şıltaqlıq, höcətlik, tərslik*** kimi iradi nöqsanlar təşəkkül etməyə imkan tapır. Bu nöqsanlar bəzən ailənin çox cüzi qüsurları sayəsində təzahür edir.

Tərslik çox ciddi iradi nöqsandır. O, uşağın öz şəxsiyyətini başqalarına qarşı qoymasında, valideyn, tərbiyəçi və yaşlıların tələblərinin əksinə getməsində ifadə olunur. Uşağın bu hərəkətləri ona zərər gətirsə də o, tərsliyində davaç edir və məqsədinə nail olmağa çalışır.

Tərsliyi doğuran səbəblər bunlardır:

1. Uşağın necə olursa olsun öz bildiyi kimi hərəkət etməsi;

2. Əqli inkişafın məhdudluğu ilə əlaqədar uşağın onun üçün yeni olan məsələləri qavraya bilməməsi;

3. Uşağın özünə az, başqalarına qarşı isə çox tələbkar olması;

4.Uşağın öz qüvvəsinə inamsızlığı.

Məktəbəqədər yaşlı uşaqlarda müşahidə olunan iradi nöqsanlardan biri də ***tənbəllikdir.*** Tənbəllik uşaq ailədə əzizləndikdə, onun bütün arzu və istəkləri yerinə yetirildikdə, özünə inam hissi yaradılmadıqda baş verir. Qeyd olunan iradi nöqsanların qarşısı elə onların təzahür etdiyi ilk anlardan alınmalıdır. Əks təqdirdə, uşağı yenidəntərbiyə edərkən valideynlər çox ciddi çətinliklərlə qarşılaşmalı olacaqlar.

VI. Xarakter və qabiliyyətlərin formalaşması

Məktəbəqədər yaşlı uşaqlarda xarakterin inkişafı. Xarakterin rüşeymləri uşaqda iki yaşın sonu, 3 yaşın əvvəllərindən etibarən temperamentin tipləri əsasında inkişafa başlayır. Onun ilk təzahürlərini oyun prosesində müşahidə etmək mümkündür.

Oyunlar da uşağın xarakterinə müəyyən təsirlər göstərir. Oyun fəaliyyəti eyni zamanda uşaqda ***yoldaşlıq və kollektivçilik, dözümlülük və müstəqillik*** kimi xarakter əlamətlərini təşəkkül etdirir. Məktəbəqədər uşaq bir çox hallarda öz yaşına müvafiq faydalı **əmək fəaliyyəti** ilə də məşğul olur. Əmək prosesində uşaq həm də müəyyən əxlaq qaydalarına və davranış normalarına yiyələnir. Elə bu əxlaq qaydalarının və mədəni ictimai davranış tələblərinin özü də bir sıra xarakter əlamətlərinin inkişafına səbəb olur. Xarakterin formalaşmasında yaşlıların, xüsusən də valideynlərin şəxsi nümunəsi, uşaqların onları təqlidi və nitq ünsiyyəti böyük rol oynayır. Bu dövrdə uşaq artıq nəyin "yaxşı", nəyin "pis" olduğunu dərk etməyi, öz şəxsi rəftar vədavranışını qismən qiymətləndirməyi bacarır.

Bununla əlaqədar böyüklərin onların hər bir müsbət hərəkətini vaxtında, lazımınca rəğbətləndirməyi bacarmalıdırlar.

Valideynlər arasındakı **şəxsiyyətlərarası münasibətlər** də uşaq xarakterinin təşəkkülünə həlledici təsir göstərir. Əgər ailədə sağlam psixoloji mühit hökm sürürsə, uşaqlarda müsbət qeyri-sağlam psixoloji mühit mövcuddursa, sözsüz ki, mənfi xarakter əlamətləri təzahür edir. Valideynlərin bir-birinə olan münasibətilə yanaşı, uşağa bəslənilən şəxsi münasibətin özü də onlarda müəyyən xarakter əlamətlərinin yaranmasına səbəb olur.Məktəbəqədər uşaqlar həddən artıq emosional təbiətli olduqlarından onlar ədalətsizliyə həssaslıqla reaksiya verirlər. Odur ki, onları aldatmaq, onların düzgün olmayan hərəkətlərinə, ifadələrinə gülmək, istehza ilə yanaşmaq qətiyyən olmaz. Acığını uşaqların üstünə tökmək, onları əsəbləşdirmək uşaqlarda kobudluq, sözə baxmamaq, inadkarlıq, dəcəllik, nadinclik kimi əlamətləri əmələ gətirir.

Məktəbəqədər yaşlılarda qabiliyyətin inkişafı. Məktəbəqədər yaşlılarda qbiliyyətlərin bəziləri çox erkən təzahür edir. Məsələn, bəzən 3-4 yaşlı uşaq saatlarla musiqiyə qulaq asmaqdan yorulmur. Bu, uşaqda ***musiqi qabiliyyəti*** üçün zəruri təbii zəminlər olduğuna işarət edir. Nitqə yiyələnmək qabiliyyəti də məktəbəqədər yaşda sürətlə inkişaf edir. Uşaq bu yaşda hər hansı bir xarici dili çox məharətlə mənimsəyə bilir. Lakin uşağın qabiliyyətinin inkişafı bu və ya digər sahəyə dair müəyyən bilik, bacarıq və vərdişlərə nə dərəcədə yiyələnməsindən asılıdır.
Xarici aləm hadisələrinin dərk olunmasına yönəlmiş **maraq və meyllər** də qabiliyyətlərin inkişafını təmin edən amillərdəndir. Uşaqların öz əlləri ilə hazırladıqları oyuncaqlar onlarda ***texniki qabiliyyətlərin*** təşəkkülünə müsbət təsir göstərir.

Musiqiyə, riyaziyyata, texniki yaradıcılığa və təsviri incəsənətə olan maraq, yaşlıların müxtəlif məzmunlu söhbətləri, xüsusən kitabların oxunması, muzey və teatrlara baxışların təşkili, cürbəcür xarakterli ekskursiyaların keçirilməsi sayəsində qabiliyyətlər inkişaf edir və müvafiq qabiliyyətlərin təşəkkülünə imkan yaradır.

Məktəbəqədər yaşlı uşaqlarda ünsiyyətin inkişafı. 3-5 yaşlarında uşağın yaşlılarla ünsiyyəti qeyri-formal şəraitdə ətraf aləmlə qarşılıqlı əlaqələrinin müəyyənləşdirilməsinə yönəldilmiş idrak fəaliyyətində həyata keçirilir. Nitq vasitəsilə ünsiyyət bu dövrdə ön plana keçir. 6yaşlılarda ünsiyyət qeyri-formal şəraitdə şəxsi xarakter daşımağa başlayır. Qeyri-formal şəraitdə şəxsi ünsiyyət uşaqları kommunikasiyaya təhrik edən ***motivlər, oyun, əmək və idrak fəaliyyəti*** əsasında təşəkkül tapır.

Mövzu 8. Uşağın məktəb təliminə psixoloji hazırlığı

Plan:

1. Məktəb təliminə hazırlığın psixoloji xüsusiyyətləri
2. Psixoloji hazırlığın komponentləri
3. Məktəbə psixoloji hazırlıq işində adaptasiyanın rolu
4. 6-7 yaşın böhranı, məktəbə uşağın hazır olma problemi

Ədəbiyyat:

1. Həmzəyev M.Ə Yaş və pedoqoji psixologiyanın əsasları. Bakı 2003.
2. Qədirov Ə.Ə. Uşaqlarda idrak proseslərinin inkişafı. Bakı, Maarif nəşriyyatı, 1969.
3. Qədirov Ə.Ə Yaş psixologiyası. Bakı, 2003.
4. Vəliyev M.V., Mustafayev A.M. İnkişaf və yaş psixologiyası. Bakı, 2013.
5. Vəliyev M.V., Mustafayev A.M. Uşaq psixologiyası-Metodik vəsait, Bakı 2011.
6. Шаповаленко И.В. Возрастная психология, М., 2007.

*** Mövzu ilə bağlı elektorn resurslar**

https://kayzen.az/blog/pedaqoq/8182/ki%C3%A7ik-m%C9%99kt%C9%99blil%C9%99r.html

https://www.tandfonline.com/doi/full/10.1080/01443410.2015.1034090

https://cyberleninka.ru/article/n/psihologicheskie-osobennosti-gotovnosti-k-shkole-detey-poseschayuschih-i-ne-poseschayuschih-doshkolnoe-obrazovatelnoe-uchrezhdenie

I. Məktəb təliminə hazırlığın psixoloji xüsusiyyətləri

Cəmiyyətin gələcəyi olan uşaqların formalaşması, təlim işləri, insanın sonrakı inkişafı bir çox cəhətdən uşağın məktəb təlimminə hazırlığından, özü də onun düzgün həllindən asılıdır. Ona görə də uşağın məktəb təliminə psixoloji hazırlığı problemi həm nəzəri, həm də praktik əhəmiyyət daşıyır. Uşağın məktəb təliminə psixoloji cəhətdən hazırlanması məktəbəqədər yaş dövrünün sonunda fiziki və mənəvi inkişafın ən yüksək zirvəsini təşkil edir. **Uşağın məktəb təliminə psixoloji cəhətdən hazırlığını konkret olaraq hansı keyfiyyətlər müəyyən edir?** Əvvəla, şagirdə, hər şeydən əvvəl, oxumaq bacarığını təmin edən ***kompleks keyfiyyətlər*** lazımdır. Buraya ilk növbədə təlim vəzifələrinin mənasını başa düşmək,

onları əməli vəzifələrdən fərqləndirmək, hərəkətlərin icra tərzini, özünənəzarət və özünüqiymətləndirmə vərdişlərini şüurlu surətdə dərk etmək daxildir. Burada uşağın ***iradi keyfiyyətlərinin,*** xüsusilə təkidlilik, fəallıq, təşəbbüskarlıq və s. inkişafı da çox mühüm əhəmiyyət kəsb edir, belə ki, onlarsız uşaq öz rəftar, bacarıq və davranışını tənzimləyib təlim məsələlərinin həllinə yönəldə bilməz. Məktəbəqədər yaşlı uşaqlarda iradi keyfiyyətlərin inkişaf səviyyəsi müxtəlif olur, lakin bununla yanaşı, 6 yaşlılarda motivləri bir-birinə tabe olan bir sıra tipik xüsusiyyətlər mövcuddur ki, onların sayəsində uşaq öz rəftar və davranışını idarə edir.
Təlim prosesində uşağın yalnız xarici rəftar və davranışını deyil, həm də əqli fəaliyyəti-nitqi, hafizəsi, təfəkkürü və s. ixtiyari, məqsədyönəlmiş və idarəolunan xarakter daşımalıdır. Uşaq müşahidə etməyi, dinləməyi, yadda saxlamağı və yadasalmanı bacarmalı, müəllimin verdiyi tapşırıqların həllinə nail olmalıdır. Uşağın məktəb təliminə psixoloji hazırlanması heç də o demək deyil ki, məktəbə daxil olan müddətədək uşaqda müəyyən psixoloji keyfiyyətlər təzahür edir. Sözsüz ki, bu keyfiyyətlər məktəb təlimi zamanı ona məxsus olan həyat və fəaliyyət şəraitinin təsiri altında formalaşır və yalnız bunların sayəsində uşaq məktəb həyatına, müntəzəm təlim prosesinə uyğunlaşa bilir. Məktəbəqədər yaş dövrünün sonunda uşaqların əksəriyyətində məktəbli olmaq, ciddi fəaliyyət göstərmək və oxumaq meylləri baş qaldırır. Bu cür hal, bir növ inkişafın "böhranı" ilə əlaqədar meydana çıxır, daha doğrusu uşaq dərk edir ki, onun ümumi vəziyyəti, mövqeyi durmadan artmaqda olan imkanları ilə müvafiq gəlmir, aparıcı fəaliyyət növü olan oyun yaşlılarla ünsiyyət tərzləri üçün daha əlverişli deyildir.
Məktəbəqədər yaşlılar artıq böyümüş, məktəb yaşına çatmışlar. Hazırlıq işləri görülmüşdür. Dərs başlanan günü, həm valideynlər, həm uşaqlar, eləcə də müəllimlər intizarla gözləyirlər. Hər bir insanın məktəbə getdiyi ilk gün onun yaddaşında əbədi iz buraxır, xatirələrində yaşayır.
Valideynlər, tərbiyəçilər nigaran hallar keçirirlər ki, *uşaq məktəbdə necə olacaq? Oxuya biləcəkmi? Yoldaşları ilə ünsiyyət tapa biləcəkmi?* Bu səpgili suallar ata, ana, baba və nənələri, bağça tərbiyəçilərini narahat edir.
Tədrisin başlanğıcı uşaqların yeni fəaliyyət növünə psixoloji hazırlığı ilə bağlıdır. Uşaqların psixi inkişafı nəzərə alınmalıdır. İlk növbədə uşaqlarda intellektual inkişaf normal getməli, uşaqların yeni sosial mövqeyə hazırlaşmalarına ciddi diqqət yetirilməlidir. Uşaqların psixi inkişafı tələb olunan səviyyəyə çatmalı, davranış və qaydalara əməl etməyə qadir olmalıdırlar. Uşaqlar təlim – tərbiyə prosesində qarşıda duran məqsəd və vəzifələri icra etməyə hazır olmalıdırlar. Bu dövrdə uşaqlarda müşahidə olunan senzitivlik halını müəllimlər düzgün qiymətləndirməli və ondan məharətlə istifadə etməlidirlər.
Uşaqlar məktəbə gələrkən fiziki, anatomik –fizioloji cəhətdən sağlam olurlar. Bu dövrdə uşaq orqanizmində fəal surətdə inkişaf gedir. Ayda təxminən uşaqların çəkisi 200 q, boyu 0.5 sm artır. Bədəndə dəyişikliklər baş verir. 6 yaşlı uşaqlarda hərəkət sürətli olur, qaçır, tullanır, müxtəlif növlü hərəkətlər edirlər. Sinir sistemində, hərəkətlərdə 7 yaşa doğru inkişaf və dəyişikliklər müşahidə olunur. Uşaqların sağlam və gümrah olmaları onların nəinki məhsuldar fəaliyyətini, habelə tədris fəaliyyətini də xarakterizə edir.
Psixoloqlar, xüsusilə, B.Q.Ananyev, L.İ.Bojoviç, A.N.Leontyev, A.B.Elkonin və

başqalarının tədqiqatlarından məlum olur ki, uşaqların fiziki gümrah vəziyyəti onların məktəb təliminə hazırlığına çox kömək edir. Belə vəziyyət uşaqların sosial mövqeyini, cəmiyyətdə münasibətini müəyyənləşdirməyə kömək edir. Psixoloji hazırlıq şəraitindən asılı olaraq dəyişir. Texniki və elmi tərəqqi uşaqların təlim fəaliyyətinə dəyişdirici, inkişafetdirici təsir göstərir.
Uşaq bağçalarının hazırlıq qruplarında aparılmış sorğulardan məlum olmuşdur ki, uşaqların demək olar hamısı məktəbə böyük həvəslə can atır, uşaq bağçasında qalmaq istəmirlər.
Uşaqları məktəbə cəlb edən amillərdən biri də məktəb həyatının xarici atributlarıdır: parta arxasında oturmaq, şəkilli kitablara, rəngli karandaşlara, penala, məktəbli çantasına və formasına malik olmaq arzularıdır.

Uşağın məktəbə hazırlanmasında ***II əsas cəhət*** I sinfə daxil olan uşaq ətraf aləm haqqında, onu əhatə edən cisim və hadisələr haqqında, canlı və cansız təbiətin müxtəlif xüsusiyyətləri haqqında, insanlar və onların əməyi haqqında, ictimai həyatın ayrı-ayrı sahələri haqqında davranışın əxlaq normaları haqqında müəyyən bilik ehtiyatına malik olmalıdır. Burada həmin biliklərin həcmilə yanaşı həm də keyfiyyətli olması böyük əhəmiyyət kəsb edir.

Uşağın məktəbə psixoloji hazırlanmasında ***III cəhət*** onun məktəbəqədər yaş dövründə, əvvəllər ənənəvi şəkildə yalnız məktəbdə öyrədilən bir sıra xüsusi bilik və vərdişlərə-savada, saymaya, hesablamaya, hesab məsələlərinin həlli tərzinə yiyələnməsindən ibarətdir. Bəhs olunan yaş dövründə uşağın savada və riyaziyyat ünsürlərinə yiyələnməsi onun məktəb təliminə müvəffəqiyyətlə təsir göstərir. Əgər məktəbdə öyrədilən biliklərin məzmunu uşağı özünə cəlb etmirsə, dərsdə tanış olduğu yeniliklər, idrak prosesinin özü onu maraqlandırmırsa, uşağın məktəbə, oxumağa və müəllimə olan müsbət münasibəti heç vaxt təlimdə müvəfəqiyyət qazandıra bilməyəcəkdir.
Məktəbə daxil olan uşaq cisim və hadisələri planauyğun şəkildə nəzərdən keçirməli, onların müxtəlif xüsusiyyətlərini fərqləndirməyi bacarmalıdır. Bu baxımdan, valideynlər və bağça tərbiyəçiləri uçaqda, hər şeydən əvvəl, müşahidəçilik qabiliyyətini inkişaf etdirməlidirlər. Bu vaxt uşaq cisim və hadisələrin fərqli və oxşar cəhətlərini asanlıqla aşkar edir, onları heç bir çətinlik çəkmədən bir-birindən seçə bilir.
Uşağın məkan və zamanda düzgün istiqamət seçməsinin də olduqca böyük əhəmiyyəti vardır. Belə ki, uşaq məktəbə getdiyi elə ilk günlərdən etibarən cisimlərin məkan əlamətləri və istiqamətləri ilə qarşılaşmalı olur.
Uşağın sinif kollektivinə daxil olmasına, onunla qaynayıb-qarışmasına, orada öz yerini tapmasına və ictimai fəaliyyətə qoşulmasına kömək edən şəxsi keyfiyyətlər də məktəbə psixoloji cəhətdən hazırlığın tərkib hissəsini təşkil edən ***amillərdən*** biridir.
Uşaqların məktəbə psixoloji cəhətdən hazırlanmalarında uşaq bağçasının böyük və hazırlıq qruplarında aparılan xüsusi tərbiyəvi iş də müəyyən rol oynayır.

II. Psixoloji hazırlığın komponentləri

Qeyd etmək olar ki, buraya ***intellektual, şəxsi keyfiyyətlər*** və nəhayət, ***iradi hazırlıq*** komponentləri daxildir. ***İntellektual hazırlıq*** dedikdə, idrak funksiyalarının inkişaf etməsi sayəsində təlim prosesinə hazırlıq, bu prosesin müstəqil iştirakçısı

olmaqdır. İntellektual hazırlıq prosesində valideynlər və müəllimlər belə düşünürlər ki, uşaqlar nə qədər çox söz bilirlərsə, o qədər də onların əqli inkişaf edir. Ancaq bəzən belə olmur. 6–7 yaşlı uşaqlar materialı, anlayışı qavrayır, faktları izah edir. Təfəkkürün məntiqi formaları, dəyər formalarının inkişafının şahidi oluruq. Məktəbəqədər yaşlıların təfəkkürü əyani–obrazlı xarakterdə ifadə olunur. Uşaq onu əhatə edən hadisələri, gerçəklikləri, əşyaları qavrayır və dərk edir. Əşyaları əlamətlərinə görə qruplaşdırır və sistemə sala bilirlər.

Müvafiq əqli imkanlar əsasında tədris prosesinə hazırlaşırlar. Şagirdlər müstəqil tədris tapşırıqlarını icra edə bilirlər. Onlar tapşırıqları lazımi səviyyədə icra etdikdən sonra çox sevinir, fərəh hissi keçirirlər. Təbii olaraq, intellektual baxımdan zəif uşaqlar da var. Onlar qabaqcıllardan öyrənir, müəllimlər tərəfindən fəal tədris prosesinə cəlb olunurlar.

Şəxsi və sosial psixoloji hazırlıq–məktəbdə müvəffəqiyyətli təhsil almağın yeganə yolu əqli cəhətdən inkişaf etməklə kifayyətlənmir. Burada mühüm hazırlıq faktorlarından biri də ***şəxsiyyət keyfiyyətlərinin*** inkişafı baxımından sosial–psixoloji mövqedən yanaşmaqdır. Şagirdin şəxsi hazırlığı zamanı məktəbə, tədris fəaliyyətinə, müəllimə və özünə münasibəti dəyişir. Sual olunur. Uşaqları məktəbə cəlb edən nədir? Məlum olur ki, əsas tədris prosesi cəlb edir. Yazmaq, oxumaq, şəkil çəkmək, uşaqlarla birgə oynamaq, bir sözlə məktəb həyatı. Məktəb həyatı uşaqlarda intellektual və emosional dəyişikliklər yaradır. Məktəbdə keçirilən tədbirlər, görüşlər birinci sinif şagirdlərinin həmyaşıdları ilə, böyük yaşlılarla ünsiyyət motivləri formalaşır. Bu cəhətlər birinci sinif şagirdlərinin həyatında dərin iz buraxır.

Şagirdlərin məktəb təliminə psixoloji hazırlıq prosesində onların ***iradi cəhətdən hazırlığı*** da xüsusi yer tutur. Altı yaşlı uşaq iradi hərəkətlər nümayiş etdirirlər. Belə ki, qarşıya məqsəd qoyulur, qərar qəbul edilir, plan qurulur, onu icra edirlər. İşlərin sonunda özlərinə hesabat verirlər. Verilmiş tapşırığın asanlığını, çətinliyini dərk edirlər.

Tədqiqatçılar sübut etmişlər ki, uşaqları oyun və təhsil prosesinə müvafiq motivlər cəlb edir, motivləşmə iradi fəaliyyəti artırır. 6 yaşlı uşaqlarda iradi hərəkətlər təşəkkül edir. İradi hərəkətlərin formalaşmasında müəllimlər, valideynlər, həmyaşıdların rolu əhəmiyyətlidir.

III. Məktəbə psixoloji hazırlıq işində adaptasiyanın rolu

Məktəb təliminə hazırlıq prosesində psixoloji adaptasiyanın da rolu böyükdür. Uşaqların məktəbə adaptasiyası, yəni sosial–psixoloji adaptasiyası fizioloji adaptasiyadan fərqlənir. Şagirdlər məktəbdə yeni rejimə, şəraitə uyğunlaşır. Sosial–psixoloji adaptasiya başqalarından fərqlənir. Uşaq məktəbə, sinfə, oturduğu yerə, müəllimə, yoldaşlarına, məktəb rejiminə alışır. **Psixoloq Q.M.Çutkina uşaqların məktəbə adaptasiyasının üç səviyyəsini müəyyən etmişdir.**

1. Adaptasiyanın yüksək səviyyəsi. Birincilər məktəbə yüksək münasibət göstərirlər. Tədris materialı asan olur. Müəllimi eşidir, tapşırığı yerinə yetirir. Müstəqil fəaliyyət göstərməyə meyl edirlər.

2. Adaptasiyanın orta səviyyəsi. Məktəbə cəlb olunurlar. Tapşırıqları yerinə

yetirirlər. Yoldaşları ilə münasibət qururlar. Lakin bəzi hallarda tərəddüdlər yaranır. Həvəsdən düşürlər, məktəbə soyuq münasibət təzahür edir.
3. Adaptasiyanın aşağı səviyyəsi. Birinci sinif şagirdi məktəbə mənfi münasibət göstərir. Qayda – qanunu pozur, şıltaqlıq edir. Məktəbə getmək istəmir, tapşırıqları pis yerinə yetirir. Passiv olur. Ailə üzvlərinin diqqətsizliyi, etinasız münasibəti də adaptasiyanın yaranmasına mənfi təsir göstərir.
Lakin bu proses uzun müddət davam etmir. Müəllimlərin pedaqoji ustalığı, interaktiv metodların tətbiqi adaptasiyanın formalaşmasına kömək edir. Müəllimin ünsiyyətliliyi, xüsusilə demokratik mövqe tutması adaptasiyanın yaranmasına kömək edir. Uşaqların pedaqoji–psixoloji xarakteristikasının tərtibində bütün cəhətlər, xüsusilə adaptasiyanın formalaşması prosesində şagirdlərin fərdi-psixoloji xüsusiyyətləri nəzərə alınmalıdır.

IV. 6-7 yaşın böhranı, məktəbə uşağın hazır olma problemi

Uşaqlarda psixi inkişafın dövrləşməsi problemlərinin araşdırılmasından aydın olur ki, məktəbəqədər yaş dövrü 3–6 yaş, bəzən isə 7 yaşa qədərki dövrü əhatə edir. Bu məsələ ilə əlaqədar suallar doğur ki, o da xüsusi psixoloji təhlil tələb edir. Əgər 6 yaşlı uşaq məktəbdə təhsil almağa başlayırsa, deməli, o əqli cəhətdən normal inkişaf etmişdir və məktəbəqədər yaş dövrünü qurtarmaq istəyir. Lakin 6 yaşlılarla məşğul olan psixoloqlar yekdil fikirdədirlər ki, 1–ci sinif şagirdləri məktəbəqədər yaşlılar səviyyəsində qalırlar. İdrak prosesləri, xüsusilə təfəkkür və hafizə qeyri-ixtiyari səviyyədə təzahür edir. Diqqət 10–15 dəqiqə məhsuldar xarakter daşıyır. 6 yaşlıların şəxsiyyət keyfiyyətləri təlim prosesində müəyyən çətinliklər yaradır. İdrak motivləri, təlim tapşırıqları hələ ki, möhkəm olmur, dəyişkən olur. Müəllimlərin gərgin əməyi və səyi nəticəsində təlim tapşırıqları icra olunur. Şagirdlər müəllimin pedaqoji tələblərini çətin yerinə yetirirlər. Uşağa irad tutduqda, onlar həmin iradı yüksək emosionallıqla qarşılayırlar. Davranış və münasibətləri sabit olmur. Uşaqlar öz uşaq aləmində olmaq istəyirlər. Uşaqları uşaqlıq aləmindən qoparmaq müəllimin pedaqoji ustalığı, psixoloji səriştəliliyi sayəsində mümkün olur.
Şəxsiyyətin dərki prosesində **7 yaş böhranı** yaranır. Başlıca əlamətləri bunlardır:

- Uşağın sabit halı arzu olunan ilə gözlənilən davranış arasında yaranan uyğunsuzluq əsasında pozulur;
- Uşaq xüsusi tərz davranışlar ifadə edir,sanki nə isə gizlədir;
- "Acı konfet" sindromu –uşaq özünü pis hiss edir, lakin bunu göstərməməyə çalışır;
  Məktəbqabağı yaranan bu böhranın digər səbəbi yeni şəraiti neqativ qarşılamasıdır. Əsas səbəb valideynlərin uşağı məktəb ilə, müəllim ilə hədələməsidir.
- Məktəbqabağı yaranan bu böhranın digər səbəbi yeni şəraiti neqativ qarşılamasıdır. Əsas səbəb valideynlərin uşağı məktəb ilə, müəllim ilə hədələməsidir.

Məktəb üçün psixoloji hazırl/ıq – qarışıq bir haldır. Motivasiyanın düzgün formalaşdırılması, oxumağın vacibliyini uşağa düzgün aşılamaq lazımdır. Şəxsiyyətin inkişafı, onun sosial göstəricisi və məktəb üçün intellektual hazırlığı — əsasən də psixoloji hazırlığı iki mövqedə: şəxsi dayanaqlılıq və psixoloji dayanaqlılıq baxımından inkişaf edir. Məktəb üçün əsas göstəricilər bunlardır:

- ətrafdakılara bələdləşmə;
- bilik bazası;
- idrak proseslərinin inkişafı (ünsiyyət bacarığı, obyektləri ümumiləşdirmək qabiliyyəti və s.);
- müxtəlif yaddaş tiplərinin inkişafı (obrazlı, eşitmə, mexaniki və s.);
- ixtiyari diqqətin yaranması.

Müəllimlərin gərgin iradi səyi, dözümü və pedaqoji ustalığı sayəsində qeyd olunan əlamətlər inkişaf edir, təlim prosesi fəallaşır.

Mənbə:

7. Həmzəyev M.Ə Yaş və pedoqoji psixologiyanın əsasları. Bakı 2003.
8. Qədirov Ə.Ə. Uşaqlarda idrak proseslərinin inkişafı. Bakı, Maarif nəşriyyatı, 1969.
9. Qədirov Ə.Ə Yaş psixologiyası. Bakı, 2003.
10. Vəliyev M.V., Mustafayev A.M. İnkişaf və yaş psixologiyası. Bakı, 2013.
11. Vəliyev M.V., Mustafayev A.M. Uşaq psixologiyası-Metodik vəsait, Bakı 2011.
12. Шаповаленко И.В. Возрастная психология, М., 2007.

Mövzu 9. Kiçik məktəb yaşı dövrünün psixoloji xüsusiyyətləri

Plan:

1. Məktəbdə uşağın həyatında baş verən ilkin dəyişikliklər
2. Kiçik məktəblinin anatomik-fizioloji xüsusiyyətləri
3. Kiçik məktəblilərin təlim fəaliyyəti
4. Kiçik məktəblilərdə oyun fəaliyyəti
5. Kiçik məktəblilərdə əmək fəaliyyəti

Ədəbiyyat:

22. Əzimli Q.Ə. Psixi inkişaf və tərbiyənin müasir problemləri. Bakı 2004.
23. Əzimli Q.Ə. Yaş və pedaqoji psixologiyanın müasir problemləri. Bakı 2006.
24. Həmzəyev M.Ə Yaş və pedoqoji psixologiyanın əsasları Bakı 2003.

25.Qədirov Ə.Ə Yaş psixologiyası. Bakı, 2003.
26.Vəliyev M.V., Mustafayev A.M. İnkişaf və yaş psixologiyası. Bakı, 2013

Mövzu ilə bağlı elektorn resurslar

https://kayzen.az/blog/pedaqoq/8182/ki%C3%A7ik-m%C9%99kt%C9%99blil%C9%99r.html

https://www.tandfonline.com/doi/full/10.1080/01443410.2015.1034090

https://cyberleninka.ru/article/n/psihologicheskie-osobennosti-gotovnosti-k-shkole-detey-poseschayuschih-i-ne-poseschayuschih-doshkolnoe-obrazovatelnoe-uchrezhdenie

http://www.essepsikoloji.com/sayfa/makaleler/okul-hayati-ve-c%CC%A7ocuk-psikolojisi.html

I. Məktəbdə uşağın həyatında baş verən ilkin dəyişikliklər

Uşağın məktəbə getməsi ilə onun həyatında yeni dövr başlanır. Bu dövr 6-10 yaşları (I-IV sinif) əhatə edir.Bu vaxtdan etibarən oyun fəaliyyəti uşağın aparıcı fəaliyyəti olmur və öz yerini təlim fəaliyyətinə verir. Lakin oyun da onun həyatında mühüm yer tutur. Uşaq məktəbdə artıq yeni şəraitə düşür: şagirdlər üçün olan qaydalara əməl etmək, dərsin başlanğıcından sonuna kimi sakit eyni parta arxasında oturmaq, müəllimin bütün göstəriş və tapşırıqlarına əməl etmək, ev tapşırıqlarını yerinə yetirmək və s.
Bağça tərbiyəsi görən uşaqlar üçün bu məsələlər o qədər də çətinlik törətmir. Çünki orada uşaqlara sinifdə özünü necə aparmaq qaydaları öyrədilir. **Uşağın məktəbə daxil olması** onun həyat və fəaliyyətində ciddi dəyişikliklər əmələ gətirir. Bu dövrün nəzərə çarpan ən başlıca xüsusiyyəti ondan ibarətdir ki, uşağın məktəbdəki təlim fəaliyyəti ictimai məna kəsb edən fəaliyyət növünə çevrilir. Şagird təlim fəaliyyəti üçün müəllim, məktəb və valideyn qarşısında məsuliyyət daşımalı olur.
Müəllimlə uşaq arasında tamamilə yeni tipli qarşılıqlı münasibət formaları özünü büruzə verir. Belə ki, müəllim, sadəcə olaraq, uşağın ona rəğbət bəslədiyi və ya nifrət etdiyi yaşlı olmayıb, həm də uşağa bir sıra ictimai tələblər verən konkret, canlı şəxsiyyət kimi çıxış edir. Bu günkü şagirdin məktəbdə qazandığı biliklər məzmunca elmi xarakter daşıyır. Əgər əvvəllər ibtidai təlim bilikləri, elmlərin əsaslarına yiyələnmək üçün hazırlıq mərhələsi rolunu oynayırdısa, indi şagird elmlərin əsaslarını elə birinci sinifdən mənimsəməyə başlayır.

Uşağın məktəbə daxil olması ilə əlaqədar valideynlər qarşısında da bir sıra məsul vəzifələr durur. Hər şeydən əvvəl, valideynlər çalışmalıdır ki, bu yaş dövründə uşağın ən səmimi, sədaqətli və etibarlı dostu olsunlar: uşaq onlara inanıb heç bir səhv hərəkətini onlardan gizlətməsin. Bəzən valideynlər uşaq ev tapşırığının öhtəsindən gələ bilməyəndə, yaxud onu səhv icra edəndə uşağın üstünə qışqırır, onu danlayır, bəzən də fiziki cəzaya əl atırlar. Belə valideynlər dərk etməlidirlər ki, bununla da, onlar bir tərəfdən uşaq qarşısında öz acizliklərini nümayiş etdirir, digər tərəfdən isə bu cür hərəkətlərlə uşağın sinir sisteminin normal fəaliyyətinin

pozulmasına səbəb olurlar. I sinfə gedən uşağa öz qüvvəsinə inam hissi yaratmaq, həmişə ona səbrlə, diqqət və qayğı ilə, eyni zamanda tələbkarlıqla yanaşmaq lazımdır.

Məktəbə daxil olması uşağın ictimai həyatdakı vəziyyətini dəyişməklə bərabər, onun qarşısında tamamilə yeni bir aləm açır. Şagird müəllimin verdiyi tapşırıqlara da yeni münasibət bəsləməyə başlayır. Müəllimin şəxsi nümunəsi çox mühüm tərbiyəvi əhəmiyyət kəsb edir, hətta şagirdlər ata-ananın dediklərindən müəllimin dediklərini üstün tutur. Onlardan "Bizim müəllim belə dedi", "Belə göstərdi" və s. ifadələrini tez-tez eşitmək olur. Lakin III sinifdə müəllimə münasibət bir qədər dəyişir. Ona görə də yuxarı siniflərdə müəllimin şagirdlərə verəcəyi tələblər, izahlar bir qədər ciddi olmalıdır.

Məktəbə gələn uşağın bir xarakterik əlaməti də onda psixi funksiyaların ixtiyarililik səviyyəsinin keyfiyyətcə dəyişməsidir. Şagirdin inkişafına onun evdə icra etdiyi tədris xarakterli tapşırıqların da böyük təsiri vardır: evə verilən tapşırıqlar uşaqda mütəşəkkillik və məsuliyyət hisslərini formalaşdırır. Təlim prosesində şagirdin xarici aləmə münasibəti getdikcə dəyişir və ətraf aləm haqqında təsəvvürləri tədricən reallaşmağa başlayır. Uşaqlar məktəbdə bir sıra çətinliklərlə də rastlaşırlar. Məktəbə daxil olan birinci sinif şagirdlərinin tədris prosesində qarşılaşdığı **ilkin çətinlikləri məşhur rus psixoloqu V.V.Davıdov üç qrupa ayırır:**

1. Bu çətinliklərdən biri məktəbin özünəməxsus xüsusiyyətləri ilə bağlıdır (evə verilən tapşırıqların yerinə yetirilməsi, məktəb rejiminin gözlənilməsi, məktəbə vaxtında gəlib dərsdə sakit oturmaq, diqqətli olmaq və s.)
2. Məktəbə daxil olan uşağın qarşısına çıxan ikinci çətinlik yoldaşları və müəllimlərilə, eləcə də ailədə qarşılıqlı münasibətdə baş verir.
3. Birinci sinif şagirdlərinin qarşılaşdıqları üçüncü tip çətinlik tədris ilinin ortalarında uşağın təlim fəaliyyətində baş verir. Belə ki, təlim mürəkkəbləşir, uşaq onun öhdəsindən gələ bilmir. Belə halların qarşısını almaq üçün uşağın əqli fəaliyyətini daim fəallaşdırmaq, onu mürəkkəb intellektual məsələlərin həllinə alışdırmaq lazımdır.

Psixoloqların bu sahədə apardıqları tədqiqatlar (L.V.Zankov, V.V.Davıdov, A.M.Matyuşkin, Q.A.Ponomoryov, Ə.Ə.Qədirov və s.) göstərir ki, təlimə bəslənilən bu cür münasibətin aradan qaldırılması üçün uşaqları təlim prosesində mürəkkəb intellektual məsələlərlə, problem situasiyaları ilə vaxtaşırı qarşılaşdırmaq lazımdır. Belə olduqda uşaq yeni anlayışları, onların mahiyyətini, bu və ya digər konkret cəhətlərini mənimsəmək imkanına malik olur.

II. Kiçik məktəblinin anatomik-fizioloji xüsusiyyətləri

Yeddi yaşa yaxın uşağın anatomiya və fiziologiyasında onun təlim fəaliyyətini şərtləndirən əsaslı dəyişikliklər baş verir: beynin çəkisi 1350 qrama çatır, alın payı və böyük yarımkürələr həcmcə, çəkicə artıb inkişaf edir. 7 yaşdan 10 yaşadək uşağın fiziki inkişafı anatomik-fizioloji qanunauyğunluqlara istinad edir.

	Qız		Oğlan	
Yaş	Boyu (sm-lə)	Çəkisi (kq-la)	Boyu (sm-lə)	Çəkisi (kq-la)
7 yaş	122,2	23,8	123,2	24
8 yaş	123	24,8	124,9	25
9 yaş	130,3	27,4	131	27,8
10 yaş	136	30,8	136,1	30,4

Kiçik məktəblilərdə əzələ və bağlar möhkəmlənir, ümumi əzələ gücü artır, böyük əzələlər kiçiklərə nisbətən tez inkişaf edir. Əl barmaqlarının buğumlarının sümükləşməsi 9-10 yaşda, biləyin sümükləşməsi isə 10-12 yaşda başa çatır. Məhz buna görə də kiçik məktəblilər çox vaxt yazı işlərini çətinliklə yerinə yetirir, barmaqlarının yorulmasından şikayətlənirlər. Uşağın ürək-damar sistemi də sürətlə inkişaf edir, qan arteriyalarının diametri genişlənir ki, bu da ürəyin beyni lazımi miqdarda qanla təmin etməsinə imkan verir. Bu isə öz növbəsində uşağın təlim fəaliyyətinin faydalı iş əmsalını xeyli artırır. Uşaq indi kefi istədiyi vaxt həyata keçirdiyi sərbəst hərəkətlər əvəzinə, əzələlərin yorucu gərginliyini tələb edən lazımi vəziyyətdə saatlarla oturmalı olur.

III. Kiçik məktəblinin təlim fəaliyyətinin quruluşu və təşəkkülü

Qeyd edildiyi kimi, uşağın məktəbə daxil olması ilə əlaqədar onun həyatında bir sıra psixoloji dəyişikliklər baş verir. Belə ki, uşaq onun üçün tamam yeni olan bir şəraitə-məktəbə düşdükdən sonra özünün hərəkət, rəftar və davranışını məktəbin daxili intizam qaydaları əsasında həyata keçirməli, yoldaşları və müəllimlə əvvəlkindən fərqli davranış formaları mənimsəməli olur. Təlim fəaliyyəti dedikdə, müəllimin rəhbərliyi altında bilik, bacarıq və vərdişlərin məqsədəuyğun, mütəşəkkil, planlı şəkildə mənimsənilməsi prosesi nəzərdə tutulur. Bu prosesdə iki mühüm cəhəti fərqləndirmək olar. Birinci cəhət, müəyyən elmi anlayışlar, qanunlar və əməli məsələlərin həllinə əsaslanan ümumi üsul və tərzlərlə bağlıdır. İkincisi isə, təlimin quruluşu ilə bağlıdır.

Təlim fəaliyyətinin quruluşu aşağıdakı komponentlərdən ibarətdir:

1) təlim şəraiti, situasiyası, yaxud vəzifələri;
2) təlim işləri, əməliyyatları;
3) nəzarət;
4) qiymətləndirmə.

IV. Kiçik məktəblilərin oyun fəaliyyəti

İbtidai sinif şagirdlərinin oyun fəaliyyəti müxtəlif, rəngarəng olur. Fəaliyyətin əsas etibarilə şagirdlər üçün xarakterik olan bu növündə mütəhərrik, rollu, stolüstü oyunlar fərqləndirilir.

1. **Mütəhərrik oyunlar.** Kiçik məktəblilərin oyun fəaliyyəti idman oyunlarını andırır, həm də o, uşağın sağlamlığı üçün faydalıdır. Uşaqlar belə oyunlardan fərdi və kollektiv yarışlarda istifadə edir və o, uşaqlarda fiziki, o cümlədən şəxsi keyfiyyətləri, habelə cəsarəti, dözümlüyü, təkidliyi inkişaf etdirir, uşağa cəldlik, çeviklik, qıvraqlıq aşılayır.
2. **Rollu oyunlar.** Məktəbli bu oyunlarda rola girir, öz üzərinə müəyyən vəzifələr götürür, onu ifa edir. Məsələn, həkim, müəllim rolunda çıxış etmək, onları yamsılamaq, rola uyğun davranmaq, iş görmək və s. Məktəbəqədər yaşlı uşaqlardan fərqli olaraq kiçik məktəblilətin oynadığı rollar özünəməxsus xüsusiyyətləri, cəhətlərilə seçilir, fərqlənir. Belə ki, oğlanlar qəhrəmanlıq rollarını, qızlar isə ana, həkim, müəllim rollarını daha çox sevib, seçib oynayırlar.
3. **Stolüstü oyunlar.** Şagird əqlinin gimnastikası, məşqi hesab olunan bu oyunlar, əsasən, uşaqlarda idrak maraqlarını inkişaf etdirir. Belə oyunlara loto, domino, nərd, şahmat, şaşki və s. kimi oyunları misal gətirmək olar. Bu tip oyunlara tapmaca, atmaca, qıfılbənd kimi məşğələləri də aid etmək olar.

V. Kiçik məktəblilərin əmək fəaliyyəti

Kiçik məktəblilərin aparıcı fəaliyyət növü təlim olsa da, burada özünəxidmət və müəyyən xırda məmulatların hazırlanması şəklində həyata keçirilən əmək fəaliyyəti də diqqəti cəlb edir. Uşaqlar özünəxidmət əməyinə hələ məktəbəqədər yaşdan alışırlar. Özünəxidmət əməyi üzrə bacarıq, vərdiş və adətləri inkişaf etdirmək və möhkəmlətmək üçün ibtidai siniflərdə daha əlverişli şərait yaranır: uşaqlar müəllimin rəhbərliyi altında yaşlıların əməyinə hörmət və qayğı ruhunda tərbiyə olunur, insanların həyatında əməyin oynadığı rolu dərk edir. Məktəb şəraitində də şagirdlərə müntəzəm olaraq elə tələblər verilməlidir ki, onlar kollektivin ümumi mənafeyi naminə döşəməni silmək, gülləri sulamaq, sinif otağını səliqə-sahmana salmaq kimi tapşırıqları yerinə yetirsinlər. Kiçik yaşlı məktəbliləri əməyə məhəbbət ruhunda tərbiyə etmək üçün eyni zamanda onları kollektiv əməyin icrasına alışdırmaq lazımdlr. Özünəxidmət əməyilə məşğul olan kiçik məktəblilətdə şəxsi məsuliyyət, işə yaradıcı münasibət, əmək adamlarına hörmət hissləri, kollektivdə işləmək bacarıq və meylli kimi keyfiyyətlər tərbiyə olunur. Uşaqların əmək tərbiyəsində çatışmayan cəhətlər onların müstəqil əmək fəaliyyəti zamanı özünü büruzə verir. Özünəxidmət əməyinin tərbiyəvi imkanlarından ağıllı surətdə istifadə etməklə həmin çatışmazlıqları aradan qaldırmaq mümkündür. Kollektivin mənafeyinə həyata keçirilən əmək prosesində uşaqlar öz yoldaşları, sinif kollektivi, habelə məktəb ictimaiyətilə real qarşılıqlı münasibətlərə girir ki, bu da onlarda yoldaşlıq köməyi, işə yaradıcı, fəal münasibətin əmələ gəlməsinə səbəb olur. Kiçikyaşlı məktəblilərin əməyi psixoloji baxımdan yalnız o vaxt məhsuldar və səmərəli olur ki, burada hər bir uşağın vəzifəsi icra üçün vaxt, keyfiyyətə nəzarət kkonkret surətdə müəyyənləşdirilmiş olsun. Bu vaxt uşaqlarda təşkilatçılıq, öz işinə məsuliyyət hissi, birgə işləmək, öz mənafeyini kollektivin mənafeyinə tabe etmək

bacarığı tərbiyə olunur. Birgə, kollektiv əmək zamanı həyata keçirilən qarşılıqlı asılılıq və nəzarət uşaqlarda şəxsiyyətin xüsusi keyfiyyəti, sonralar isə onun xarakter əlamətinə çevrilən məsuliyyətlilik hissinin tərbiyə olunmasına gətirib çıxarır. İbtidai siniflərdə əmək dərsləri də tədris plan və proqramına daxil edilərək mühüm fənn kimi tədris olunur. I_II sinif şagirdləri kağız, parça, plastilinlə işləyir, sonra isə qayçıdan, iynədən və digər alətlərdən istifadə etməyi öyrənirlər. III_IV sinifdə əmək dərsləri bir qədər mürəkkəvləşir, onlar biçmə, tikmə, cildləmə ilə məşğul olurlar. Uşaqların öz ələrilə hazırladıqları bu və ya digər şeylər onlara xüsusi sevinc gətirir. Beləliklə, əmək fəaliyyəti zamanı şagirdlərin həm iradi-emosional sahəsinin, həm də idrak proseslərinin lazimi səviyyədə inkişafı üçün əlverişli şərait yaranır.

Mənbə:

1. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları.Bakı 2003.
2. Qədirov Ə.Ə. Kiçik məktəb yaşlı uşaqlarda mücərrəd təfəkkürün inkişafı, L., 1961.
3. Qədirov Ə.Ə.Yaş psixologiyası. Bakı, 2003.
4. Мухина В.С. Возрастная психология, М., Изд-во «Академия», 1998
5. Шаповаленко И.В. Возрастная психология. М: Гардарики, 2005.

Mövzu 10. Kiçik yaşlı məktəblilərdə idrak proseslərinin inkişafı

Plan:

6. Diqqətin inkişafı
7. Nitqin inkişafı
8. Yazı vərdişlərinin (qrafik vərdişləri) təşəkkülü
9. Hafizənin inkişafı
10. Təfəkkürün inkişafı
11. Təxəyyülün inkişafı

Ədəbiyyat:

27. Əzimli Q.Ə. Psixi inkişaf və tərbiyənin müasir problemləri. Bakı 2004.
28. Əzimli Q.Ə. Yaş və pedaqoji psixologiyanın müasir problemləri. Bakı 2006.
29. Həmzəyev M.Ə Yaş və pedoqoji psixologiyanın əsasları Bakı 2003.
30. Qədirov Ə.Ə Yaş psixologiyası. Bakı, 2003.
31. Vəliyev M.V., Mustafayev A.M. İnkişaf və yaş psixologiyası. Bakı, 2013.

Mövzu ilə bağlı elektorn resurslar

https://azkurs.org/derslik-prof-si-seyidov-ve-prof-me-hemzeyevin-elmi-redaktorlug.html?page=35

https://psyera.ru/3000/razvitie-poznavatelnyh-processov-mladshih-shkolnikov

Kiçik məktəb yaşı dövrü uşaqlarda idrak proseslərinin inkişafı üçün geniş imkan yaradır. Bu dövrdə qavrayışın xüsusiyyətləri, növləri, uşağın həyat və fəaliyyətinin təsiri altında, onun ətraf mühitin cisim və hadisələri ilə fəal qarşılıqlı münasibəti prosesində sürətlə inkişaf edir. I-II sinif şagirdlərinin qavrayışlarının xarakterik xüsusiyyətlərindən biri onun az fərqləndirici, səthi, nisbətən az məqsədəyönəlmiş olmasıdır. Həmin yaş dövründə uşaqlar, birinci növbədə, o obyekti və ya əlaməti qavrayırlar ki, onlar, bilavasitə emosional təəssürat yaratmış, uşaqlar üçün əhəmiyyətli olsun.
Kiçik məktəblilərin qavrayışlarının xarakterik cəhətlərindən biri də oxşar obyektləri qeyri-dəqiq qavramasıdır. Qavrayış zamanı fərqləndirmənin kifayət səviyyədə olmaması onu göstərir ki, uşaqlar oxşar cisim və hadisələrə eyni məna verirlər. Məhz buna görə də təlim prosesində müqayisədən istifadəyə geniş yer verilməlidir. Məlum olduğu kimi, uşaqlar zamanı qavramaqda müəyyən çətinlik çəkirlər. Buna baxmayaraq, kiçik məktəb yaşlı uşaqlarda təlim-tərbiyə prosesində məkan və zaman qavrayışı da əsaslı şəkildə inkişaf edir, onlar məsafəni, məkanın müxtəlif cəhətini qavraya bilirlər. Aparılan təcrübələr göstərir ki, kiçik yaşlı məktəblilərin 25%-i "1 km məsafə" ifadəsini düzgün qavrayır. I-II sinif şagirdləri əyaniliklə əlaqədar məkanı düzgün qavradıqları halda, III sinif şagirdləri məkanı həm əyaniliklə əlaqədar, həm də onsuz müəyyənləşdirə bilirlər.
Təlim-tərbiyə prosesində uşaqlarda zaman qavrayışı da inkişaf edir. Aydındır ki, məkandan fərqli olaraq, zaman bilavasitə qavranılmır, bu prosesdə zaman özü uşağın şüurunda əks olunur, onun idrak obyekti olmur. Obyektiv varlıq olan zamanın bu spesifik xüsusiyyəti uşaqların onu əks etdirməsini uzun müddət çətinləşdirir, lakin buna baxmayaraq, uşaqlar tədricən zaman qavrayışına yiyələnirlər. Burada "səhər", "axşam", "gündüz", "gecə" kimi zaman məfhumlarının əsas əlamətlərə görə ümumiləşdirilməsi də nisbi xarakter daşıması uşaqların onları dəqiq qavramalarını çətinləşdirir. I sinifdə "bu gün", "axşam", "səhər" kimi zaman məfhumlarını fərqləndirən uşaqlar tədricən saatdan, təqvimdən istifadə etməyi bacarırlar ki, bu da onların gündəlik rejimlərinin, tədris işlərinin təşkilinə kömək edir.
Diqqətin inkişafı. Tədris materialını qavramaq, onu başa düşmək, yadda saxlamaq, lazım gəldikdə yada salmaq tədris işinə diqqətli münasibət sayəsində mümkün olur. Kiçik məktəb yaşlı uşaqlarda qeyri-ixtiyari diqqət ixtiyari diqqətə nisbətən üstünlük təşkil edir, onun davamlılığı ixtiyari diqqətə nisbətən yüksək olur. Məlum olduğu kimi, qeyri-ixtiyari diqqət ən çox uşağın marağı ilə əlaqədardır. Məktəbə daxil olmaqla uşağın marağı, xüsusilə təlim fəaliyyətinə olan marağı genişlənir, inkişaf edir. Bu da öz növbəsində qeyri-ixtiyari diqqətin inkişafına səbəb olur, lakin ilk dövrlər kiçik məktəblilərdə maraq hələ mərkəzləşməmiş xarakter daşıyır. İlk dövrlər uşağı təlim prosesində qazanacağı bilikdən çox onun üçün yeni olan məşğələlər çəlb edir, onu çox vaxt yazı, oxu, qiymət almaq və s. maraqlandırır. Ona görə də uşağın diqqəti ilk dövrlər qeyri-ixtiyari şəkildə həmin sahələrə yönəlir.
Kiçik məktəb yaşlı uşaqlarda qeyri-ixtiyari diqqəti ən dərin emosional təsir yaradan, parlaq cisim və hadisələr inkişaf etdirir. Ona görə də kiçik məktəb yaşlı uşaqların diqqəti bəzən əsas cəhətə deyil, onları həyəcanlandıran cəhətlərə doğru daha çox yönəlir. Bütün bu

cəhətlərin təlim prosesində nəzərə alınması diqqətin davamlılığına müsbət təsir göstərir. Kiçik məktəb yaşı dövründə diqqətin həcmi bir qədər genişlənir. Diqqətin həcminin genişlənməsi şagirdin təlim fəaliyyətində müvəffəqiyyət qazanmasına əsaslı təsir göstərir. Belə ki, I sinif şagirdi əlifbanı oxuyarkən əvvəlcə ayrı-ayrı hecaları qavrayır, bu vaxt onun diqqəti zəif olur, lakin oxumağı öyrəndikdən sonra sözləri bütöv halda qavrayır, onun sürətli qiraəti genişlənir. Məktəblilərdə diqqətin mərkəzləşməsi və davamlılığı da getdikcə təkmilləşir. Dərsdə daim mühüm məsələlərə diqqət yetirmək lüzumsuzluqlardan uzaqlaşmaq diqqətin mərkəzləşməsini inkişaf etdirən amillərdəndir. Kiçik məktəblilərin çoxu təlim prosesində öz diqqətlərini paylamaqda və keçirməkdə çətinlik çəkirlər. Onlar verilmiş bu və ya digər tapşırığı yerinə yetirərkən diqqətini paylaya bilmir, çoxlu səhvə yol verirlər.

Təlim prosesində intizamlılıq və mütəşəkkillik də diqqətin inkişafında böyük əhəmiyyətə malikdir. Uşağın diqqətinin inkişafı üçün müxtəlif təlim üsullarından da istifadə olunur. Dərsdə müxtəlif üsullar, müxtəlif qaydalar gözlənilmədikdə uşağın diqqəti yayınır, dalğınlıq əmələ gəlir. Bu da öz növbəsində mənimsəmənin keyfiyyətinə mənfi təsir edir. Dərsdə diqqətin davamlılığı müəllimin davranışından da asılıdır. Müəllim səsinin tonunu, intonasiyasını dəyişdikdə, nitqdə vurğu və intonasiyadan düzgün istifadə etdikdə diqqətin davamlılığını təmin edə bilər. Dərsdə diqqətliliyi təmin edən amillərdən biri də təlim prosesinin səmərəli təşkilidir.

Nitqin inkişafı. Nitqin hər 3 istiqamətinin (söz ehtiyatı, fonetik, qrammatik) inkişafı onun yeni mərhələyə-yazılı nitqin inkişafına keçməsinə imkan verir. Şagirdlərin oxu vərdişinə yiyələnməsi üç mərhələdən ibarətdir:

1-ci mərhələ analitik mərhələadlanır ki, burada şagird hərflərin adlarını öyrənir, onlardan heca, hecalardan isə sözlərin əmələ gəlməsi ilə tanış olur. Bu mərhələdə hərflərdən hecalar, hecalardan isə sözlər düzəltmə prosesi nisbətən ləng gedir.

2-ci mərhələ sintetik mərhələdirki, şagird sözlərin ünsürlərini çətinlik çəkmədən və nisbətən tez sintez edir, ancaq bu zaman bir sıra çətinliklər özünü göstərir. Həmin vaxt uşaq sözlərin tərkib hissəsini müəyyənləşdirmədən oxuyaraq oxşar sözlərin oxunuşunu qarışdırır.

3-cü mərhələ analitik-sintetik mərhələdir ki, burada şagird sözün ünsürlərini sürətlə müəyyənləşdirməyə əsaslanaraq oxumağa başlayır. Bu mərhələ sürətli qiraət mərhələsi hesab edilir.

Yazı vərdişlərinin (qrafik vərdişləri) təşəkkülü adətən, 3 mərhələdən keçir.

Elementar adlanan birinci mərhələdə şagirdin diqqəti hərfin ayrı-ayrı ünsürlərinin yazılışına, yazı zamanı düzgün oturmağa, əlin hərəkətinə, qələm və dəftərdən düzgün istifadəyə doğru yönəlmiş olur.

II mərhələdə (hərfi mərhələ) diqqət hərfin düzgün və tam yazılmasına, yazı texnikasına yönəlir.

III mərhələdə əlaqəli (rabitəli) yazı vərdişi təşəkkül tapır; hərflər sözlər içərisində əlaqəli, sətir üzərində bir böyüklükdə yazılır.

Qrafik yazının yüksək mərhələsi rabitəli, tez yazmaq mərhələsi hesab olunur. Bu mərhələdən sonra qarşıya yeni vəzifə, orfoqrafik cəhətdən düzgün yazmaq vəzifəsi çıxır. Orfoqrafik vərdişlərə yiyələnmək yazılı nitqdə mühüm yer tutur.

Hafizənin inkişafı.Uşaqların hafizəsi məktəbdə müntəzəm təlim-tərbiyə sayəsində sürətlə inkişaf etməyə başlayır, xüsusilə mexaniki və mənalı hafizənin nisbəti dəyişir, mənalı hafizə daha səmərəli inkişaf edir. Mənalı yaddasaxlama uşağın nitqə yiyələnməsi ilə əlaqədar təşəkkül tapır, kiçik məktəb yaşında da xeyli inkişaf etmiş olur və uşaq onunla hafizəsini informasıyalarla zənginləşdirir.

Kiçik məktəb yaşlı uşaqlar konkret cisimləri, faktları, özlərinin bilavasitə qavradıqları hadisələri daha yaxşı yadda saxlayırlar. Ona görə də uzun-uzadı izahatları yadda saxlamaqda çətinlik çəkən 6-7 yaşlı uşaq əyani olaraq qavradığı materialı asanlıqla yadda saxlaya bilir. Bu həmin dövrdə uşaqlarda I siqnal sisteminin, o cümlədən obrazlı hafizənin hələ üstünlük təşkil etməsi ilə əlaqədardır.
Təlim prosesində emosional məzmuna malik olan material yaxşı yadda qalır və hafizəni inkişaf etdirir. Burada əqli iş, adətən, hisslərlə müşayiət olunur. İxtiyari yaddasaxlamanın inkişafında qarşıya məqsəd qoymaqla öyrəniləcək materialın müqayisə edilməsinin də böyük rolu vardır. Hafizənin inkişafı və yaddasaxlamanın davamlılığında plan tərtib etmənin də böyük əhəmiyyəti vardır. Tədqiqatlar göstərir ki, planla öyrənmə plansız öyrənməyə nisbətən yaxşı nəticə verir. Hafizənin inkişafında ciddi nəzarət və tələbkarlıq da mühüm əhəmiyyət kəsb edir.
Təfəkkürün inkişafı.Təfəkkürün inkişafında konkretlilik və emosionallıq geniş yer tutur. Uşaqlar fikri əməliyyatlar aparır, ümumiləşdirir, əyani təfəkürlə mücərrəd təfəkkürün birgə fəaliyyəti praktik və nəzəri təfəkkürü də inkişaf etdirir. Şagirdlər təhlili yalnız əyani-əməli planda deyil, əqli planda da apara bilirlər. Kiçik məktəb yaşlı uşaqlarda təlim-tərbiyənin təsiri altında müqayisə prosesi də inkişaf edir. Bu yaş dövründə əqli fəaliyyətin inkişafında təfəkkürün hökm və əqli nəticə formaları da inkişaf edir. Hökmlərin düzgün forması uşağın cisim və hadisələr haqqında düzgün, dəqiq fikir yürütməsinə imkan verir. Təhlil fikri əməliyyatı ilə bərabər, uşaqlarda tərkib fikri əməliyyatı da inkişaf edir. Tərkib fikri əməliyyatı prosesində şagirdlər ayrı-ayrı hissələri, əlamətləri birləşdirib, tam şəkildə öyrənirlər. Təlim prosesində təhlil və tərkibin inkişafı qarşılıqlı vəhdətdə həyata keçirilir.
Kiçik yaşlı məktəblilərdə mücərrədləşdirmə və konkretləşdirmə prosesləri də inkişaf edir. Təlim prosesində kiçik məktəblilərin təfəkkürünün qeyd olunan xüsusiyyətləri müəllim tərəfindən ciddi surətdə nəzərə alınmalıdır. Kiçik məktəblilərdə emprik təfəkkürlə nəzəri təfəkkürün vəzni tədricən dəyişir. Nəzəri təfəkkür dominant olmağa başlayır. İbtidai sinif şagirdləri bədii mətnlər üzərində selektiv əməliyyat apararkən onların **mücərrədləşdirici fəaliyyəti 3 formada özünü göstərir.**

1. Mənimsənilmiş bütöv mətndə ayrı-ayrı xətti-süjeti ayırmaq tələb edildikdə uşaqlar mətndəkinə müvafiq şəkildə əməliyyat aparırlar.
2. Bəzi şagirdlər mətni bütöv nağıl etdikdən sonra mətndəki hər hansı xətti ayırmaq tapşırıldıqda daha çox ünsürlər, fikirlər ayırırlar, yəni mətni sərbəst, əlaqəli nağıl etməyə nisbətən selektiv yadasalma zamanı daha tam və yaxşı nəticə əldə edilir.
3. Şagirdlər mətni tam söyləsə də, mətndən müxtəlif süjeti ayırmağı bacarmırlar və ya mücərrədləşdirmələri səthi xarakter daşıyır.

Kiçik məktəblilərdə ümumiləşdirmə prosesi də sürətlə inkişaf edir. Şagirdlərin **ümumiləşdirici fikri fəaliyyəti təlim zamanı 3 şəkildə inkişaf edir.**

1. Ayrı-ayrı cisimlərdə mühüm cəhətlər ümumiləşdirilir, məfhum əmələ gətirilir.
2. Tədris ümumiləşdirmələri, yəni plan tutmaq, nəticələr çıxarmaq, materialın qısa şəkildə icmalını hazırlamaq.
3. Ayrı-ayrı cisim və hadisələr arasında mühüm və ümumi əlaqələr ümumiləşdirilir.

Təxəyyülün inkişafı. Kiçik məktəb yaşı dövründə uşağın həyat təcrübəsi və biliyinin artması sayəsində onda təxəyyülün inkişafı üçün əlverişli şərait yaranır. Bu yaş dövrü üçün bərpaedici təxəyyül əsas olur. Bərpaedici təxəyyül kiçik yaşlı şagirdin təlim fəaliyyətində həlledici rol oynamağa başlayıb, onun tərkib hisəsinə çevrilir; keçilən dərslərin mənimsənilməsini asanlaşdırır. Təcrübə göstərir ki, kiçik məktəb yaşlı şagirdlər hekayə və nağıllar əsasında surətləri təsəvvür etməkdə çətinlik çəkmirlər. Hər şeydən əvvəl, kiçik məktəblinin təxəyyülü emosional xarakter daşıyır. Onda hisslərin, bədii əsərlərin təsiri altında daha parlaq təxəyyül surətləri yaranır.
Psixoloji tədqiqatlar göstərmişdir ki, birinci sinif şagirdlərinin təxəyyül surətləri hələ bağça yaşı dövründə olduğu kimi, sxematik və fraqmentar xarakter daşıyır. Məktəbə daxil olmaq uşaqda yaradıcı təxəyyülün inkişafına da şərait yaradır. Təlim prosesində şagirdlərin biliyi, həyat təcrübəsi artır, təsəvvürləri genişlənir, bütün bunlar isə onların nisbətən müstəqil, yaradıcı fəaliyyət göstərmələrinə imkan verir. Bu dövrdə təlim fəaliyyəti ilə yanaşı, uşağın şəkil çəkməsi, oyunda iştirakı, özündən nağıl və hekayələr quraşdırılması yaradıcı təxəyyülün inkişafına müsbət təsir göstərir.

Mənbə:

6. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları.Bakı 2003.
7. Qədirov Ə.Ə. Kiçik məktəb yaşlı uşaqlarda mücərrəd təfəkkürün inkişafı, L., 1961.
8. Qədirov Ə.Ə.Yaş psixologiyası. Bakı, 2003.
9. Мухина В.С. Возрастная психология, М., Изд-во «Академия», 1998
10. Шаповаленко И.В. Возрастная психология. М: Гардарики, 2005.

XI. Kiçik yaşlı məktəblilərdə hislər, iradə, xarakter və şəxsiyyətin inkişafı

Plan:

1. Kiçik yaşlı məktəblilərdə hislər, iradə, xarakterin inkişafı
2. Kiçik məktəblilərdə şəxsiyyətin inkişafı
3. Kiçik məktəblilərdə tələbat və maraqların inkişafı.

Ədəbiyyat:

32. Əzimli Q.Ə. Psixi inkişaf və tərbiyənin müasir problemləri. Bakı 2004.
33. Əzimli Q.Ə. Yaş və pedaqoji psixologiyanın müasir problemləri. Bakı 2006.
34. Həmzəyev M.Ə Yaş və pedoqoji psixologiyanın əsasları Bakı 2003.
35. Qədirov Ə.Ə Yaş psixologiyası. Bakı, 2003.
36. Vəliyev M.V., Mustafayev A.M. İnkişaf və yaş psixologiyası. Bakı, 2013.

Mövzu ilə bağlı elektorn resurslar

https://aztehsil.com/mel/111-kiik-mktblilrin-psixoloji-xsusiyytlri.html

https://moluch.ru/archive/209/51131/

https://www.serapduygulu.com.tr/makaleler/cocuk-ergen/cocuklarda-karakter olusumu-ve-gelisimi.html

Kiçik məktəblilərdə hisslərin, iradə və xarakterin inkişafı

Məktəbə daxil olmaqla əlaqədar uşaqda bir sıra yeni, mürəkkəb və ziddiyyətli ***hisslər*** özünü göstərməyə başlayır. Bu hisslər uşağın yeni vəziyyəti ilə bağlı olur. Məktəbə yenicə gəlmiş uşaqlar bir sıra hissi hallar, təəssüratlar keçirirlər: onlar fəxr edirlər ki, artıq məktəblidirlər, "böyük" olmuşlar. Eyni zamanda məktəbə təzə gələn uşaqlar bəzi həyəcanlı anlar da keçirməyə başlayırlar: "Görəsən məktəbdə necə olacaq? Tapşırıqları yerinə yetirə biləcəkmi? Yoldaşları, müəllim necə olacaq? və s. Bütün bunlarla yanaşı olaraq mühitin, təlim və tərbiyənin təsiri altında uşaqlarda bir sıra müsbət hisslər yaranmağa başlayır. Təlimdə qazandığı ilk müvəffəqiyyət uşağı sevindirir. Kiçik məktəb yaşlı uşaqlarda hisslər az davamlı və keçici olur. Onların hissləri asanlıqla bir-birini əvəz edir. Bu dövrdə uşaqlar öz hisslərini gizlətməkdə çətinlik çəkirlər. Kiçik məktəb yaşının sonuna doğru uşaqların hissləri nisbətən davamlı xarakter daşımağa başlayır. Bu dövrdə uşaqlarda zehni, əxlaqi və estetik hisslər də özünəməxsus şəkildə inkişaf edir. Uşaqda hər şeyi bilməyə, öyrənməyə həvəs, təlim zamanı rast gəldiyi çətinliyi aradan qaldırmağa inam, şübhə, işi icra edərkən özündən razı qalmaq, öz "kəşfləri" ilə fəxr etmək və s. kimi hallar baş verir. Bu dövrdə vətənə məhəbbət, böyüklərə hörmət, yoldaşlıq, insanlara qayğı və s. kimi əxlaqi hisslərin əsası qoyulur. Ümumiyyətlə kiçik məktəblilərdə əxlaqi hisslər biliklərə, tədricən əxlaqi anlayışlara yiyələnməklə əlaqədar inkişaf edir. Kiçik məktəb yaşı dövründə estetik hisslərin inkişafı, estetik zövqün tərbiyəsi üçün də səmərəli şərait yaranır. Kiçik məktəb yaşı dövründə uşaqlarda ***iradənin*** inkişafı üçün də geniş imkan yaranır. Bu dövrdə uşaq öz hərəkətlərini, fikir və arzularını qaydalara tabe etməli olur. Bu prosesdə maneələri aradan qaldırır. I-III sinif şagirdlərində iradi cəhd göstərmək bacarığı hissediləcək dərəcədə artır. İxtiyari, iradi fəaliyyət inkişaf etməyə başlayır. Uşağı iradi cəhdə yönəldən motivlər kəskin şəkildə dəyişir. 9-10 yaşlı uşaqlar nəyə qadir olduqlarını öz həmyaşıdlarına göstərmək istəyirlər. Bu dövrdə hisslərin və iradənin inkişafı uşaqda xarakterin inkişafına da əsaslı təsir göstərir. Kiçik məktəblilərdə təlim və tərbiyənin təsiri altında xarakterin intizamlılıq, dözümlülük, təkidlilik kimi iradi keyfiyyətləri formalaşmağa başlayır. Təlim və tərbiyənin təsiri altında kiçik məktəblilərdə ***xarakterin*** əməksevərlik, səliqəlilik, böyüklərə hörmət kimi əlamətləri formalaşır. Kiçik məktəblilərdə xarakterin formalaşmasında təlim və tərbiyə ilə yanaşı onlarda təqlidə meyllilik də mühüm rol oynayır. Bütün bunlarla yanaşı olaraq müəllimin qiymətləndirməsi və təlimdə əldə edilmiş uğurlu nəticələrin təsiri altında kiçik məktəblilərdə özünüqiymətləndirmə formalaşmağa başlayır. Lakin bu hal sabit xarakter daşımır, tez-tez aşağı düşə bilir. Özünüqiymətləndirmə

ilə bağlı olaraq kiçik məktəblilərdə özünə, öz gücünə inam da formalaşır. Lakin təcrübə göstərir ki, təlimdəki çətinliklərdən, müəllimin və valideynlərin tənqidi qeydlərindən asılı olaraq kiçik məktəblilərdə öz gücünə inamsızlıq, frustrasiya vəziyyəti, təlimə marağın itməsi, «məktəb nevrozlarının» meydana gəlməsi halları da müşahidə olunur. Müəllimin bu cəhətləri nəzərə alması kiçik məktəblilərdə şəxsiyyətin müvafiq əlamətlərinin formalaşmasında mühüm əhəmiyyət kəsb edir.

Kiçik məktəblilərdə hislərin inkişafı

Məktəbə yenicə gəlmiş uşaqlar bir sıra hissi hallar, təəssüratlar keçirirlər:onlar fəxr edirlər ki, artıq məktəblidirlər, "böyük" olmuşlar. Bununla yanaşı, mühitin, təlim və tərbiyənin təsiri altında uşaqlarda bir sıra müsbət hisslər yaranır. Bu cür hisslər, xüsusilə uşağın məktəbdə qazandığı müvəffəqiyyətlər, habelə çətinlikləri aradan qaldırması və s. ilə bağlı olan razılıq hissindəözünü göstərir. Təlimdə qazandığı ilk müvəffəqiyyətlər uşağın sevincinə səbəb olur. Şagirdin məktəbdə aldığı yüksək qiymət müsbət emosional hal yaradır. Psixoloji tədqiqatlar göstərmişdir ki, kiçik məktəb yaşlı uşaqlarda hisslər az davamlılığı, keçiciliyi ilə fərqlənir. Yüksək əhval-ruhiyyə ilə çalışan uşağa təsir edən kiçik bir şey onun əhvalını tezliklə dəyişdirir. Kiçik məktəb yaşının sonuna doğru uşaqların hissləri nisbətən davamlı xarakter daşımağa başlayır. Bu dövrdə uşaqlarda zehni hisslərdə inkişaf edir. Uşaqda hər şeyi bilməyə, öyrənməyə həvəs, təlim tapşırıqlarını yerinə yetirərkən rast gəldiyi çətinliyi aradan qaldırmağa istək və s. kimi hallar baş verir. Kiçik məktəbyaşlı şagirdlərdə əxlaqi-sosial hisslərdə inkişaf edir. Bu dövrdə onlarda Vətənə məhəbbət, insanlara qayğı göstərmək kimi hisslər formalaşır. Kiçik məktəb yaşlılarda sevinc və narazılıq yoldaşların bir-birinə hörmət və etibar edib-etməməsi ilə, özlərinin təşkilatçılıq qabiliyyətlərini qiymətləndirib-qiymətləndirməmələri ilə əlaqədar olur. Kiçik məktəbyaşlı şagirdlərdə təsviri incəsənətin, musiqinin, nəğmənin təsiri ilə estetik hisslərdə sürətlə inkişaf edir: hətta onlar nəğmələri, musiqi əsərlərini emosional cəhətdən qiymətləndirir və ona öz münasibətlərini bildirirlər. Şagirdlərdə hisslərin inkişafından danışarkən praksis hissləridə qeyd etmək lazımdır. Bu hiss əmək, təlim, idman fəaliyyəti zamanı təzahür edib, uşağın həyatında böyük əhəmiyyətə malik olur. Xüsusilə, şagirdin təlim müvəffəqiyyəti onun müəyyən vaxtlarda keçirdiyi hisslərdən çox asılıdır.

Kiçik məktəbli şəxsiyyətinin formalaşması

Uşaq şəxsiyyətinin inkişafı yaş aspektində özünü həqiqətən iki dəfə qabarıq şəkildə büruzə veriri. I dəfə uşaq 3 yaşında belə bir əzəmətli ifadə işlədir: "*Mən özüm*edəcəyəm". II halda isə uşaqda şəxsiyyət fiziki, psixoloji, sosial fəallıq zəminində şüurlu surətdə təşəkkül edir. II halı başlanğıc kii kişik məktəblilərə şamil etmək olar. Kiçik məktəblilərin şəxsiyyətinin inkişafında özünüdərketmə, yəni öz psixi, fiziki, mənəvi keyfiyyət və xüsusiyyətlərinə şüurlu münasibət, özünüqiymətləndirmə mühüm rol oynayır. Uşaq şəxsiyyətinin formalaşmasında məktəb kollektivinə daxil olmaq mühüm əhəmiyyət kəsb edir. Uşağın sinfə, qrupa daxil olması bir tərəfdən onda kollektivçilik hissinin meydana gəlməsinə, digər tərəfdən isə şəxsiyyətlərarası münasibətlərin yaranmasına səbəb olur. Qrup daxilində kiçik məktəb yaşlıların bir-birinə münasibətində tədricən əsaslı dəyişikliklər nəzərə çarpır.

Tədris fəaliyyəti tədricən uşaqları bir-biri ilə bağlayır və onların bir-birinə qarşılıqlı köməyini, tələbkarlığını təşəkkül etdirir.
Uşaqlar tədricən özlərini qrupun ayrılmaz hissəsi hesab edirlər. 9-11 yaşlı şagirdlər yoldaşlarının yanında onlara tutulan iradlardan daha çox utanır və mütəəssir olurlar. Kiçik məktəblilər öz şəxsi tələbat və arzuları ilə yanaşı, başqa adamların da maraq və istəklərinə aid fikir söyləyirlər.

Kiçik məktəblilərdə tələbat və maraqların inkişafı.

Məktəbə daxil olmuş uşaqların tələbat və maraqları olduqca müxtəlif və rəngarəng xarakter daşıyır. Şagirdin müvəffəqiyyətlə oxumasına, biliklərə yiyələnməsinə müəllim yaxından kömək göstərdikdə şagird bu sahədəki tələbatını ödəyə bilir. Müəllim şagirdin gözü qarşısında ətraf varlığın zənginliklərini, bir növ nümayiş etdirir: onu yeni-yeni cisim və hadisələrlə tanış edir. Bu da uşaqda idrak, təlim maraqlarının inkişafına səbəb olur. Oxumaq get- gedə nəinki lazımi, hətta ən maraqlı prosesə çevrilir. Psixoloqların tədqiqatları göstərmişdir ki, I sinfə yeni gələn uşaqlarda maraqlar hələ fərqləndirici xarakter daşımır. Onlar təlim fəaliyyətinin bütün sahələri ilə eyni dərəcədə maraqlanırlar. II sinifdə uşaqlarda təlim fəaliyyətinin nəticəsinə maraq artır. III sinifdə isə uşaqlarda müstəqilliyin artması onların təlim fəaliyyətinin mahiyyəti ilə daha dərindən maraqlanmalarına imkan yaradır. Kiçik məktəblilər onları əhatə edən adamların rəftar və davranışlarını qiymətləndirməyə də maraq göstərir, eyni zamanda onlarda başqasının qeydinə qalmaq, insanlara həssaslıq göstərmək, onlara hörmət etmək kimi mövqedə olurlar.

Bu yaş dövründə tez-tez rast gəlinən mənfi hallar:
Hiperaktivlik – Həddindən artıq aktivlik, gərginlik hissi, bir işdə diqqəti konsentrasiya (mərkəzləşdirmə) edə bilməmək; diqqət əksikliyi (hiperaktiv) belə uşaqların əsas göstəricisidir. Bu hallara oğlan uşaqlarında qızlara nisbətən daha çox rast gəlinir. Hiperaktivlik – kompleks davranış pozuntusudur. İxtiyari diqqəti inkişaf etdirmək lazımdır. Bunun üçün xüsusi qruplar şəklində planlı proqramlar təşkil olunmalıdır.Valideynlər üçün bilgi verəcək treninqlər təşkil edilməlidir. Uşağın bu və ya digər davranışı və hadisələri diqqətdən kənarda saxlamasının səbəbini araşdırmaq lazımdır. Fiziki aktivliyi faydalı işlərə yönəldərək hərəki aktivliyi tənzimləmək olar.
Solaxaylıq – Sol əl ilə yazan uşaqlar (insanların 10%) çox zaman müəllimlərin və sağ əl ilə yazan yoldaşlarının mənfi münasibətinin obyekti olurlar. Fizioloji baxımdan onlarda görmə-motor koordinasiya qabiliyyəti zəif olur. Uşaqlar çətinliklə obyektləri və onların elementlərini köçürürlər, güzgüləmə effekti olur (hərfləri tərs yazırlar), yazılar əyri və kobud olur. Sağ və solu müəyyən etməsində çətinlik çəkirlər.
Emosional-iradi sferanın pozulması – bu aqressiv uşaqlarda emosional tormozlanma, utancaqlıq, həyəcanlılıq olur, onlar tez küsən və inciyən olurlar. Səbəb ailə daxilində fərqli tərbiyə vasitələrinin olması, temperament tiplərinin və müəllim ilə münasibətlərin fərqli cəhətlərinin təzahür etməsidir.

Mənbə:

11. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları.Bakı 2003.
12. Qədirov Ə.Ə. Kiçik məktəb yaşlı uşaqlarda mücərrəd təfəkkürün inkişafı, L., 1961.
13. Qədirov Ə.Ə.Yaş psixologiyası. Bakı, 2003.
14. Мухина В.С. Возрастная психология, М., Изд-во «Академия», 1998
15. Шаповаленко И.В. Возрастная психология. М: Гардарики, 2005.

Mövzu 12. Yeniyetmə yaşının ümumi xüsusiyyətləri

1. Yeniyetməlik yaşının ümumi xarakteristikası
2. Yeniyetməlik yaşında "böhran" probleminə dair nəzəriyyələr
3. Yeniyetmənin orqanizmində baş verən anatomik-fizioloji dəyişikliklər

Ədəbiyyat:

37.Əzimli Q.Ə. Psixi inkişaf və tərbiyənin müasir problemləri. Bakı 2004.
38.Əzimli Q.Ə. Yaş və pedaqoji psixologiyanın müasir problemləri. Bakı 2006.
39.Həmzəyev M.Ə Yaş və pedoqoji psixologiyanın əsasları Bakı 2003.
40.Qədirov Ə.Ə Yaş psixologiyası. Bakı, 2003.
41.Vəliyev M.V., Mustafayev A.M. İnkişaf və yaş psixologiyası. Bakı, 2013.

Mövzu ilə bağlı elektorn resurslar

https://kayzen.az/blog/KamileKazimova/24587/yeniyetm%C9%99l%C9%99rin-psixoloji-x%C3%BCsusiyy%C9%99tl%C9%99ri.html

https://www.memorial.com.tr/saglik-rehberleri/ergenlik-donemi-ve-ozellikleri/

http://psy.s548.ru/fotoalbom/rekomendacii-roditelam-i-pedagogam/obsaa-harakteristika-podrostkovogo-vozrasta

I. Yeniyetməlik yaşının ümumi xarakteristikası

Yeniyetməlik dövrü 11-12 yaşdan 14-15 yaşadək müddəti, orta məktəbin 5-8-ci sinif şagirdlərini əhatə edir. Lakin yeniyetməlik dövrünün başlanmasına və qurtarmasına dəqiq sərhəd qoymaq mümkün deyildir. Müxtəlif amillərin təsiri altında həmin yaş dövrü bir il tez və ya gec başlaya, və ya bitə bilər. Bu dövr özünün praktik

əhəmiyyəti, pedaqoji çətinlikləri və uşaq şəxsiyyətinin dinamikasında baş verən psixoloji təbəddülatları ilə nəzəri cəlb edir.
Yeniyetməlik dövrü mexanizminin açılmasında görkəmli psixoloq A.N.Leontyevin- "uşağın psixi inkişafının hərəkətverici qüvvəsi onun ictimai münasibətlər sistemində tutduğu real yerin dəyişməsidir" müddəası çox böyük əhəmiyyət kəsb edir. A.N.Leontyevin yazdığı kimi, psixi inkişafın müəyyən mərhələsində "onu əhatə edən insani münasibətlər aləmində uşağın əvvəllər tutduğu yer, onun tərəfindən öz imkanlarına müvafiq gəlməyən kimi dərk olunur və uşaq onu dəyişməyə səy göstərir. Uşağın həyat tərzi ilə, artıq onun bu həyat tərzini qabaqlamış imkanları arasında açıq ziddiyyət meydana çıxmağa başlayır. Buna müvafiq olaraq, onun fəaliyyəti də yenidən qurulur. Bununla da onun psixi həyatının inkişafının yeni mərhələsinə keçid başa çatır. Bəs, yeniyetməlik dövründə baş verən dəyişikliklər özünü nədə göstərir?
Hər şeydən əvvəl,uşaq məktəbdə yeni şəraitə düşür, təlim materialı və dərsdə təlim işinin formaları mürəkkəbləşir, yeniyetmənin öz həmkarları və yaşlılarla ünsiyyəti, habelə məktəbdənkənar fəaliyyət növləri sahəsində əməli təcrübəsi xeyli genişlənir. Həmin şərait isə yeniyetmələrdə yaşlılarla münasibətdə yeni mövqe tutmaq, hərəkətlərində daha çox müstəqillik və sərbəstlik, öz yaşıdları ilə ünsiyyətində müəyyən yeniliklər yaratmaq meylinin meydana gəlməsinə səbəb olur.
İkinci, yeniyetmənin tələbləri onun həyat təcrübəsi və ixtiyarında olan müstəqillik imkanı ilə müqayisədə xeyli irəli gedir, yeniyetmə həyat tərzini heç də öz imkanlarına müvafiq deyil, onlardan xeyli geniş şəkildə qurmağa can atır.Buna görə də yaşlılar bir tərəfdən yeniyetmənin müstəqilliyə olan hədsiz meylini müəyyən qədər məhdudlaşdırmalı, digər tərəfdən isə onlarda yaşlılığa olan tələbatl durmadan inkişaf etdirməli, şagirdləri elə mürəkkəbləşən fəaliyyət növlərinə cəlb etməlidirlər ki, bu proses, onlarda çatışmayan müstəqillik, özünütənzimetmə və özünənəzarət vərdişlərini formalaşdıra bilsin.
Üçüncüsü, yeniyetməlik dövrü təlimin bu və ya digər növünə yiyələnmək üçün zəruri olan senzitivlik, həssaslıq və yüksək qavrama qabiliyyəti kimi keyfiyyətləri diqqəti cəlb edir. Yeniyetmə bu dövrdə təlim fəaliyyətinin bütün növlərini dərk etməyə, dərs zamanı çüstəqil iş formalarını həyata keçirməyə hazır və qadir olur, məktəbdənkənar vaxtlarda öz idrak fəaliyyətini tənzim etmək imkanına yiyələnir. Ancaq təəssüf ki, o hələ bu hazırlığı reallaşdırmağı bacarmır, təlim fəaliyyətinin yeni formalarının icra tərzlərinə yiyələnmiş olur.Şagirdi bu tərzlərə yiyələndirmək, onlara dərin maraq doğurmaq müəllimlərin qarşısında duran ən ümumi vəzifələrdəndir.
Yeniyetməlik dövrünü bir çox müəlliflər "keçid dövrü" (uşaqlıqdan gəncliyə), "çətin dövr"(müəllim və valideynlər üçün), "dönüş dövrü", hətta "böhran dövrü" belə adlandırırlar. Uşaq öz həyatının bir mərhələsindən digərinə, uşaqlıqdan yaşlılığa keçir. Bu vaxt istər fiziki, istərsə də psixi inkişaf həm surətlə, həm də bütün sahələrdə həyata keçirilməyə başlayır. Əgər dördüncü sinif şagirdi ilə səkkizinci sinif şagirdini müqayisə etsək, görərik ki, bu qısa müddət ərzində uşaq fiziki, əqli, əxlaqi və ictimai-sosial baxımdan nə qədər böyümüş olur. Əlbəttə, bu böyümə hələ əsl və tam xarakter daşımır, onun gələcəkdə inkişafa böyük ehtiyacı olur. Əlbəttə, bu yaşlılaşma hələ əsl və tam xarakter daşımır, onun gələcəkdə inkişafa böyük ehtiyacı

olur.
Müasir məktəblərin həyatında 2 əsas anı fərqləndirirlər:
1. Yaşlılaşmanın inkişafını ləngidənlər. Buraya uşağın dərsdən başqa heç bir işlə məşğul olmaması, valideynlərin hər bir sahədə uşağa himayədarlıq göstərməsi, onu məişət əməyindən, müəyyən qayğılardan uzaqlaşdırmaları aid edilir.
2. Yaşlılaşdırma məqamları-buraya isə müxtəlif məzmunlu zəngin informasiya axını, valideynlərin çoxunun müəyyən işləərdə çalışması sayəsində uşaqlarda təzahür edən erkən müstəqillik yoldaşları ilə ünsiyyətin intensiv inkişafı, fiziki inkişafın və cinsi yetişkənliyin akselerasiyası daxildir.
Bəs nə üçün bu dövr yaş psixologiyasında başqa cür deyil, məhz yeniyetməlik dövrü adlanır? Ona görə ki, həmin dövrdə uşaq şəxsiyyətinin inkişafında bir çox yetkinliklər, dəyişkənliklər, törəmələr baş verir ki, onların sayəsində şagirdin təlim və tərbiyəsində, rəftar və davranışında müxtəlif tipli çətinliklər: şıltaqlıq, inadkarlıq, tənbəllik, kobudluq, qapalılıq, adamdan qaçmaq və bu kimi keyfiyyətlər meydana gəlir, uşağı cəzalandırmaq qətiyyən səmərə vermir, valideyn uşaqla "ümumi dil" tapmaqda çətinlik çəkir. Yeniyetmə get-gedə valideynlərindən "uzaqlaşır", öz qapalı şəxsi həyatını yaşamağa başlayır. Bu yaş dövrü ən tərəddüdlü, ən böhranlı və ən müvazinətsiz dövrüdür.
Yeniyetməlik yaş dövründə uşağın anatomik-fizioloji və psixi inkişafında, iradi-emosional və əqli həyatında nəzərə çarpan ciddi dəyişikliklər baş verir və yetkinliyin üç səviyyəsi özünü göstərir: cinsi, psixoloji və sosial yetkinlik. Yeniyetmənin şəxsiyyət mənasında formalaşması üçün yetkinliyin cinsi, psixoloji və sosial səviyyəsi vəhdətdə, birlikdə inkişaf etməlidir.

II. Yeniyetməlik yaşında "böhran" probleminə dair nəzəriyyələr

Yeniyetməlik dövründə bioloji amilin-cinsi yetişkənliyin üstün rolu haqqında nəzəriyyələrin yaranması XX əsrin 20-ci illərinə təsadüf edir. Biogenetik nəzəriyyənin baniləri sayılan Amerikan psixoloqu Stenli Xoll və Avstriya psixoloqu Ziqmund Freydə görə yeniyetməlik yaşı, ilk növbədə, bioloji amillərlə, o cümlədən cinsi yetişkənliklə şərtlənir. Stenli Xoll passiv pedaqogika tərəfdarı idi: o belə hesab edirdi ki, yeniyetmənin şəxsiyyətində mövcud olan nəyisə dəyişmək, yenidən tərbiyə etmək məqsədyönlü deyil, tamamilə faydasızdır. Onun fikrincə, təbiətin verdiyini dəyişmək olmaz. Lakin elə həmin dövrdə aparılmış bir sıra tədqiqatlarla sübut edildi ki, şəxsiyyətin təşəkkülü heç də təkcə bioloji deyil, sosioloji, psixoloji amillərdən də asılıdır.
Bioloji amillərə üstünlük verən, biogenetik nəzəriyyənin təməlini təşkil edən bu nəzəriyyə ilk dəfə A.S.Makarenkonun çətin tərbiyə olunan yeniyetmələr üzərində apardığı tədqiqatlarla təsbiq olundu. Biogenetik nəzəriyyəyə II zərbəni amerikan etnoqraflarının apardığı tədqiqatlar vurdu.
Amerika etnoqrafı Marqaret Mid insan şəxsiyyətinin formalaşmasına mühitin və ictimai tarixi şəraitin təsirini müəyyənləşdirmək məqsədilə Samoa adasında yaşayan yeniyetmələr üzərində tədqiqat aparmış və aşkar etmişdir ki, qız və oğlanlarda yeniyetməlik dövrünün böhranı heç də bioloji amillərlə deyil, sosioloji amillərlə şərtlənir. Mid eyni zamanda müəyəən etmişdir ki, həmin adanın oğlan və qızları uşaqlıqdan yeniyetməlik dövrünə, böyük yaşa ziddiyyətsiz, konfliktsiz keçir. Özü də

bu dövr yeniyetmənin inkişafında demək olar ki, ən sərbəst dövr hesab olunur. Ancaq qızların yetişgənliyi onları yaşlı adam kimi səciyyələndirən bir göstərici olub bir növ kəbin mərasiminə hazırlığı bildirir. Digər tərəfdən isə bu fizioloji hadisədən sonra qızın yaşlılaq arasında hüquq və vəzifə dairəsi xeyli genişlənir, ona yeni tələblər və hüquqlar verilir. Etnoqrafların tədqiqatları ilə belə bir fakt da təsbit olundu ki, əvvalə, yeniyetməlik dövrünün müddəti, sonra bu vaxt müəyyən böhran, ziddiyyət və ya konfliktlərin mövcudluğu, yaxud olmaması, daha sonra isə uşaqlıqdan yaşlılığa keçidin özü belə uşaq həyatının konkret şərtlərilə müəyyən edilir. Bununla Freydin irəli sürdüyü "Edip kompleksi" haqqındakı nəzəriyyə də iflasa uğradı: çünki insanda təbii olanlar sosial olanlara qarşı qoyula bilməz, ona görə ki, təbii olanın özü elə sosial deməkdir.
Antropoloq Ruf Bendikt uşaqlıqdan yaşlılığa keçidin, daha doğrusu, yeniyetməlik dövrünə keçidin 2 tipini göstərir: 1) fasiləsiz keçid 2) uşağın əvvəllər, uşaqlıq dövründə öyrəndiklərilə böyük rolunu həyata keçirmək üçün lazım olan davranış tərzləri və təsəvvürləri arasında uyğunsuzluğun, uçurumun olduğu keçid. Birinci növ keçiddə uşaq və yaşlıya verilən tələblər qismən uyğun gəlir, bu zaman uşaq böyüklərin davranışı və tələb normalarını tədricən mənimsəyir və böyük, yaşlı statusunu yerinə yetirə bilir. II tipli keçiddə isə uşaq və böyüklərə verilən tələblərdə müəyyən uyğunsuzluq, ayrılıq, keçilməzlik olur. R,Benedik və M,Mid bu keçid tələblərini sənaye cəhətdən yüksək inkişaf etmiş ölkələrə, cəmiyyətə aid edir və burada uşaqlıqdan yaşlılığa keçiddə müəyyən çətinliklərin olduğunu göstərir; nəticədə uşaq formal yetkinliyə malik olsa da, o yaşlı statusunu yerinə yetirə bilmir.
Antropoloqlar yeniyetməlik yaşını uşağın cəmiyyətdə müəyyən mövqe tutmağa doğru getdiyi yol, başqa sözlə desək, bir növ cəmiyyətə daxil olma dövrü hesab edirlər. Bu ideyanı xüsusilə inkişaf etdirən Kurt Levin (ABŞ) göstərir ki, cəmiyyətə nüfuz edən yeniyetmədə uşaqlıq dövrünə məxsus olmayan yeni üstünlüklər əmələ gəlir. Lakin bu üstünlüklər uşaqlıqla yaşlılıq arasında müəyyən bir sədd çəkdiyindən və yeniyetmə uşaq qrupu ilə yaşlı qrupu arasında qaldığından onun inkişafında hər cür ziddiyət və "böhran" baş verir. D.Koulmen bu ideyanı bir qədər inkişaf etdirərək göstərir ki, yaşlılar cəmiyyətində yeniyetmələrin də özünəməxsus cəmiyyəti mövcud olur.
L.S.Vıqotski böhran probleminə tamam başqa cür və orijinal yanaşıb göstərir ki, yaş böhranlarını öyrənərkən iki cəhətə daha çox fikir vermək lazımdır. Əvvəl, şüurda baş verən əsas dəyişiklikləri fərqləndirmək, ikincisi isə, hər yaşda uşaqla mühit arasındakı təkrarolunmaz münasibətlər sistemini təmsil edən inkişafın sosial şəraitini müəyyənləşdirmək zəruridir. Beləliklə, yeniyetməlik dövrünün "böhranları" ictimai həyatın onlara verdiyi konkret sosioloji tələbatı ödəyərkən, yəni inkişaf edən yeniyetmənin böyüklər aləmində müəyyən mövqe tutmaq istədiyi zaman qazanılan xüsusiyyətlərlə, müstəqilliyə artan tələbatla bu müstəqilliyi həyata keçirmək imkanları arasında baş verir.

III. Yeniyetmənin orqanizmində baş verən anatomik-fizioloji dəyişikliklər

Yeniyetmənin fizioloji inkişaf xüsusiyyətlərini nəzərə almadan onun tərbiyyəsini,

böyüklərlə qarşılıqlı münasibətlərini tənzim etmək və həyata keçirmək imkan xaricindədir. Doğrudur, bu fikri bütün yaş dövrlərinə şamil etmək olar, lakin yeniyetməlik dövrü boyun surətlə inkişafı, orqanizmdə gedən maddələr mübadiləsinin yüksəlməsi, daxili sekresiya vəziləri fəaliyyətinin kəskin surətdə güclənməsi və cinsi yetişkənliyin baş verməsilə xarakterizə olunur. Məhz buna görə də yeniyetmənin orqanizmində baş verən fizioloji proseslərin mahiyyətilə yaxından tanış olduqdan sonra onun təlim və tərbiyəsini lazımi istiqamətdə tənzim və idarə etmək mümkündür. Uşaq yeniyetməlik dövrünə qədəm qoyduğu andan onun orqanizmində əsaslı dəyişikliklər baş verir: orqanizmdə maddələr mübadiləsi yüksəlir, bədənin aşağı və yuxarı ətrafları uzununa sürətlə inkişaf edir, hərəkətləri yöndəmsiz, kobud və qaba olur. Uşağın döş qəfəsi və çanağı digər üzvlərin inkişafından geri qalır. Boy o qədər sürətlə inkişaf edir ki, bu bəzən 1 il ərzində 8-10 sm olur.

Yeniyetməlikdə nəzərə çarpan ən mühüm cəhətlərdən biri fiziki inkişafla əlaqədar cinsi yetişkənliyin baş verməsidir. Uşaq orqanizmində bu hadisənin yaranması bir çox hallarda iqlim şəraitindən, bəzi milli-etnoqrafik amillərdən, bəzən də orqanizmin fərdi xüsusiyyətlərindən asılı olur. Cinsi yetişkənlik qızlarda əsasən 11-13, oğlanlarda isə 13-15 yaşda daha intensiv inkişafa başlayır. Cinsi yetişkənlik dövründə onlarda tədricən II cinsi əlamətlər əmələ gəlir: qızlarda döş vəziləri inki.af edir, oğlanların səsi kobudlaşır, əzələ qüvvəsi artır və s. Yeniyetməlikdə bədən çəkiləri, boy artımında ciddi dəyişikliklər ortaya çıxır. Həmçinin ürək də sürətlə inkişaf edir: il ərzində təqribən özünün 4-də biri qədər böyüyür. Ürək böyüdükcə damarlar və ürəyin qanqovma qüvvəsi də böyüyür, çoxalır. Damarların darlığı isə ürəyin fəaliyyətinə müəyyən qədər müqavimət göstərir. Bunun sayəsində də yeniyetmələrdə gənclik hipertoniyası adlanan hal özünü büruzə verir. Bu vəziyyət müvəqqəti xarakter daşıyır. Yeniyetmənin ürək-damar fəaliyyətinə təkcə fiziki cəhətdən ağır yüklər deyil, həm də mənfi emosiyalar da pis təsir göstərir. Yeniyetmənin sinir sistemində əsaslı dəyişikliklər baş verir: qabıq, qabıqaltı sahəyə daha çox ləngidici təsir gpstərmək imkanına "yiyələnir". Lakin cinsi yetişkənlik dövründə qabıqaltı sahədə fəallığın artması diqqəti cəlb edir. Bunun sayəsində yeniyetmələrin rəftar və davranışlarında əsəbilik, hövsələsizlik, səbrsizlik, emosional reaksiyaların davamsızlığı kimi hallar müşahidə olunur. Bu dövrdə beynin ali şöbələri- qabığın alın sahələri də xeyli inkişaf edir, bunun sayəsində yeniyetmənin idrak imkanları xeyli genişlənir-qavrayışın mənalılığı, diqqətin və digər idrak proseslərinin ixtiyariliyi artır.

Yeniyetməlik yaşında daxili sekresiya vəziləri aparıcı rol oynayır: onların hazırladığı hormonlar həm cinsi yetişkənliyi təmin edir, həm də onların təsiri sayəsində bütün orqanlar formalaşır, bu və ya digər cinsə aid olan II cinsi əlamətlər təzahür edir.

Yuxarıda deyilənlərə yekun vuraq: əvvəla eyni bir xronoloji yaşda olan yeniyetmə orqanizminin fizioloji yetkinlik dərəcəsi tamamilə müxtəlif cür ola bilər və bununla əlaqədar da cinsi yetişkənlik həm ayrı-ayrı vaxtlarda başlaya, həm də müxtəlif sürətlə davam edə bilər.

II-si, cinsi yetişkənliyin müxtəlif əlamətləri də ayrı-ayrı yeniyetmələrdə cürbəcür olur. Deyək ki, birində əvvəlcə bədənin sürətli inkişafı nəzərə çarpır, cinsi əlamətlər

isə müşahidə olunmur.
III-sü cinsi yetişkənliyin ayrı-ayrı əlamətlərinin çoxluğuna baxmayaraq, ayrıca götürülmüş bir əlamət tam cinsi yetişkənlik haqda düzgün fikir söyləməyə imkan vermir.

Mövzu 13. Yeniyetmələrdə şəxsiyyətin və idrak proseslərinin inkişafı

Plan:

1. Yeniyetmə şəxsiyyətinin formalaşması xüsusiyyətləri
2. Yeniyetmələrdə yaşlılıq hissinin formalaşması
3. Özünüqiymətləndirmənin formalaşması və mənlik şüurunun inkişafı
4. Yenityetmənin təlim və idrak fəaliyyəti

Ədəbiyyat:

42. Əzimli Q.Ə. Psixi inkişaf və tərbiyənin müasir problemləri. Bakı 2004.
43. Əzimli Q.Ə. Yaş və pedaqoji psixologiyanın müasir problemləri. Bakı 2006.
44. Həmzəyev M.Ə Yaş və pedoqoji psixologiyanın əsasları Bakı 2003.
45. Qədirov Ə.Ə Yaş psixologiyası. Bakı, 2003.
46. Vəliyev M.V., Mustafayev A.M. İnkişaf və yaş psixologiyası. Bakı, 2013.

https://kayzen.az/blog/psixologiya/8184/yeniyetm%C9%99-ya%C5%9F%C4%B1.html

https://www.sencard.com.tr/sen-programi/ailen/ergenlik/ergenlik-doneminin-evreleri-ve-yaklasimlar

I. Yeniyetmə şəxsiyyətinin formalaşması xüsusiyyətləri

Yeniyetməlik dövründə şəxsiyyətin kollektivdəki mövqeyi, eyni zamanda ictimai münasibətlər sistemində tutduğu vəziyyət, əsaslı dəyişikliklərə uğrayır. Belə ki, bu yaşda onlar "kiçik" uşaqdan böyük "uşağa" çevrilir. Yeniyetməlik dövründə uşaqların davranış və rəftarlarında əvvəlki yaş dövrlərində müşahidə edilməyən yeni xüsusiyyətlər özünü göstərməyə başlayır. Bütün bunlar yeniyetmənin şəxsiyyətini kiçik məktəblinin şəxsiyyətindən fərqləndirir. Yeniyetmə yaşında şəxsiyyətin inkişafı, bu sahədə özünü göstərən dəyişikliklər onda yaşlılıq hissinin formalaşması, yeni tip qarşılıqlı münasibətlərin meydana gəlməsi, sərvət meyllərinin təşəkkülü, özünüqiymətləndirmənin formalaşması, Mənlik şüurunun inkişafa başlaması və s. cəhətlər təzahür edir. Yeniyetmə yaşında şəxsiyyətin inkişafı, bu sahədə özünü göstərən dəyişikliklər onda ***yaşlılıq hissinin formalaşması, yeni tip qarşılıqlı münasibətlərin meydana gəlməsi, sərvət meyllərinin təşəkkülü, özünüqiymətləndirmənin formalaşması, mənlik şüurunun inkişafa başlaması*** və s. cəhətlər təzahür edir.
Yeniyetməlik dövründə şəxsiyyətin strukturunda nəzərə çarpan əsaslı dəyişikliklərdən biri,

uşağın özünüdərketməsinin inkişafında keyfiyyətli irəliləyiş baş verməsindən ibarətdir. Psixoloji ədəbiyyatda yeniyeti

mənin özünüdərk etməsində baş verən bu spesifik törəməni, adətən yaşlılıq hissi adlandırırlar.

Fiziki inkişafın akselerasiyası, cinsi yetişkənliyin daha tez baş verməsi uşaqda, yaşlılıq hissinin əvvəlki illərdən fərqli olaraq daha tez əmələ gəlməsinə səbəb olur. Yaşlılıq hissi öz mənşəyinə görə sosial xarakter daşıya bilər.

Yeniyetməlik dövründə nəzərə çarpan mühüm xüsusiyyətlərdən biri də uşağın ***ünsiyyət fəaliyyətinin genişlənməsi, yoldaşları, həmyaşıdları ilə daha çox qarşılıqlı münasibətə*** səy göstərməsidir. Yeniyetmənin yoldaşları ilə ünsiyyəti getdikcə genişlənir və möhkəmlənir. Yeniyetməlik yaşında yoldaşa sadiq qalmaq, düzgünlük və doğruluq, bərabərlik, qarşılıqlı münasibət kimi keyfiyyətlər ön plana keçərək "yoldaşlıq kodeksi" normalarına çevrilir, əxlaqi-etik meyar məzmunu daşıyır. Eyni zamanda yeniyetmə yoldaşlarının iradlarını, tənqidi göstərişləri qəbul edir, həmyaşıdlarının rəy və qiymətləri ilə razılaşır, tədricən özünü dərk edir. Əks təqdirdə isə özünə qeyri-adekvat, həddindən artıq qiymət verən yeniyetmə nüfuzdan düşür, "yoldaşlıq kodeksinin" etik məzmununu təhlil edə bilmir və nəticədə qarşılıqlı münasibətlər pozulur.

Yeniyetmələrin yoldaşlığı tədricən seçici xarakterdə inkişaf edir. Adətən, yeniyetmələr yaxınlıq dərəcəsinə görə yoldaşın üç tipini fərqləndirirlər: sadəcə olaraq yoldaş, yaxın yoldaş və dost seçir, sirdaşını, həmkarını müəyyənləşdirir; seçdiyi dostunu özü ilə müqayisə edir, onu müxtəlif nöqteyi-nəzərdən qiymətləndirir. Bu baxımdan yeniyetmələrdə "oğlan-qız "münasibətləri də formalaşır, onlar bir-birilə maraqlanır, bir-birinin xoşuna gəlməyə cəhd edirlər. Oğlan və qızların qarşılıqlı münasibəti onların bir-birinə tələbkarlığında, qayğı və hörmətində, inam və etibarında ifadə olunaraq kollektivçilik hissinə çevrilir. Lakin yeniyetmə yaşının ayrı-ayrı dövrlərində "oğlan-qız" münasibətlərində fərqli cəhətlər özünü göstərir.

Psixoloji tədqiqatlar göstərmişdir ki, kiçik yeniyetməlik dövründə oğlan və qızların davranışı hələ ambivalent (ikili) xarakter daşıyır: onlar bir tərəfdən, bir-birilə maraqlanır, digər tərəfdən isə xüsusiləşməyə meyl edirlər. Ona görə də bu dövrdə oğlanlar əksər hallarda oğlanlarla, qızlar isə qızlarla oynamağa, oturub-durmağa, yoldaşlıq etməyə meylli olurlar. Hətta qızlar ad gününü keçirəndə oğlanları həmin təntənəli mərasimə, şənliyə dəvət etmirlər. Psixoloqlar bu cəhəti, birinci növbədə, oğlanlarla qızların aralarında cinsi fərqlərin olması ilə əlaqələndirirlər. Oğlanlarla qızların bu cür xüsusiləşmə halları tədricən aradan qalxır, onların arasında qarşılıqlı münasibətlər yenidən əsl yoldaşlıq münasibətinə çevrilir. Hər iki cinsdən olan yeniyetmələr təlim prosesində müxtəlif əxlaqi anlayışlara yiyələndikcə özlərinin yoldaşları qarşısında borcunu və məsuliyyətini daha aydın dərk edirlər. Deyilənlərdən göründüyü kimi, yeniyetməlik dövründə yoldaşları ilə ünsiyyət yeniyetmənin bir şəxsiyyət kimi formalaşmasında həlledici rol oynayır. Onlar bir-birləri üçün nümunəyə çevrilir, bir-birlərinə fəal təsir göstərirlər.

Yeniyetmələrdə yaşlılıq hissinin formalaşması

Yeniyetməlik dövründə diqqəti cəlb edən cəhətlərdən biri də bu dövrdə ***yaşlılıq hissinin*** və meylinin formalaşmasıdır. Yeniyetmənin özünüdərketməsi nəticəsində onun şəxsiyyətində keyfiyyətcə irəliləyiş baş verir. Ona görə də yeniyetmə özünü artıq uşaq deyil, yaşlı hesab edir və onda belə bir tələbat əmələ gəlir ki, ətrafdakılar onlara uşaq kimi deyil, yaşlı adam kimi yanaşsınlar. Bununla əlaqədar olaraq yeniyetmə müstəqilliyə meyl edir. Lakin bu dövrdə uşağın müstəqilliyə artan tələbatı ilə bu müstəqilliyi həyata keçirmək

imkanları arasında ziddiyyət yaranır. Bu cür ziddiyyətin yaranmasında çox vaxt böyüklər xüsusi rol oynayır. Belə ki, böyüklər yeniyetməni hələ də uşaq hesab edir və ona həmin tələblərlə yanaşır. Belə olduqda yeniyetmə bir növ böyüklərə öz etirazını bildirir. Bu zaman böyüklər yeniyetməyə qarşı öz münasibətini dəyişmədikdə uşaq da müxtəlif yolla ona qarşı durur. Bu cür ixtilaf yeniyetmənin sözə baxmamasına, böyüklərə qarşı durması hallarına gətirib çıxarır.

Yeniyetməlik dövründə yaşlılıq hissi və meylinin yaranması və formalaşması müxtəlif amillərin təsiri altında baş verə bilər.
Yaşlılıq hissinin yaranması birinci növbədə uşağın fiziki inkişafındakı dəyişikliklərlə bağlı olur. Uşağın xarici görkəmi böyüklərin xarici görkəminə oxşamağa başlayır. Boyları, gücləri artır. Bu dəyişikliyi görən və özünü böyüklərlə müqayisə edən yeniyetmədə yaşlılıq meyli yaranmağa başlayır.
Yaşlılıq hissinin öz mənşəinə görə sosial xarakter daşıdığını da qeyd edirlər. Yaşlı adamlarla birgə fəaliyyət, onların etimadını qazanmaq uşaqda obyektiv sosial yaşlılıq statusunun yaranmasına, bu da öz növbəsində onun özü haqqında təsəvvürlərinin dəyişməsinə gətirib çıxarır.

Yeniyetmələrdə yaşlılıq hissinin yaranmasında onun düşdüyü referent qrup da müəyyən rol oynayır. Bu qrupda çox vaxt yaşca böyük uşaqların olması və onların yeniyetməni qəbul etməsi yaşlılıq hissini bir daha gücləndirir.
Yaşlılıq hissinin inkişafında yeniyetmənin özü üçün davranış etalonu kimi seçdiyi nümunənin əhəmiyyəti böyükdür. Oğlanların formalaşan kişi idealının məzmununda "əsil kişiyə" xas olan keyfiyyətlər yer tutmağa başlayır. Bu cür keyfiyyətlərə bir tərəfdən qüvvət, iradə, digər tərəfdən dostluğa, yoldaşlığa sədaqət aid olur. Yeniyetmə oğlanlar başqa adamları və özünü qiymətləndirərkən məhz həmin keyfiyyətləri əsas götürürlər.
Yeniyetməlik dövründə qızların da sərvət meylləri əsaslı şəkildə dəyişir. Onların davranış və rəftarlarında qadınlıq haqqındakı etalon və stereotiplər mühüm rol oynamağa başlayır.\

Yeniyetmənin yaşlılarla qarşılıqlı münasibətləri.

Yeniyetmələrdə yaşlılıq hissinin yaranması onun yaşlılarla olan münasibətində müəyyən dəyişikliklərin təzahürünə səbəb olur. Özünü uşaq hesab etməyən yeniyetmə belə arzu edir ki, ona da yaşlılara olan münasibət bəslənilsin. Ona balaca uşaq kimi qəyyumluq edildikdə, nəzarət olunduqda, danlanıldıqda, yaşlılara tabe olmağı tələb etdikdə işlərinə müdaxilə olunduqda yaşlılardan inciyir, öz etirazlarını bildirirlər.

Yaşlılar dərk etməldirilər ki, yeni tipli münasibət qaydalarına keçmək lazımdır. Çalışmalıdır ki, öz münasibətlərini yaşlı-uşaq kimi deyil, yaşlı-yaşlı münasibəti kimi təşkil etsin.Yeniyetmənin müstəqillik, məsuliyyət hissini artırmaq üçün ilk öncə yeniyetməni özünə yaxın köməkçi, məsləhətçi kimi seçə bilər. Bu cür ünsiyyət şəraitində yeniyetmə yaşlılıq hissinə tez yiyələnər. Bununla yanaşı, müəyyən həddi gözləməklə özünün bütün rəftar və davranışlarında uşaq üçün şəxsi nümunəyə çevrilməklə onu öz məşğuliyyət və maraq sahəsinə təhrik edib, faydalı bacarıq və vərdişlərə yiyələndirə bilər.

II. Özünüqiymətləndirmənin formalaşması və mənlik şüurunun inkişafı

Yeniyetmələrin mənlik və əxlaqi şüuru. Kiçik məktəblidən fərqli olaraq yeniyetmədə özünə, öz şəxsi həyatına, şəxsiyyətinin xüsusiyyətlərinə maraq yarandıqda,

özünüqiymətləndirmə tələbatı, özünü başqaları ilə müqayisə etmə meyli əmələ gəlir. Nəticədə yeniyetmə özü üçün öz "mən"ini bir növ kəşf edir. Mənlik şüurunun formalaşmağa başlaması və sonrakı inkişafı yeniyetmənin bütün psixi həyatına, onun təlim fəaliyyətinin xarakterinə, ətrafdakılara münasibətinə öz təsirini göstərir. Yeniyetmənin mənlik şüurunun formalaşması onun öz davranışını, mənəvi keyfiyyətlərini, xarakter və qabiliyyətlərini dərk etməsi ilə başlayır. İlk dövrlərdə yeniyetmənin mənlik şüurunun əsasını başqa adamların mülahizələri təşkil edir. Yaş artdıqca yeniyetmə özünün şəxsiyyətini müstəqil təhlil etməyə və qiymətləndirməyə başlayır.

Bu dövrdə yeniyetmələr öz müstəqilliklərini qoruyub saxlamağa çalışmaqla refleksiya əsasında mənlik şüurlarını, «mən» obrazını, «real» və «ideal mənin» əlaqəsini formalaşdırır və inkişaf etdirirlər.
Bütün bunlarla yanaşı olaraq yeniyetmələrdə özünüqiymətləndirmə və özünəmünasibətin formalaşması baş verir. Mövcud psixoloji ədəbiyyatda yeniyetmələrin özünüqiymətləndirmələrinin aşağıdakı tipspləri qeyd olunur:

Uşağın «özünüqiymətləndirməsi» ananın verdiyi qiymətin birbaşa təkrarı kimi özünü göstərir. Adətən uşaqlar özlərində birinci növbədə valideynlərinin onlar haqqında qeyd etdikləri kefiyyətləri görürlər. Əgər valideynlər tərəfindən neqativ surət təlqin olunur və uşaq bu nöqteyi nəzəri qəbul edirsə, onda özünün yararsızlıq, pislik hissinə üstün gəlməsinə qarşı davamlı neqativ münasibət formalaşır. Uşağın ailədən kənar sosial təmas dairəsinin məhdudluğu valideyninin güclü nüfuzu sayəsində verdiyi qiymət onun üçün yeganə daxili özünüqiymətləndirməsinə çevrilir.
Bu cür özünüqiymətləndirmənin ciddi qüsuru ondan ibarətdir ki, (əgər pozitiv xarakter daşısa belə) ciddi qüsurlarla nəticələnə bilir. Bu zaman uşağın özünə qarşı stabil pozitiv münasibətini təmin edə biləcək daxili şəxsi kriteriyaların yaranmasına mane olur.

2. Ziddiyyətli komponentlərdən ibarət olan ***qarışıq özünüqiymətləndirmə.*** Bu bir tərəfdən müvəffəqiyyətli sosial qarşılıqlı təsir təcrübəsi sayəsində yeniyetmədə formalaşan özünün «mən» obrazı, ikinci tərəfdən, valideynin uşağı necə qiymətləndirməsi ilə bağlı formalaşır. Bu zaman «mən» obrazı ziddiyətli xarakter daşıyır.

Yeniyetmənin yoldaşları ilə ünsiyyəti.

Yeniyetməlik dövründə nəzərə çarpan mühüm xüsusiyyətlərdən biri də uşağın ünsiyyət fəaliyyətinin genişlənməsi, yoldaşları, həmyaşıdları ilə daha çox qarşılıqlı münasibətə səy göstərməsidir. Ünsiyyət fəaliyyəti prosesində yeniyetmə ictimai əxlaqi münasibət formalarını mənimsəyir. Yeniyetmənin həmkarları ilə ünsiyyəti o dərəcədə genişlənir ki, bəzən təlim işi ikinci plana keçir, hətta valideynlərlə ünsiyyət azalır, müstəqillik onların həyatının mühüm sahəsinə çevrilir. Bunu hiss edən ata-ana və müəllim yeniyetmənin belə münasibətinə müdaxilə etdikdə ciddi etirazlara məruz qalırlar. Bu dövrdə yeniyetmənin yoldaşlıq münasibətlərinin tərbiyə olunması valideyn və müəllimlərdən pedaqoji məharət tələb edir.

Yeniyetmənin yoldaşları ilə ünsiyyəti getdikcə genişlənir və möhkəmlənir. Lakin ünsiyyətin pozulması halları baş verdikdə bu, yeniyetməyə böyük sarsıntı gətirir, eyni zamanda yoldaşlarının ona soyuq münasibəti onun üçün ən ağır və dözülməz cəzaya çevrilir. Bu vəziyyət uzun müddət davam etdikdə yeniyetmə məktəbdən kənarda özünə yoldaş axtarır, müxtəlif küçə qruplarına qoşulur və bəzən onda qeyri - əxlaqi xüsusiyyətlər əmələ gəlir. Bu da yeniyetmənin bütöv bir şəxsiyyət kimi formalaşmasına maneçilik törədir.

Yeniyetməlik yaşında yoldaşa sadiq olmaq, düzlük və doğruçuluq, bərabərlik, qarşılıqlı münasibət kimi keyfiyyətlər ön plana keçir. Yoldaş üçün zəruri hesab edilən keyfiyyətlər yeniyetməlik dövründə qarşılıqlı münasibət normasına çevrilir. Eyni zamanda yeniyetmə yoldaşlarının iradlarını, tənqidi göstərişlərini qəbul edir və tədricən özünü dərk edir. Əks təqdirdə isə özünə həddindən artıq qiymət verən yeniyetmə nüfuzdan düşür və nəticədə qarşılıqlı münasibətlər pozulur. Buradan aydın olur ki, yeniyetmələr nəinki özlərinin, həm də yaxın yoldaş və dostlarının nöqsanlarına dözmür, onları islah etməyə çalışırlar. Psixoloji ədəbiyyatda bu cəhətə yüksək qiymət verilərək göstərilir ki, yeniyetmədə başqa adamlara təsir göstərmək cəhdi əmələ gəlir. Bu isə yeniyetmənin həmyaşıdları ilə qarşılıqlı münasibətlərin yeni xarakter kəsb etdiyini göstərir.

Yeniyetmələrin yoldaşlığı tədricən seçici xarakterdə inkişaf edir. Yeniyetmələr yaxınlıq dərəcəsinə görə ***yoldaşın üç tipini*** fərqləndirirlər: ***sadəcə olaraq yoldaş, yaxın yoldaş və şəxsi dost.*** Yeniyetmə əvvəlcə özünə yaxın yoldaş və dost seçir, sirdaşını müəyyənləşdirir. Seçdiyi dostunu özü ilə müqayisə edir, onu müxtəlif nöqteyi-nəzərdən qiymətləndirir. Qeyd etmək lazımdır ki, yeniyetmənin yaşıdları onun həyatında olduqca vacib rol oynayır. Yeniyetmədə baş verən yeni psixi törəmələr onu yaxşı yoldaş, yaxşı dost olmaq, kollektivdə və yaşıdları içərisində mövqe qazanmaq, sayılıb-seçilmək, onların hörmət və etibarını qazanmaq tələbatlarını doğurur. Bir çox yeniyetmələr diqqət mərkəzində olmaq, öz davranışını reallaşdırmaq üçün cəhdlər edir və çox vaxt buna nail olurlar. Belə təzahürlər yeniyetmə üçün özünütanıtma və özünütəsdiq formasına çevrilir.

Yeniyetmələrdə oğlan-qız münasibətləri də formalaşmağa başlayır. Onlar bir-birilə maraqlanır, bir-birinin xoşuna gəlməyə cəhd edirlər. Oğlan və qızların qarşılıqlı münasibəti onların bir-birinə tələbkarlığında, qayğı və hörmətində, inam və etibarında ifadə olunaraq kollektivçilik hissinə çevrilir.

Lakin yeniyetməlik yaşının ayrı-ayrı dövrlərində oğlan və qız münasibətlərində fərqli cəhətlər özünü göstərir. Psixoloji tədqiqatlar göstərir ki, kiçik yeniyetməlik dövründə oğlan və qızlar bir tərəfdən, bir-birilə maraqlanır, digər tərəfdən isə xüsusiləşməyə meyl edirlər. Ona görə də bu dövrdə oğlanlar əksər hallarda oğlanlarla, qızlar isə qızlarla oynamağa, yoldaşlıq etməyə meylli olurlar. Hətta qızlar ad gününü keçirəndə oğlanları həmin təntənəli mərasimə, şənliyə dəvət etmirlər. Psixoloqlar bu cəhəti, birinci növbədə, oğlanlarla qızların aralarında cinsi fərqlərin olması ilə əlaqələndirirlər. Oğlanlarla qızların bu cür xüsusiləşmə halları tədricən aradan qalxır, onların arasında qarşılıqlı münasibətlər yenidən əsl yoldaşlıq münasibətinə çevrilir. Hər iki cinsdən olan yeniyetmələr təlim prosesində müxtəlif əxlaqi anlayışlara yiyələndikcə özlərinin yoldaşları qarşısında borcunu və məsuliyyətini daha aydın dərk edirlər.

Deyilənlərdən göründüyü kimi, yeniyetməlik dövründə yoldaşlarla ünsiyyət yeniyetmənin bir şəxsiyyət kimi formalaşmasında həlledici rol oynayır. Onlar bir-birləri üçün nümunəyə çevrilir, bir-birlərinə fəal təsir göstərirlər.

III. Yenityetmənin təlim və idrak fəaliyyəti

Yeniyetmənin ***təlim fəaliyyətində*** əvvəlki yaş dövrlərindən fərqlənən xüsusiyyətlər müşahidə olunur. Yeniyetmə elmlərin əsaslarına sistemli şəkildə yiyələnməyə başlayır, bu isə onun təlim fəaliyyətində elmi ümumiləşdirmə və mücərrəd məsələləri mənimsəməklə yanaşı, həm də nəzəri təfəkkürün, ixtiyari diqqətin, hafizənin yüksək səviyyədə inkişafını tələb edir. Yeniyetmənin təlim fəaliyyətinin yeni xüsusiyyətlərini səciyyələndirən ən ümdə cəhət təlimdə şagirdin müstəqilliyinin inkişafı ilə əlaqədardır. Yeniyetmə yalnız dərsdə rast gəldiyi yenilikləri mənimsəməklə kifayətlənməyib, biliklərin yeni sahələrini müstəqil surətdə mənimsəməyə çalışır.

Yeniyetməni səciyyələndirən cəhətlərdən biri də **onlarda peşə bacarıq və vərdişlərinin, maraqlarının** təşəkkül etməsidir. Bununla bağlı olaraq, ***təlimdə seçicilik*** nəzərə çarpır, yeniyetmələr dərsləri ***lazımlı və lazımsız qruplara*** ayırırlar. Yeniyetmənin təlim fəaliyyətinın və onun münasibətinin dəyişməsi ilə əlaqədar olaraq onun idrak fəaliyyətinin inkişafı üçün əlverişli şərait yaranır.

İdrak fəaliyyəti

Qavrayışın inkişafı. Bu dövrdə yeniyetmənin qavrayışı hərtərəfli, ardıcıl və seçici xarakter daşıyır, qavrayışın həcmi genişlənir, nə ilə çox maraqlanırsa, onu da yaxşı qavrayır, maraqlanmadığı sahədə qavrayışı səthi olur. ***Zaman, məkan və hərəkət qavrayışı*** nəzərə çarpacaq dərəcədə inkişaf edir.

Hafizənin inkişafı. Yeniyetmənin hafizəsində də yeni ilkin xüsusiyyətlərə təsadüf edilir. Yeniyetmələr ***məntiqi və ixtyari hafizəyə*** üstünlük verirlər. Yeniyetmə hafizəsini tənzim və idarə etməyi bacarır, yaddasaxlamanın səmərəli üsullarından şüurlu surətdə istifadə edir, öyrənəcəyi materialı müqayisə edir, sistemləşdirir, mənasını anlayır, öz sözləri ilə sərbəst nəql edir.

Diqqətin inkişafı. Yeniyetməlik yaşında şagirdlərin diqqətinin inkişafında da müəyyən səciyyəvi xüsusiyyətlər müşahidə olunur. Yeniyetmədə sabit ***ixtiyari diqqətlə yanaşı, diqqətin tez yayılması hallarına*** da təsadüf edilir. Bu xüsusiyyətlər onun iş şəraitindən, keçilən mövzunun məzmunundan, şagirdin dərsə olan münasibətindən, psixi halından, maraqlarından asılıdır.

Təxəyyülün inkişafı. Yeniyetməlik dövründə uşağın ***təxəyyülü,*** xüsusilə də ***yaradıcı təxəyyülü*** xeyli inkişaf edir, hekayə yazmağa, şəkil çəkməyə, müəyyən modellər düzəltməyə başlayırlar.

Yeniyetmənin **iradi-emosional** xüsusiyyətləri daha zəngin olur. Onların hissləri real xarakter daşıyır, yoldaşlıq, dostluq münasibətlərində açıqürəklilik edirlər, sirlərini bir-birlərinə söyləyirlər, bir-birinin daha çox hüsn – rəğbətini qazanmağa can atırlar. Onlarda ***əxlaqi, zehni, estetik hisslər*** sürətlə, hərtərəfli inkişaf edir. Yeniyetmələr əxlaq normalarını və həyat gözəlliklərini qiymətləndirir, ondan zövq alır, insanı valeh edən işlərlə məşğul olurlar.

Yeniyetmələr təlim fəaliyyəti ilə yanaşı, əmək və oyun fəaliyyəti ilə də məşğul olurlar. Onlar süjetli-obrazlı, didaktik-tədris, idman, əyləncəli, kompüter oyunlarını sevir, xüsusilə futbol, şahmat, dama və digər oyunlarla da maraqlanırlar. Yeniyetmələr əmək fəaliyyəti ilə, özünəxidmət əməyi ilə məşğul olur, həmçinin məktəbin həyətyanı sahəsində işləyir, ətraf mühitin yaşıllaşdırılmasında, tətil vaxtlarında valideynlərinə kənd təsərrüfatı işində yardım edir, kommersiya işlərində və s. fəal surətdə iştirak edirlər. Cabbarov R.V. Yeniyetmələrdə özünüdərketmə prosesinin psixoloji təhlili nam. dis., Bakı, 2004.

1. Əliyev B.H., Əliyeva K.R., Cabbarov R.V. Pedaqoji psixologiya. Bakı,2011.
2. Əzimov Q.E. Psixi inkişaf və tərbiyənin müasir problemləri. Bakı, 2004.
3. Vəliyev M.V., Mustafayev A.M. İnkişaf və yaş psixologiyası. Bakı, 2013.
4. Шаповаленко И.В. Возрастная психология. М: Гардарики, 2005.

Mövzu 14. Gənclik yaşının ümumi xarakteriskası

Plan:

1. Gəncliyin sosial-psixoloji xarakteristikası
2. Gənclik dövründə şəxsiyyətin inkişafı
3. Gənclik dövründə ictimai fəallıq və dünyagörüşünün formalaşması
4. Təlim fəaliyyəti, psixi proses və xassələrin inkişafı
5. Gənclərin həyat planları, əmək fəaliyyəti və peşə seçimi

Ədəbiyyat:

47. Əzimli Q.Ə. Psixi inkişaf və tərbiyənin müasir problemləri. Bakı 2004.
48. Əzimli Q.Ə. Yaş və pedaqoji psixologiyanın müasir problemləri. Bakı 2006.
49. Həmzəyev M.Ə Yaş və pedoqoji psixologiyanın əsasları Bakı 2003.
50. Qədirov Ə.Ə Yaş psixologiyası. Bakı, 2003.
51. Vəliyev M.V., Mustafayev A.M. İnkişaf və yaş psixologiyası. Bakı, 2013.

Mövzu ilə bağlı elektorn resurslar

https://kayzen.az/blog/pedaqoq/8185/g%C9%99nclik-ya%C5%9F%C4%B1.html

https://www.tavsiyeediyorum.com/makale_2093.htm

https://studfile.net/preview/5772468/page:15/

I. Gəncliyin sosial-psixoloji xarakteristikası

İnsan ömrünün gənclik çağı-fiziki cəhətdən yetkinliyinin başa çatması, onun özünüdərketməsinin, intellektinin sürətli inkişafı, özünəməxsus yüksək keyfiyyətlərinin, dünyagörüşünün formalaşması, peşə seçmək və yaşlılıq həyatına başlamaq dövrüdür. Gənclik yaşı öz inkişafında, adətən, iki mərhələdən keçir: birinci mərhələ-erken gənclik (15-18 yaş), ikinci mərhələ isə yetkin gənclik (18-25yaş) dövrü adlanır.

Gənclik bioloji, psixoloji, psixoseksual və sosioloji amillərin təsiri altında inkişaf edib formalaşır.

Bioloji baxımdan gəncin orqanizmi təkamül sayəsində fiziki cəhətdən əsaslı surətdə dəyişir, bədən möhkəmlənir, hərəkət, iş qabiliyyəti xeyli inkişaf edir. Ümumiyyətlə, ilk gənclik illərində orqanizmin fiziki inkişafı demək olar ki, əsasən tamamlanır; belə ki, gənclərin boy artımı qızlarda 16-17 yaşda, oğlanlarda isə 17-18 yaşda təxminən böyüklərlə eyni səviyyəyə çatır, 16 yaşlı oğlanların əzələ qüvvəsi 12 yaşdakına nisbətən iki dəfə artır.

Psixoloji baxımdan gənclər artıq öz "Mən"ini, şəxsiyyətini, qüvvəsini, xarici gözəlliyini dərk edir; gümrah, cəsarətli, inamlı olub həyata nikbincəsinə yanaşır, onlarda həyat sevinci, yaşamaq-yaratmaq eşqi, peşə seçmə imkanları özünü daha qabarıq surətdə büruzə verir; idrak fəaliyyəti öz əhatəliliyi, dünyagörüşü isə bir qədər genişliyi ilə fərqlənir.

Gəncliyin **psixoseksual** aspektdə inkişafına gəldikdə, burada cinsi yetişmənin

əsasən tamamlanması, ikinci və üçüncü cinsi əlamətlərə keçid mərkəzi problem olub, mürəkkəb biososial hadisə kimi özünü göstərir. Bu, əlbəttə, heç də bioloji-fizioloji dəyişmələrin nəticəsi olmayıb, həm də bioloji və sosial qüvvələrin qarşılıqlı təsirinin məhsuludur. Kişi və qadın olma, həmin rolu mənimsəmək, ailə həyatı qurmaq, məhəbbət, qadın şərəfini, kişi ləyaqətini qorumaq gənclik yaşında özünü büruzə verən yeni keyfiyyətlərdəndir.Beləliklə, psixoseksual davranışlar, cinsi həvəs, əks cinsə münasibətin dərk olunması, əxlaqi normaların, ailə münasibətlərində fərdi xüsusiyyətlərin qanunauyğun təşəkkülü gəncliyin inkişafının müəyyən mərhələsini təşkil edir.
Sosial aspektdə isə gənclik öz mahiyyəti etibarilə sosiolojiləşib müstəqil və məsuliyyətli fəaliyyətə keçir, gəncin şəxsiyyətinin fərdi-psixoloji mahiyyəti ictimai münasibətlərdən nəşət edir, başqa sözlə desək, o, ictimai münasibətlərin məcmusu kimi, sosioloji varlıq kimi yetişir, həyat hadisələrinə fəal mövqedən yanaşır, vətəndaşlıq statusu qazanır, pasport alır. Erkən gənclik dövründə məktəblilər cəmiyyətdə, ailədə, kollektivdə özünəməxsus yer tutur, onların əsas fəaliyyət növü əmək və təlim olur. Gənclərin bir qismi texniki peşə məktəblərində, texnikumlarda təhsilini davam etdirir, bir qismi istehsalata işləməyə gedir, müəyyən hissəsi ali məktəblərə daxil olur.
Ümumiyyətlə, gənclik dövründə şəxsiyyət biososial-psixoloji varlıq kimi formalaşır, onlarda təşəbbüskar, prinsipial, məsuliyyətli davranış formaları təşəkkül tapır; gənc mürəkkəb intellektual əməliyyatlar aparmağa hazır olur, onun xüsusi qabiliyyətləri sürətlə inkişaf edir. Beləliklə, gənclik dövrü yaşlılıq mərhələsinə keçidin bitməsi, özünüdərketmənin təşəkkülü, sosial-psixoloji varlıq kimi formalaşma-yetişməkdə olan nəslin inkişafında mühüm mərhələni təşkil edir.

II. Gənclik dövründə şəxsiyyətin inkişafı

Gənclik yaşında – gənclərin bu çılğın, coşğun, hərtərəfli inkişafı dövründə onlar bir-birinə qarşılıqlı təsir edir, bir-birini qavrayır, dərk edir, eyni zamanda ünsiyyət dairəsi daha da genişlənir, ailə, valideyn asılılığından müstəqilliyə, özünəxidmətə, özünüidarəyə keçir. Bunlar, gənclərdə sosial keyfiyyətlərin formalaşmasını sürətləndirir. Gənclik çağında şəxsiyyətin bir sıra sosial-psixoloji keyfiyyətləri, xüsusilə ***ideallıq, əxlaqi saflıq, mənəvi zənginlik, fəallıq, işdə prinsipial olmaq, sözlə əməlin uyğunluğu, məqsəd aydınlığı*** və i.a. kimi keyfiyyətlər daha çox nəzərə çarpır və sürətlə formalaşır. Eyni zamanda onlar ideya, əqidə uğrunda mübarizəyə girişir, dünyagörüşlərini müdafiə edirlər.
Gənclik dövründə şəxsiyyəti səciyyələndirən əsas sosial keyfiyyətlərdən biri də əxlaqi saflıqdır. Əxlaqi saflıq gənclərin şəxsiyyətini yalnız öz işinə, əməlinə görə yox, həm də insanlara münasibətinə, qayğıkeşliyinə, həssaslığına görə səciyyələndirir. Beləliklə, insanlara münasibətin təşəkkülü gənclərin şəxsiyyətinin əxlaqi saflığını müəyyən edən əsas meyardır. Gənclərin mühüm keyfiyyətlərindən biri onun fəallığıdır. Fəallıq inteqral xassə olub şəxsiyyətin tələbatlar sistemində, əxlaqi saflığında, mənəvi zənginliyində, münasibətlər kompleksində ifadə olunur.
Sosial keyfiyyətlərin formalaşmasında siyasi-mədəni işlərin, kütləvi tədbirlərin, texniki vasitələrin tərbiyəedici təsirləri, imkanları daha çoxdur. Belə ki, gənclər mədəni kütləvi informasiyalar vasitəsilə dünyada baş verən siyasi hadisələrə, dövrü mətbuata maraq göstərir və aldıqları məlumatlar onların formalaşması işində mühüm

rol oynayır.
Özünüdərketmə və Mənlik şüurunun inkişafı. Gənclik dövründə şəxsiyyətin yeni keyfiyyətləri, xüsusilə də özünü yaşlı adam kimi aparma, özünüdərketmə meylinin daha sürətli inkişafı nəzərə çarpır. Gənclər öz şəxsi mənəvi keyfiyyətlərini, həmçinin davranış, rəftarını, zahiri gözəlliklərini, ağlını sosial-ictimai baxımdan izah edib, bütövlükdə qiymətləndirməklə bərabər, kənar adamların qiymətlərini də başa düşürlər.
Lakin böyük məktəblilər özlərini real qiymətləndirmədikdə onlarda eqosentrizm təhlükəsi yaranır. İlk gənclik dövründə oğlan və qızların özlərinə verdiyi qiymət və başqalarının onları qiymətləndirməsi gənclərdə şəxsi ləyaqət, özünəhörmət hissini formalaşdırıb inkişaf etdirir. Gənclərin özünüqiymətləndirməsini səciyyələndirən xüsusiyyətlərdən biri də cinsi əlamət və keyfiyyətlərinin dərk edilməsidir. Qızlarda qadınlıq, oğlanlarda kişilik etalonları gənclik yaşında sabitləşib şəxsi keyfiyyətə çevrilir.
Əxlaqi şüurun inkişafı. Gənclik yaşında Mənlik şüurunun formalaşması ilə yanaşı, əxlaqi şüur da inkişaf edir. Burada əxlaqi dünyagörüşünün formalaşması əsaslı rol oynayır. Gənclər borc, şərəf, şəxsi qürur hissi, vicdan, təvazökarlıq kimi mürəkkəb əxlaqi kateqoriyaların mahiyyətini dərk edirlər. Lakin tədqiqatlar göstərir ki, onlara rəhbərlik edilmədikdə gənclər bu qəbildən olan müəyyən anlayışların mahiyyətini şərh edərkən səhvlərə, nöqsanlara yol verirlər.
Məktəblilərin sosial keyfiyyətlərinin formalaşmasında yaşlılarla və həmçinin həmkarları ilə **ünsiyyətinin** də rolu az deyildir. Gənclər onlarla ünsiyyət zamanı bir-birinə təsir edir, bir-birini anlayır, informasiya mübadiləsi edirlər, o cümlədən gənclər müəyyən qruplarda birləşib cəmləşir, dostluq qrupları yaradırlar. Gənclərin ünsiyyəti zamanı onların şəxsi-intim münasibətləri də diqqəti cəlb edir. Şəxsi-intim münasibət cavanların öz tələbatını ödəməyə yönəlmiş daxili psixoloji halı olub, beyindən, ürəkdən, qəlbdən gələrək məzmunca müxtəlif formada təzahür edir. Şəxsi-intim münasibətlərə daxildir: **1) Yoldaşlıq; 2) Dostluq; 3) Məhəbbət; 4) Düşmənçilik; 5) Tənhalıq.**
1. Gənclərin ünsiyyət fəaliyyətinin inkişafında yoldaşlıq münasibəti mühüm rol oynayır. Gənclər arzu edirlər ki, yoldaşları, xüsusilə sinif yoldaşları əməksevər, ağıllı, təmkinli, təşkilatçı, nüfuzlu, təşəbbüskar və xeyirxah olsunlar.
2. Gənclik dövründə yoldaşlıq hissi ilə yanaşı, dostluq hissi də inkişaf edib mürəkkəbləşir. Dostluq – gənclərin sədaqəti, etibarı, saf qəlbi, ümumi maraqları, amalı, səmimi, xoş rəftarı ilə səciyyələnir. Gənclər möhkəm, qırılmaz tellərlə bağlı olan dostluqdan məmnun olur, həzz alır və özünü gümrah, inamlı hiss edir.
3. Məhəbbət gənclərin bir-birinə münasibətini, rəğbətini ifadə edən yüksək insani hissdir. Həyatda tərəflərin bir-birinə münasibəti dəyişərək ilk zamanlar gizli, tədricən baxışdan-baxışa, qəlbdən-qəlbə keçərək dərin, səmimi, saf hissə -sirdaşlığa, sevgiyə, eşqə, məhəbbətə çevrilir.
4. Düşmənçilik (ədavət) gənclərdə şəxsiyyətlərarası münasibətlərin pozulması sayəsində baş verir, özü də dostluğun antipodudur (əksidir), kin-küdurət, ədavət ifadə edən psixoloji haldır.
5. Tənhalıq ictimaiyyəti narahat edən, düşündürən ən ciddi problemlərdəndir. İnsan ona qarşı laqeydlik hiss etdikdə, şəxsi məhəbbət uğursuzluğuna düçar olduqda təklik

dünyasını yaşayır və çox vaxt həyatdan bezir, mənəvi sarsıntı keçirir, onda müxtəlif psixi pozğunluq, anormallıq baş verir, qeyri-adilik müşahidə olunur.

III. Gənclik dövründə ictimai fəallıq və dünyagörüşünün formalaşması

Gənclərin sosial fəallığı, həyat mövqeyi strateji əhəmiyyətə malik olub, gələcəyə yönəlməklə səciyyələnir. Onlar artıq özlərinin həyat yolunu seçir, sahibi olacaqları sənəti müəyyənləşdirib gələcək fəaliyyət sahəsinə meyllərini genişləndirirlər. Gənclər daxili və beynəlxalq hadisələrlə sadəcə maraqlanmır, onlar yaxın-uzaq planları barədə fikirləşirlər.

Təcrübə göstərir ki, tədris yükünün hədsiz dərəcədə ağır olmasına baxmayaraq, böyük mıktıblilər ictimai-faydalı əməyə can atır, onun praktik əhəmiyyətini, eləcə də özünü təsdiq vasitəsi rolunu oynamasını dərk edir. Ona gprə də böyük məktəblilət ictimai-faydalı əməyin müxtəlif sahələrində iştirak edirlər.

Gənclərin ictimai fəallığı özünəməxsus psixoloji xüsusiyyətlərə malikdir. Gənclik yaşının romantizmi onları daha böyük işlərdən yapışmağa, hər cür yeni, gərgin əmək, igidlik və qəhrəmanlıq tələb edən işlərə yönəldir. Bütün bunlar yüksək əxlaqi idealların formalaşmasına şərait yaradır.

Gənclərdə qeyri-adiliyə meylin düzgün olmayan istiqamətə yönəlməsi üçün onların tərbiyyəsinə hələ də ehtiyac hiss olunur. Bununçün həmin yaş dövründə gənclərin ətraflı öyrənilməsi, psixoloji xüsusiyyətlərinin müəyyən edilməsi və nəzərə alınması tələb olunur.

Gənclik yaşının səciyyəvi cəhətlərindən biri də **dünyagörüşünün formalaşmasıdır.** Gənclər xarici aləmi dərk etməklə bərabər onu qiymətləndirir, dünyaya özünün münasibətini bildirir, özlərinin xüsusi baxış, əqidə, rəy və münasibətlərini müdafiə edirlər. Beləliklə, getdikcə gənclərdə dünyanın ümumi prinsipini, təbiət və bəşəriyyətin universal qanunlarını dərindən öyrənməyə maraq artır. Gənclərin dünyagörüşünün formalaşmasında yuarı siniflərdə və ali məktəblərdə tədris olunan "İnsan və cəmiyyət" dərsləri və bu qəbildən olan məşğələlər, mühazirələr mühüm rol oynayır. Bunların tədrisi prosesində gənclər təbiət və cəmiyyət haqqında biliklərini, elmi məlumatlarını sistemləşdirir. Onlarda dünyagörüş formalaşdıqca ölkəmizin həyatı və beynəlxalq münasibətləri, elm, idman, incəsənət və s. sahələrlə daha yaxından tanış olmağa cəhd göstərirlər. Gənclərin maraqları nə qədər geniş, zəngin olsa belə bəzən onlarda müəyyən məhdud cəhətlər müşahidə olunur, belə ki, onlar bəzən texniki elmlərə, tocarətə, hüquq elmlərinə üstünlük verir, incəsənəti isə kifayət qədər qiymətləndirmir, xüsusilə də opera sənətinə, təsviri incəsənətə maraqları az olur, lakin yüngül musiqini, caz musiqisini sevirlər. Əlbəttə, belə hallar yalnız göstərilən yaş xüsusiyyətlərinin nəticəsi deyildir. Buna gəncin ailə şərfaiti, təhsil səviyyəsi, ictimai mühit də müəyyən qədər təsir edir.

IV. Təlim fəaliyyəti, psixi proses və xassələrin inkişafı

Gənclik dövründə təlim fəaliyyəti həm məzmun, həm də forma cəhətdən yeni xüsusiyyətlərə malik olub, gənclərə, onun fəallığı və müstəqilliyinə daha yüksək

tələblər verir. Böyük yaşlı məktəblinin təlim fəaliyyəti həyati əhəmiyyətə malik olmaqla şagirdin təlimə münasibətini əsaslı surətdə dəyişdirir. Böyük məktəblilərin təlim fəaliyyəti daha ciddi və dərkolunmuş xarakter daşıyır. Bu yaş dövründə məktəblilərdə müxtəlif bilik sahələrinə aid aydın şəkildə ifadə olunan seçici münasibət təzahür etməyə başlayır. Burada, birinci növbədə, peşə marağı, peşə yönümünün təsiri özünü göstərir. Məhz buna görə də böyük məktəblilər çox vaxt bir fənnə ciddi yanaşdıqları halda, digərinə əhəmiyyət vermirlər. Ümumiyyətlə, gənclərin təlim fəaliyyəti çoxcəhətli, mürəkkəb olub öyrədən (müəllim) öyrənənə (şagirdə) nisbətən üstünlük təşkil edir, mövqe və rol bərabərliyinə istinad olunmur, lakin pedaqoji işdə subyekt-subyekt tipli münasibətlər tərəflərə görə (müəllim-şagird) sabitləşir.Bu prosesdə gənclərin mənəvi aləmi zənginləşir, kamilləşir, onun dünyagörüşü, intellektual keyfiyyətləri ön plana keçir, həm də onlar bütün cəmiyyət qarşısında məsuliyyət daşıyır.

Böyük məktəb dövründə**idrak prosesləri** yeni keyfiyyətlər kəsb edir, xüsusilə qavrayış, diqqət, hafizə, təxəyyül, təfəkkür əsaslı surətdə dəyişib inkişaf edir. Bu dövrdə qavrayışın seçiciliyi, mənalılığı özünü daha qabarıq şəkildə büruzə verir; **məkan, zaman, hərəkət** qavrayışı, müşahidəçilik daha da dəqiqləşir, qarşıya məqsəd qoymaq, qavrayış prosesini məqsədə tabe etmək, planlaşdırma və s. geniş, hərtərəfli xarakter alır

Gənclərin ***diqqət***i təlim prosesindən asılıq olaraq inkişaf edir və **ixtiyari** xarakterə malik olur. Onların tədris materialları, ev tapşırıqları ixtiyari diqqətin həcmini genişləndirir, davamlılığını, mərkəzləşməsini inkişaf etdirir. Gənclik yaşında ***hafizə*** məhsuldar olur. Bu dövrdə anlama, mənalı yadda saxlama üstenlek təşkil edir . Peşə hafizəsi formalaşır.

Erkən gənclik yaşı — **əqli qabiliyyətlərin inkişafının** mühüm mərhələsidir. Bu nöqteyi-nəzərdən onların təfəkküründə əsaslı yüksəliş baş verir. Erkən gənclərin ***təfəkkürü*** özünün ardıcıllığı, genişliyi, daha çox **nəzəri, mücərrəd, tənqidi** xarakteri ilə səciyyələnir. Onlarda nəzəri, mücərrəd, məntiqi və bədii təfəkkür üstünlük qazanır. Erkən gənclik yaşı dövründə şagirdlərdə fikrin müstəqilliyi özünü daha qabarıq şəkildə göstərir. Onlar gündəlik həyatlarında qarşılaşdıqları hadisələri, faktları, əhvalatları öz keçmiş biliklərinə əsaslanaraq müstəqil şəkildə başa düşməyə, dərk etməyə can atırlar.

Gənclərin müxtəlif yaradıclıq sahəsinə -ədəbiyyata, incəsənətə, musiqiyə, teatra, texnikaya marağı artır, bu da onlarda **yaradıcı təxəyyülü** inkişaf etdirir, öz təxəyyül fəaliyyətinə nəzarət etməyə imkan verir.

Erkən gənclik yaşında idrak prosesləri ilə yanaşı, **iradi-emosional cəhətlər, psixi xassələr** daha sürətlə formalaşır, əxlaqi-siyasi, əqli və estetik hisslər, o cümlədən kollektivçilik, insanpərvərlik, əməksevərlik, zəhmətdən həzz almaq, iftixar, məsuliyyət, borc hissləri, özünə və başqalarına, cisim və hadisələrə münasibət daha intensiv inkişaf edib formalaşır. Bu dövrdə gənclərdə təşəbbüskarlıq, mütəşəkkillik, müstəqillik, qətiyyət, təkidlilik, işgüzarlılıq, cəsarətlilik kimi iradi keyfiyyətlər sürətlə inkişaf edir, təkmilləşir və davamlı xarakter daşıyır. Bu yaşda musiqi, incəsənət sahəsində, əmək prosesində, habelə əqli və fiziki qüvvələrini güclü şəkildə nümayiş etdirmək, fəaliyyət zamanı daha çox müstəqillik göstərmək və digər xüsusiyyətlər özünü büruzə verir.

Erkən gənclik dövründə ədəbi-bədii fəaliyyətlə bağlı xüsusi qabiliyyətlər-müşahidəçilik, poetik qavrama, hissi- hərəki hafizə, yaradıcı təxəyyül, obrazlı təfəkkür, zəngin lüğət ehtiyatı, ifadəlilik özünü göstərir.

V. Gənclərin həyat planları, əmək fəaliyyəti və peşə seçimi

Hər bir insanın həyatında peşə fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Hələ valideynləri kiçik yaşlardan başlayaraq uşaqların gələcəkdə hansı peşə dalınca getmələri haqda fikirləşir, onların gələcək talelərini düşünürlər. Məktəbdə təhsil və onun səviyyəsi, fənlərə seçici münasibət peşə seçimində zəruri faktor kimi inkişaf edir. Uşaqların nəyə maraq göstərməsi, hansı sahədə qabiliyyətlərinin olması da əsas götürülür. Yeniyetməlik dövründə peşə seçimi emosional çalarlarla biruzə verir. "Mən həkim, yaxud müəllim olacağam" fikrini özünəməxsus halda izah edirlər. IX sinifdən sonra bir qrup məktəblidə peşə seçimi aktual xarakter kəsb edir. Orta ümumtəhsil məktəbini bitirənlərdən peşəni təsadüfi seçənlər də olur. Peşəni düzgün seçmək onların gələcək talelərini həll edir. "Kim olmalı?" sualı onları hər an düşündürür, narahat edir. Peşə seçimində gənclərin fərdi-psixoloji xüsusiyyətləri nəzərə alınmalıdır. Bizə elə gəlir ki, böyük məktəblilərin aşağıda göstərilən temperament tiplərinə uyğun peşə seçimi etməsi həyatda, istehsalatda və cəmiyyətdə onların lazımi uğur qazanmasına səbəb ola bilər:

1. **Sanqviniklər** — menecer, müəllim, həkim, sürücü, dispetçer, pilot, tibb bacısı, psixoloq, tərbiyəçi, təşkilatçı, satıcı, ofisiant və s.;
2. **Xoleriklər** — kaskadçı (sirkdə atdan hoppanma, atdan düşmə üsulu), peşəkar idmançı, televiziya müxbiri, artist, diplomat, jurnalist, djey, sahibkar və s.;
3. **Fleqmatiklər** — mühasib, iqtisadçı, mexanik, elektrik, mühəndis, aqronom, sürücü, botanik, astronom, fizik, riyaziyyatçı və s.;
4. **Melanxoliklər** — incəsənət xadimi, rəssam, dərzi-modelyer, rəngsaz, şəkillərin surətini çıxaran, bəstəkar, yazıçı, baytar həkim, geoloq, aqranom, zootexnik, mühasib, maşın ustası, çilingər, xarrat, radiomexanik və s. peşələrini seçməsi tövsiyə olunur.

Bu keyfiyyətlər nəzərə alınarsa, seçilmiş peşə sahəsində uğur qazanmaq olar. Bu zaman peşənin normativ səviyyəsi, psixoloji keyfiyyətləri və xüsusiyyətləri, fəaliyyət üçün zəruri keyfiyyətləri nəzərə alınmalıdır.
Peşədə insanın sosial rolu (statusu), kollektivə uyğunlaşması (adaptasiyası) vacibdir. Peşə adaptasiyasında şəxsin sosiallaşması və sosial identikliyi prosesi baş verir. Peşə situasiyaları dəyişdikdə yeni psixoloji keyfiyyətlər də formalaşır, şəxsiyyətin strukturunda əsaslı dəyişiklik yaranır.
Yeni tələblər üzə çıxır: " Peşə — ailə — sosial-iqtisadi şərait".
Hər bir insanda yeni normativ yanaşma, hadisə baş verir. Ali məktəbə qəbul, onun rejim qaydalarına, normalarına əməl etmə, müəyyən çətinliklər, yüksəlmə, formalaşmaya xidmət edən normalar və s. buna misaldır. Bəzən əksinə olur. Normalara əməl etməyənlər cəzalanır, qovulur və s. İnsanın peşə fəaliyyətində, həyatında kritik məqamlar, böhranlar da yaşanır. Bir neçə il işləməsinə baxmayaraq uyğunlaşa bilmir, peşə ilə xarakteri uzlaşmır. Lakin özü istəyərək peşəni seçibsə, burada uzun müddət işləyirsə, onda peşəkarlıq keyfiyyətləri formalaşır. Bu da məhsuldar fəaliyyətlə nəticələnir. Bizim cəmiyyətimizdə insanların təqaüdə (pensiyaya) çıxması ilə əlaqədar psixoloji problemlər yaranır. İnsanın sosial-iqtisadi həyatı dəyişir, həyatının, fəaliyyətinin rejim qaydaları dəyişir, sosial münasibətləri dəyişir, bu da təbii olaraq psixoloji çətinliklər yaradır. Bunlara psixoloji kömək və yardım lazımdır.

Peşə psixologiyasının predmetini şəxsiyyətin inkişafının peşə mexanizmləri, qanunauyğunluqları və psixoloji xüsusiyyətlərini öyrənmək təşkil edir. Peşə psixologiyası tətbiqi psixologiyanın sahələrindən biri olaraq şəxsiyyətin peşə fəaliyyətini, onun peşə maraqlarını, niyyətlərini, peşə seçməsinin qanunauyğunluqlarının formalaşması xüsusiyyətlərini, habelə şəxsiyyətin peşəyə yararsızlığının xüsusiyyətlərini öyrənir. Psixologiyanın tətbiqi sahələri olan – mühəndislik psixologiyası, pedaqoji psixologiya və yaş psixologiyası ilə sıx əlaqədardır.

Yer üzündə 40 mindən çox peşə vardır. Hər bir peşənin isə özünəməxsus xüsusiyyətləri diqqəti cəlb edir. Peşə seçiminin, yaxud peşə oriyentasiyasının elmi prinsipləri müəyyən edilmişdir:

1) Şüurluluq prinsipi — Peşəni daha yaxşı və dərindən bilməkdir. Hansı psixofizioloji tələbləri vardır? Nə kimi əhəmiyyəti vardır? Perspektivi necədir?

2) Müstəqillik prinsipi — Yəni, məsləhətlərlə yanaşı, məktəblinin müstəqil olaraq peşə seçməsidir. Məktəblərə pedaqoji kollektiv rəhbərlik etməlidir.

3) Peşənin azad, sərbəst seçilməsi — İnsan öz fərdi–psixoloji keyfiyyətlərinə uyğun cəmiyyətin marağını əsas götürərək peşə seçir. Lakin bu seçim kortəbii xarakter daşımır. Peşənin ağırlığını, çətinliyini nəzərə almalıdırlar.

Bu prinsiplər gəncləri düzgün peşəyə istiqamətləndirir. **Peşə oriyentasiyasının təşkilinin diaqnostik və tərbiyəvi aspektləri müəyyən edilmişdir:**

I. Diaqnostik aspekt. Şəxsiyyət keyfiyyətlərinin əməyin növlərinə, peşəyə yönəlməsidir. Burada pedaqoji müşahidə: əmək məhsullarının toplanması və təhlili, inşa yazıları, uşaqların məktəbdə hərəkətlərinin təhlili, ictimai yerlərdə söhbət-intervyu, xarakteristikaların ümumiləşdirilməsi, statistik metod, test, pedaqoji eksperiment variantlarından istifadə olunur. Diaqnostik aspekt daima prosesin gedişində ifadə olunur.

II.Tərbiyəvi aspekt – diaqnostik aspektlə əlaqədardır. Peşə maraqları, niyyətləri, motivləri tərbiyəvi xarakter daşıyır.

Peşə seçmə yaradıcı fəaliyyətdir.

Məşhur rus psixoloqu L.S.Vıqotski deyirdi ki, bu proses uşaqlıq illərindən başlayır, yeni hərəkətlər, yeni obrazlar yaradır. Peşəni vaxtında düzgün seçmək lazımdır, sonra hər şey gec olur. **Peşə seçmədə bir sıra tədbirlər həyata keçirilməlidir:**

1. Məktəblilərdə peşə və onun əhəmiyyəti haqqında söhbətlər aparmalıdır.
2. Peşə texniki məktəblərə, iş yerlərinə ekskursiyalar təşkil olunmalıdır.
3. Peşə məktəblərinin həyatından, fəaliyyətindən kinofilmlər göstərilməlidir.
4. Məktəblərdə yüksək peşəkarlıq göstərən işçilərin əmək fəaliyyətini səciyyələndirən sərgi düzəldilməlidir.
5. Görüşlər təşkil olunmalıdır.
6. Peşə məktəb məzunları, qabaqcıl əmək adamları, əmək qəhrəmanları ilə, qabaqcıl müəllim və alimlərlə, sənət adamları ilə görüşlər təşkil olunmalıdır.
7. Peşə komissiyaları təşkil olunmalıdır

Komissiyanın işində müvafiq mütəxəssislər iştirak etməlidirlər. Bildiyimiz kimi, latın sözü olan professio–sözündən götürülərək–ixtisas, peşə deməkdir. Peşə-əmək fəaliyyəti növü olmaqla insanın bilik, bacarıq və vərdişlərlə müəyyən fəaliyyət sahəsinə hazırlığı prosesidir. Peşə insan cəmiyyətində yaranmışdır. Texniki

tərəqqinin inkişafından asılı olaraq peşələrin xarakteri dəyişmişdir. Peşə psixologiyasının görkəmli tədqiqatçısı **prof. E.A.Klimov peşələri insan əməyinin predmeti olmaqla 5 tipə bölür:**

1. "İnsan – insan " – əmək predmeti insandır (məs: müəllim, həkim və s.)
2. "İnsan — texnika"- əməyin predmeti maşın, dəzgah, apparat, alət və s (məs: traktorist-mexanizator, elektrovoz maşinisti və s.)
3. "İnsan-təbiət"– əməyin predmeti torpaq, su, heyvan (geoloq, çöl işçisi, heyvandar, zootexnik və s.)
4. "İnsan–tanış sistem"-predmeti şərti işarələri, formullar, söz (məsələn: mühasib, korrektor, proqramçı, stenoqrafist, makinaçı və s.)
5. "İnsan–bədii obraz". Əməyin predmeti–bədii obraz, obrazın elementləri (məs: zərgər, suvaqçı,aktyor, rəssam)

Göstərilən tiplər də özlüyündə yarım tiplərə bölünür. Şagirdlərin peşə seçimini müxtəlif metodların tətbiqi vasitəsilə öyrənirlər. Həmin metodlara aşağıdakılar daxildir:

1. Müşahidə
2. Sənədlərin təhlili
3. Praktik əməyin təhlili (məktəb, ictimai rəy)
4. Anketləşdirmə
5. Söhbət-intervyu
6. Pedoqoji eksperiment–təbii müşahidə, söhbət, formalaşdırıcı və öyrədici eksperiment metodlarından istifadə olunur.

Psixoloqlar **peşə seçmənin** bir sıra komponentlərini (ünsürlərini) də müəyyən etmişlər:

1. Peşə maarifləndirmə işi sistemli halda aparılmalıdır. Peşələr haqqında, onun əhəmiyyəti, cəmiyyətdə yeri, xeyri, əraziyə yaxınlığı və s. izah olunmalıdır.
2. Peşə məsləhəti – mühüm komponent kimi diqqəti cəlb edir. Peşə istiqaməti, maraqları formalaşır. Peşə məsləhəti–məlumatlı, pedaqoji-psixoloji xarakteri, şəraitin yaradılması, peşənin insanın ürəyincə olması və s. amillər peşəyə adaptasiyanı stimullaşdırır.

Beləliklə, böyük məktəblilərin peşə seçmələrinə diqqət və qayğı göstərmək, onları bu istiqamətdə hazırlamaq zəruridir.
Psixoloji Məsləhət mərkəzinin rəhbəri.

Mənbə:

1. Əliyev B.H., Əliyeva K.R.,Cabbarov R.V. Pedaqoji psixologiya. Bakı 2011.
2. Əzimov Q.E. Psixi inkişaf və tərbiyənin müasir problemləri. Bakı, 2004.
3. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı 2003.
4. Qədirov Ə.Ə. Yaş psixologiyası. Bakı, 2003.
5. Vəliyev M.V., Mustafayev A.M. İnkişaf və yaş psixologiyası. Bakı, 2013.
6. Шаповаленко И.В. Возрастная психология. М: Гардарики, 2005.

Mövzu 15. Böyük məktəblilərdə təlim fəaliyyəti və idrak proseslərinin inkişafı

Plan:

1. Böyük məktəblilərdə təlim fəaliyyəti
2. Böyük məktəblilərdə idrak proseslərinin inkişafı
3. Gənclərin həyat planları, əmək fəaliyyəti və peşə seçimi

Ədəbiyyat:

52.Əzimli Q.Ə. Psixi inkişaf və tərbiyənin müasir problemləri. Bakı 2004.
53.Əzimli Q.Ə. Yaş və pedaqoji psixologiyanın müasir problemləri. Bakı 2006.
54.Həmzəyev M.Ə Yaş və pedoqoji psixologiyanın əsasları Bakı 2003.
55.Qədirov Ə.Ə Yaş psixologiyası. Bakı, 2003.
56.Vəliyev M.V., Mustafayev A.M. İnkişaf və yaş psixologiyası. Bakı, 2013.

***1.*Gənclik dövründə təlim fəaliyyəti**

Gənclik dövründə təlim fəaliyyəti həm məzmun, həm də forma cəhətdən yeni xüsusiyyətlərə malik olub, gənclərə, onun fəallığı və müstəqilliyinə daha yüksək tələblər verir. Böyük yaşlı məktəblinin təlim fəaliyyəti həyati əhəmiyyətə malik olmaqla şagirdin təlimə münasibətini əsaslı surətdə dəyişdirir. Böyük məktəblilərin təlim fəaliyyəti daha ciddi və dərkolunmuş xarakter daşıyır. Bu yaş dövründə məktəblilərdə müxtəlif bilik sahələrinə aid aydın şəkildə ifadə olunan seçici münasibət təzahür etməyə başlayır. Burada, birinci növbədə, peşə marağı, peşə yönümünün təsiri özünü göstərir. Məhz buna görə də böyük məktəblilər çox vaxt bir fənnə ciddi yanaşdıqları halda, digərinə əhəmiyyət vermirlər. Ümumiyyətlə, gənclərin təlim fəaliyyəti çoxcəhətli, mürəkkəb olub öyrədən (müəllim) öyrənənə (şagirdə) nisbətən üstünlük təşkil edir, mövqe və rol bərabərliyinə istinad olunmur, lakin pedaqoji işdə subyekt-subyekt tipli münasibətlər tərəflərə görə (müəllim-şagird) sabitləşir.Bu prosesdə gənclərin mənəvi aləmi zənginləşir, kamilləşir, onun dünyagörüşü, intellektual keyfiyyətləri ön plana keçir, həm də onlar bütün cəmiyyət qarşısında məsuliyyət daşıyır.

2. **Böyük məktəb dövründə idrak prosesləri**

Böyük məktəb dövründə **idrak prosesləri** yeni keyfiyyətlər kəsb edir, xüsusilə qavrayış, diqqət, hafizə, təxəyyül, təfəkkür əsaslı surətdə dəyişib inkişaf edir. Bu dövrdə qavrayışın seçiciliyi, mənalılığı özünü daha qabarıq şəkildə büruzə verir; məkan, zaman, hərəkət qavrayışı, müşahidəçilik daha da dəqiqləşir, qarşıya məqsəd qoymaq, qavrayış prosesini məqsədə tabe etmək, planlaşdırma və s. geniş, hərtərəfli xarakter alır.

Erkən gənclik yaşı — **əqli qabiliyyətlərin inkişafının** mühüm mərhələsidir. Bu nöqteyi-nəzərdən onların təfəkküründə əsaslı yüksəliş baş verir. Erkən gənclərin təfəkkürü özünün ardıcıllığı, genişliyi, daha çox nəzəri, mücərrəd, tənqidi xarakteri ilə səciyyələnir. Erkən gənclik yaşı dövründə şagirdlərdə fikrin müstəqilliyi özünü daha qabarıq şəkildə göstərir. Onlar gündəlik həyatlarında qarşılaşdıqları hadisələri, faktları, əhvalatları öz keçmiş biliklərinə əsaslanaraq müstəqil şəkildə başa düşməyə, dərk etməyə can atırlar.

Erkən gənclik yaşında idrak prosesləri ilə yanaşı, **iradi-emosional cəhətlər, psixi xassələr** daha sürətlə formalaşır, əxlaqi-siyasi, əqli və estetik hisslər, o cümlədən kollektivçilik, insanpərvərlik, əməksevərlik, zəhmətdən həzz almaq, iftixar, məsuliyyət, borc hissləri, özünə və başqalarına, cisim və hadisələrə münasibət daha intensiv inkişaf edib formalaşır. Bu dövrdə gənclərdə təşəbbüskarlıq, mütəşəkkillik, müstəqillik, qətiyyət, təkidlilik, işgüzarlılıq, cəsarətlilik kimi iradi keyfiyyətlər sürətlə inkişaf edir, təkmilləşir və davamlı xarakter daşıyır. Bu yaşda musiqi, incəsənət sahəsində, əmək prosesində, habelə əqli və fiziki qüvvələrini güclü şəkildə nümayiş etdirmək, fəaliyyət zamanı daha çox müstəqillik göstərmək və digər xüsusiyyətlər özünü büruzə verir.

Erkən gənclik dövründə ədəbi-bədii fəaliyyətlə bağlı xüsusi qabiliyyətlər-müşahidəçilik, poetik qavrama, hissi- hərəki hafizə, yaradıcı təxəyyül, obrazlı təfəkkür, zəngin lüğət ehtiyatı, ifadəlilik özünü göstərir.

Hər bir insanın həyatında peşə fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Hələ valideynləri kiçik yaşlardan başlayaraq uşaqların gələcəkdə hansı peşə dalınca getmələri haqda fikirləşir, onların gələcək talelərini düşünürlər. Məktəbdə təhsil və onun səviyyəsi, fənlərə seçici münasibət peşə seçimində zəruri faktor kimi inkişaf edir. Uşaqların nəyə maraq göstərməsi, hansı sahədə qabiliyyətlərinin olması da əsas götürülür. Yeniyetməlik dövründə peşə seçimi emosional çalarlarla biruzə verir. “Mən həkim, yaxud müəllim olacağam” fikrini özünəməxsus halda izah edirlər. IX sinifdən sonra bir qrup məktəblidə peşə seçimi aktual xarakter kəsb edir. Orta ümumtəhsil məktəbini bitirənlərdən peşəni təsadüfi seçənlər də olur. Peşəni düzgün seçmək onların gələcək talelərini həll edir. “Kim olmalı?” sualı onları hər an düşündürür, narahat edir. Peşə seçimində gənclərin fərdi-psixoloji xüsusiyyətləri nəzərə alınmalıdır. Bizə elə gəlir ki, böyük məktəblilərin aşağıda göstərilən temperament tiplərinə uyğun peşə seçimi etməsi həyatda, istehsalatda və cəmiyyətdə onların lazımi uğur qazanmasına səbəb ola bilər:

1. **Sanqviniklər** — menecer, müəllim, həkim, sürücü, dispetçer, pilot, tibb bacısı, psixoloq, tərbiyəçi, təşkilatçı, satıcı, ofisiant və s.;
2. **Xoleriklər** — kaskadçı (sirkdə atdan hoppanma, atdan düşmə üsulu), peşəkar idmançı, televiziya müxbiri, artist, diplomat, jurnalist, djey, sahibkar və s.;
3. **Fleqmatiklər** — mühasib, iqtisadçı, mexanik, elektrik, mühəndis, aqronom, sürücü, botanik, astronom, fizik, riyaziyyatçı və s.;
4. **Melanxoliklər** — incəsənət xadimi, rəssam, dərzi-modelyer, rəngsaz, şəkillərin surətini çıxaran, bəstəkar, yazıçı, baytar həkim, geoloq, aqranom, zootexnik, mühasib, maşın ustası, çilingər, xarrat, radiomexanik və s. peşələrini seçməsi tövsiyə olunur.

Bu keyfiyyətlər nəzərə alınarsa, seçilmiş peşə sahəsində uğur qazanmaq olar. Bu zaman peşənin normativ səviyyəsi, psixoloji keyfiyyətləri və xüsusiyyətləri, fəaliyyət üçün zəruri keyfiyyətləri nəzərə alınmalıdır.
Peşədə insanın sosial rolu (statusu), kollektivə uyğunlaşması (adaptasiyası) vacibdir. Peşə adaptasiyasında şəxsin sosiallaşması və sosial identikliyi prosesi baş verir. Peşə situasiyaları dəyişdikdə yeni psixoloji keyfiyyətlər də formalaşır, şəxsiyyətin strukturunda əsaslı dəyişiklik yaranır.
Yeni tələblər üzə çıxır: " Peşə — ailə — sosial-iqtisadi şərait".
Hər bir insanda yeni normativ yanaşma, hadisə baş verir. Ali məktəbə qəbul, onun rejim qaydalarına, normalarına əməl etmə, müəyyən çətinliklər, yüksəlmə, formalaşmaya xidmət edən normalar və s. buna misaldır. Bəzən əksinə olur. Normalara əməl etməyənlər cəzalanır, qovulur və s. İnsanın peşə fəaliyyətində, həyatında kritik məqamlar, böhranlar da yaşanır. Bir neçə il işləməsinə baxmayaraq uyğunlaşa bilmir, peşə ilə xarakteri uzlaşmır. Lakin özü istəyərək peşəni seçibsə, burada uzun müddət işləyirsə, onda peşəkarlıq keyfiyyətləri formalaşır. Bu da məhsuldar fəaliyyətlə nəticələnir. Bizim cəmiyyətimizdə insanların təqaüdə (pensiyaya) çıxması ilə əlaqədar psixoloji problemlər yaranır. İnsanın sosial-iqtisadi həyatı dəyişir, həyatının, fəaliyyətinin rejim qaydaları dəyişir, sosial münasibətləri dəyişir, bu da təbii olaraq psixoloji çətinliklər yaradır. Bunlara psixoloji kömək və yardım lazımdır.
Peşə psixologiyasının predmetini şəxsiyyətin inkişafının peşə mexanizmləri, qanunauyğunluqları və psixoloji xüsusiyyətlərini öyrənmək təşkil edir. Peşə psixologiyası tətbiqi psixologiyanın sahələrindən biri olaraq şəxsiyyətin peşə fəaliyyətini, onun peşə maraqlarını, niyyətlərini, peşə seçməsinin qanunauyğunluqlarının formalaşması xüsusiyyətlərini, habelə şəxsiyyətin peşəyə yararsızlığının xüsusiyyətlərini öyrənir. Psixologiyanın tətbiqi sahələri olan – mühəndislik psixologiyası, pedaqoji psixologiya və yaş psixologiyası ilə sıx əlaqədardır.
Yer üzündə 40 mindən çox peşə vardır. Hər bir peşənin isə özünəməxsus xüsusiyyətləri diqqəti cəlb edir. Peşə seçiminin, yaxud peşə oriyentasiyasının elmi prinsipləri müəyyən edilmişdir:
1) Şüurluluq prinsipi — Peşəni daha yaxşı və dərindən bilməkdir. Hansı psixofizioloji tələbləri vardır? Nə kimi əhəmiyyəti vardır? Perspektivi necədir?
2) Müstəqillik prinsipi — Yəni, məsləhətlərlə yanaşı, məktəblinin müstəqil olaraq peşə seçməsidir. Məktəblərə pedaqoji kollektiv rəhbərlik etməlidir.
3) Peşənin azad, sərbəst seçilməsi — İnsan öz fərdi–psixoloji keyfiyyətlərinə uyğun cəmiyyətin marağını əsas götürərək peşə seçir. Lakin bu seçim kortəbii xarakter daşımır. Peşənin ağırlığını, çətinliyini nəzərə almalıdırlar.
Bu prinsiplər gəncləri düzgün peşəyə istiqamətləndirir. **Peşə oriyentasiyasının təşkilinin diaqnostik və tərbiyəvi aspektləri müəyyən edilmişdir:**
I. Diaqnostik aspekt. Şəxsiyyət keyfiyyətlərinin əməyin növlərinə, peşəyə yönəlməsidir. Burada pedaqoji müşahidə: əmək məhsullarının toplanması və təhlili, inşa yazıları, uşaqların məktəbdə hərəkətlərinin təhlili, ictimai yerlərdə söhbət-intervyu, xarakteristikaların ümumiləşdirilməsi, statistik metod, test, pedaqoji eksperiment variantlarından istifadə olunur. Diaqnostik aspekt daima prosesin

gedişində ifadə olunur.
II.Tərbiyəvi aspekt – diaqnostik aspektlə əlaqədardır. Peşə maraqları, niyyətləri, motivləri tərbiyəvi xarakter daşıyır.
Peşə seçmə yaradıcı fəaliyyətdir.
Məşhur rus psixoloqu L.S.Vıqotski deyirdi ki, bu proses uşaqlıq illərindən başlayır, yeni hərəkətlər, yeni obrazlar yaradır. Peşəni vaxtında düzgün seçmək lazımdır, sonra hər şey gec olur. **Peşə seçmədə bir sıra tədbirlər həyata keçirilməlidir:**

1. Məktəblilərdə peşə və onun əhəmiyyəti haqqında söhbətlər aparmalıdır.
2. Peşə texniki məktəblərə, iş yerlərinə ekskursiyalar təşkil olunmalıdır.
3. Peşə məktəblərinin həyatından, fəaliyyətindən kinofilmlər göstərilməlidir.
4. Məktəblərdə yüksək peşəkarlıq göstərən işçilərin əmək fəaliyyətini səciyyələndirən sərgi düzəldilməlidir.
5. Görüşlər təşkil olunmalıdır.
6. Peşə məktəb məzunları, qabaqcıl əmək adamları, əmək qəhrəmanları ilə, qabaqcıl müəllim və alimlərlə, sənət adamları ilə görüşlər təşkil olunmalıdır.
7. Peşə komissiyaları təşkil olunmalıdır

Komissiyanın işində müvafiq mütəxəssislər iştirak etməlidirlər. Bildiyimiz kimi, latın sözü olan professio–sözündən götürülərək–ixtisas, peşə deməkdir. Peşə-əmək fəaliyyəti növü olmaqla insanın bilik, bacarıq və vərdişlərlə müəyyən fəaliyyət sahəsinə hazırlığı prosesidir. Peşə insan cəmiyyətində yaranmışdır. Texniki tərəqqinin inkişafından asılı olaraq peşələrin xarakteri dəyişmişdir. Peşə psixologiyasının görkəmli tədqiqatçısı **prof. E.A.Klimov peşələri insan əməyinin predmeti olmaqla 5 tipə bölür:**

1. “İnsan – insan ” – əmək predmeti insandır (məs: müəllim, həkim və s.)
2. “İnsan — texnika”- əməyin predmeti maşın, dəzgah, apparat, alət və s (məs: traktorist-mexanizator, elektrovoz maşinisti və s.)
3. “İnsan-təbiət”– əməyin predmeti torpaq, su, heyvan (geoloq, çöl işçisi, heyvandar, zootexnik və s.)
4. “İnsan–tanış sistem”-predmeti şərti işarələri, formullar, söz (məsələn: mühasib, korrektor, proqramçı, stenoqrafist, makinaçı və s.)
5. “İnsan–bədii obraz”. Əməyin predmeti–bədii obraz, obrazın elementləri (məs: zərgər, suvaqçı,aktyor, rəssam)

Göstərilən tiplər də özlüyündə yarım tiplərə bölünür. Şagirdlərin peşə seçimini müxtəlif metodların tətbiqi vasitəsilə öyrənirlər. Həmin metodlara aşağıdakılar daxildir:

1. Müşahidə
2. Sənədlərin təhlili
3. Praktik əməyin təhlili (məktəb, ictimai rəy)
4. Anketləşdirmə
5. Söhbət-intervyu
6. Pedoqoji eksperiment–təbii müşahidə, söhbət, formalaşdırıcı və öyrədici eksperiment metodlarından istifadə olunur.

Psixoloqlar **peşə seçmənin** bir sıra komponentlərini (ünsürlərini) də müəyyən etmişlər:

1. Peşə maarifləndirmə işi sistemli halda aparılmalıdır. Peşələr haqqında, onun əhəmiyyəti, cəmiyyətdə yeri, xeyri, əraziyə yaxınlığı və s. izah olunmalıdır.
2. Peşə məsləhəti – mühüm komponent kimi diqqəti cəlb edir. Peşə istiqaməti, maraqları formalaşır. Peşə məsləhəti–məlumatlı, pedaqoji-psixoloji xarakteri, şəraitin yaradılması, peşənin insanın ürəyincə olması və s. amillər peşəyə adaptasiyanı stimullaşdırır.

Beləliklə, böyük məktəblilərin peşə seçmələrinə diqqət və qayğı göstərmək, onları bu istiqamətdə hazırlamaq zəruridir.